H.T.MUSTAFAYEVA

# SOSİOLOGİYA

SOSİOLOGİYA

SOSİOLOGİYA



AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ

1930

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**H.T.MUSTAFAYEVA**

# S O S İ O L O G İ Y A

*Dərs vəsaiti*

Azərbaycan Dövlət İqtisad Universitetinin Elmi-Metodiki Şurasının 12 iyun 2018-ci il tarixli 04 saylı protokolunun qərarı ilə çapa tövsiyə edilib.

**BAKI-2018**

**Elmi redaktor:** fəlsəfə üzrə elmlər doktoru,
professor **Z.İ.Məmmədov**

**Rəyçilər:** tarix üzrə elmlər doktoru,
professor **V.S.Həsənov**

fəlsəfə üzrə fəlsəfə doktoru,
dosent **F.Q.Vahidov**

Mustafayeva H.T. Sosiologiya. Ali məktəblər üçün dərs vəsaiti.
Bakı: "İqtisad Universiteti" Nəşriyyatı- 2018. - 182 səh.

Dərs vəsaitində sosiologiyanın bir sıra aktual və mühüm problemləri araşdırılmış, müasir nəzəri və tətbiqi tədqiqatların nəticələri öz əksini tapmışdır. Vəsait ali məktəb tələbələri, habelə sosiologiya elminin problemlərinə maraq göstərən şəxslər üçün nəzərdə tutulmuşdur.

© Mustafayeva H.T. - 2018
"İqtisad Universiteti" Nəşriyyatı – 2018

# GİRİŞ

Hazırda əksər dünya ölkələrində gərginlik məqamları getdikcə artır, sosial-iqtisadi böhran və xarici müdaxilə zəminində humanitar fəlakət güclənir. Ciddi dəyişikliklər baş verir, müxtəlif ölkələrin, regionların real mənzərəsində yeni xüsusiyyətlər meydana çıxır. Təbiidir ki, həmin dəyişikliklərin gələcəkdə də davam etməsi istisna olunmur. Qlobal miqyasda aydın müşahidə edilən mənfi mənzərə fonunda ölkəmizin sosial-iqtisadi, siyasi və mənəvi-intellektual sahələrdə qazandıgı nailiyyətlər diqqətəlayiqdir.

Respublikamızın ugurlarının əsasında mövcud reallıqların elmi təhlilinə istinad edən, Azərbaycan xalqının maraqlarını hərtərəfli nəzərə alan, davamlı inkişafa istiqamətlənən ədalətli siyasətin işlənib hazırlanması və reallaşdırılması dayanır. Təsadüfü deyildir ki, nüfuzlu reytinq agentlikləri dəfələrlə respublikamızın sabit və getdikcə yüksələn reytinqini təsdiqləmişlər. Bunu inkişafımızın mühüm yekunu və nailiyyəti kimi dəyərləndirmək olar. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev qeyd etmişdir ki, «beynəlxalq hüquq baxımından biz gənc dövlətik. Bu gün artıq bütün bəşəriyyət, bütün xalqlar və millətlər bilirlər ki, mədəniyyət, elm və təhsil insanların ən böyük mənəvi dəyərləri olaraq sabit inkişafı təmin edən mühüm amillərdən biridir. Qlobal dəyişikliklər baş verən bir dövrdə biz bütün səylərimizi bu böyük sərvətin qorunub saxlanılmasına sərf etməliyik. Məhz belə yüksək intellektual potensialı olan bir ölkədə qüdrətli vətəndaş cəmiyyəti yarana bilər»[1].

[1] Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Yeni 2001-ci il, yeni əsr və üçüncü

Ulu öndərin işləyib hazırladıgı siyasi xətti yaradıcılıqla və məharətlə reallaşdıran Prezident İlham Əliyev Azərbaycanın inkişafı və bütün dünyada tanınması istiqamətində ciddi uğurlar qazanılmasını təmin edir. O, keçirdiyi müşavirələrin birində həmin uğurları yığcam şəkildə belə səciyyələndirmişdir: «Ölkədə sabitlik daha da güclənir. Bizimlə əməkdaşlıq edənlərin sayı gündən-günə artır. Azərbaycan beynəlxalq birliyin dəyərli, böyük hörmətə malik bir üzvüdür. Ölkədə proseslər müsbət istiqamətdə gedir. Xalq bizim siyasətimizi dəstəkləyir»[2].

Ölkəmizin öz nailiyyətlərini artırması ciddi elmi əsaslara istinad edir. Deməli, müxtəlif bilik sahələri, o cümlədən də sosiologiya daha sürətli və davamlı istiqamətində öz səylərini artırmalıdır. Respublikamızda qərarlaşmış mənəvi-intellektual mühitin göstəriciləri belə deməyə əsas verir ki, sosiologiyanın inkişafı üçün, onun daha sanballı nəticələr əldə etməsi və gənclərin elmi dünyagörüşünün formalaşmasının zəruri ünsürünə çevrilməsi üçün artıq yetərli potensial mövcuddur. Belə potensialı aydın təsəvvür etmək baxımından aşağıdakı məqamların əhəmiyyəti xüsusi vurğulanmalıdır.

Əvvəla, ötən əsrin 60-70-ci illərində Azərbaycanda sosiologiyanın sosial-siyasi elmlər sistemində öz layiqli yerini tutması istiqamətində səylər daha ciddi şəkildə fəallaşmışdır. Sosiologiyaya dair müəyyən əsərlərin nəşr olunması, bəzi təşkilat və müəssisələrdə sosioloji tədqiqat qruplarının yaradılması, ictimai elmlərin ifrat ideoloji mövqelərdən uzaqlaşmağa və dünya elminə inteqrasiyaya səy göstərməsi fəallaşmanın aydın görünən təzahürləri idi.

---

minillik münasibəti ilə Azərbaycan xalqına müraciəti. Bakı: Bakı Universiteti nəşriyyatı, 2001, 127 s.

[2] «Azərbaycan» qəzeti 9 sentyabr 2015-ci il, № 196 (7050)

İkincisi, SSRİ-nin iflası və məlum dəyişikliklər zəminində respublikamızın müstəqillik əldə etməsi, dövlətçilik ənənələrinin bərpası və möhkəmləndirilməsi, milli mədəni dəyərlərin rolunun artması, demokratik inkişaf yolunun seçilməsi və s. – bütün bunlar sosiologiyanın inkişafı üçün yeni stimulların və imkanların yaranması demək idi.

Üçüncüsü, sosiologiya ali məktəblərdə tədris olunan ictimai elmlər sırasında öz yerini taparaq, geniş şəkildə tədris və elmi araşdırma aparmaq imkanı qazanmışdır. Müasir nəzəriyyə zəminində sosioloji biliyin əsaslarının tədrisi əslində sosiologiyanın zənginliyini aşkar surətdə nümayiş etdirmək, tələbə gənclərin dünyagörüşü prinsiplərini elmi əsaslarda formalaşmasına fəal surətdə yardım göstərmək baxımından çox əhəmiyyətli məsələdir.

Dördüncüsü, respublikanın bir sıra ali məktəblərində, ilk növbədə Bakı Dövlət Universitetində sosioloq kadrların hazırlanmasına başlanılmışdır. Bu, artıq yetərincə etiraf olunmalı irəliləyiş demək idi. Gənc mütəxəssislərin hazırlanması, əlbəttə, problemsiz və asan bir proses deyildir: bu, özünəməxsus problemləri olan, kifayət qədər mürəkkəb və ziddiyyətli prosesdir. Mürəkkəbliyi gücləndirən bir amil də kadrların təkcə bakalavriat səviyyəsində yox, həm də magistratura pilləsində hazırlanması, başqa sözlə, tələbkarlıgın və məsuliyyətin artmasıdır. Magistraturada ixtisaslaşmanın geniş diapazonlu olması, yəni şaxələnməsi artıq sosiologiya elminə yeni tələblərin verilməsi deməkdir. Bu sahədə bəzi problemlər olsa da, bütövlükdə həm bakalavriat, həm də magistratura səviyyəsində kadrların hazırlanması uğurla davam edir.

Beləliklə, 90-cı illərin əvvəllərində məlum səbəblər üzündən müəyyən problemlər ortaya çıxsa da, ölkəmizdə sosiologiyanın inkişafı üçün əlverişli əsasın, münasib potensialın olması real faktdır. Ona görə də mövcud potensialı daha da zəngin-

ləşdirmək və reallaşdırmaq üçün ciddi elmi-nəzəri və empirik axtarışların aparılmasına ehtiyac vardır. Güman edirik ki, hazırkı dərs vəsaiti həmin istiqamətdə atılan addımlardan biri hesab oluna bilər.

Dərs vəsaiti Azərbaycan Dövlət İqtisad Universitetinin Sosiologiya üzrə mövcud proqramına uyğun şəkildə hazırlanmışdır. Aydın məsələdir ki, Sosiologiya həyatın, gerçəkliyin özü qədər çoxcəhətlidir. Bu o deməkdir ki, həyatımızın bütün problemlərini tam şəkildə bir dərs vəsaitində əks etdirmək mümkün deyildir. Lakin Sosiologiyanın inkişafında fundamental istiqamət ayrı-ayrı sosial hadisə və proseslərin mahiyyətini açmağa səy göstərən nəzəriyyələrin fasiləsiz yeniləşməsi zəminində daha da zənginləşərək, müxtəlif ifratçılıqdan çəkinməyə, konyunktur mülahizələrdən uzaq olmağa kömək edir. Nəticədə dünyanın, müxtəlif inkişaf səviyyəsində olan cəmiyyətlərin müasir vəziyyətinə daha dərindən nüfuz etmək imkanı yaranır. Bu imkanın gerçəkləşdirilməsi gənclərin mənəvi-idraki fəallığından çox asılıdır. Dahi mütəfəkkir şair Nizami Gəncəvi yaxşı demişdir ki:

Elmlə, biliklə, başqa cür heç kəs
Hər kəsə üstünlük eyləyə bilməz.

Zənnimizcə, kitabın hər oxucusunun onun barəsində müəyyən iradları, təklifləri ola bilər. Ona görə də oxuculardan xahiş olunur ki, dərs vəsaiti haqqında öz mülahizələrini yazılı şəkildə Azərbaycan Dövlət İqtisad Universitetinin Humanitar fənlər kafedrasına təqdim etsinlər.

İrəlicədən təşəkkürümü bildirirəm.

# MÖVZU 1
# SOSİOLOGİYA SOSİAL-HUMANİTAR BİLİK SİSTEMİNDƏ NƏZƏRİ-TƏTBİQİ ELM KİMİ

1. **Sosiologiyanın predmet sahəsi**
2. **Sosiologiya elminin quruluşu, funksiyaları və üsulları**

## 1. Sosiologiyanın predmet sahəsi

Sözün geniş mənasında, sosiologiya insan həyatının ictimai quruluşu, insan kollektivlərinin təbiəti və müxtəlif təzahürləri haqqında biliklər sistemidir. Dar mənada, söhbət sosial münasibətlərin strukturu, sosial qarşılıqlı təsir prosesləri, qrup davranışının təhlili ilə məşğul olan elmdən gedir.

Avropa və rus alimlərinin baxışlarında sosiologiya:

• sözün geniş mənasında, mədəniyyət amilləri haqqında elmdir (Y.V. de Roberti);

• insan cəmiyyətlərinin nizamı və tərəqqisi haqqında elmdir (M.M.Kovalevski);

• cəmiyyətdə yaşayan insanların həyat və fəaliyyətini və birgə fəaliyyətin nəticələrini araşdıran elmdir (P.A.Sorokin);

• insan, qrup və cəmiyyətlərin sosial həyatı haqqında elmdir (E.Qiddens);

• sosial hərəkətlər və kütləvi davranış qanunauyğunluqları haqqında elmdir (V.A.Yadov).

Bu baxışlardan məlum olur ki, sosial-humanitar biliyin müstəqil sahəsi kimi sosiologiya bütün sosial proses və hadisələri qarşılıqlı əlaqə və qarşılıqlı təsirlərdə təhlil edərək ictimai həyatın makro- və mikrosistem formalarının, fərdi, qrup və kütləvi davranış, insanlar arasında şəxsiyyətlərarası təsirlər proseslərinin fundamental inkişaf problemlərini həll edir.

Bütün elmlər üçün səciyyəvi olan ümumi metodologiya ilə yanaşı, sosiologiya öz xüsusi idrak metodlarından, xüsusi olaraq işlənmiş alətlərdən və informasiya əldə etmə mənbələrindən (sorğu, müsahibə, anketləşdirmə, müşahidə, eksperiment və b.) yararlanır.

Sosiologiyanın cəmiyyətin fəaliyyət qanunauyğunluqları və mexanizmləri haqqında topladığı biliklər sosial siyasətin işlənib hazırlanması, şəxsiyyətlərarası və qruplararası münasibətlərin tənzimlənməsində, insanın iqtisadi, siyasi və hüquqi davranışına təsirdə geniş istifadə olunur.

Bu mənada ictimai rəyin öyrənilməsi - insanların baxışlarının, dəyərlərinin, təhsil, ailə, sağlamlıq, narkomanlıq və alkoqolizm təhlükəsinin artmasının və s. sosial problemləri haqqında təsəvvürlərinin dəyişməsinin araşdırılması böyük rol oynayır.

Bu zaman sosiologiya təkcə ictimai inkişaf tendensiyaları aşkar edib təsvir etmir, həm də onları izah və şərh edir, bu və ya digər problemlərin praktiki həll variantlarını təklif edir, bununla da təbiət və tarixin çağırışlarına cavab verir.

XX əsrin 20-ci illərindən sosiologiyada geniş ixtisaslaşma gedir. Bu gün o, 40-dan çox sahəni özündə birləşdirir. Bu, ailə, şəhər, hüquq, tibb, təhsil, əmək, qəza, elm, din, sahibkarlıq, idarəetmə sosiologiyası və b.-dır. Həmçinin hər bir sahədə sosiologiyanın daxilində öyrənilən hadisə və proseslərin dairəsi də genişlənir.

Ona diqqəti yönəltmək lazımdır ki, sosiologiyanın rolu tarixi dönüş adlanan dövrlərdə dəfələrlə artır. Bu keçid cəmiyyəti həyatının bütün tərəflərini (iqtisadiyyat, siyasət, sosial institutlar, dəyərlər sistemi, vətəndaşların gündəlik həyatı) kökündən dəyişir. Belə dərin sosial-iqtisadi dəyişikliklər insanlara təsir etməyə, onları anomiya vəziyyətində saxlaya bilməz.

Bu şəraitdə sosioloqlar qarşısında birincisi, cəmiyyətdə baş verən bu transformasiyaları müxtəlif nəzəri-metodoloji ya-

naşmalar bucağında dərk etmək, ikincisi, "yüksək nəzəriyyə" ilə gündəlik sosial praktika arasında maksimal adekvat əlaqəni tapmaq kimi iki əsas məsələ durur.

İstənilən müstəqil bilik sahəsi kimi, sosiologiyanın da dəqiq təriflər və konsepsiya sistemi mövcuddur. Onun öz obyekti və predmeti, öz metod və funksiyaları var.

Sirr deyil ki, sosiologiya ilə yanaşı, cəmiyyət, insan, mədəniyyət, tarix, iqtisadiyyat, psixologiya, demoqrafiya, kulturologiya, etnoqrafiya kimi başqa ictimai fənlər tərəfindən də öyrənilir. Faktiki olaraq, bütün bu elmlərin bir böyük və mürəkkəb obyekti var. Bu, insan cəmiyyətidir. Amma onların predmeti müxtəlifdir - hər kəs obyektdə məhz ona maraqlı olan xarakteristikaları, aspektləri, xüsusiyyətləri, əlamətləri ayırır. Sosioloji bilik ictimai həyatın iqtisadi, siyasi, hüquqi, mənəvi sferalarının fəaliyyəti və inkişafı haqqında təsəvvürlərin qarşılıqlı əlaqəsini özünə daxil etsə də, sosioloq heç də iqtisadçını, politoloqu, hüquqşünası və ya etiki təkrarlamır. Onda onun bu sferalarda olan proseslərə öz baxış bucağı var. O, öz kateqoriyaları ilə əməliyyat aparır və xüsusi idrak alət və metodlarından yararlanır.

Bununla əlaqədar sosioloji metodologiyanın əsası sosioloji elmin tanınmış klassikləri olan O.Kant, E.Dürkheym, Q.Spenser, T.Parsons, M.Veber, K.Marks, V.Pareto, P.Sorokin tərəfindən qoyulmuşdur.

Sosioloji metodun ən əhəmiyyətli xüsusiyyəti konkret situasiyanın konkret sosioloji tədqiqatın köməyi ilə təhlilindən ibarətdir. Bu zaman öyrəndiyi ictimai həyatın sahəsindən asılı olmayaraq sosioloq məhz problemli situasiyanı üzə çıxarmaqdan başlayır. Hər şeydən əvvəl, onun ümumi qısa ifadəsi verilir, sonra o, dəqiqləşdirilir və konkretləşdirilir.

Belə ki, məsələn, ailə sosiologiyası çərçivəsində problemli situasiyalardan biri uşaq dünyaya gətirməyə yönümlü-

lüklə bağlıdır. Bu sahədə sosioloq ümumi tendensiyanın təyinindən bir sıra başqa məsələlərə keçid edir: bu, bu və ya digər sosial təbəqəyə məxsus olmaqdan asılıdırmı; şəhər sakinləri ilə kənd sakinləri arasında fərq varmı; uşaq dünyaya gətirmək üçün ailənin gəliri, valideynlərin milliyyəti, ölkədə yaranmış iqtisadi vəziyyət və s.təsir edirmi?

Problemin son ifadəsindən asılı olaraq tədqiqat obyekti, yəni problemli situasiyanı doğuran və idrak prosesinin yönəldiyi obyekt seçilir. Göstərilən misalda bu, fertil (yəni uşaq dünyaya gətirmək imkanı) yaşlı ər-arvad, daha dəqiq desək, onların uşaq dünyaya gətirməyə münasibətidir.

Lakin konkret olaraq bütövlükdə obyekt yox, onun tədqiqat problemi nöqteyi-nəzərindən ən əhəmiyyətli xassə və xüsusiyyətləri öyrənilir ki, elə bu da tədqiqatın obyektidir. Bu halda predmet kimi ər-arvadın qərarına təsir edən aşkar edilmiş sosial amillər və şəxsi xüsusiyyətləri çıxış edir.

Beləliklə, sosiologiyanın öyrəndiyi obyekt sosial sistem olaraq cəmiyyət, onun altsistemləri, sosial hadisə və proseslər, həmçinin insanların birgə həyat problemləridir. Sosiologiyanın predmeti - elmi maraqlar və xüsusiyyətin, xüsusiyyətin və sosial reallığın qanunauyğunluğunun insan təcrübəsinin ehtiyacları nöqteyi-nəzərindən əhəmiyyətlidir.

Sosiologiyanın predmetini sosial reallığın elmi maraq və insan praktikası nöqteyi-nəzərdən əhəmiyyətli və sistem halına gətirilmiş, məntiqi olaraq bir-birindən hasil olan cəhətləri, xassə və qanunauyğunluqları təşkil edir.

Sosioloqların irəli sürdükləri praktiki tövsiyələr hansı sosial amillər qrupuna aid olmasından asılır olaraq obyektiv və subyektiv xarakterli olur. Birincilər insan fəaliyyətinin şəraitinə aiddir (cəmiyyətin sosial strukuru, siyasi quruluş, əmək şəraiti, habelə insanın belə şəraitdə real davranışı). Bu halda praktiki tövsiyələr bu və ya digər sosial amillərin mümkün inkişaf

tendensiyaları haqqında konkret informasiyaya əsaslanır. İkinciyə subyektiv aspektli hadisələr qrupu (məqsədlər, motivlər, maraqlar, dəyərlər, ictimai rəy və s.) daxildir. Onların (öyrənilən) cəmiyyət qrupları və təşkilatlarının norma və dəyərləri ilə qarşılıqlı əlaqələrini üzə çıxarmaqla, sapma dərəcəsini müəyyən etmək, bunun da əsasında şəxsiyyətlərarası, qruplararası və başqa münasibətlərin təkmilləşdirilməsi vasitələrini işləyib hazırlamaq imkanı yaranır.

Cəmiyyətdə zorakılıq və cinayət, sosial və milli münaqişələr kimi problemlərin həllində, başqa həyat və düşüncə tərzlərinə dözümlülüyün formalaşdırılmasında sosiologiyanın iştirakı xüsusi əhəmiyyət kəsb edir. Ekoloji fəlakətlərin və texnogen qəzaların artması ilə əlaqədar belə hadisələrin sosial və sosial-siyasi nəticələri haqqında biliyin əldə edilməsi və təbii fəlakətlər situasiyasında insanların davranışını nəzərə alan səmərəli tədbirlərin hazırlanmasında sosiologiyanın idarəetmə funksiyasının aktuallığı daha da artır.

Sosiologiya elə məsələləri həll edir ki, onlar cəmiyyət həyatının yaxşılaşdırılmasına bəlkə də səbəb olmur, amma ən azı müxtəlif ictimai problemlərin səbəblərini göstərir.

İstənilən elmdə biliklərin yığılıb toplanması müəyyən şəkildə cərəyan edir və özünəməxsus struktura malik olur. Sosiologiyaya gəldikdə isə bu struktur aşağıdakıları əks etdirir:

- birincisi, sosial həyatın mürəkkəbliyi, çoxtərəfliliyi, sosial proseslərin müxtəlif səviyyələrdə müxtəlifliyi, onların çoxamilliliyini;

- ikincisi, bu elmin ictimai təyininin, yəni onun funksiya və vəzifələrinin spesifikasını.

Sosiologiyanın strukturunun nəzərdən keçirilməsi zamanı hamı tərəfindən qəbul edilmiş yanaşmalardan biri onun nəzəri və tətbiqi sosiologiyaya ayırılmasıdır.

Nəzəri sosiologiya sosial gerçəkliyin izahına, cəmiyyətin ümumi və spesifik inkişaf qanun və qanunauyğunluqlarının, bu qanunların ictimai həyatın müxtəlif sahələrində təzahür və mexanizmlərinin müəyyən edilməsinə yönələn sosioloji tədqiqatların məcmusudur. Onun çərçivələrində sosial gerçəklik haqqında biliklərin formalaşması, sosial inkişaf proseslərinin izahı və dərki, sosioloji tədqiqatların konseptual aparatının və metodlarının işlənməsi ilə bağlı olan elmi problemlər həll olunur. Bu sahədə işlənən konsepsiyalar iki suala cavab verir: "Nə dərk olunur?" (obyekt) və "Necə dərk olunur?" (metod). Məcmu şəkildə bunlar nəzəri, fundamental sosiologiyanı formalaşdırır.

Tətbiqi sosiologiya sosial gerçəkliyin dəyişdirilməsi, sosial sistemlərə və onlarda cərəyan edən proseslərə məqsədyönlü və planlı təsir yolları və vasitələrinin təhlili ilə bağlı olan məsələləri həll edir. Bu, kəşf olunmuş sosial qanun və qanunauyğunluqlardan sosial problemlərin həlli üçün istifadə edilməsinə, sosial eksperimentlərin aparılmasına və sosial inkişaf planlarının işlənməsinə yönələn sosioloji tədqiqatların məcmusudur.

Nəzəri və tətbiqi sosiologiya bir-birindən obyekt və ya tədqiqat metodu ilə deyil, öz qarşılarına qoyduqları hədəflərə görə fərqlənirlər. Sosioloji biliyin fundamental (nəzəri) tətbiqi sahələrə bölgüsü kifayət qədər şərtidir, çünki hər ikisi həm elmi, həm də praktik məsələlərin həllinə birbaşa və ya dolayısı müəyyən töhfə verir.

Bütövlükdə sosiologiyanın strukturu aşağıdakı kimi təsvir edilə bilər:

1. sosiologiyanın metodoloji və nəzəri əsasları, onun inkişaf tarixi;
2. müxtəlif səviyyəli sosial sistemlərinin fəaliyyət və inkişafının ümumi nəzəriyyələri;
3. xüsusi və empirik sosioloji nəzəriyyələr;
4. sosioloji tədqiqatların nəzəriyyə və metodları.

Tədqiq edilən sosial proseslərin və sistemlərin miqyasından asılı olaraq mikro- və makrososiologiya bir-birindən fərqləndirilir.

Mikrososiologiya insanların bir-biri ilə qarşılıqlı təsirlər situasiyasında gündəlik davranışı ilə bağlı olan mikroprosesləri tədqiq edir.

Makrososiologiya siyasi quruluşu iqtisadi nizam kimi genişmiqyaslı sistemləri araşdırır, tarixən uzunmüddətli prosesləri, məsələn, təhsilin, sənayenin və s.-n inkişafını təhlil edir.

Mikro- və makrososiologiyaya bölgü də kifayət qədər şərtidir. Axı qlobal sosial prosesləri şəxsiyyətlərararası, qruplararası qarşılıqlı təsirlərdən kənarda nəzərdən keçirmək olmaz.

Beləliklə, "sosial" və "sosiallıq" anlayışları, sosial əlaqələr və qarşılıqlı təsirlər, onların struktur-funksional təşkili üsulu sosiologiyanın predmetinin xüsusiyyətlərinin, onun digər ictimai elmlərin predmetindən fərqlərinin üzə çıxarılması üçün bazadır.

*Sosiologiyanın* metoduna gəlincə, o, ümumelmi, idraki prinsipləri özünə daxil edir, əldə edilmiş biliyin etibarlılığı və mötəbərliyini təmin edən ümumelmi metodologiyanın bütün zənginliyinə söykənir. Öz idraki fəaliyyətində sosiologiya başqa ictimai və humanitar elmlərin anlayışlar aparatından, qanun və kateqoriyalarından istifadə edir. Eyni zamanda, predmetin xüsusiyyətini nəzərə alaraq, sosiologiya öz sosioloji metodologiyasını işləyir ki, onun da mühüm tərkib hissəsini sosioloji tədqiqatın metodları, metodikası və texnikası təşkil edir.

Hər bir elmin özünün tədqiqat hədəfli predmet sahəsi vardır ki, bu da müəyyən elmi sahənin yaranması zamanı formalaşır. Sosiologiya elm sistemində yeri müəyyənləşdikdən sonra belə dövrümüzə qədər formalaşmaqda davam edən bir elm sahəsidir. Bu gün humanitar, təbii və texniki elmləri ayırmaq qəbul olunmuşdur. Onları ayıran sərhəd nisbi xarakter daşıyır, çünki elə elmlər vardır ki, onu bu və ya digər qrupa aid

etmək çətidnir. Onlar arasında – psixologiya, ekologiya, əməyin mühafizəsi və s. var. Sosiologiya haqqında isə demək olar ki, o sosial-humanitar elmdir və onun obyekti müasir cəmiyyətdir. Bununla yanaşı, o təbii və texniki elmlərlə bir çox yaxınlığa malikdir. Birincisi, bütün elmlər ümumi şəkildə, daha adekvat, obyektiv olaraq tədqiq olunan obyektdəki dərin, fitri prosesləri əks etdirir. İkincisi, onlar ümumi metodologiyaya sahibdirlər. Üçüncüsü, sosiologiya digər elmlər, o cümlədən təbiət və texniki elmlər kimi riyazi üsulları, modelləşməni, təcrübəni istifadə edir. Dördüncüsü, bir çox elmlər, xüsusən texniki elmlər kimi, tətbiqi xarakter daşıyır və praktikaya çıxışı vardır.

***Elmin obyekti*** – reallığın sərhədlərindən kənarda olan, əks olunan, konkret elm tərəfindən tədqiq olunan müəyyən bir hissəsidir. Predmet – elmin məzmunu, onun əsas vəziyyəti, obyekti əks etdirən kateqoriya və qanunlar sistemidir. Bununla bərabər *sosiologiyanın obyekti* dedikdə bütövlükdə cəmiyyət və ictimai əlamətlər, onların funksiyası və inkişafı nəzərdə tutulur.

***Sosiologiyanın predmeti*** isə sosial reallığın konseptual (yəni mahiyyətli) sxemidir və bu sistemdə onun əsas xüsusiyyət və elementləri sistemləşdirilmişdir və məntiqi olaraq bir-birindən çıxarılır. Müasir sosiologiyanın predmeti – uzunmüddətli tarixi inkişafın nəticəsidir, hər biri yeni elmi prinsiplər gətirmiş bir sıra alim nəslinin zəhmətinin məhsuludur. Sosiologiyanın predmetinin ilkin səbəbləri iki anlayışdır – status və rol. Birinci cəmiyyətin statik, ikinci isə dinamik təsvirini verir.

Cəmiyyət, ictimai hadisələr digər humanitar elmlər tərəfindən də öyrənilir: sosial fəlsəfə, iqtisadiyyat, politologiya, kulturologiya və s. Digər humanitar elmlərdən fərqli olaraq, sosiologiya və sosial fəlsəfəni yaxınlaşdıran cəhət cəmiyyəti bütünlüklə ələ almalarıdır. Eyni zamanda sosial fəlsəfədən fərqli olaraq sosiologiya empirik elmdir. Sosiologiya ilk olaraq, insanların həyatını, onların tələbat və maraqlarını, fikirlərini

öyrənir; ikincisi, cəmiyyəti və ictimai hadisələri sosial qruplar arasındakı münasibətlər aspektindən, insanların münasibətlərini isə şəxsiyyət olaraq ələ alır; üçüncüsü, empirik dərəcəyə malikdir, tətbiqi empirik tədqiqatları özündə ehtiva edir.

Sosiologiya bütövlükdə cəmiyyət və sosial münasibətlərdən əlavə bütün ictimai hadisələri, iqtisadi, siyasi, mənəvi, əmək, məişət və digər münasibətləri öyrənir və sosial aspektdə, insanın həyat fəaliyyəti aspektində analiz edə bilir. İnsan – ictimai sistemin əsas zənciridir və sosial aspekt cəmiyyətin bütün hal və sahələrində mövcuddur. Buradan çıxış edərək, bildirmək olar ki, sosiologiya cəmiyyətin fəaliyyət və inkişaf qanunauyğunluqlarını, sosial münasibətlər, qarşılıqlı əlaqələr prizmasından yanaşılan ictimai hadisələri öyrənən elmdir.

Sosiologiyanın obyektləri bunlardır: mikroqrup (ailə, ilkin təhsil və əmək kollektivi, qeyri-rəsmi qrup, yəni dostlar və yoldaşlar); makroqrup (şəhər, işçi qəsəbəsi, kənd əhalisi, iri təşkilatın və birliyin kollektivi); ictimaiyyət (fəhlələr, kəndlilər, sahibkarlar, şəhər əhalisi) və nəhayət, cəmiyyət. Obyektin öyrənilməsi üçün müvafiq olaraq, davranış, hərəkət, tendensiya və qanunauyğunluqlar öyrənilir. Fərdi davranışlardan sosial hərəkətlərə, onlardan sosial proseslərə doğru istiqamətlənən zaman davranışların müxtəlifliyinin azalması, fəaliyyət variantlarının qısalmasını müşahidə etmək və tendensiyaları, qanunauyğunluqları aşkarlamaq mümkündür.

Sosiologiyanın predmetinin J.T.Toşşenko tərəfindən dəqiq tərifi verilmişdir; sosiologiyanın predmeti elm olaraq ehtiva edir: özünün ziddiyyətli inkişafı fonunda real ictimai şüur; insanların fəaliyyəti və biliklərin, quruluşların, dəyər istiqamətlərinin, tələbatların və maraqların predmet olaraq göründüyü (forma və məzmuna görə) və canlı şüurda qeydə alınan həqiqi davranışları: sosiologiyanın özü isə şüurun hərəkətverici qüv-

vəsi və insanların vətəndaş cəmiyyətinin üzvləri olaraq davranışları haqqında elmdir.

Sosiologiyanın metoduna gəlincə, o, ümumelmi, idraki prinsipləri özünə daxil edir, əldə edilmiş biliyin etibarlılığı və mötəbərliyini təmin edən ümumelmi metodologiyanın bütün zənginliyinə söykənir. Öz idraki fəaliyyətində sosiologiya başqa ictimai və humanitar elmlərin anlayışlar aparatından, qanun və kateqoriyalarından istifadə edir. Eyni zamanda, predmetin xüsusiyyətini nəzərə alaraq, sosiologiya öz sosioloji metodologiyasını işləyir ki, onun da mühüm tərkib hissəsini sosioloji tədqiqatın metodları, metodikası və texnikası təşkil edir.

## 2. Sosiologiya elminin quruluşu, funksiyaları və üsulları

Sosioloji bilik birtəbiətli deyildir və özünün mürəkkəb, çoxpilləli quruluşu vardır və bu quruluş rakurs müxtəlifliyi və sosial hadisələrin, proseslərin öyrənilmə səviyyəsi ilə şərtlənir. Misal olaraq, sosiologiya bu hadisə və prosesləri həm bütövlükdə cəmiyyət səviyyəsində, həm nisbətən geniş sosial toplum və onların münasibəti səviyyəsində, həm də şəxsi və şəxsiyyətlərarası münasibətlər səviyyəsində tədqiq edir. Bu, özlüyündə sosiologiyanı aşağıdakı əsas hissələrə bölməyə imkan verir:

a) **Ümumi sosioloji nəzəriyyə**. Makrososial tədqiqat olub, cəmiyyətin funksional və inkişaf qanunauyğunluqlarını araşdırır.

b) **Orta səviyyəli sosiologiya** sosial sistemin ayrı-ayrı struktur hissələrinin qarşılıqlı fəaliyyət qanunauyğunluqlarının, xüsusi sosial nəzəriyyələrin (məsələn, sosial qrupların sosiologiyası, şəhərin, kəndin sosiologiyası, etnososiologiya, iqtisadi sosiologiya, təhsil sosiologiyası, siyasi sosiologiya, hüquq sosiologiyası, təbliğat sosiologiyası, ailə sosiologiyası, mədəniyyət sosiologiyası, əmək sosiologiyası və s.)

öyrənilməsinə istiqamətlənmiş kiçik cəmiyyət formasını tədqiq edir.

c) **Mikrososiologiya** sosial halları və insanların davranışlarını öyrənir. Bu strukturda ümumi, xüsusi və fərdi münasibətlər ön plandadır.

Əldə olunan biliklərdən asılı olaraq, sosial tədqiqatlar nəzəri və empirik qisimlərə bölünürlər. Nəzəri sosioloji tədqiqat üçün sosial həyat sahəsində toplanmış faktiki materialın dərindən ümumiləşdirilməsi həlledici əhəmiyyət kəsb edir. Empirik sosial tədqiqatların mərkəzində göstərilmiş sahədə faktiki materialların (bilavasitə müşahidə, sorğu, sənədlərin analizi, statistika məlumatları və s. əsasında) yığımı və ümumiləşdirmənin ilk mərhələsi də daxil olmaqla onun ilkin işlənməsi dayanır.

Sosial biliklər nəzəriyyə və təcrübəni özündə birləşdirir. Nəzəri tədqiqatlar onun fəaliyyət və inkişafının ümumi və xüsusi tendensiyaları müstəvisində sosial reallığı izah edir. Bununla da, nəzəri və tətbiqi sosiologiya konkret sosial tədqiqatlar üzərində dayanaraq, bir-birinə zidd olmur, əksinə vəhdət halında daha da zəngin olur.

***Nəzəri sosiologiya.*** Çoxsaylı konsepsiyaların məcmusu olub, cəmiyyətin sosial inkişafının aspektlərini tərtib edir və onlara interpretasiya verir. Sosial inkişafın müxtəlif aspektlərinin daha dərin araşdırılması üçün xüsusi sosial nəzəriyyələr və ya orta səviyyəli sosial nəzəriyyələr tətbiq olunur. Xüsusi sosial nəzəriyyələr sosial biliklərin ayrıca sahəsi olub, nisbətən sərbəst, ümumi ictimai spesifik altsistemlər və sosial prosesləri tədqiqatın predmeti olaraq seçir. Orta səviyyəli nəzəriyyələr müstəqil nəzəri altsistem olaraq ilk növbədə, bütövlükdə ictimai sistemlə predmet sahələrinin (əmək, ailə, siyasət, sosial qrup, təbəqə və s.) obyektiv əlaqəsini qurmaqla; ikincisi isə predmet sahəsi üçün spesifik olan daxili əlaqə və qanunayğunluqları müəyyənləşdirməklə mükəlləfdir. Bunun nəticəsində

sosioloji bilik müasir dövrün ən aktual problemlərinə verilən cavablarla daha da zənginləşir.

Xüsusi sosioloji nəzəriyyələrin tərtibi ideyası Amerika sosioloqu Robert Mertona məxsus olsa da, bu nəzəriyyələr daha əvvəl yaranmış və klassik sosioloqların işlərində də mövcud olmuşdur: Maks Veber, Emil Durkheym və s. Hər bir sosioloji nəzəriyyə bu və ya digər sahəni, sosial ictimaiyyəti və ya sosial prosesi özünün ümumi və spesifik əlaqələri, xarakteristikası, fəaliyyət və inkişaf şərtləri ilə birgə müstəqil sistem kimi araşdırır. Sosiologiyanın bütün mərhələləri vəhdət halında çıxış edərək, yaşadığımız bu dünya haqqında obyektiv sosial biliklərin əldə olunmasını təmin edir.

Sosiologiya çoxsaylı funksiyaları yerinə yetirir ki, bu zaman onun təyinatı və rolu müəyyənləşir. Nəzərə almaq lazımdır ki, sosiologiyanın (istənilən başqa elmin də) nəzəri və praktiki əhəmiyyəti onun yerinə yetirdiyi funksiyalarda öz ifadəsini tapır. Onlar arasında üç ən mühüm funksiya nəzəri-idraki, praktiki-siyasi və idarəetmə funksiyalarıdır.

Nəzəri-idraki funksiya ondan ibarətdir ki, sosiologiya cəmiyyətin mahiyyəti, strukturu, qanunauyğunluqları, əsas inkişaf istiqamətləri və tendensiyaları, fəaliyyət və inkişaf yolları, formaları və mexanizmləri haqqında bilikləri genişləndirib konkretləşdirir, müasir cəmiyyətin daha dolğun mənzərəsini yaratmağa çalışaraq dünya haqqında bilikləri əldə edir, toplayır, ümumiləşdirir və sistemləşdirir. Elmi sosioloji biliyin zənginləşməsi həm nəzəri sosiologiyanın daxili təkmilləşməsi əsasında, həm də bu elmin idrak obyektinin özünün, yəni sosial gerçəkliyin dinamik inkişafı nəticəsində baş verir. Burada əsas rol empirik sosiologiyaya və onunla bilavasitə bağlı olan xüsusi sosioloji nəzəriyyələrə məxsusdur.

Nəzəri-idraki funksiyanın reallaşmasının əsas xüsusiyyəti sosial proseslərin təhlili əsasında sosiologiya onların elmi əsas-

landırılmış qısamüddətli və ya uzunmüddətli inkişaf proqnozlarını işləməyə, imkan və ehtimallar diapazonunu təyin etməyə, seçilmiş variantların hər biri üzrə hadisələrin müxtəlif inkişaf ssenarilərini təklif etməyə, kənar təsirləri və onların nəticələrini təyin etməyə qadirdir.

Sosiologiyanın praktiki-siyasi funksiyası cəmiyyətdə qarşılıqlı təsirlər mexanizminin təkmilləşdirilməsi üzrə praktiki tövsiyələrin işlənməsindən, sosial problemlərin həlli, sosial təsisatların (mülkiyyət, dövlət, ordu, ailə, tərbiyə, təhsil) dəyişən şəraitə adaptasiyası və sosial sabitliyin qorunması məqsədi ilə insanların davranışına və yönümlülüyünə təsir üsullarının yaradılması və onlardan istifadə edilməsindən ibarətdir.

Bu məsələlərin həlli üçün tətbiqi sosiologiyanın sosial mühəndislik adını almış bütöv bir sahəsi mövcuddur.

Bu sahənin nümayəndələri:

- ayrı-ayrı hüquqi və iqtisadi mexanizmlərin (məsələn, vergilər və ya əmək münaqişələri haqqında qanunvericiliklər) tənzimlənməsi;
- kütləvi kommunikasiya vasitələrinin təhlili (məsələn, kütləvi mədəniyyət istehlakçılarına pornoqrafiya elementlərinin nüfuzetməsini istisna edən videofilmlərin seçimi aparılır);
- müxtəlif səviyyəli təşkilatların idarə edilməsi (menecmentin sosioloji komponenti);
- "problemli" əhali qruplarına (əlil, yaşlı, işsiz, həbsxanalardan çıxmış şəxslər və s.) yardım göstərilməsi ilə məşğul olurlar.

Sosioloqların irəli sürdükləri praktiki tövsiyələr hansı sosial amillər qrupuna aid olmasından asılır olaraq obyektiv və subyektiv xarakterli olur. Birincilər insan fəaliyyətinin şəraitinə aiddir (cəmiyyətin sosial strukuru, siyasi quruluş, əmək şəraiti, habelə insanın belə şəraitdə real davranışı). Bu halda praktiki tövsiyələr bu və ya digər sosial amillərin mümkün inkişaf ten-

densiyaları haqqında konkret informasiyaya əsaslanır. İkinciyə subyektiv aspektli hadisələr qrupu (məqsədlər, motivlər, maraqlar, dəyərlər, ictimai rəy və s.) daxildir. Onların (öyrənilən) cəmiyyət qrupları və təşkilatlarının norma və dəyərləri ilə qarşılıqlı əlaqələrini üzə çıxarmaqla, sapma dərəcəsini müəyyən etmək, bunun da əsasında şəxsiyyətlərarası, qruplararası və başqa münasibətlərin təkmilləşdirilməsi vasitələrini işləyib hazırlamaq imkanı yaranır.

Sosiologiyanın idarəetmə funksiyası ictimai proses və hadisələrin vəziyyəti və inkişaf tendensiyaları haqqında informasiyanın daima yenilənməsini təmin edir. Belə informasiya əsasında ictimai həyatın müxtəlif sferalarında idarəetmə qərarları işlənir.

Bu funksiya bu gün yeni iqtisadi reallıqlar şəraitində xüsusilə əhəmiyyətlidir. Əmək sosioloqları qarşısında, məsələn, elə yeni problemlər çıxdı ki, hələ on beş-iyirmi il əvvəl onları qabaqcadan görmək çətin idi: müxtəlif mülkiyyət formalarının, o cümlədən şəxsi mülkiyyətin mövcudluğu, xarici firmalarla birgə müəssisələr, işsizlik təhlükəsi.

Cəmiyyətdə zorakılıq və cinayət, sosial və milli münaqişələr kimi problemlərin həllində, başqa həyat və düşüncə tərzlərinə dözümlülüyün formalaşdırılmasında sosiologiyanın iştirakı xüsusi əhəmiyyət kəsb edir. Ekoloji fəlakətlərin və texnogen qəzalarının artması ilə əlaqədar belə hadisələrin sosial və sosial-siyasi nəticələri haqqında biliyin əldə edilməsi və təbii fəlakətlər situasiyasında insanların davranışını nəzərə alan səmərəli tədbirlərin hazırlanmasında sosiologiyanın idarəetmə funksiyasının aktuallığı daha da artır.

Sosioloji biliyin hər səviyyəsinin özünəməxsus tədqiqat metodu vardır. Empirik səviyyədə məntiqi ardıcıllıq təşkil edən sosioloji tədqiqatlar aparılır ki, bunlar vahid məqsədə - öyrənilən sosial hadisələr haqqında dəqiq obyektiv məlumatların

əldə olunmasına xidmət edən metodoloji, metodiki və təşkilati-texniki prosedurlardır. Sosioloqlar cəmiyyətin sistem olaraq idrakından (funksionalizm), ya da insanın sosial fəaliyyətin subyekti olaraq dərk edilməsindən (rəmzi interaksionalizm) çıxış edərək, nəzəri səviyyədə sosial reallığı vəhdət halında dərk etməyə çalışırlar.

***Nəzəri üsullar.*** Sosiologiyada struktur-funksional üsul mühüm yerə malikdir. Bu üsul nöqteyi-nəzərindən cəmiyyət hər sistemin funksiyası olan sabitliklə xarakterizə olunan funksional sistem kimi nəzərdən keçirilir. Bu sabitlik elementlər sisteminin tarazlığının yaradılması və qorunması hesabına təmin olunur. Struktur-funksional yanaşma tərzi sosial sistemlərin funksional fəaliyyətinin ümumi, universal qanunauyğunluqlarını təyin etməyə imkan verir. Sistem qismində istənilən sosial institut və ya təşkilat, dövlət, partiya, həmkarlar ittifaqı nəzərdən keçirilə bilər. Struktur-funksional yanaşma tərzi aşağıdakı xüsusiyyətlərlə xarakterizə olunur:

- ✓ Diqqət mərkəzində sosial strukturun fəaliyyəti və istehsalı ilə bağlı problemlər dayanır;
- ✓ Struktur dedikdə hərtərəfli inteqrasiya olunmuş və sabitləşmiş sistem anlaşılır;
- ✓ Sosial institutların funksiyaları sosial strukturun inteqrasiya və tarazlıq vəziyyətinə münasibətlə müəyyənləşir;
- ✓ Sosial strukturun dinamikası "konsensus prinsipindən" – sosial tarazlığın qorunması prinsipindən çıxış edərək izah olunur.

***Struktur*** – funksional metodologiyanın tamamlayıcısı və korrektəsi qismində müqayisə metodu çıxış edir. Bu üsul belə bir düşüncəyə dayanır ki, sosial davranışın özünü göstərməsi üçün müəyyən ümumi qanunauyğunluqlar vardır. Belə ki, müxtəlif xalqların sosial həyatında, mədəniyyətində, siyasi sistemində ortaq dəyərlər çoxdur. Müqayisə metodu eynitipli

sosial anlayışların müqayisəsini təxmin edir: sosial struktur, dövlət quruluşu, ailə, hakimiyyət, ənənə quruluşu və s. Müqayisə metodunun tətbiqi tədqiqatın dairəsini genişləndirir, digər ölkə və xalqların təcrübəsindən səmərəli istifadəni təmin edir. Misal olaraq, Maks Veber protestant və induist fatalizminin müxtəlifliyini müqayisə edərək, sübut etməyə çalışırdı ki, bu tiplərdən hər biri sekulyativ dəyərlərin müvafiq sistemi ilə əlaqəlidir. E.Durkheym protestant və katolik ölkələrdəki özünəqəsd statistikasını müqayisə edirdi. Ümumilikdə sosiologiyanın metodlarının strukturu ümumi elmi metodların və sosioloji tədqiqatın spesifik metodlarının vəhdətini təşkil edir.

***Sosioloji sorğu*** – ilkin informasiyanın toplanmasının ən geniş yayılmış üsuludur və onun köməkliyi ilə sosioloji məlumatların demək olar ki, 90%-i əldə olunur. O, anketləşmə (respondent anketin suallarına özü cavab verir və onu doldurur) və müsahibə (soğru müsahibə şəklində yerinə yetirilir və tədqiqatçı (müsahibə götürən) müsahibə alınan şəxsin (respondentin) cavabları əsasında anketi özü doldurur) formasında yerinə yetirilir.

İrimiqyaslı tədqiqatlarda bütün əhalini və ya onun hər hansı bir qismini (gənclər, idmançılar, işçilər və s.) sorğuya çəkmək mümkün olmadığı üçün (bu cür sorğunu tam sorğu adlandırırlar) sosiologiyada seçimli tədqiqat təklif edilir. Bu zaman ümumi seçim və ya tədqiqat seçimi tərtib olunur ki, bu, ümumi birliyin (bütün əhalinin və ya tədqiq olunan qisminin) bütün parametrlərinə uyğun gəlir. Başqa sözlə desək, seçim vəhdəti ümumi birliyin kiçik nüsxəsidir. Əgər seçim düzgün tərtib olunubsa, tədqiqatın nəticələri və tədqiqatın özü reprezentativ (yəni tədqiq olunan sosial reallığa uyğun) hesab oluna bilər və misal olaraq, 1000 nəfərin sorğusundan alınan nəticələr bütün tədqiq olunan qrupa (məsələn, gənclərə) aid edilə bilər. Sosial tədqiqatlar zamanı yaranan xətaların səviyyəsi minimal olaraq qalar.

Ümumi birlikdən alınan seçilmiş hissə orijinaldan fərqlə-

nərsə, bu, reprezentativlik xətası adlanır. Əgər bu səhv çox böyük olarsa, o zaman tədqiqatdan alınan nəticələr reprezentativ sayıla bilməz və onun bu adla yayılması qəbuledilməzdir.

Nəzərə almaq lazımdır ki, seçim prinsipləri sosiologiyanın bütün metodlarının təməlində mövcuddur: anket sorğusu, müsahibə, müşahidə və təcrübə nəticəsində bütün kütləni sorğu etmək əksər hallarda qeyri-mümkündür, nəzəri baxımdan mümkün olsa belə qeyri-rasionaldır.

Sosiologiyada geniş yayılmış sorğu növlərindən biri də mütəxəssis sorğusu və ya müsahibəsidir ki, bu halda tədqiqatçı bu və ya digər məsələ ilə bağlı mütəxəssislərin fikrini öyrənə bilir.

***Sosial təcrübə*** digər tədqiqat üsullarından onunla fərqlənir ki, yalnız sosial təcrübə zamanı xüsusi tədqiqat vəziyyəti yaranır və bu, sosial məlumat əldə etməyə imkan verir. Sosial təcrübənin həyata keçirilməsi vəziyyətinin özünün, tədqiqatın obyektinin, onun digər sosial obyektlərlə əlaqələrinin və bu əlaqələrin xarakterinin öyrənilməsi ilə yanaşı ciddi və dərin hazırlıq tələb edir. Həyata keçirilmiş analiz nəticəsində təsir faktoru müəyyənləşir və bu, təcrübədə iştirak edənlərin reaksiyalarının öyrənilməsində yardımçı olur.

***Məzmun-analiz*** tədqiqatçıların sənədlərinin analiz olunduğu sosial metoddur. Sənəd xarakterli materiallardan məlumatların əldə olunması məqsədilə yerinə yetirilən tədqiqat üsuludur.

# MÖVZU 2

# SOSİOLOGİYANIN BİR ELM OLARAQ FORMALAŞMASI VƏ TARİXİ TƏKAMÜLÜ

1. **Sosiologiyanın təşəkkülü çox mühüm mənəvi-intellektual hadisə kimi**
2. **Antik və Yeni dövrlərdə sosial biliklər: yaranma təşəbbüsləri**
3. **Sosiologiyanın elm olaraq institutlaşması**
4. **Qərb sosiologiyasının əsas istiqamətləri**

## 1. Sosiologiyanın təşəkkülü çox mühüm mənəvi-intellektual hadisə kimi

Sosiologiya müstəqil bilik sahəsi kimi Qərbi Avropada XIX əsrdə, daha konkret desək, XIX əsrin 30-50-ci illərində təşəkkül tapmışdır. Onun meydana gəlməsi real ictimai tələbatın ifadəsi kimi dəyərləndirilə bilər. XIX əsrin ortalarına doğru ictimai həyatın inkişaf tələbatı və cəmiyyət haqqında elmin təkamül məntiqi sosial biliklərin yeni tipinə kəskin ehtiyacı şərtləndirirdi. Sosiologiya əslində «formalaşmaqda olan vətəndaş cəmiyyəti tələbatına cavab olaraq meydana gəlmişdir…. Məhz özünütəşkiledən cəmiyyət şəraitində real sosial hadisələrin və proseslərin dəqiq və dərin təsvirinə istiqamətlənmiş biliyə kütləvi tələbat yaranır».[3]

Məlumdur ki, kapialist münasibətləri inkişaf etdikcə, daha dərindən qərarlaşdıqca feodal-mütləqiyyət quruluşunun dayaqları (ictimai həyatın total reqlamentləşdirilməsi, yuxarı

---

[3] Общая социология. Учебное пособие. Под общ. редакцией д.ф.н., проф. А.Г.Эфендиева. М.: ИНФРА-М, 2002, с. 20.

hakimiyyət orqanlarının göstərişlərinin qeyd-şərtsiz yerinə yetirilməsi və s.) əhəmiyyətli dərəcədə sarsılırdı. İnsanların azadlıq hüdudlarının genişlənməsi, onların seçim imkanlarının artması tələb edirdi ki, vətəndaşlar yaranmış imkanlardan daha səmərəli yararlansınlar, baş verən hadisə və prosesləri real qiymətləndirməyi bacarsınlar. Qarşılıqlı təsiri şərtləndirən səbəblər və vəziyyətlər aydın təsəvvür olunmalı, tərəfdaşların istəkləri, maraqları düzgün başa düşülməli idi. Bu, cəmiyyət haqqında konkret, əsaslı bilik tələb edirdi.

Cəmiyyət həyatında azad rəqabətin güclənməsi siyasət adamlarının, sahibkarların fəaliyyətinin nəticəliliyi məsələsini aktuallaşdırırdı; bu, tələb edirdi ki, onlar insanların əhval-ruhiyyəsini, gözləntilərini, üstünlük verdikləri sosial mexanizmləri mümkün qədər daha dürüst bilsinlər və mənalandırsınlar.

Cəmiyyətdə sərbəst fəaliyyət imkanları artdıqca insanların, insan birliklərinin diferensiasiyası da güclənir, onların səyləri, maraqları daha qeyri-yekcins olurdu. Qərarlaşmaqda olan vətəndaş cəmiyyəti bəhsləşmə demək idi; o, diferensial insan qruplarının kompromisini nəzərdə tuturdu. Yaranmış vəziyyət tələb edirdi ki, cəmiyyətə yekcins kütlə kimi baxılmasın, onun diferensiallığı, çoxplanlı və çoxaspektli olması nəzərə alınsın.

Bütün bu sosial məqamlar kifayət qədər dəqiq, diferensial, konkret, sübutedici, real sosial praktikaya yaxın olan bilik sahəsinə tələbatı formalaşdırırdı. Sosiologiyanın yaranması formalaşan tələbatın, ciddi sosial-tarixi irəliləyişin ifadəsi olub, sosial idrakın keyfiyyətcə yeni forması kimi çıxış edirdi.

Sosiologiyanın təşəkkülü həm də müəyyən elmi-nəzəri ilkin şərtlər zəminində baş verirdi. Elmi biliyin seyrçi-fəlsəfi modeldən rasional-təcrübi modelə doğru təkamülü ilk növbədə təbii elmlərdə özünü göstərirdi. Yeni dövrdə təbiət hadisələri barəsində konkret, mötəbər, eksperimental surətdə sübüt edil-

miş, praktik surətdə tətbiq edilə bilən biliklərə ciddi tələbatın yaranması elm qarşısındà ciddi vəzifələr qîyurdu. Bu, təbii prîsåslərdən mürəkkəb əmək alətlərinin istehsalında, müxtəlif mexanizmlərin qurulmasında daha geniş miqyasda istifadə olunması ilə əlaqədar idi. Formalaşmış tələbat elmin öz instrumentarisini, tədqiqat metodlarını yenidən nəzərdən keçirməsini, müasirləşdirməsini və təkmilləşdirməsini zəruri edirdi.

XIX əsrin 30-cu illərinə doğru təbiət elmləri, ilk növbədə fizika elə nailiyyətlər əldə edirdi ki, bunlar təcrubi-eksperimental, rasionalist tipli biliyin mötəbərliliyini, əsaslılığını gücləndirirdi. Təsadüfi deyildir ki, sosiologiya meydana gəlməmişdən xeyli əvvəl təbiət elmlərinin bir çox görkəmli nümayəndələri (məsələn, Laplas, Lavuazye, Qaliley və başqaları) empirik metodları sosial hadisələrin tədqiqinə tətbiq etməyə çalışırdılar. Bu halda «sosial fizika» terminindən istifadə olunması da başa düşüləndir. XVII əsrə təsadüf edən «sosial fizika» ideyası bir sıra maraqlı nəzəriyyələrlə zənginləşə bilmişdi. Həmin nəzəriyyələr cəmiyyətə sistem kimi yanaşır, onu təbiətin bir hissəsi hesab edirdi. Əslində cəmiyyətşünaslıq metodoloji baxımdan təbiətşünaslığın tərkib hissəsinə çevrilirdi. Yeri gəlmişkən, qeyd edək ki, sosiologiyanın tətbiq etdiyi metodlar özünün bir sıra parametrlərinə görə təbii-elmi biliyin tələblərinə xeyli dərəcədə yaxınlaşmışdı. Həmin parametrlər sırasında sübutluluq, əsaslılıq, birmənalılıq, təkrar bərpa edilə bilmək xüsusiyyəti və s. qeyd oluna bilər.

Sosiologiyanın elmi-nəzəri ilkin şərtləri nəzərdən keçirilərkən XVII-XVIII əsrlərdə fəlsəfənin öz hüdudlarında meydana çıxan məqamlara da diqqət yetirilməlidir: F.Bekonun, C.Lokkun, T.Hobbsun elmi biliyin empirik mötəbərliyi barəsində təlimi, R.Dekartın, B.Spinozanın, Q.Leybnisin rasionalist postulatları ciddi nailiyyətlər idi.

Deməli, dövrün ümumi idraki yönümü bir tərəfdən təcrübəyə, eksperimentə, digər tərəfdən isə zəkaya, məntiqə istinad edirdi.[4]

Sosiologiyanın yanaşmasının ilkin elmi-nəzəri şərtlərindən bəhs edərkən iki məqamı da nəzərə almaq vacibdir. Birincisi, XVII-XVIII əsrlərdə empirik sosial tədqiqatların, ən əvvəl sosial statistikanın inkişafıdır. İdarəetmənin praktik ehtiyaclarından doğan bu tədqiqatlar əvvəlcə lokal xarakterdə olub, öz metodlarına görə mükəmməl deyildirlər, müxtəlif ölkələrdə fərqli xüsusiyyətlərə malik idilər. Lakin tədricən həmin tədqiqatlar geniş vüsət aldılar, öz imkanlarını nümayiş etdirə bildilər.

Sosiologiyanın təşəkkülü üçün sosial statistika ilə yanaşı XVIII əsrin sonunda – XIX əsrin əvvəllərində inkişaf edən etnoqrafik tədqiqatlar da ciddi əhəmiyyət kəsb edirdi. Bu tədqiqatlar müxtəlif xalqların həyat tərzini sistematik surətdə təsvir və müqayisə etmək (əlbəttə, daha çox tarixi aspektdə) üçün zəmin yaradır, müqayisəli-tarixi metodun tətbiq sahələrini genişləndirirdi.[5]

Beləliklə, XIX əsrin əvvəllərindən etibarən elmi, «müsbət» tədqiqat ideyası əsaslı ictimai tələbat kimi irəli sürülür və müxtəlif bilik sahələrinin nümayəndələri tərəfindən fəal surətdə müdafiə olunurdu. Başqa sözlə, yeni intellektual sintenzə, insan və cəmiyytə haqqında ümumiləşdirici elmə tələbat formalaşırdı. Sosiologiya məhz belə bir tələbata reaksiya kimi təşəkkül tapır, zaman keçdikcə öz nailiyyətlərini artırır. O, sosial hadisə və proseslərin mahiyyətli xarakteristikasını verir, ictimai həyatın müxtəlif tərəfləri barəsində konkret empirik informasiyaya

---

[4] Yenə orada, s..21.

[5] История буржуазной социологии XIX-начала XX века. М.: Издательство: Наука, 1979.- С.11-12.

istinad etməklə həmin proseslərin xüsusiyyətlərini, inkişaf meyillərini və perspektivlərini üzə çıxarmağa imkan verir.

## 2. Antik və Yeni dövrlərdə sosial biliklər: yaranma təşəbbüsləri

Sosiologiya çox gənc elmdir və elmi –texniki inkişafla əlaqəli böyük ictimai hərəkatlar dövründə institutlaşmışdır. Lakin bu o demək deyil ki, cəmiyyətin problemləri, quruluşu və inkişafı mütəfəkkirləri düşündürməmişdir. Sosioloji fikrin təkcə təşəkkülü yox, həm də təkamülü kifayət qədər mürəkkəb və ziddiyyətli prosesdir. Bu prosesin başlıca məqamlarını Qərbi Avropanın bir neçə ölkəsinin nümunəsində yığcam şəkildə nəzərdən keçirmək məqsədəuyğundur.

Cəmiyyətlə bağlı nəzəriyyələr Avropa fikir tarixində ilk dəfə Antik fəlsəfədə meydana gəlmişdir. Onlardan ən mühümləri iki görkəmli qədim yunan filosofları **Platona** (e.ə. 428/427-348/347) və **Aristotelə** (e.ə. 384-322) məxsusdur.

Platonun sosial görüşləri daha çox “Dövlət” əsərində öz əksini tapmışdır. Burada yürüdülən əsas fikir insan cəmiyyətinin müəyyən bir ideal meydana gətirməsindən ibarətdir. Bu, şüurlu şəkildə qurulan və intellektual elita tərəfindən ağıllı və məqsədyönlü olaraq idarə olunan ideal ictimai sistemdir.

Cəmiyyət möhkəm intizam yaradılanadək sosial gərginlik və qarışıqlıqda olur və bu zaman hər vətəndaş öz işi ilə məşğul olur (əmək bölgüsü), digər vətəndaşların, təbəqə nümayəndələrinin işinə müdaxilə etmir (sosial bölgü). Üç sinfə bölünmüş cəmiyyəti stabil hesab etmək olar: ali- dövləti idarə edən müdriklərdən; orta- cəmiyyəti qarışıqlıqdan

qoruyan hərbçilərdən; aşağı- sənətkar və kəndlilərdən ibarət təbəqə.

Platona görə intellektual elitaya mənsubiyyət yalnız yaradılışa bağlıdır. Platon hesab edirdi ki, insanlar təbiət etibarilə bərabər deyillər və idarəetmə yalnız yaradılışdan ali ruha malik olan şəxslər – müdriklər və filosoflar tərəfindən həyata keçirilməlidir. Onlar öz əxlaqi üstünlüklərini qorumalı və cəmiyyətin aşağı təbəqəsi üçün mütləq nümunə olmalıdırlar.

Aristotelə görə intizamın dayağı orta sinifdir. Bundan başqa daha iki sinif: zəngin plutokratiya və xüsusi mülkiyyətdən məhrum kasıblar vardır. Dövlət o zaman daha yaxşı idarə olunur ki, kasıb kütlə idarəçilikdən kənarda qalmır, varlıların eqoistik maraqları məhduddur, orta təbəqə daha çox və daha güclüdür. Aristotel öyrədirdi ki, cəmiyyətin natamamlığı bərabər bölgü ilə deyil, insanların mənəvi yüksəlişi ilə düzəlir. Qanunverici şəxs ümumi bərabərliyə deyil, həyat tələbatlarının bərabərləşməsinə can atmalıdır.

Xüsusi mülkiyyət geniş eqoistik (xudpəsənd) maraqlar inkişaf etdirir. Onlar olduqca insanlar bir-birinə müdaxilə etmir, hər kəs öz işi ilə məşğul olur. Əgər cəmiyyətdə çox işləyib az gəlir əldə edənlər varsa, onlar hər zaman az işləyib çox gəlir əldə edənlərdən narazı olacaqlar. İnsanı bir çox tələbat və məqsədlər idarə edir, lakin əsas təkanverici qüvvə - pula olan hərislikdir. Kollektiv mülkiyyətdə hər kəs, yaxud əksəriyyət kasıb və ya qəzəblidirlər. Xüsusi mülkiyyətdə zənginlik və qeyri-bərabərlik meydana gəlir, lakin yalnız bu, vətəndaşlara səxavət və mərhəmət göstərmək imkanı verir. Lakin həddən artıq bərabərsizlik dövlət üçün təhlükəlidir. Aristotel orta təbəqənin üstün olduğu cəmiyyəti daha uca tutur.

**Nikkolo Makiavelli** (1469-1527) Platon və Aristotelin ideyalarına müraciət edən ilk Yeni dövr mütəfəkkirlərindən olmuş və onların əsasında orijinal cəmiyyət və dövlət nəzəriyyəsi yaratmışdır.

Onun şah əsəri olan "Hökmdar" Platonun "Dövlət" əsərinin düşüncə xəttini davam etdirir, lakin əsas vurğu cəmiyyətin strukturuna deyil, siyasi liderin davranışlarına köklənir. Makiavelli hökmdarın uğur qazanması üçün davranış qaydalarını formalaşdırmışdır.

I qanun: İnsanları şöhrətpərəstlik və hakimiyyətə canatma meyilləri idarə edir. Cəmiyyətin stabilliyi üçün hansı sosial təbəqənin daha təkəbbürlü olduğunu müəyyən etmək lazımdır; sahib olduqlarını saxlamaq istəyənlər, yoxsa sahib olmadıqlarınıəldə etmək istəyənlər. Hər iki məqam dövlət üçün təhlükəlidir və stabilliyin qorunması üçün istənilən qəddarlıq icazəlidir.

II qanun: Ağıllı hökmdar verdiyi sözlərin hamısını yerinə yetirməməlidir. Çünki rəiyyət də heç öz öhdəliklərini yerinə yetirməyə tələsmir. Hakimiyyəti qazanmaq istəyərkən verilən sözlərin sayı çox ola bilər, lakin qazandıqdan sonra onları yerinə yetirmək şərt deyil, əks halda tabeliyində olanlardan asılı vəziyyətə düşmə təhlükəsi yaranar. Yaxşı işlər görüb, nifrət qazanmaq, zülm edib, nifrət qazanmaq qədər asandır, lakin zalımlıq –möhkəmlik əlamətidir. Buna görə də hakimiyyəti əldə etmək üçün xoşməramlı, onu əldə saxlamaq üçün qəddar olmaq lazımdır.

III qanun: Zülm etmək dərhal, yaxşılıq və mərhəmət tədricən olmalıdır. İnsanlar mükafatların qiymətini az-az olduqda bilirlər, cəza isə dərhal və böyük ölçüdə verilməlidir.

**Tomas Hobbs** (1588-1679) bu sahədə növbəti addımı atmışdır: o, vətəndaş cəmiyyətinin öyrənilməsinin əsasını təşkil edən ictimai razılaşma nəzəriyyəsini ortaya

qoymuşdur. Hobbs belə bir sual qoymuşdur: "Cəmiyyət necə mümkün ola bilər?" və belə bir cavab vermişdir; əvvəla, insanlar ictimai həyatı bilmədən dünyaya gəlirlər, lakin ona meylliyi tərbiyə (sosiallaşma) sayəsində əldə edirlər; ikincisi, vətəndaş cəmiyyəti bir qism insanların digərləri qarşısında qorxusu nəticəsində meydana gəlmişdir. Hobbsa görə insanların təbii halı"hər kəsin hər kəsə qarşı müharibəsidir" və fərdlərin yaşamaq uğrunda mütləq rəqabətidir. Cəmiyyətin bu təbii halı insanlarda bir-birinə qarşı qorxu hissi yaradır. Məhz qorxu insanları vətəndaş cəmiyyəti yaratmağa məcbur edir və bu cəmiyyət razılaşma əsasında hər bir üzvünə digərlərinin düşmən münasibətlərinə qarşı nisbi müdafiə zəmanəti verir. Qorxu parçalamır, əksinə birləşdirir, ümumi təhlükəsizliyin qayğısına qalmağa təşviq edir. Dövlət – bu tələbatın ödənilməsi üçün ən yaxşı vasitədir.

Vətəndaş cəmiyyəti – inkişafın ən üst pilləsidir; o, hər kəs tərəfindən qəbul edilən hüquq normalarında cəmləşir. Vətəndaş cəmiyyətində üç idarəüsulu mövcud ola bilər: demokratiya, aristokratiya, monarxiya. İctimai razılaşma nəticəsində hər kəsin hər kəsə qarşı müharibəsi dayanır: insanlar könüllü olaraq şəxsi azadlıqlarını məhdudlaşdırır, əvəzində etibarlı müdafiə əldə edirlər.

## 3. Sosiologiyanın elm olaraq institutlaşması

**Oqüst Kont** (1798-1857) elmə töhfəsi yalnız "sosiologiya" terminini meydana gətirməklə bitməyən bu mütəfəkkir gözlənilmədən yeni fəlsəfi nizam ortaya qoymuşdur. Kontun əsas ideyası elmin metafizika və teologiyadan ayrılması olmuşdur. Onun fikrincə həqiqi elm həll olunmayan məsələlərdən, yəni faktlara əsaslanaraq nə təsdiq nə də inkar olun-

mayan və empirik müşahidəyə açıq məsələlərdən uzaq durmalıdır. Kont faktların qarşılıqlı əlaqəsini, iri sistemlər daxilində fəaliyyətini araşdırmağı təkid edirdi. Ən ali sistem olaraq o bəşəriyyəti və cəmiyyəti görürdü. Kontun sosial nəzəriyyəsi iki hissədən - sosial statika və sosial dinamikadan ibarətdir. Fransız mütəfəkkirin əsas marağı dinamikaya olmuşdur. Sosial dinamikanın ilk faktoru mənəvi və əqli inkişafdır. İkinci qismə Kont iqlim, irq, ortalama insan ömrü, əhalinin artımını, əmək bölgüsünü şərtləndirən və insanın intellektual və mənəvi keyfiyyətlərinin inkişafına təkan verən faktorları daxil edirdi.

Kont hesab edirdi ki, elmin inkişafının tarixi məntiqi daha yüksək qaydaya malik elmlərə keçiddən ibarətdir və onların hər birinin sələfi vardır: riyaziyyat-astronomiya-fizika-kimya-biologiya sosiologiya. Kontun müdafiə etdiyi pozitivist doktrina sosial fəlsəfə və tarixin fəlsəfəsinə yönəlmiş əqli nəzəriyyələşdirmədən ibarət idi və bu nəzəriyyələr təbii elmi nəzəriyyələr kimi faktlara əsaslanmalıdır və müşahidə, müqayisə, təcrübə və dəqiq ölçmə üsulları ilə tədqiq olunmalıdır. Pozitivistlər cəmiyyəti təkamülləşən və qanunları təbiətlə uyğunluq təşkil edən sosial orqanizm kimi qəbul edirdilər. Kontun sosiologiyası cəmiyyətin quruluşunu və siyasi dinamik strukturunu elmi üsullarla anlamaq cəhdindən ibarət idi. Bu cür cəmiyyət obrazının formalaşmasına inqilab təcrübəsi böyük təsir göstərmişdir; ictimai quruluşun praqmatik layihəsi elmi tərəqqi təsdiqini tapırdı. Elm şüurlu ictimai nizamın təməlini təşkil etməli idi. Ensiklopedistlərin fikirlərinə görə elmi biliklər vəhdət şəklində olmalıdır. Təbiət qanunları insan cəmiyyətinə də şamil edilməlidir. Bütün elmlərin vəhdəti qanunların vəhdətini izah edir. Kontun sosiologiyası təbii elmlər kimi müsbət elmdir. O.Kont belə hesab edirdi ki, sosial hadisələr daha çox mürəkkəbliyi, eyni zamanda başqa digər amillərdən asılılığı ilə

fərqlənir. Lakin bu hadisələr, proseslər mütləq öyrənilməlidir. O, cəmiyyət haqqında pozitiv elmi əvvəlcə sosial fizika, sonra isə sosiologiya adlandırmışdır. Bu terminin işlədilməsini O.Kont ictimai hadisələrə, proseslərə xas olan fundamental qanunların pozitiv tədqiqatlarını apara bilən xüsusi fənnin yaradılması zərurəti ilə izah edirdi. Onun fikrincə, sosiologiya nəzəri fənn olmalı, pozitiv metoda əsaslanmalıdır. Yeri gəlmişkən qeyd edək ki, O.Kont pozitiv sözünün real, faydalı, mötəbər, dəqiq, müsbət mənalarını qeyd edirdi. O, cəmiyyətdəki müxtəlif amillərin qarşılıqlı əlaqələrinin tədqiqini vacib sayırdı və tələb edirdi ki, «ictimai həyatın hər bir hadisəsini epoxa, sivilizasiya, bəşəriyyət kimi bütövlüklərlə müəyyən nisbətdə götürmək lazımdır».[6]

O.Kont belə hesab edirdi ki, pozitiv elm olan sosiologiya ictimai həyatın təsiri altında insan zəkasının və psixikasının necə təkmilləşdiyini öyrənir. İctimai həyat isə təbii qanunlara tabedir, daim dəyişilmə, yenidən qurulma vəziyyətindədir. Cəmiyyət, bəşəriyyət ali gerçəklikdir, ali varlıqdır.

O.Kont cəmiyyəti tədqiq etmək üçün müəyyən metodların zəruriliyini əsaslandırırdı. Onun fikrincə, xüsusilə müşahidə metodunun, habelə eksperimental, müqayisəli və tarixi metodların imkanlarından geniş istifadə olunmalıdır. Lakin istənilən müşahidə fundamental nəzəriyyələrin tətbiqini nəzərdə tutmalıdır.

Kont sosiologiyanı iki böyük bölməyə ayırırdı: sosial statika və sosial dinamika. Sosial statika ictimai sistemin mövcudluq şəraitini və fəaliyyət qanunlarını, sosial dinamika isə sosial sistemlərin inkişafı və dəyişilməsi qanunlarını öyrənir. Görkəmli mütəfəkkir, ümumiyyətlə, cəmiyyəti qarşılıqlı surətdə

[6] Qərbi Avropada və ABŞ-da sosiologiya tarixi.Ali məktəblər üçün dərslik. Bakı: Turan Nəşrlər evi, 2010. - S-46.

əlaqədə və vəhdətdə olan üzvi bütövlük kimi nəzərdən keçirirdi. O, cəmiyyətin nizamı və ahəngdar inkişafı baxımından ailə, dövlət və din kimi təsisatların inteqrasiyaedici roluna xüsusi diqqət yetirirdi. Kont tərəqqini yüksələn xətt üzrə inkişaf kimi səciyyələndirir, bu prosesdə ilkin və törəmə amilləri ayırd edirdi. İlkin amil mənəvi, zehni inkişafdır – bu, həlledicidir. Törəmə amillər isə iqlim, irq, insan həyatının orta müddəti və əhali artımıdır. Kontun fikrincə, insan zəkasının üç inkişaf mərhələsi (teoloji, metafizik və pozitiv) tarixi inkişafın üç analoji mərhələsinə uyğun gəlir. O, qədim dövrü və ilkin orta əsrləri (1300-cü ilə qədər) teoloji mərhələyə, 1300-1800-cü illəri metafizik mərhələyə aid edirdi. Cəmiyyətin pozitiv mərhələyə qədəm qoyması elmlərin geniş yayılması, onların ictimai təyinatının güclənməsi, pozitivizm nəzəriyyəsinin yaradılması ilə şərtlənir. Kontun təklif etdiyi və əsaslandırmağa çalışdığı mövqeyin səmərəli ünsürləri az deyildir. Lakin o, xalqların tarixi inkişafının konkret formalarının rəngarəngliyinə, demək olar ki, diqqət yetirmirdi.

Kontun pozitiv siyasəti də fərdlə cəmiyyətin münasibətində ikinciyə üstünlük verir və belə hesab edirdi ki, şəxsiyyət hər şey üçün cəmiyyətə borcludur, ona ən ümumi sevgi nümayiş etdirməlidir. Bu siyasət şüurun intellektual-əxlaqi yeniləşməsinə istiqamətlənməyi əsas tuturdu.

Oqüst Kont sosiologiyanın banisi hesab oluna bilər, belə ki, nəinki cəmiyyət və sosial proseslərin öyrənilməsi ilə məşğul olmuşdur, eyni zamanda elmlərin sistemləşdirilməsi layihəsini tərtib etmiş və burada sosiologiyanın yerini müəyyən etmişdir. Bu da sosiologiyanın ayrıca elm olaraq gələcəkdə akademik səviyyədə institutlaşması üçün təməl rolunu oynamışdır.

Sosiologiyanın inkişafında Kontun nailiyyətlərindən qaynaqlanan iki ideya vardır: birinci – cəmiyyətin öyrənilməsi üçün elmi metodların tətbiqi, ikinci – sosial islahatların həyata

keçirilməsi üçün elmin praktik istifadəsi.

**Herbert Spenser** (1820-1903) – ingilis filosofu və sosioloq-pozitivist olub, sosiologiyada orqanik məktəbin banisidir. Ç.Darvinin təkamül nəzəriyyəsinin Spenserə böyük təsiri olmuşdur. O, hesab edirdi ki, onu Kainatın bütün inkişaf aspektlərinə, o cümlədən insan cəmiyyətinin tarixinə tətbiq etmək olar. Spenser cəmiyyəti bioloji orqanizmlərlə, cəmiyyətin ayrı-ayrı hissələrini isə (ailə, dövlət və s.) hər biri bütün cəmiyyətin fəaliyyətinə təsir göstərən orqanizm hissələrilə (ürək, sinir sistemi və s.) müqayisə edirdi. Spenser hesab edirdi ki, bioloji orqanizmlərdə olduğu kimi cəmiyyətlər də ən sadə formadan mürəkkəbə doğru inkişaf edirlər. "Təbii seçim" insan cəmiyyətində də baş verir və ən dözümlülərin yaşamasını təmin edir. Spenserə görə adaptasiya prosesi ictimai quruluşun mürəkkəbləşməsinə səbəb olur. Belə ki, onun ayrı-ayrı hissələri daha ixtisaslamış olur. Bununla da cəmiyyətlər nisbətən sadə vəziyyətdən bir-birinə bənzəməyən elementlərdən ibarət daha mürəkkəb struktura çevrilir. Mürəkkəb cəmiyyətdə bir hissəni (yəni institutu) digəri ilə əvəz etmək mümkün deyil. Bütün hissələr birlikdə vahid quruluş üçün fəaliyyət göstərməlidirlər: əks halda cəmiyyət dağılar. Spenserə görə bu cür qarşılıqlı əlaqə sosial inteqrasiyanın təməlini təşkil edir.

İstənilən fərdin və ya fərdlərin birləşməsinin inkişaf prosesi onların quruluş və funksiyalarının da differensiallaşmış inkişafı ilə müşaiyət olunur; yəni, orqanizm nə qədər çox inkişaf edirsə, bir o qədər mürəkkəb olur. Sərtlik dərəcəsi və daxili idarəetmənin miqyası Spenser üçün cəmiyyət növləri arasındakı fərqi ifadə edirdi. Misal üçün, o, sərt qaydalarla idarə olunan "döyüşkən" cəmiyyətləri nəzarət və mərkəzləşmənin zəif olduğu "industrial" cəmiyyətlərdən fərqləndirirdi.

Zaman keçdikcə Spenserin “birxətli” təkamül konsepsiyası, sosial tənəzzülə belə səbəb ola biləcək mürəkkəb “çoxxətli” təkamül nəzəriyyəsi ilə əvəz olunmuşdur.

Spenser hesab edirdi ki, bəşəriyyət təbii seçim yolu ilə zəif fərdlərdən qurtulmalı və hakimiyyət bu işə müdaxilə etməməlidir – bu fəlsəfə “sosial darvinizm” adını almışdır. O, bu fəlsəfəni kommersiya təşkilatları və iqtisadi institutlar üçün belə mümkün hesab edirdi. Spenser düşünürdü ki, hüquqların fərdlər və təşkilatlar arasında sərbəst qarşılıqlı əlaqə əsasında qurulmuş sosial prosesə müdaxilə etməməsi sayəsində maraqların təbii və sabit tarazlığı yaranacaqdır.

İngiltərədə sosioloji fikrin inkişafına töhfə baxımından Herbert Spenserin sosioloji sistemi ciddi elmi maraq doğurur. Bu sistemdə başlıca cəhət sosial strukturlarda və institutlarda baş verən təkamül dəyişiklikləridir. H.Spenser təkamülü bəşər tarixi üçün universal proses hesab edirdi. Təkamül isə nisbi qeyri-müəyyənlik, əlaqəsizlik, yekcinslik vəziyyətindən nisbi müəyyənlik, əlaqəlilik, çoxcəhətlilik vəziyyətinə keçid kimi səciyyələndirilə bilər. Təkamül dünyanı dərk etmək üçün bir açardır. «Bu universal açar kainatın sirlərinə tətbiq ediləndə aydın olur ki, bəşər cəmiyyətlərinin təkamülü digər təkamül hadisələrindən çox da fərqlənməyərək, təbiətin universal qanununun xüsusi halıdır. Sosiologiya ancaq o zaman elm ola bilər ki, o, təbii təkamül qanunu ideyasına əsaslansın».[7] Təkamülün güclənməsi prosesində istənilən vahidin strukturunda və funksiyalarında dəyişikliklər baş verir; bu, diferensasiyanın artmasına gətirib çıxarır. Diferensiasiyanın artması isə qarşılıqlı asılılığın, deməli, sosial komponentlərin

[7] Qərbi Avropada və ABŞ-da sosiologiya tarixi.Ali məktəblər üçün dərslik. Bakı: Turan Nəşrlər evi, 2010. – S. -65.

inteqrasiyasının artması ilə nəticələnir. Bu baxımdan Spenser hərbi və industrial tipli cəmiyyətləri ayırd edirdi. Onun fikrincə, birincidə məcrubiyyət və məcburi əməkdaşlıq, ikincidə isə könüllü əməkdaşlıq və fərdi özünüməhdudlaşdırma əsasdır. O qeyd edirdi ki, bütövlükdə sivilizasiyanın, habelə ayrı-ayrı millətlərin tərəqqisində yekcinslikdən müxtəlif cinsliyə doğru dəyişiklik təzahür edir. Lakin bu prosesdə tərəqqi də, tənəzzül də mümkündür. Deməli, tərəqqinin digər növləri kimi sosial tərəqqi də xətti deyildir, o, kənara çıxa və geniş yayıla bilər. Mütəfəkkirin təkamül nəzəriyyəsi tənəzzül amillərini ehtiva etmək sayəsində daha real və çevik xarakter kəsb edir.

H.Spenser institutları iki aspektdə nəzərdən keçirməyi vacib sayırdı: a) institutların təkamül mərhələsi; b) həmin mərhələdə onların yerinə yetirdikləri funksiyalar. Bu prosesdə cəmiyyət haqqında düzgün nəzəriyyə işləyib hazırlamaq üçün onu təşkil edən fərdlərin xarakterini aydınlaşdırmaq lazımdır. Spenserin mövqeyi belə idi ki, dövlət ancaq fərdlərin hüquqlarının qorunması və onların, bütövlükdə cəmiyyətin xarici düşmənlərindən müdafiəsi ilə məşğul olmalıdır. O, digər sahələrə müdaxilə etməkdən çəkinməlidir. Nəticədə ən çox uyğunlaşanların salamat qalması təmin ediləcəkdir.

H.Spenserin irsi bir sıra məqamları baxımından diqqəti daha çox cəlb edir. Bu irsdə təkamülçülüyə, fərdiyyətçilyə və azad bazara sabit meyillilik özünün çox aydın ifadəsini tapmışdır.

Öz dövrünə görə çox məşhur olan Spenserin bu görüşləri sonralar elm tərəfindən rədd edildi, lakin XX əsrin ikinci yarısında onun nəzəriyyəsinə yenidən maraq oyandı, belə ki, Spenser müasir sosiologiyada başlıca yer tutan struktur funksionallığın və sistemli analizin banisi idi.

“Sosial məktəbin” klassiki fransız alimi **Emil Durkheym** (1858-1917) hesab olunur.

Sosiologiyanın müstəqil elmə çevrilməsi üçün vacib olan şərtlər sırasında o, yalnız bu elm tərəfindən və müvafiq tədqiqat metodu ilə öyrənilən xüsusi predmetin mövcudluğunu irəli sürürdü. O, hesab edirdi ki, sosiologiya özünəməxsus keyfiyyətlərə malik sosial reallığı öyrənməlidir. Sosial reallığın elementləri birlikdə cəmiyyət yaradan sosial faktlardır. Bu faktlar sosiologiyanın predmetini təşkil edir.

Dürkheymin fikrincə "sosial fakt" dəqiq olub-olmamasından asılı olmayaraq, fərdə xarici təsir göstərən və eyni zamanda müstəqil varlığa malik hər cür davranışdır. Fərd doğulduğu zaman qanun və adətlərin, davranış qaydalarının, dini inancların və ayinlərin, dil və pul sisteminin ondan asılı olmadan fəaliyyət göstərdiyini kəşf edir. Bu fikir, hərəkət və duyğu obrazları müstəqil və obyektiv şəkildə mövcuddur.

Sosial faktların obyektivliyinin göstəricisi onların fərdlər üzərində təsirə malik olan digər keyfiyyətləridir. Hər insan öz üzərində sosial məcburiyyəti hiss edir. Məsələn, hüquqi və mənəvi qaydalar fərdin üzərində ictimai qınaq hiss edilmədən pozula bilməz. Digər sosial faktorlar da bu cürdür.

Dürkheymə görə cəmiyyət müəyyən funksional tələbatlara sahibdir və bunlardan ən mühümü sosial nizama olan tələbatdır. Bu, insan təbiətinin ikitərəfli olmasından qaynaqlanır. Birinci eqoistik tərəfdir: əksər hallarda insanların davranışları bioloji tələbatlardan irəli gəlir ki bu da fərdlərin cəmiyyət inteqrasiyasını çətinləşdirir. İnsan təbiətinin ikinci tərəfi mənəvi dəyərlərə inamdır. Cəmiyyət bu inamı dəstəkləməlidir ki, sosial həyatda sabitlik mümkün olsun. Durkheymə görə konsensusun təməlində ümumi inanclardan ibarət kollektiv düşüncə dayanır. Bu konsensus olmadan sosial həmrəylik mümkün olmaz və fərdlər inteqrativ sosial birlik meydana gətirə bilməzdilər. Durkheymin sözlərinə görə: "maraqların hakim kəsildiyi yerdə fərdlər müharibə şəraitində olurlar". Bu

zaman kollektiv şüurun sosial fakt kimi fərdə təsiri mütləqdir. "Cəmiyyət fərdin öz daxilində də mövcud olmalıdır"-fikrini qeyd edən Durkheym bunun əsasən dinlə təmin olunduğunu bildirir: kənar fövqəlqüvvədən asılılığını dərk edən insan cəmiyyətdən də asılı olduğunu dərk edir.

Lakin Durkheym cəmiyyətlərin bütün dövrlərdə sağlam fəaliyyət göstərdiyi fikrindən uzaq idi. Bəzi tədqiqatlarında belə fikir irəli sürmüşdü ki, təbii həmrəylik üzərində qurulmuş sənaye cəmiyyətləri tam tənəzzülə uğraya bilər. Bu, eqoizm və anomiyanın cəmiyyətin fərdlər üzərində nəzarəti itirməsinə səbəb olduğu zaman mümkündür. Durkheym sənaye cəmiyyəti daxilində mümkün konfliktləri görür, lakin inanırdı ki, onu peşəkar ittifaqlar və mənəvi dəyərlərin təbliği, eləcə də cəmiyyətin hər bir üzvü üçün ədalətin təmin olunduğu funksional cəmiyyətdə müəyyən sərhədlər daxilində saxlamaq olar.

Fransada O.Kontun ideyaları görkəmli sosioloq Emil Durkheym tərəfindən yaradıcılıqla davam etdirilmiş, ciddi şəkildə zənginləşdirilmişdir. Bir cəhəti qeyd edək ki, XIX əsrin sonlarına doğru mənəvi mədəniyyətin müxtəlif sahələrində Kont pozitivizminin təsiri nəzərəçarpacaq dərəcədə güclənirdi. Belə bir şəraitdə sosial-islahatçılıq siyasətinin nəzəri əsası «sosiologizm» adını almış nəzəri-metodoloji konsepsiya oldu. Həmin konsepsiya məhz E.Durkheymin əsərlərində dolğun ifadəsini tapmışdı. Sosioloji ədəbiyyatı diqqətlə dyrənən, sosial-fəlsəfi jurnallarda əməkdaşlıq edən E.Durkheym 1887-ci ildə Bordo Universitetində sosial elmlər kursunu oxumağa dəvət olunmuş, 9 il sonra – 1896-cı ildə həmin universitetdə Fransada ilk pedaqogika və sosial elmlər kafedrasına rəhbərlik etmişdir. Onun «İctimai əmək bölgüsu haqqında», «Sosioloji metod qaydaları», «Tərbiyə və sosiologiya», «Sosiologiya dərsləri», «İntihar» və s. əsərləri xüsusilə məşhurlaşmışdır. E.Durkheym 1902-ci ildən taleyini Sorbonna universiteti ilə

bağlımış, nüfuzlu sosioloji məktəb forimalaşdırmışdır. Fransa cəmiyyətşünaslığında möhkəm mövqelər qazanmış həmin məktəb cəmiyyətin yenidən qurulması və təkmilləşdirilməsinin sîsiîlîji bàõımdan əsaslanldırılmasında ciddi rol oynamışdır. Pozitivist konsepsiyaya uyğun olaraq, formalaşan sosiologiya yeni inam simvolu, yeni ideologiya olmalı, ictimai həmrəyliyin möhkəmlənməsinə kömək göstərməli idi. Onun fikrincə, peşəkar korporasiyalar yaradılmalı və ictimai həmrəyliyin iqtisadi-istehsal əsası olmalıdır.

E.Dürkheym belə hesab edir ki, sosiologiya xüsusi keyfiyyətlərə malik olan sosial reallığı öyrənməlidir. Sosial reallığın ünsürləri sosial faktlardır. Cəmiyyəti formalaşdıran bu faktlar sosiologiyanın predmetini təşkil edir. Onun fikrincə, sosial faktlar fərdə təzyiq göstərməyə qadirdir, öz xüsusi mövcudluğuna malik olan hər cür fəaliyyət tərzidir. Bu faktlar iki qismə ayrılır: 1) morfoloji faktlar cəmiyyətin bir növ maddi, kəmiyyət aspektini təşkil edir (məsələn, cəmiyyətin əsas ünsürlərinin sayı və xarakteri, əlaqələndirilməsi üsulları, əldə edilmiş birlik dərəcəsi, əhalinin ərazi üzrə bölgüsü); 2) kollektiv şüur faktları (kollektiv təsəvvürlər) isə cəmiyyətin mənəvi, keyfiyyət aspektini təşkil edir.[8] Bu faktların məcmusu «daxili sosial mühiti» formalaşdırır.

Durkheym ictimai elmlər sistemində sosiologiyaya mərkəzi yer ayırırdı. Onun fikrincə, sosiologiya sosial faktları tədqiq etməklə kifayətlənmir, həmin elmləri metodla və nəzəriyyə ilə silahlandırır. Deməli, müxtəlif ictimai elmlər sosiologiyanın bir növ bölmələri hesab edilir. Empirik baza sosial hadisələrini izah etmək üçün bünövrə kimi təsəvvür olunur.

---

[8]Qərbi Avropada və ABŞ-da sosiologiya tarixi.Ali məktəblər üçün dərslik. Bakı: Turan Nəşrlər evi, 2010. –S.-191-192.

E.Durkheymin fikrincə, fərdlə müqayisədə cəmiyyət daha zəngin məzmuna malik olan reallıqdır. O, «sosiologizmi» cəmiyyət nəzəriyyəsi kimi əsaslandırırdı. Əslində «sosiologizm» sosial reallığın muxtarlığını, spesifikliyini, fərdlər üzərində üstünlüyünü təsbit edirdi. Durkheym sosiologiyada səbəb, funksional, müqayisəli, tarixi təhlildən, bilavasitə və vasitəli müşahidədən istifadə olunmasına xüsusi əhəmiyyət verirdi. Onun fikrincə, sosiologiya təsvirçilikdən qaçmalı, təhlilin nəzəriyyə və metodologiyasını işləyib hazırlamalıdır.

Qeyd etmək lazımdır ki, E.Durkheym cəmiyyətdə sosial həmrəylik probleminə xüsusi əhəmiyyət verirdi və belə hesab edirdi ki, bu problem əmək bölgüsü ilə bilavasitə bağlıdır. Məhz əmək bölgüsü ictimai bütövün fəaliyyətini təmin edir, onun saxlanılmasını, möhkəmlənməsini şərtləndirir. E.Durkheymin fikrincə, bəşər tarixi əslində mexaniki həmrəylikdən üzvi həmrəyliyə doğru mürəkkəb bir yol keçmişdir. Arxaik cəmiyyətlərdə həmrəylik onları təşkil edən fərdlərin oxşarlığı, onların yerinə yetirdikləri funksiyaların yeknəsəkliyi, fərdi xüsusiyyətlərin qeyr-yetkinliyi ilə səciyyələnir. Burada kollektiv şüur fərdin bütün həyatını nizamlayır; qanunu və ya adəti pozan şəxs ciddi cəzalandırılır. Əmək bölgüsü inkişaf etdikcə müxtəlif, fərqli funksiyalar meydana gəlir. Insanların cəmiyyətdə xüsusi ixtisas-peşə funksiyalarını yerinə yetirməsi meyli güclənir. Nəticədə ictimai şüur güclənən əmək bölgüsunə uyğunlaşmaq üçün funksional baxımdan diferensiallaşır. Getdikcə güclənən əmək bölgüsü fərdlər arasında fərqləri şərtləndirir. Hər kəs başqasında asılı olduğunu, hər şeyin ictimai münasibətlər sistemi ilə əlaqələnməsini başa düşür. Bu, həmrəylik hissini doğurur, onun möhkəmlənməsinə səbəb olur. Nəticədə kollektiv şüur məzmun etibarilə daha çox rasoinal, fərdə istiqamətlənmiş şüura çevrilir. Fransız mütəfəkkiri həmrəyliyi yüksək əxlaqi prinsip, ali dəyər kimi nəzərdən keçirirdi.

O, əmək bölgüsünün səbəbini əhali artımı ilə izah edirdi; əhali artımı ictimai həyatın intensivliyini artırır, nəticə etibarilə əmək bölgüsünün inkişafının şərtləndirir. E.Durkheym cəmiyyətin inkişafında böhranlı məqamları doğuran və gücləndirən halları əmək bölgüsünün «qeyri-normal» formaları kimi dəyərləndirirdi. Belə hallarla sırasnıda o, anomiyanı (anomiya fərdlərin davranışının dəqiq əxlaqi tənzimi olmayan ictimai vəziyyətdir), sosial bərabərsizliyi və əmək bölgüsünün qeyri-adekvat təşkilini aid edirdi. Durkheym eyni zamanda mütərəqqi əmək bölgüsünü şəxsiyyətin inkişaf mənbələri və imkanları baxımından nəzərdən keçirirdi. Onun fikrincə, belə şəraitdə şəxsiyyət öz qabiliyyətlərini sərbəst surətdə inkişaf etdirmək, ahəngdarlığa və bütövlüyə nail olmaq imkanı qazanır. Cəmiyyətin təkmilləşdirilməsi, onun bütün münasibətlərinin hüquqi və əxlaqi baxımdan tənzimlənməsinin yaxşılaşdırılması başlıca məqsəd olmalıdır.

E.Durkheymin təlimində mühüm məqamlardan biri onun «sosiologizm» prinsiplərini intihar səbəblərinin tədqiqinə tətbiq etməsidir. O, intiharlarda sosial mühiti başlıca səbəb kimi nəzərdən keçirir, eyni zamanda onların fərdi amillərinə, psixoloji motivlərinə də diqqət yetirirdi. Onun fikrincə, sosial mühitin müxtəlif komponentləri (dini etiqadlar, ailə, siyasi həyat, peşə qrupları və s.), müxtəlif vəziyyətləri intihar faizinin dəyişməsinə səbəb olur. Apardığı araşdırmalar nəticəsində o, intiharların 4 növünü müəyyənləşdirmişdir: 1) eqoist – fərdin cəmiyyətdən uzaqlaşmasını şərtləndirən səbəblərlə törədilir; 2) altruist – şəxsi mənafelər sosial mənafelər tərəfindən tamamilə udulduqda özünü göstərir; 3) anomik – əsasən iri sosial sarsıntılar, iqtisadi böhranlar zamanı təzahür edir; 4) fatalist – qrupun fərd üzərində güclü nəzarəti, «nizamlanmanın» artıqlığı nəticəsində meydana gəlir. Göründüyü kimi, E.Durkheym intiharları niyyətli və şüurlu akt kimi araşdırır, yəni ayrı-ayrı

fərdlər intiharı sosial şəraitdən, sosial nizamdan asılı olaraq həyata keçirirlər. Mütəfəkkirin apardığı bu tədqiqatlar deviant davranış təzahürlərinin geniş, əsaslı sürətdə öyrənilməsinə ciddi təkan vermişdir.

E.Durkheymin intiharlara dair araşdırmaları sosiologiyada kəmiyyət təhlilinə geniş yol açmış, onun xüsusi metodikalarının, texnikalarının inkişafına müəyyən kömək göstərmişdir.

Mütəfəkkirin mühüm xidmətləri sırasında onun əxlaqın və dinin fəlsəfi-sosioloji konsepsiyasını işləyib hazırlaması da qeyd olunmalıdır. O, həm əxlaqın, həm də dinin sosial mahiyyətini etiraf edir, onların mənbəyini fərddən üstün olan cəmiyyətdə görürdü. Durkheymin fikrincə, əxlaq və din fərqli fenomenlər olsa da, qrupun həmrəylik qüvvəsini artırır, onun ümumi şüurunu möhkəmləndirir. Apardığımız yığcam təhlil belə deməyə əsas verir ki, E.Durkheym sosiologiya elminin bir çox mühüm, fundamental problemlərini ciddi şəkildə araşdırmış, maraqlı nəticələr əldə etmişdir. Təsadüfi deyildir ki, o, «müasir sosiolgiyanın atalarından biri» kimi dəyərləndirilir, onun ideyalarının indi də kəskin mübahisələr doğurduğu qeyd olunur.[9]

Sosioloji fikrə xas olan ideyaların zənginliyi Almaniyada xüsusilə aydın müşahidə olunurdu. Bu baxımdan Ferdinand Tönnisin, Georq Zimmelin, Karl Marksın, Maks Veberin və başqalarının sosioloji konsepsiyalarının qısaca nəzərdən keçirilməsi məqsədəuyğundur.

**F.Tonnis** (1855-1936) elmi maraqlar dairəsi kifayət qədər geniş olan, müxtəlif sosial fənlərin problemlərini araşdıran bir mütəfəkkir kimi sosiologiya tarixində dərin iz qoymuşdur. O, Hobbs, Leybnis, Spinoza, Nitşe, Spenser, Marks və başqaları

[9] Большой толковый социологический словарь. Том 1, М.: Издательство «Вече», 2001.- С.202.

haqqında ciddi tədqiqatların müəllifidir. Onun sosioloji konsepsiyası 1881-ci ildə yazdığı «İcma və cəmiyyət» (Mədəniyyət fəlsəfəsinin teoremi)» adlı əsərində özünün dolğun ifadəsini tapmışdır. F.Tonnis sosial əlaqələrin iki tipini fərqləndirir və qarşı-qarşıya qoyurdu: 1) icma münasibətləri (buraya qəbilə münasibətləri; birgəyaşayışla səciyyələnən qonşuluq münasibətləri və mənəvi yaxıqnlığa və ya qohumluğa əsaslanan dostluq münasibətləri aid edilirdi); 2) ictimai münasibətlər (bu münasibətlər rasional mübadiləyə, sahiblikdə olan şeylərin əvəz edilməsinə əsaslanır). Ictimai münasibətlər qismən icma münasibətlərinə istinad etsə də, onların subyektləri çox fərqlidir – müxtəlif növ qruplar, kollektivlər, birliklər, dövlətlər. Hər iki tipə aid olan münasibətlər həm fərdlərin bir-birinə, həm də cəmiyyətə münasibətini səciyyələndirir. İcmada sosial bütöv hissələrdən əvvəl gəlir, cəmiyyətdə isə əksinə, sosial bütöv hissələrin məcmusudur. F.Tönnis belə hesab edirdi ki, sosial həyatın təşkilinin bu iki tipinin əsasını iradənin iki tipi təşkil edir: Vessenville və Kurville. Vessenville – mahiyyət iradəsidir, sosial həyatın ən əhəmiyyətli aspektini ifadə edir. Kurville isə sosial iradənin zəifləməsini, onun çoxsaylı xüsusi suveren iradələrə parçalanmasını ifadə edir.[10]

F.Tonnis formal sosiologiyanın banisi sayılır. O, güman edirdi ki, universal, ümumən məqbul sosial idraka nail olmaq mümkündür. Onun fikrincə, məntiqi cəhətdən ciddi tədqiqat aparmaq, ümumən əhəmiyyətli idraka nail olmaq mənasında sosial hadisələrin obyektivləşdirilməsinə ehtiyac vardır. Obyektivləşdirmə vasitələri abstraktlaşdırma, ideallaşdırma, ideal tiplərin quraşdırılmasıdır. Həmin tiplər anlayış «ölçüləri» kimi

---

[10] Qərbi Avropada və ABŞ-da sosiologiya tarixi. Ali məktəblər üçün dərslik. Bakı: Turan Nəşrlər evi, 2010.- S.-145.

çıxış edir, sosial gerçəkliyə yol açır, onun öyrənilməsinə imkan yaradır. F.Tönnisə görə, quraşdırılmış anlayışlarla empirik gerçəkliyi eüniləşdirmək yolverilməzdir. Onun yanaşması cəmiyyətin təbii vəziyyəti ideyasına haqq qazandırır. İcma və cəmiyyət sosial formaların təsnifatının əsas meyarı kimi çıxış edir. F.Tönnis sosial həyatın formalarını üç tipə ayırırdı: 1) sosial münasibətlər; 2) qruplar; 3) korporasiyalar və ya birliklər. Sosial münasibətlər iştirakçılar tərəfindən hiss və dərk edildikdə, zəruriliyi başa düşüldükdə, məqsəd və vəzifələri təsəvvür edildikdə formalaşır; iştirakçılar 2 nəfərdən artıq olduqda «sosial dairə» yaranır – bu, qrupa keçid pilləsidir. Qrup o zaman yaranır ki, fərdlərin birləşməsi onlar tərəfindən müəyyən məqsədə nail olmaq üçün zəruri cəhət kimi dəyərləndirilir. Korporasiya isə elə sosial formadır ki, o, daxilən təşkil edilmişidir, yəni ayrı-ayrı fərdlər artıq müəyyən funksiyalar yerinə yetirirlər.[11]

Alman mütəfəkkiri cəmiyyətdə sosial normalara ciddi əhəmiyyət verirdi. O, həmin normalara sosial nizam, hüquq və əxlaq normalarını aid edirdi. Onun fikrincə, sosial nizam normaları ümumi nizam qaydaları zəminində, hüquq normaları adətlər, yaxud formal qanunvericiliyin yaadılması əsasında, əxlaq normaları isə dinlə və ictimai rəy sayəsində qərarlaşır. Lakin reallıqda onlara xalis şəkildə təsadüf olunmur, deməli, onlar analitik xarakter daşıyır.

Alman sosioloqu **Georq Zimmelin** (1858-1918) də görüşləri xüsusi maraq kəsb edir. Sosiologiya, Zimmelə görə, digər sosial elmlərin məşğul olduğu predmetlərlə deyil, bu predmetin məzmununu ehtiva edən elmi üsulla təşkil olunmalıdır. Bu nöqteyi-nəzərdən hər bir sosial elmin bütün predmetləri ictimai həyatın öz məcrası ilə davam etdiyi xüsusi

---

[11] Yenə orada, s.148-149.

quruluşa malik "kanallar" olmalıdır. Zimmelin təklif etdiyi sosial baxışa görə isə bu elmlərin hər birinin tədqiq edə bilmədiyi qanunauyğunluqların öyrənilməsi şərtdir.

Sosial metodun hədəfi – sosial elmlərin ortaq predmetindən "sosiallaşma" və ya ünsiyyətin təmiz formasını əldə etmək, onu sistemləşdirmək və tarixi inkişaf baxımından təsvir etməkdir.

Zimmelə görə onun konsepsiyası bir tərəfdən sosiologiyanın digər sosial elmlərdən dəqiq ayrılmasını təmin edir – belə ki, o "sosiallaşma"nın təmiz formasını öyrənir – digər tərəfdən isə sosial metodun mümkün tətbiq olunduğu cəmiyyət haqqında elmlərlə təbiət haqqında elmlər arasında sərhəd müəyyənləşdirməyə imkan yaradır.

G.Zimmel sosiologiyanın bir metod kimi ictimai elmlərdə tətbiqi praktikasını ümumi sosiologiya, sosiasiyanın xalis formalarının sistemləşdirilməsini və təsvirini isə xalis, yaxud formal sosiologiya adlandırırdı. Formal sosiologiya, onun fikrincə, xüsusi sosial elmlərin idrak nəzəriyyəsi olmalıdır, yəni metodoloji funksiya yerinə yetirməlidir. Bu sosiologiyanın əsas anlayışları forma və məzmundur. Məsələn, Zimmel hökmranlıq, tabelik, rəqabət, əmək bölgüsü, partiyaların yaranması və s. kimi hadisələrin reallıqdan hasil edilmiş formalar kimi təqdim edir və göstərirdi ki, bu formalar müxtəlif qruplarda, təşkilatlarda təkrar istehsal olunur və müvafiq məzmunla dolğunlaşır.

G.Zimmelin fikrincə, intellektuallaşma pul təsərrüfatının inkişafı ilə sıx bağlıdır. İntellektualizm və pul təsərrüfatı mütəfəkkirin tarixi sosioloji konsepsiyasının əsas anlayışlarıdır. Onlar eyni zamanda daha mücərrəd sosiasiya formaları kimi nəzərdən keçirilir. Tarixi təkamül prosesində ən ümumi yadlaşma güclənir, nəticədə insanlar öz xüsüsilik keyfiyyətlərini itirirlər. G.Zimmel mövcud cəmiyyətin mənəvi aləmini kəskin

tənqid etmişdir. O, mədəni normaların korlanmasını, sosial normaların yoxsullaşmasını və həyatın maddi dinamikasını təmin edə bilməməsini xüsusi vurğulayırdı.

Almaniyada, ümumiyyətlə, Qərbdə məşhur və nüfuzlu sosial mütəfəkkirlərdən biri **Karl Marks** (1818-1883) olmuşdur. Onun işləyib hazırladığı təlim (marksizm) müxtəlif ölkələrdə geniş yayılmış, özünə xeyli tərəfdarlar tapmışdır. Marks cəmiyyətin bütöv bir sistem olması fikrini ciddi sürətdə əsaslandırmışdır. Onun fikrincə, ictimai-iqtisadi formasiyalar ümumdünya tarixinin ardıcıl olaraq bir-birini əvəz edən dövrlərinə uyğun gəlir. Bu formasiyalar bir-biri ilə qarşılıqlı əlaqədə olan elementlərdən ibarət olub, qeyri-sabit tarazlıq vəziyyətinə malikdir. İnsanlar öz həyatlarının ictimai istehsalında maddi məhsuldar qüvvələrin müəyyən pilləsinə uyğun gələn istehsal münasibətlərinə daxil olurlar. Bu münasibətlərin məcmusu cəmiyyətin iqtisadi strukturunu, real bazisini təşkil edir; həmin bazis üzərində yuridik və siyasi üstqurum yüksəlir. Bu bazis ictimai şüurun müəyyən formaları uyğun gəlir. «Maddi həyatın istehsal üsulu ümumiyyətlə proseslərini şərtləndirir… Insanların ictmiai varlığı onların şüurunu təyin edir».[12]

K.Marks belə hesab edirdi ki, sosial-iqtisadi inkşaf müəyyən qanunlara uyğun olaraq baş verir. Ziddiyyətlər, əskiklərin mübarizəsi inkişafın hərəkətverici qüvvəsinin mənbəyidir. Sosial inqilablar sosial inkişafın zəruri, labüd elementidir. Çünki bu inqilablar daha mütərəqqi olan ictimai-iqtisadi formasiyaya keçidi, ictimai münasibətlərin keyfiyyətcə dəyişməsini təmin edir.

Marksizm təlimində siniflər və sinfi mübarizə mərkəzi yer tutur. Marksa görə, siniflər qeyri-bərabər vəziyyətdə olan, bir-biri ilə mübarizə aparan sosial qruplardır. O, yaşadığı

---

[12] Маркс К., Энгельс Ф. Сочинения. Т.13, с.67.

cəmiyyətdə proletariatı və burjuaziyanı antaqonist siniflər kimi nəzərdən keçirir, proletariatın qalib gələcəyinə, sinfi bölgünün olmayacağı kommunizm formasiyasının qərarlaşacağına inanırdı.

K.Marks insan və cəmiyyət probleminə ciddi diqqət yetirir və belə hesab edirdi ki, məhsuldar qüvvələr inkişaf etdikcə insan özünün yaratdığı mahiyyətlərdən uzaq düşür: ən ümumi miqyasda özgələşmə prosesi baş verir. Buna son qoymaq üçün ən yüksək ictimai-iqtisadi formasiyaya keçilməsi təmin olunmalıdır. Sosial-tarixi inkişaf buna doğru gedir.

Zənnimizcə, K.Marksın təsirin öz üzərində hiss edən, lakin ona həm də tənqidi yanaşan G.Zimmelin qeydləri marksizmə münasibət baxımından kifayət qədər əhəmiyyətlidir. Zimmel etiraf edirdi ki, tarixi inkişafa dair marksist təlimdə «pozitiv məzmun» vardır, lakin bu təlimdə «quraşdırma» məqamları da mövcuddur.[13]

**Maks Veberin** (1864-1920) "dərk edən" sosiologiyası. Sosiologiyanın əsas mövzusu kimi Veber bir "bütünü" (cəmiyyəti) deyil, şüurlu fəaliyyət göstərən fərdi görürdü. Veberə görə ictimai institutlar – hüquq, dövlət, din və s. sosiologiya tərəfindən hər bir fərd üçün mühüm olan aspektdən araşdırılmalıdır. O, cəmiyyətin fərdlərdən daha önəmli olduğu fikrini qəbul etmir, fərdin bəşəri davranışlarını əsas götürməyi "tələb edirdi". Burada Veberin metodoloji individualizmindən bəhs etmək olar. Veber mütləq individuallığı əsas götürmürdü. O, sosial davranışın həlledici məqamı kimi "şəxsin digər fərd və ya onu əhatə edən fərdlərə qarşı münasibətini" hesab edirdi. Nəzəriyyənin bu hissəsi, yəni "fərdin digər fərdlərə təsiri" onun

[13] Qərbi Avropada və ABŞ-da sosiologiya tarixi.Ali məktəblər üçün dərslik. Bakı: Turan Nəşrlər evi, 2010.-S.-178.

nəzəriyyəsinin tərkib hissəsi olmasaydı, Veberin fikirləri "robinzon ada modeli" olaraq qalardı. Bu "digər fərdə yönəlmə, istiqamətlənmə" anlayışı özünü"sosial mənsubiyyətdə", xüsusilə dövlət, hüquq, ittifaq və s. bu cür anlayışlarda da göstərir. Beləliklə "digər fərdə istiqamətlənmə" Veber sosiologiyasının əsas metodoloji prinsiplərindən birinə çevrilmişdir.

Veberə görə sosiologiya "anlayışlıdır", çünki fərdin məna kəsb edən davranışlarını öyrənir. İnsanın hərəkəti yalnız iki halda sosial hərəkət xarakteri alır: fərdin subyektiv motivasiyası və digərlərinə istiqamətlənməsi. Motivasiya anlayışı subyektiv məna kəsb edən və digər insanların hərəkətlərinə şamil oluna bilən bir anlayış olub, sosial tədqiqatların vacib məqamlarındandır. Bu anlayışı izah etmək üçün Veber odun doğrayan insanı misal gətirir. Belə ki, odun doğramağı yalnız fiziki fakt kimi qəbul etmək olar, bu zaman müşahidəçi odun doğrayanı deyil odunun doğranmasını qəbul edir. Həmçinin, odun doğrayanın hərəkətlərini müşahidə edib, onu şüurlu canlı varlıq kimi qəbul etmək olar. Nəhayətdə belə bir variant da mümkündür ki, diqqət mərkəzində fərdin proses zamanı keçirdiyi subyektiv hisslər ola bilər, bu zaman suallar yaranır: "Bu şəxs təyin olunan plan üzrə hərəkət edir?, Bu plan nədir?, Motivləri nədir?, Bu hərəkətlər onun özü tərəfindən hansı kontekstdə qəbul edilir?". Məhz təməlində fərdin digər fərdlərlə qarşılıqlı əlaqəsinin dayandığı bu "idrak" növü həyatda real sosial əlaqələrin əsasını təşkil edir. Veber yazır ki, sosial hərəkət "subyektiv mənası digər insanların davranışlarına yönəlmiş" hərəkətdir. Buna görə də fərd kütlənin atomu kimi təqlidi hərəkət edərsə və ya hər hansı təbiət hadisəsinə qarşı standart reaksiya verərsə (məsələn, bir çox insan yağış vaxtı çətir açırsa) bu, sosial hərəkət hesab oluna bilməz.

Veberin fikrincə, sosiologiyanın predmeti bilavasitə davranış deyil, onun məna kəsb edən nəticəsi olmalıdır. Belə ki,

kütlə hərəkatının xüsusiyyətləri böyük ölçüdə kütləni təşkil edən fərdlərin əsas götürdüyü semantik parametrlərlə müəyyən olunur.

Veber sosial hərəkətin mümkün növlərini sadalayarkən, dörd növü əsas alır: məqsədli (rasional), dəyər əsaslı, affektiv, ənənəvi.

1. *Məqsədli (rasional) hərəkət* hərəkəti icra edənin nə istədiyini və hansı vasitələrlə bunu əldə edə biləcəyini aydın dərk etməsi ilə xarakterizə olunur. İcraçı ətrafdakıların mümkün reaksiyasını və bu reaksiyanı öz məqsədləri üçün necə istifadə edə biləcəyini və s. hesablayır (Bu, körpü tikən mühəndisin, pul qazanmağa can atan dəllalın, qələbə qazanmaq istəyən generalın hərəkətləridir. Burada subyekt öz qarşısına aşkar hədəf qoyur və ona nail olmaq üçün müvafiq vasitələri tətbiq edir).

2. *Dəyər əsaslı hərəkət* etik, estetik, dini və ya fərqli anlaşılan dəyərə şüurlu inancla bağlanaraq və nəticəsindən asılı olmayaraq, edilən hərəkətdir (bu, gəmisini tərk etməkdən imtina edərək boğulan kapitanın, duel tərəflərinin və s. hərəkətidir).

3. *Affektiv hərəkət* emosional halla bağlı olub, affekt vəziyyətində yerinə yetirilir (Futbolçuların oyun zamanı davaları və s. Burada hərəkət dəyərlər sistemi və hədəflə deyil, emosional reaksiya ilə müəyyənləşir).

4. *Ənənəvi hərəkət* vərdiş, adət və inanclar tərəfindən diktə edilir. Bu hərəkət dərin kök salmış sosial davranış nümunələri əsasında həyata keçirilir.

Veber qeyd edir ki, insan davranışları təsvir olunan bu dörd hərəkət növü ilə məhdudlaşmır. Lakin bunları ən xarakterik hesab etmək olar.

M.Veberin hakimiyyət probleminə baxışları onun sosial fəaliyyət konsepsiyası ilə sıx bağldıır. O, hökmranlığı «müəy-

yən əmrə itaət etmək şansı» kimi dəyərləndirir və onun üç tipini fərqləndirirdi. Hökmranlığın birinci tipi («ideal» tip) güzəşt motivi qismində maraq mülahizələri ilə bağlıdır; bu hökmranlıq tipinin əsasında məqsədli-rasional fəaliyyət dayanır. Qanunlara həm idarə edənlər, həm də idarə olunanlar tabe olurlar. Legitim hökmranlığın ikinci tipi (ənənəvi tip) adətlərə, müəyyən davranışa vərdişlə şərtlənmişdir. Belə hökmranlıq həm qanunçuluğa, həm də qədimdən mövcud olmuş qaydaların, hakimiyyətlərin müqəddəsliyinə olan inama əsaslanır. Deməli, onun əsasında ənənəvi fəaliyyət dayanır. Bu cür hökmranlığın ən xalis tipi patriarxal hökmranlıqdır. İdarəetmə aparatında vəzifəyə təyin olunma və irəliləmə üçün əsas cəhət şəxsi sədaqətdir. Hökmranlığın üçüncü tipi (harizmatik tip) məlum şəxsi başqalarındn fərqləndirən müəyyən fövqəladə, nadir qabiliyyəti əsas götürür. Yunanca harizma-ilahi, vergi, qabilyyət mənasını ifadə edir. Belə hökmranlıq tipi nə isə qeyri-adi olana istinadı nəzərdə tutur. Sosial fəaliyyətin affektiv tipi harizmatik hakimiyyətin əsas bazasıdır. Mahiyyətcə harizmatikin nüfuzu onun istedadının, qabiliyyətinin gücünə əsaslanır.

Veberin yaradıcılığında bürokratiya və cəmiyyətin inkişaf edən rasionallaşma fenomenləri mükəmməl şəkildə tədqiq edilmişdir. Veberə görə rasionallaşma bir neçə fenomenin qarşılıqlı təsirinin nəticəsidir. Bu fenomenlər özlərində antik elmlərin, xüsusilə riyaziyyatın, intibah dövründə əlavə edilmiş eksperimental elm və texnikanın rasional başlanğıcını daşıyırlar. Veber burada rasional Roma qanunlarını, həmçinin, əmək bölgüsü nəticəsində yaranmış təsərrüfat üsulunu fərqləndirir. Bütün bu elementlərin sintezini yaradan amil protestantlıq olmuşdur. Belə ki, məhz protestantlıq dini çağırışlar içərisində öz etikasını ortaya qoyaraq, iqtisadi uğurlara yol açmışdır.

M.Veber din sosiologiyası sahəsində də ciddi tədqiqatlar aparmışdır. Bu tədqiqatların nəticələri onun iki məşhur əsərində («Protestant etikası və kapitalizmin ruhu», «Dünya dinlərinin təsərrüfat etikası»), habelə çoxsaylı məqalələrində əks olunmuşdur. Həmin tədqiqatlarda o, dini-etik prinsiplərlə iqtisadi fəaliyyətin formaları arasında əlaqəyə, qarşılıqlı təsirə xüsuvsi yer ayırırdı. O, eyni zamanda dinlə hakimiyyət formalarının, elmin, fəlsəfənin, incəsənətin və s. qarşılıqlı münsibətlərinə ciddi diqqət yetirirdi. O, kapitalist iqtisadiyyatının inkişafında məhz dini inancların, etik prinsiplərin başlıca stimullar olduğunu sübut etməyə çalışırdı.

Bununla da ənənəvi cəmiyyətdən fərqlənən müasir sənaye cəmiyyəti növü yaranmışdır. Bu cəmiyyət növünün əsas fərqi ondan ibarətdir ki, ənənəvi cəmiyyətlərdə formal-rasional başlanğıc hakim olmamışdır. Formal reallıq – tamamilə keyfiyyət xüsusiyyəti üzərində qurulub, kəmiyyət baxımından hesaba vurula bilən reallıqdır. Veber qeyd edir ki, formal reallıq istiqamətində hərəkət tarixi prosesin ana hərəkətidir.

Sosiologiyanın müstəqil bilik sahəsi kimi təşəkkülü və inkişafında İtaliyada pozitivist sosiologiyanın elmi axtarışları da müəyyən rol oynamışdır. Bu baxımdan ***Çezare Lambrozonun*** (1836-1909), ***Enriko Ferrinin*** (1856-1929) və başqalarının konsepsiyaları, habelə Italiya siyasi sosiologiya məktəbinin ***Qaetano Moska*** (1858-1941), ***Robert Mixels*** (1876-1936) kimi nümayəndələrinin ideyaları getdikcə populyarlaşırdı. ***Vilfredo Paretonun*** (1848-1923) sosiolojgi sistemi həmin dövrün elmi axtarışları baxımından daha səciyyəvidir.

**V.Pareto** belə hesab edirdi ki, sosiologiya müxtəlif ictimai fənlərin – siyasi iqtisad, hüquq, siyasi tarix və din tarixinin sintezi olmalıdır; əsas məqsəd insan cəmiyyətini bütövlükdə öyrənməkdir. O, sosiologiyanı fizika, kimya və astro-

nomiya kimi dəqiq elmlər sırasında görmək istəyirdi. Onun fikrincə, nəzəriyyədə etik məqamlara, dəyər elementlərinə yer verilməməlidir, çünki onlar daim təhriflərə, saxtalaşdırmalara yol açır. Sosial nəzəriyyə cəmiyyətdə fəaliyyət göstərən bütün amilləri nəzərə almalı, onlar arasındakı asılılıq münasibətlərini üzə çıxarmalıdır. Pareto məntiqi-eksperimental metodun əsaslandırılmasını və tətbiqini özünün xidməti hesab edirdi.

İtalyan mütəfəkkirinin sosioloji sistemində cəmiyyət fərdlərin qarşılıqlı təsir sistemi kimi nəzərdən keçirilirdi. O, cəmiyyətə tarazlığı tədricən pozulan və bərpa olunan bir sistem kimi yanaşırdı. Cəmiyyətin bütün hissələri bir-biri ilə sıx bağlıdır, onun bir hissəsində baş verən dəyişikliklər dinamik tarazlıq bərpa olunanadək onun digər hissələrinə ötürülür, bütün sistemin fəaliyyətini şərtləndirir. Fərdlərin psixi vəziyyəti və xüsusiyyətləri ilə şərtlənnə hisslər bütün sistemi hərəkətə gətirən əsas qüvvədir.

V.Pareto sosial fəaliyyəti məntiqi və qeyri-məntiqi fəaliyyətə bölürdü. Onun fikrincə, qeryi-məntiqi fəaliyyət hisslərin xüsusi məntiqinə əsaslanır. İnsanın emosional vəziyyəti, irrasional psixi proses burada başlıca cəhətdir. Qeyri-məntiqi fəaliyyət göstərən şəxs hadisələr arasındakı həqiqi obyektiv əlaqəni bilmədiyindən məqsədə çatmaq üçün qeyri-adekvat vasitələrdən istifadə edir. Məntiqi fəaliyyət isə hisslərə deyil, zəkaya əsaslanır və normalarla tənzimlənir. Belə fəaliyyət zamanı məqsəd və vəzifələr mövcud olan əlaqələrə əsaslanır və obyektiv məntiqlə bağlıdırlar, seçilən vasitələr də məqsədə adekvatdır.

Pareto fəaliyyətdə təzahür edən hissləri dəyişməz, daimi hesab edir, onları mühitdə tarazlığı şərtləndirən elementlər kimi qiymətləndirirdi. O, həmin elementləri «qalıqlar» və ya «çöküntülər» adlandırır, onların dayanıqlığını, sosial fəaliyyətdən bütün rasional düşüncələr çıxarıldıqdan sonra da qala bil-

mələrini vurğulayırdı. «Qalıqlar» anadangəlmə, təbii, kənar şəxslərin təsirinə məruz qalmayan xarakterə malik olub, insanın sosial davranışını müəyyənləşdirən daxili bioloji impulslarıdır. Beləliklə, italyan mütəfəkkirində rasionallıq ideyası biopsixoloji yönümlü irrasionalizmlə əvəzlənir.

V.Paretonun ideoloji konsepsiyası da onun sosioloji sisteminin ümumi ruhuna uyğundur. Onun fikrincə, ideologiya fəaliyyətin qeyri-məntiqi xarakterini ört-basdır etmək üçün nəzəri formaya salınmış bir öztükdür. Onun kökləri insan psixikasının irrasional qatlarında yerləşir. Istənilən ideologiya zahirən fəaliyyətə məntiqi xarakter vermək və onun əsil motivlərini gizlətmək məqsədi güdür. Pareto yanlış məzmunlu ideoloji sistemləri derivasiyalar adlandırır, onların «qalıqlar» adlandırdığı hisslərdən törəmə olduğunu nəzərə çarpdırırdı.[14] İdeologiyalar reallığa uyğun gəlməsələr də, böyük sosial əhəmiyyət kəsb edirlər. Mütəfəkkir ideologiyaların fəal rolunu, səfərbəredici gücünü xüsusi qeyd edir, təhtəlşüur psixologiyasının bəzi ideyalarına diqqət yetirirdi.

Paretonun elita nəzəriyyəsi də maraqlı ideyalarla zəngindir. O, öz fəaliyyəti sahəsində yüksək göstəricilərə malik olan insanları elita adlandırırdı. Onun fikrincə, əhalinin seçmə hissəsi olan elita iki hissəyə ayrılır: birincilər («hakim elita») bilavasitə cəmiyyətin idarə olunmasında iştirak edirlər, digər hissə («qeyri-hakim elita») isə idarəetmədə iştirak edir, lakin bədii və ya elmi sahədə fəaliyyət göstərir. Elita cəmiyyətin ali, qeyri-elita is aşağı təbəqələrini təşkil edir. Aşağıların ən qabiliyyətli, istedadlı təmsilçiləri hakim elitanın sıralarını tamamlayırlar. Elitanın bəzi təmsilçiləri də deqradasiyaya uğrayaraq, aşağıların, kütlələrin səviyyəsinə enirlər. Cəmiyyətin üzvləri

[14] Современная Западная социология: словарь. М.: Политиздат, 1990.- С.254-255.

arasında qarşılıqlı əlaqə prosesində elitanın dövranı təzahür edir. Hakim elitanın açıq olması onun sağlamlığı, hakimiyyəti qorumaq bacarığı üçün mühüm şərtdir. Qapalılıq süquta meyilliliyi gücləndirir. Hakim elita (və ya sinif) aşağı sinif hesabına həm kəmiyyətcə, həm də keyfiyyətcə, habelə özünün zəifləmiş üzvlərini itirməklə bərpa olunur. Lakin adətən hakim elita zəif transformasiya şəraitində yaşayır. Tam qapalı elita isə kastaya çevrilərək öz süqutuna zəmin yaradır. Paretoya görə, elitanın qalxması və enməsi, yüksəlməsi və süqutu labüddür. Elitanın dəyişilməsi, əvəzlənməsi bəşər cəmiyyətinin mövcudluğunun qanunudur. İnandırma və aldatmadan, hiyləgər vasitələrdən istifadə edən hökmdarlar («tülkülər») əslində bu günlə yaşayanlar, avtoritarlığa, kompromistlərə şübhəli yanaşan hökmdarlar («şirlər») isə gələcəyə istiqamətlənmişlər. Təsadüfi deyildir ki, Pareto N.Makiavellini yüksək qiymətləndirir və onun «Məqsəd vasitələrə haqq qazandırır» aforizminə tez-tez müraciət edirdi. Bütövlükdə onun ictimai-tarixi konsepsiyası son dərəcə pessimist xarakterə malikdir.[15] Lakin buna baxmayaraq, V.Paretonun «Siyasi iqtisad kursu», «Sosialist sistemləri», «Ümumi sosiologiya traktatı» və s. kimi əsərləri ciddi və əsaslı təhlillərlə zəngindir, müasir şəraitdə gərginlikləri getdikcə artan dünyamızda əhəmiyyətli, düşündürücü məqamları ilə diqqəti cəlb edir.

---

[15] Qərbi Avropada və ABŞ-da sosiologiya tarixi.Ali məktəblər üçün dərslik. Bakı: Turan Nəşrlər evi, 2010.-S.-326.

## 4. Qərb sosiologiyasının əsas istiqamətləri

Sosiologiyanın sonrakı inkişafında tədqiqatların dərinləşməsi, bir sıra aktual problemlərin ayırd edilməsi və mütəxəssislər qrupu tərəfindən araşdırılması müşahidə olunur. Amerikada sosioloji tədqiqatların genişlənməsini və intensivləşməsini, istedadlı və populyar sosioloqlar nəslinin yetişməsini xüsusi qeyd etmək lazımdır. Bu baxımdan milli sosiologiya məktəblərinin formalaşması və ciddi araşdırmalar aparması diqqəti cəlb edir. Məsələn, Çikaqo məktəbi Şimali Amerika sosiologiyasında ilk institusional akademik məktəb olmuşdur. Bu məktəb XX əsrin birinci rübündə ABŞ sosiologiyasını yetərincə təmsil edə bilirdi. Onun metodoloji mövqeləri praqmatizm fəlsəfəsinin təsiri ilə formalaşmışdı. Məktəb 1892-ci ildə Çikaqoda yeni universitet yarandığı vaxtdan təsis edilmiş sosiologiya departamenti bazasında təşəkkül tapmışdır. O, dünyagörüşü baxımından Amerikanın həyatında üstünlük təşkil edən protestant dini ənənələrinə, sosial baxımdan islahatçılıq ideyalarına, habelə çoxaspektli empirizmə əsaslanırdı. Amerikada 1889-cu ildə ilk ixtisaslaşmış sosiologiya jurnalının yaranması da Çikaqo məktəbinin fəaliyyəti ilə bağlıdır. Jurnalda bu məktəbin başlıca tədqiqat istiqamətləri özünün geniş əksini tapırdı. Həmin istiqamtələr isə son dərəcə müxtəlif idi: etnik mühacir qruplarının həyatı, qaradərili amerikalıların durumu və köləlik, mətbuat, ailə, irqi şüur, şəxsiyyətin təşəkkülü və inkişafı, sosial özünütəcrid, qadın mobilliyi, qarışıq nikahlar, boşanma, deviant və marginal darvanış və s. Məktəb intensiv urbanizasiya şəraitində ictimai rəyin formalaşdırılması və sosial proseslərin səmərəliliyi problemlərinin tədqiqinə xüsusi diqqət yetirirdi.

Lakin Çikaqo məktəbi ötən əsrin 30-cu illərindən etibarən ABŞ-ın sosiologiya elmində özünün müstəsna mövqeyini itirir.

Bunun səbəbləri müxtəlifdir: sosiologiyanın başqa mərkəzlərdə də inkişafı, tədqiqat metodlarına münasibətdə fikir ixtilaflarının, ziddiyyətlərinin yaranması, Kolumbiya və Harvard universitetlərinin nüfuzunun güclənməsi və s. bu qəbildəndir. Qeyd edilən məqamlara baxmayaraq, Çikaqo məktəbi bu gün də mövcuddur, yüksək peşəkar nüfuza malikdir, urbanist sosiologiya, ətraf sosial mühit problemləri üzrə ciddi tədqiqatlar aparmaqda davam edir. Məktəbin banisi ABŞ-da ilk sosiologiya professoru ***Albion Vudberi Smoll*** (1854-1926) olmuşdur. O, C.Dyui, C.H.Mid və T.Veblen ilə sıx əməkdaşlıq şəraitində çalışmış, müasirlərinə çox böyük təsir göstərmişdir. Liberalizmin sosiologiya məktəbinin sosial-fəlsəfi doktrinası kimi qərarlaşmasında Smolla yanaşı Vinsetin, Tomasın, Hendersonun xidmətləri xüsusi qeyd olunmalıdır. Liberalizm, məlum olduğu kimi, fərdin azadlığına və rifahına, cəmiyyətin sosial təşkilini yaxşılaşdırmaqla sosial tərəqqinin, həyat keyfiyyətinin yüksəldilməsinə olan inama xüsusi əhəmiyyət verir. U.Tomasın və F.Znanetskinin çap etdirdikləri «Polşa kəndlisi Avropada və Amerikada» adlı 5 cildlik tədqiqatı dünya sosiologiya elminin klassik əsərləri sırasına daxil olmuşdur.

Çikaqo məktəbində ***Robert Park, Ernest Bercess, Luis Virt, Dennis Smit, Herbert Blumer, Morris Yanovits*** və s. kimi istedadlı sosioloqlar çalışmış, zəngin empirik bazası olan tədqiqatlar ortaya qoymuşlar.[16]

Nyu-Yorkda yerləşən Kolumbiya universiteti ABŞ-ın nüfuzlu elm və təhsil müəssisələrindən biri kimi şöhrət qazanmışdır. O, həm peşəkar kadrların hazırlanmasına, həm də sosial problemlərin akademik tədqiqinə ciddi töhfələr vermişdir. Onun beynəlxalq əhəmiyyətli tədqiqat mərkəzi kimi tanın-

[16] Тернер Дж. Структура социологической теории. М.: Прогресс, 1985.

masında ***Robert Mak-Ayver, Cekob Moreno, Paul Lazarsfeld, Robert Merton*** kimi alimlər mühüm rol oynamışlar.

**R.Mak-Ayver** (1882-1970) demokratik proseslərin, institutların əsaslı, sosial-fəlsəfi və mənəvi prinsiplərinin işlənib hazırlanması sahəsində ciddi uğurlar qazanmışdır. O, nəzəriyyəni tədqiqatın metodoloji silahı hesab edir, fundamental sosioloji anlayışların dəqiqləşdirilməsinə, sosioloji işlərin aydın, ədəbi-bədii, zəngin bir dillə yerinə yetirilməsinə, insanın yaradıcı varlıq olması haqqında nəzəriyyənin inkişafına xüsusi diqqət yetirirdi. Onun başlıca əsərləri – «İcma: sosioloji araşdırma», «Cəmiyyət: onun strukturu və dəyişiklikləri», «Hökumətin şəbəkələri» və s. özünün nəzəri əsaslılığı, geniş empirik materiala istinad etməsi ilə fərqlənirdi.

**Paul Lazarsfeld** (1901-1976) Kolumbiya məktəbinin görkəmli təşkilatçısı və istedadlı nümayəndəsi kimi tanınmışdır. O, sosiologiyada riyazi metodların tətbiqinə və inkişafına ciddi tövfələr vermiş, 1940-cı ildən 1969-cu ildə pensiyaya çıxana qədər Kolumbiya universiteti ilə bağlı olmuşdur. O, həmin universitetdə Tətbiqi sosial tədqiaqatlar burosunu təşkil etmişdir. Büro fəaliyyətinin miqyaslarını və proqramını genişləndirərək peşəkar kadrların hazırlanması və empirik sosial tədqiqatların aparılması sahəsində aparıcı təsisata çevrilmişdi. Lazarsfeld radionun, televiziya və mətbuatın auditoriyaya təsirinin müqayisəli şəkildə öyrənilməsində ciddi nailiyyətlər qazanmışdı. O, sosial-siyasi icmalların təkrar təhlilinə, proqramların kontent-təhlilinə, eksperimental olaraq seçilmiş auditoriyalarda simpatiya və antipatiyaların qeydə alınma vasitələrinə xüsusi diqqət yetirirdi. Lazarsfeldin elmi maraq dairəsində daha çox dörd istiqamət ayırd edilir: kütləvi kommunikasiya vasitələrinin auditoriyaya təsiri, işsizliyin sosial nəticələri, seçiçilərin davranışı və ali təhsilin sosiologiyası. Onun fikrincə, nəzəriyyə və metodika bir-birini tamamlayan sahələrdir.

ABŞ sosiologiyasının müasir inkişaf mərhələsini təmsil edən görkəmli sosioloqlardan biri də **Robert Mertondur** (1910-2003). O, struktur-funksional təhlilin ən görkəmli nümayəndələrindən hesab olunur. Kolumbiya universitetinə eyni vaxtda gələn P.Lazarsfeldin və R.Mertonun əsərləri sübut edir ki, sosiologiya üçün həm nəzəri, həm də metodik-prosedur zəmin çox vacibdir. Merton sosial nəzəriyyə ilə empirik tədqiqatlar arasında qarşılıqlı münasibətlərə xüsusi diqqət yetirməklə cəmiyyətə struktur-funksional yanaşma metodunu təkmilləşdirməkdə davam etmiş, aşkar və latent funksiyalar və disfunksiyalar anlayışlarını işləyib hazırlamışdır. O, puritan düşüncə tərzi ilə elmin tərəqqisi arasında əlaqələri xüsusi olaraq tədqiq etmiş və bu sahədəki başlıca nəticələri «On yeddinci əsrdə Ingiltərədə elm, texnika və cəmiyyət», «Elmin sosiologiyası» əsərlərində əks etdirmişdir. Onun «Kültəvi inandırma», «Nəhənglərin ciynində», «Nəzəri sosiologiya haqqında», «Sosial nəzəriyyə və funksional analiz» və s. əsərlərində ciddi elmi məsələlər qoyulmuş və diqqətlə araşdırılmışdır. Merton sosiologiyada orta səviyyə nəzəriyyələrinin yaranmasını zəruri hesab edərək onların təşəkkül tapması istiqamətində çox iş görmüşdür. Onun fikrincə, orta səviyyə nəzəriyyələri bir-biri ilə qarşılıqlı əlaqədə olan hadisələrin məhdud qrupunu əhatə etməlidir. Belə nəzəriyyələr ümumi sosioloji nəzəriyyə ilə empirik tədqiqatlar arasında əlaqələndirici həlqədir. Onların üstünlüyü bundadır ki, hipotezlərin əsaslılığını empirik tədqiqatların köməyi ilə asanlıqla yoxlamaq mümkündür.

**Sosiometriya** – 1934-cü ildə ABŞ-da psixiatr **C.Moreno** (1892-1974) tərəfindən yaradılmış cərəyandır. Kiçik qrupların öyrənilməsinə yönələn sosiometrik yanaşma tərzi öz diqqətini mərkəzində şəxslərarası münasibətlərin öyrənilməsinin dayandığı kəmiyyət analizi üzərində cəmlənmişdir.

C.Moreno sosiologiya və sosial psixologiyada çox effektiv olan üsul kəşf etmişdir. O, sadəcə qrup üzvlərindən soruşmuşdu ki, öz yoldaşlarına qarşı necə münasibət bəsləyirlər, kim onların xoşuna gəlir, kim isə gəlmir, onlar kiminlə işləyib, kiminlə işləməzdilər. Bu üsul sayəsində qrup üzvləri arasında sosial-psixoloji münasibətlərin mühüm ölçüsü aparılmışdır. Bu üsulun köməkliyi ilə bu münasibətlərin qrafik təsviri və müqayisəsini yerinə yetirmək elə də çətin olmamışdır. Əsas isə Moreno üsulu qrup üzvləri arasında sosial-psixoloji quruluşa daha çox uyğun gələn sosial təşkilatlanmanın yaradılmasına imkan verirdi.

Moreno tərəfindən yaradılmış üsul peşə məktəbində qızlar arasında dost dərnəklərinin yaradılması məqsədilə nəzərdə tutulmuşdu. Sonralar bu üsul digər məqsədlər üçün, o cümlədən qrupda liderlik keyfiyyətlərinin seçilməsi üçün istifadə olunmağa başlamışdır.

Moreno üçün qarşılıqlı münasibətlərin tənzimləyicisi kimi “sosial cazibə amili” və ya “tele” iştirak edirdi. Morenoya görə psixoloji instinktlər və telepatiya ilə təbiətən bağlı olan “cəzbetmələr” və“itələmələr” kollektivin “sosial atomunu”, qrup daxilində şəxsi üstünlüklərin xarakterini və antipatiyasını meydana gətirir.

İnsanların qrup halında emosional münasibətləri cəmiyyətin nüvə quruluşunu təşkil edir və bu quruluş adi müşahidə ilə deyil, yalnız “sosial mikroskopla” görülə bilər. Moreno yazırdı ki, mikrososiologiya faktiki olaraq “sosial mikroskopiya” termini ilə eyni anda yaranmışdır. Sosiometrik üsullarla vəhdət halında o mikrososiologiyanın nəzəri və praktiki təməlini qoymuşdur. Bununla yanaşı, insanlararası münasibətlərin ilkin nüvə quruluşunun öyrənilməsi Moreno tərəfindən əksər makrososial tədqiqatların aparılması üçün başlanğıc və mühüm məsələ hesab edilirdi.

"Sosiometriyanın ümumi nəzəriyyəsi"nin məğzi ondan ibarətdir ki, sosial sistemlər təkcə obyektiv, üzdə görünən münasibətləri (makroquruluş) deyil, subyektiv, əksər hallarda görünməyən emosional münasibətləri də (mikrostruktura) özündə ehtiva edir.

Tətbiqi sosiometriya xüsusi sorğu texnikası və məlumatların işlənməsi nəticəsində (sosiometrik testlər, sosioqəliblər, sosioqramlar, sosiometrik indekslər) kiçik qruplardakı konfliktlərin ləğvi prosesi tərtib olunmuşdur. Kiçik qrupların müasir sosioloji, sosial-psixoloji tədqiqi demək olar ki, hər zaman sosiometriya üsulunu özündə ehtiva edir.

**Rəmzi interaksionizm (qarşılıqlı təsir)** –struktur-funksional makronəzəriyyələrə olan reaksiya nəticəsində meydana gəlmişdir ki, bunlar insanlararası münasibətlərin (interaksiya) sosial strukturun yaradılması və fəaliyyətindəki roluna az əhəmiyyət vermişdir. Bu nəzəriyyənin banisi **C.H.Middir** (1863-1931). O, şəxsiyyət anlayışını sosial məhsul olaraq görür və onun formalaşma mexanizmini müəyyən edirdi. Onun fikrincə, bizim ruhumuz, mənliyimiz "Mənim"dən meydana gəlmişdir ki, bu da dil rəmzləri qabiliyyəti əsasında meydana gələn və digər insanlar tərəfindən görünən görüntüdür. "Mən"in ikinci tərəfi "özümü necə qəbul edirəm" anlayışı C.Mid tərəfindən yaradıcılığın, orijinallığın və sabitsizliyin mənbəyi kimi xarakterizə olunur. "Daxili" ünsiyyət bir kanal yaradır ki, bu kanaldan bütün fəaliyyət obrazları və bütün "xarici" ünsiyyət keçir. Bu düşüncələrin əsasında rəmzi interaksionistlər insan şəxsiyyətinin "ümumiləşmiş başqa" adlanan orijinal konsepsiyasını yaradırlar. C.Mid bu konsepsiyanın mahiyyətini belə izah edir: "oyun oynayan uşaq hər digər iştirakçının yerini tutmağa hazır olmalıdır... İştirakçıların müxtəlif rolları bir-birilə müəyyən əlaqəyə sahib olmalıdır... Əgər o, topla oynayırsa, öz mövqeyi ilə bağlı olan hər bir mövqeyə uyğun görməlidir. O

bilməlidir ki, istənilən digər iştirakçı öz oyun qaydalarını yerinə yetirmək üçün nə edə bilər. O, bütün rolları bilməli və istifadə etməlidir. Təbii ki, onların hamısı eyni anda şüurda mövcud ola bilməz.

İştirakçının özündə cəmləşdirdiyi digər oyunçuların rolları müəyyən vəhdət meydana gətirir və bu vəhdət fərdin yanaşma tərzinə nəzarət edir... Onun hər bir hərəkəti oyunda iştirak edən digər şəxsləri özündə cəmləşdirməklə müşayiət olunur... və başqa cür oyun alına bilməz".

Oyun zamanı uşaq "başqasının" rolunu oynamağı öyrənir, daha sonra yaşıdları ilə oynamağı – öz hərəkətlərini digərləri ilə koordinasiya etməyi və özünü qrupun gözləri ilə görməyi öyrənir. Bunun nəticəsində o, özünü daha geniş məzmunda müşahidə edir ki, bu da "ümumiləşmiş digərinin" rolunu oynamağı öyrənənə qədər, yəni özünü cəmiyyətin gözləri ilə görənə qədər davam edir.

**Fenomenoloji istiqamət.** Sosial dünyanın daxilinə nüfuz etmək üçün fenomenologiyadan istifadənin izahını verməyə çalışan ilk şəxs **Alfred Şuts** (1899-1959) olmuşdur. Onun əsas xidməti insanların bəşəriyyəti təsnifatlandıran vasitələrinin fərdi proses olmadığını sübut etməsidir. Sosioloq insanların predmetləri təsnif etmək üçün istifadə etdikləri anlayışı "tipləşdirmə" adlandırmışdır. "Bank işçisi", "futbol oyunu", "ağac" bunlar hamısı tipləşdirmə növləridir. Bu tipləşdirmələr hər bir insan üçün fərdi əhəmiyyət kəsb etmir, əksinə cəmiyyət üzvləri tərəfindən qəbul olunur, uşaqlara dil öyrədilmə prosesində, kitab oxunan zaman və digər insanlarla ünsiyyətdə ötürülür. Tipləşdirmədən istifadə edərkən insanlar əmin olur ki, dünyanı onlarla eyni cür görən digər insanlarla ünsiyyət qura bilərlər. Zamanla cəmiyyət üzvləri digər insanlarla paylaşıla bilən bir ehtiyat meydana gətirirlər ki, Şuts bunu "şüurlu bilik" adlandırır.

Sosioloq bunu gündəlik həyatda praktiki proseslərin həyata keçirilməsində vacib hesab edirdi. Şuts qeyd edirdi ki, "şüurlu bilikdən əksər cəmiyyət üzvləri istifadə etsələr də, bu, hər zaman dəyişməz olaraq qalmır. Əksinə, şüurlu biliklər interaksiya prosesində mütəmadi dəyişir". Sosioloq etiraf edir ki, hər bir fərd dünyanı özünə uyğun şəkildə izah edir, lakin şüurlu bilik ehtiyatı ən azından digərlərinin fəaliyyətini anlamağa imkan verir.

**Ervinq Hoffman** (1922-1982) öz konsepsiyasını "dramaturji yanaşma tərzi" adlandıraraq, bu cür izah edir: müəyyən vəziyyətlərdə bizim həyata keçirdiyimiz davranışları digər insanlar oynadığımız pyes kimi görürlər; o, diqqətini bu rolun necə oynanıldığına ayırırdı. Həyatın bütün aspektlərini – tam şəxsi məqamlardan ictimai amillərədək teatral terminlərlə təsvir edirdi: pyes, səhnə, aktyor, pərdəarxası, menecer və s. "Tamaşaya rəhbərlik" daimi həyata keçir, sanki insan eyni anda həm rol verən prodüser, həm onu ifa edən aktyor, həm də izləyən rejissordur. Biz predmet çevrəmizi nadir əşya kimi istifadə edir və "şəxsi pərdəarxası" məkanlarımızı səylə qoruyuruq.

Hoffman interpretasiya prosesini "öz "Mən"ini digərlərinə təqdim" kimi təsvir edir, C.Midin "Mən" və "Mənim" anlayışlarından çıxış edir, lakin C.Mid kimi bu "Mən"in nə olduğunu izah etmir. O, "Mən" hər hansı təbiətə malik deyil, onun haqqında heç nə demək olmur, biz onu sadəcə müxtəlif situasiyalarda təqdim edirik ki, bu da bizim həyatımızdır. Nəticədə biz ətrafımızdakıların təşkil etdiyi müxtəlif vəziyyətlər qədər "Mən"ə sahib oluruq.

***Funksionalizm.*****Tolkott Parsonsun** (1902-1979) adı sosial funksionalizmin sinonimidir. Durkheym kimi Parsons da öz işlərində sosial nizam probleminə geniş yer ayırır. O qeyd edir ki, sosial həyat üçün "qarşılıqlı səmərə və sülhpərvər ticarət, düşmənçilik və məhvetmədən daha səciyyəvidir" və

iddia edir ki, yalnız ümumi dəyərlərə sadiq qalmaq cəmiyyətdə nizam-intizamın qorunmasının əsasını təşkil edir. Sosioloq öz görüşlərini kommersiya sazişləri nümunəsi ilə təsvir edir. Saziş əldə olunarkən tərəflər müqavilə bağlayır ki, onların da təməlində normativ qaydalar durur. Parsonsa görə insanların qaydalara riayət etmələri üçün qayda pozuntularına görə tətbiq olunan sanksiyaların qorxusu kifayət etmir, əsas olan-mənəvi öhdəliklərdir. Ona görə də kommersiya sazişlərini istiqamətləndirən qaydalar nəyin doğru, vacib olduğunu bildirən ümumi dəyərlərdən qaynaqlanmalıdır. İqtisadi sistemdə olan qaydalar kommersiya etikası üzərində formalaşır. Biznes sferası Parsonsa görə cəmiyyətin digər tərkib hissələri kimi müəyyən mənada mənəviyyat çevrəsinə də aiddir.

Dəyərlərə qarşı münasibətdə yekdillik cəmiyyətdə təməl inteqrativ prinsipdir. Ümumi qəbul olunan dəyərlərdən ümumi hədəflər yaranır və bunlar konkret vəziyyətlərdə ümumi istiqaməti müəyyənləşdirir. Misal üçün Qərb cəmiyyətində müəyyən təşkilatın üzvləri öz fabriklərində effektiv istehsal hədəflərini bölüşdürürlər və bu, iqtisadi səmərəliliyə ümumi baxışdan qaynaqlanır. Ümumi hədəf əməkdaşlıq üçün təkanverici amilə çevrilir. Dəyər və hədəflərin əmələ çevrilməsi vasitələrini isə rollar müəyyən edir. İstənilən sosial institut bütöv rol kombinasiyalarını özündə ehtiva edir. Həmin rolların mahiyyətini qayda və öhdəliklərin müəyyən etdiyi normaların köməyi ilə ifadə etmək mümkündür. Belə ki, normalar davranışları standartlaşdırır və nizama salır, onu əlçatan edir ki, bu da sosial nizam üçün zəmin təşkil edir.

Parsons konsensusun (həmrəylik) ən əhəmiyyətli ictimai dəyər olduğunu nəzərə alaraq, sosiologiyanın əsas vəzifəsinin "sosial sistemdə dəyərlərin istiqamət nümunələrinin institutlaşdırılmasının" analizi olduğunu bildirir. Nə zamankı dəyərlər institutlaşdırılır və davranış onlara uyğun qurulur, bu zaman

stabil sistem –"sosial tarazlıq" vəziyyəti yaranır. Sosioloqun fikrincə, sosial tarazlığın yaranması üçün iki yol var. Birincisi – sosiallaşmadır ki, onun sayəsində ictimai dəyərlər nəsildən-nəslə ötürülür. İkinci yol – sosial nəzarətin müxtəlif mexanizmlərinin yaradılmasıdır.

Parsons cəmiyyəti sistem olaraq görür və düşünür ki, istənilən sosial sistem dörd əsas funksional tələbə cavab verməlidir: - adaptation (uyğunlaşma) və latency (orijinallıq).

Funksionalizmin məzmunu barəsində ciddi diskussiyalar aparılsa da, funksional cərəyanlar kifayət qədər mürəkkəb, rəngarəng olsa da, T.Parsonsun nailiyyətləri ümumilikdə etiraf edilir. O, cəmiyyəti funksional qarşılıqlı dəyişmələr sistemi kimi təhlil edirdi. Bu o deməkdir ki, hər bir sosial prosesin təhlili müəyyən sərhədləri olan sistemin təhlilinin tərkib hissəsi kimi həyata keçirilir. Parsonsa görə, sistem təkrarlanan və qarşılıqlı surətdə bir-biri ilə bağlı olan istənilən sosial fəaliyyətin davamlı kompleksidir. Şəxsiyyətin, yaxud qrupun tələbatları sosial sistemdə dəyişmələri şərtləndirir. Sosial nizam problemi onun nəzəri mülahizələrini birləşdirir, onlara tamlıq, bütövlük verir. Bu problemin müxtəlif aspektləri öz əksini daha çox sistem və struktur anlayışlarında tapır. Sosial sistemin ətraf mühitlə münasibətləri dəyişildiyinə görə bir tərəfdən strukturun dəyişilməzliyi şərtinə uyğun tələb formalaşır, digər tərəfdən isə mövcud xarici şəraitin tələblərinə xüsusi dinamik proseslər və mexanizmlər sisteminin daxil edilməsi zərurəti yaranır. Deməli, Parsonsa görə, sosial sistemin həm özünü qorumaq meyli, həm də mühitə münasibətdə müəyyən hüdudları və sabitliyi qorumaq meyli fəaliyyət göstərir.[17]

[17] Qərbi Avropada və ABŞ-da sosiologiya tarixi.Ali məktəblər üçün dərslik. Bakı: Turan Nəşrlər evi, 2010.-S.-423-425

***Y.Xabermasın inteqrativ sosial nəzəriyyəsi.*** Y.Xabermasın (1929) sosial nəzəriyyəsinin mərkəzində fenomenoloji ənənəyə bağlanan "canlı həyat" (*Lebenswelt*) kateqoriyası dayanır. Xabermasın müəyyən etdiyi "canlı həyat" fərdin həyat təcrübəsinin özəyində yerləşir. Kənar təsirlər bu özəklə uzlaşır, ona qarşı çıxır və ona uyğunlaşırlar.

Kommunikativ hərəkət nəzəriyyəsinin məqsədi "canlı həyatı" təkamül nöqteyi-nəzərindən təsvir etməkdir. Xabermasa görə sosial təkamül insanın koqnitiv bacarıqlarının inkişafından asılıdır. Dünyanın mifik və müasir anlaşılma müqayisə edərək, belə bir qənaətə gəlir ki, onlar arasındakı fərq dünyanı təsvir etdikləri idrak sistemindəki təməl fərqlərdir. Y.Xabermas K.Levi-Stross və Ş.Qodelyenin işlərinə əsaslanaraq, dünyanın mifik idrakını bölünməz vəhdət kimi xarakterizə edir ki, burada təcrübənin hər bəndi metaforik və ya metonimik formada istənilən digər bəndlə assosiasiya olur. Bu assosiasiya uyğunluq və fərqin dərəcə münasibətləri vasitəsilə meydana gəlir.

***Sosial münaqişə nəzəriyyələri (R.Darendorf).*** Sosial münaqişə nəzəriyyələri Parsonsun struktur funksionalizminin metafizik elementlərinin tənqidi nəticəsində yaranmışdır. Sosial münaqişə nəzəriyyələrinin əsasında **C.R.Millsin** (1916-1962) fikirləri dayanır. O, K.Marks, M.Veber, V.Pareto və Q.Moskun fikirlərinə istinad edərək, bildirirdi ki, istənilən makrososial analiz münaqişə aparan sosial qruplar arasındakı hakimiyyət davasına aid olarsa, zəruri əhəmiyyətə malikdir.

"Sosial münaqişə" nəzəriyyəsi daha çox alman sosioloqu R.Darendorf, ingilis alimi T.Bottomor, amerikalı sosioloq L.Kozer və digər Qərb sosioloqları tərəfindən dəqiq təsvir olunmuşdur.

Bu nəzəriyyələri daha çox Ralf Darendorf (1929-2009) işləmişdir. Onun fikrincə, bütün mürəkkəb təşkilatlar hakimiyyət bölgüsünə əsaslanır və hökm sahibi olan insanlar müxtəlif

vasitələrlə daha az hakimiyyətə malik insanlardan bəhrələnməyə çalışırlar. Hakimiyyət və nüfuz bölgüsü imkanları çox məhduddur, buna görə də istənilən cəmiyyətin üzvləri onların bölgüsü uğrunda mübarizə aparır. R.Darendorfa görə sosial dünya bir çox qrupların bir-birilə mübarizə meydanı, itən, yaradılan və dağılan ittifaqlar şəklindədir. Bioloji və sosial sistemin analogiyası və sistem ideyasının özü "idarəolunan imperativ sistem" konsepsiyasına çevrilir və Veberin "hakim" (authority) və "güc" (power) anlayışları R.Darendorf üçün sistemin inkişaf etmiş sinonimik formasıdır. O, "idarəolunan imperativ sistemi" münaqişə şəraiti yaradan "hökmranlığın" mövcud olduğu təşkilatlar kimi müəyyən edirdi.

Hakimiyyət və hökmranlıq anlayışlarını araşdırarkən Darendorf T.Parsonsla razılaşırdı ki, bunlar cəmiyyət üçün mühümdür, lakin onun "funksional vacib şərtlər" konsepsiyasını qəbul etmirdi. Hakimiyyət funksiyasının bütövlüyün qorunmasındakı əhəmiyyətini qəbul etməklə yanaşı, onun qeyri-inteqrativ aspektinə daha çox önəm verirdi.

Səlahiyyət və hökm sahibi olan cəmiyyətdə status kvonun saxlanılması tərəfdarıdır; sahib olmayan onun bölgüsündə və mövcud vəziyyətin dəyişməsində maraqlıdır. Bu maraqlara T.Parsonsun dörd "funksional rekviziti" də daxil olmaqla rolların daxili strukturuna daxil olması düşüncəsindən çıxış edərək, obyektiv xarakter verilir.

Sosiologiyadakı çoxşaxəli istiqamətlərdən cəmiyyətin analizinə yalnız iki yanaşma tərzini fərqləndirmək olar: birinci tip cəmiyyətin insanların davranışına təsirinə diqqət çəkir, ikinci – cəmiyyət insanların fəaliyyəti nəticəsində necə meydana gəlir. Lakin müasir sosioloqların fikrincə, bu yanaşmaları birləşdirən nəzəriyyənin yaradılması doğru olardı.

Fransız porlitoloqu, sosioloqu və publisisti **Raymon Aronun** (1905-1983) ideya irsi də XX əsrdə sosiologiyanın

inkişaf meyillərini və xüsusiyyətlərini nəzərdən keçirmək baxımından müəyyən əhəmiyyət kəsb edir. Fransada sosiologiyanın institutlaşdırılmasında onun böyük xidmətləri olmuşdur. Onun elmi maraq dairəsi kifayət qədər genişdir: sosiologiya tarixi, siyasi sosiologiya, beynəlxalq münasibətlər və siyasət, idrakın sosiologiyası və s. R.Aronun ideya mövqelərini demokratiya, azad rəqabət, özəl sahibkarlıq prinsiplərinə istinad edən liberal ənənələrin ifadəsi kimi dəyərləndirmək olar. Yeri gəlmişkən qeyd edək ki, fransız sosiologiyasında bu ənənənin başlanğıcı A.Tokvil və B.Konstan ilə əlaqələndirilir. R.Aron «Sosioloji fikrin inkişaf mərhələləri» kitabında Aristoteldən M.Veberə qədərki dövrdə görkəmli sosial mütəfəkkirlərin baxışlarını müqayisəli şəkildə təqdim edir, sosioloji fikrin fundamental suallarına onların yanaşmasını araşdırır.[18]

R.Aron siyasəti ictimai həyatın xüsusi bir sferası kimi tədqiq edir. Onun qənaəti belədir ki, «siyasət» sözü ilkin mənasına görə bir insan və insanlar qrupu tərəfindən cəmiyyət qarşısında duran bir və ya bir neçə problemə münasibətdə həyata keçirilən proqram, fəaliyyət metodu və ya fəaliyyətin özüdür. Siyasət bütün cəmiyyəti idarə edənlərin seçilməsini, eləcə də hakimiyyətin reallaşdırılması üsullarını müəyyən edir. R.Aron industrial cəmiyyətə dair tədqiqatlar aparmış, O.Kont-dan sonra həmin cəmiyyətə münasibətdə irəli sürülən ideyaları sistemləşdirməyə səy göstərmişdir. O, industrial cəmiyyəti ideologiyasızlaşdırmaq konsepsiyasını ilk işləyənlərdən biri olub, cəmiyyətin inkişafında ümidlərini daha çox elmi-texniki tərəqqi ilə başlayırdı. Onun fikrincə, belə cəmiyyətlərdən hər birinin xarakter cəhətləri siyasətdən asılıdır. İnsanların cəmiyyətdə birgəyaşam tərzi siyasətdəki fərqlərdən asılı olaraq

---

[18] Бах: Арон Р. Этапы развития социологический мысли. М.: Издательская группа «Прогресс-Универс.», 1993.

dəyişilir. Hər bir cəmiyyətdə hakimiyyət institutları konkret tarixi şəraitin xüsusiyyətlərinə uyğunlaşmalıdır.

R.Aron qlobal sosial problemlərin təhlilinə də xüsusi diqqət yetirirdi. O, belə hesab edirdi ki, bu problemlərin həlli yollarının axtarılması çox mürəkkəb məsələdir. Bu halda sosioloq siyasi birliyin, diplomatik sistemin və sıvilizasiyanın gələcəyinə vahid bütövlük kimi baxmağa çalışmalıdır. Başqa sözlə, sosioloq müxtəlif amilləri və onların məcmu münasibətlərini aşkara çıxarmağa hazır olmalıdır.

R.Aronun konsepsiyası Qərb fəlsəfəsinə, sosiologiyasına və politologiyasına ciddi təsir göstərmişdir. Bu təsir müasir fransız sosioloji məktəbinin görkəmli nəzəriyyəçilərinin – R.Burdye, R.Budon və A.Turenin əsərlərində aydın hiss olunur.

Sosiologiyanın inkişafında **Pitirim Sorokinin** (1889-1968) özünəməxsus rolu ümumilikdə tam etiraf edilir. O, XX əsrdə sosiologiyanın inkişafında öz dəsti-xətti ilə, irəli sürdüyü mülahizələrin əsaslılığı və dərinliyi ilə seçilən görkəmli simalardan biri olmuşdur. O, 1922-ci ildə Rusiyadan mühacirət etmiş, Qərb sosiologiyasnıda dərin iz buraxımışdır. P.Sorokin ABŞ sosiologiyasında üstün mövqe tutan empirik meyli kəskin tənqid etmiş, inteqral sosiologiya təliminin daha səmərəli olmasını əsaslandırmaq istiqamətində fəaliyyət göstərmişdir. Bu təlim, geniş mənada, başa düşülən mədəniyyətin bütün sosoiloji aspektlərini əhatə edirdi. Sosial realizm mövqeyində dayanan mütəfəkkir fövqəlfərdi sosiomədəni reallığın mövcudluğunu təsdiqləyirdi. Bu reallıq, onun fikrincə, nə maddi reallığa, nə də mənalar sisteminə müncər edilə bilməz. Sonsuz rəngarəngliyə malik olan sosial-mədəni reallıq hisslərlə, rasional intellekt və fövqəlrasional intuisiya ilə dərk oluna bilər. Sosiomədəni fenomenlərin tədqiqi zamanı bütün bu idrak vasitələrindən istifadə olunmalıdır. Lakin Sorokin yüksək dərəcədə istedadlı şəxsiyyətin intuisiyasını idrakın ən yüksək me-

todu hesab edirdi. Onun fikrincə, bütün böyük kəşflər intuisiyanın köməyi ilə reallaşıbdır. O, sosiomədəi fenomenlərin bir çox səviyyələrini fərqləndirirdi. Ən yüksəkdə dayanan supersistemlərdir, çünki onlar reallığın fundamental ilkin şərtləri və onu dərk etməyin əsas metodları zəminində təşkil olunurlar. Sorokin həqiqətin üç formasını fərqləndirirdi: hissi, mənəvi (intuitiv) və rasional. Tarixin müxtəlif dövrlərində baza xarakterli bu ilkin şərtlər və onlara uyğun supersistemlər öz inkişafının fərqli fazalarında olurlar. Beləliklə, Sorokin mədəniyyətin ümumdünya – tarixi, inkişaf konsepsiyasını yaratmaq istiqamətində ciddi araşdırmalar aparırdı.

P.Sorokin gerçəkliyi dəyişikliklərin qanunauyğun prosesi kimi nəzərdən keçirirdi. O çalışırdı ki, sosiomədəni dəyişikliklərin ritmik dövriliyini izah etsin, onların mənbələrini müəyyənləşdirsin. Onun fikrincə, supersistemin üstünlük təşkil edən bir dünyagörüşündən digərinə keçidi sosial institutların və normativ nümunələrin radikal transformasiyası ilə müşayiət olunur.

Qərb sosiologiyasnıda Sorokinin həm sosiomədəni dinamika nəzəriyyəsi, həm də sosial mobilliyi və sosial stratifikasiyaya dair empirik tədqiqatları yüksək qiymətləndirilir. Eyni zamanda onun sosiologiyada kəmiyyət metodlarına və digər formal prosedurala nəzəri-elmi təhlilin ziyanına olaraq aludəçilik göstərilməsi barədə tənqidi mülahizələri də öz aktuallığını saxlayır.

**Erix Fromm** (1900-1980) populyar sosial filosof, sosoiloq və psixoloq olmuş, Frankfurt məktəbinin nümayəndələrindən biri kimi tanınmışdır. Onun sosial nəzəriyyəsi freydizmin ənənəvi müddəalarının təftiş edilməsini, onların fəlsəfi antropologiyanın və marksizmin müddəaları ilə birləşdirilməsini əsas tutur. Onun fikrincə, tarix insan mahiyyətinin ona düşmən olan sosial struktur şəraitində inkişafı deməkdir. Bu

əsasda Fromm sosial xarakterlər haqqında təlim işləyib hazırlamışdır. Həmin təlim fərdin psixikası ilə cəmiyyətin sosial strukturunun əlaqə forması kimi təqdim olunur. Sosial strukturun təsiri ilə özünüözəlləşdirmənin hər bir inkişaf pilləsinə müəyyən sosial xarakter uyğun gəlir. Həmin xarakterlər bunlardır: yığıcı, istismarçı, reseptiv (passiv), bazar tipli. E.Fromm müasiri olduğu cəmiyyəti elmi-texniki inqilabın inkişafı şəraitində insan mahiyyətinin özgələşməsinin bir pilləsi kimi nəzərdən keçirirdi. Bu, onun görüşlərində aydın ifadə olunmuş antitexnisizm meylini gücləndirirdi. Frommun ideya irsində kapitalizm cəmiyyətinə tənqidi münasibət mühüm xüsusiyyət kimi təzahür edir, çünki bu cəmiyyət şəxsiyyətin özünü özgələşdirməsi prosesini son həddə çatdırır. Ona görə də mütəfəkkir insan təbiətinə xas olan sonsuz potensiyaları üzə çıxarmağa imkan verən «sağlam» cəmiyyət istiqamətində fəal axtarışlar aparırdı. O, hətta mahiyyətcə utopik xarakterdə olan «humanist kommunitar sosializm» nəzəriyyəsini də irəli sürmüşdü. Araşdırmalar göstərir ki, o, nəzərdə tutduğu ictimai sistemin mahiyyətini və qərarlaşması yollarını, vasitələrini aydın təsəvvür etmirdi.

# MÖVZU 3
# CƏMİYYƏT DİNAMİK SOSİAL SİSTEM KİMİ

1. **Sosiologiyada cəmiyyət anlayışı**
2. **Vətəndaş cəmiyyəti konsepsiyası**
3. **Postindustrial cəmiyyət anlayışının ideya vəziyyəti**
4. **"Risk cəmiyyəti" anlayışı**
5. **Cəmiyyət və qloballaşma**

## 1.Sosiologiyada cəmiyyət anlayışı

Cəmiyyət anlayışı çoxmənalıdır və onu müəyyən etmək çox asandır. Cəmiyyət dedikdə adətən müəyyən ölkədə yaşayan insanlar anlaşılır. Lakin bu anlayışla daha geniş və daha dar məfhumları da müəyyən edirlər. Misal olaraq, bəzən eyni məkana məxsus insanları birləşdirən Qərbi Avropa cəmiyyətindən, hətta bütün insanlığın bəşər cəmiyyətindən danışılır. Digər tərəfdən futbolu sevənlərin cəmiyyətindən danışmaq olar.

Cəmiyyət insanlar arasındakı təbii münasibətlərin nəticəsi olaraq nəzərdən keçirilə bilər. Sosiologiyada ümumi qəbul olunan cəmiyyət anlayışı belədir: cəmiyyət ortaq möhkəmlənmiş əraziyə, ümumi mədəni dəyərlərə və sosial normalara malik və onun üzvlərinin sosiomədəni eyniliyi ilə xarakterizə olunan insanların birliyidir.

Sosioloji biliyin təməl kateqoriyası olan "cəmiyyət" anlayışı müxtəlif cür şərh olunur. Şərhlərdəki fərqlər əsasən alimlərin təmsil etdikləri sosioloji cərəyan və ya məktəbdən asılıdır. Belə ki, O.Kont cəmiyyəti ümumi razılıqla bağlı olan və bütün struktur elementlərinin razılaşdırılmış funksiyaları ilə xarakterizə edilən bəşəriyyətin üzvi tamı kimi nəzərdən keçirirdi. E.Durkheym cəmiyyəti kollektiv təsəvvürlərə əsaslanan fövqəlfərdi mənəvi reallıq kimi səciyyələndirirdi. K.Marks

üçün cəmiyyət insanların birgə fəaliyyəti prosesində onlar arasında tarixən təşəkkül tapan münasibətlərin toplusudur. M.Veberə görə, cəmiyyət insanların sosial, yəni başqa insanlara üz tutan hərəkətlərinin məhsulu olan qarşılıqlı təsirləridir. T.Parsons cəmiyyəti insanlar arasında əlaqələr sistemi kimi nəzərdən keçirirdi ki, bu sistemin də mərkəzi elementini norma və dəyərlər təşkil edir.

Bu təriflərdən aydın olur ki, cəmiyyət böyük və kiçik insanlar qrupu arasında bəşəriyyətin tarixi inkişaf prosesində təşəkkül tapmış və adət-ənənə, qanun gücü ilə dəstəklənən, maddi və mənəvi nemətlərin müəyyən istehsal, tədavül və istehlak üsuluna əsaslanan nisbətən davamlı sosial əlaqə və münasibətlər sistemidir. Bu, təbiətdən ayrılmış və insanların maddi-mənəvi fəaliyyəti prosesində (əmək alətlərinin yaradılması, dil, mifologiya, din, fəlsəfə, elm və s.) təzahür edib inkişaf edən sosial orqanizmdir.

Əmək nəticəsində yaranmış cəmiyyət bu gün də məhz əməyin sayəsində təşkilatlanıb inkişaf edir. Əmək təkcə insanların vital tələbatlarını (maddi – qida, ev, geyim və s., mənəvi – dünya haqqında biliklər, incəsənət və s.) ödəmir, həm də cəmiyyəti insanlar arasında sosial (ictimai) əlaqə və münasibətlər kimi formalaşdırır.

İnsanın yaşayış mühiti olan və onun şəxsiyyət kimi formalaşdığı cəmiyyət eyni zamanda insanların həyat fəaliyyəti, şəxsiyyətlərarası və qruplararası səviyyədə ictimai həyatın müxtəlif sferalarında, müxtəlif sosial birliklərin, institutlar, təşkilatlar, istehsalat kollektivlərinin qarşılıqlı münasibətləri üsuludur. Həmçinin bu, maddi-mənəvi dəyərlərin və sosial normaların yaradılması üsulu və şərtidir ki, bunlar da tarixi təkamülün bu və ya digər mərhələsində cəmiyyətin özünü səciyyələndirir.

Müasir sosiologiyada cəmiyyət aşağıdakı əlamətlərə malik olan insanlar birliyi hesab olunur:

1. Hər bir cəmiyyətin adı vardır ki, əksər hallarda dövlətin adına çevrilir. Məsələn, “alman” və “Almaniya” sözü orada yaşayanların milliyyətindən asılı olmayaraq, eyni insan birliyini ifadə edir.
2. Hər bir cəmiyyətin öz mədəniyyəti vardır. Təbii ki, mədəniyyətlərin müasir qarşılıqlı təsir imkanları müşahidə edildiyi bir zamanda mədəniyyət dedikdə yalnız milli özəyə malik mədəniyyət nəzərdə tutulur. Bunu sayəsində insan hansı cəmiyyətə mənsub olduğunu bilir.
3. Hər bir cəmiyyət sosial reallığın ən böyük vəhdəti hesab olunur, yəni daha iri cəmiyyətin tərkib hissəsi olur. Müasir dövrdə bəşər cəmiyyətinin formalaşdığı bir zamanda bu yanaşma tərzi getdikcə daha çox şərti xarakter daşıyır.
4. İnsanların qarşılıqlı münasibət formaları birtərəfli və sabitdir. Bu onu göstərir ki, insanlar arasındakı əlaqələr bu cəmiyyətin mövcudluğu dövründə formalaşmış adət-ənənələrlə müəyyən olunur.
5. Onun bütün üzvləri yanaşı yaşamalı və şəxsi əlaqəyə girməlidirlər. Əgər bu qaydaya riayət olunmazsa, cəmiyyət də mövcud ola bilməz. Hər bir cəmiyyət hər bir insanın yaddaşında qalan tarixə malikdir. Bu tarix tarixçilərin yazdığı və ya həqiqətdə baş verənlərdən fərqlənə bilər. Məsələn, bir dövlətin sülhpərvərliyini onunla xarakterizə etmək olar ki, o heç vaxt birinci hücum etməyib. Lakin bu cür fikir tənqidə tab gətirmir.
6. Cəmiyyət özü-özünü istehsal edir, yəni cəmiyyət qəbul olunan üzvlərinin uşaqları hesabına artır: adətən cəmiyyətin üzvləri tərəfindən dünyaya gələn uşaq, avtomatik olaraq bu cəmiyyətin üzvü sayılır. Bir sıra dövlətlər vardır ki, qaydalara görə onların cəmiyyətinin vətəndaşı həmin dövlətin

ərazisində doğulan istənilən insan hesab olunur.

7. Cəmiyyət adətən müəyyən ərazidə məskunlaşır. Bu ərazi həmin cəmiyyət tərəfindən dövlət olaraq adlanmaya da bilər. Başqa sözlə, hər cəmiyyət dövlətçiliyə sahib deyil. Lakin cəmiyyətin mövcudluğu üçün bilməz.
8. Cəmiyyət ortaq dilə sahibdir. Dil – cəmiyyət üzvləri arasında sosial əlaqələrin yaradılması üçün vacib şərtdir. Əgər cəmiyyət milliyyət etibarilə təktərkibli deyilsə, dillərdən biri onun üzvləri arasında əsas ünsiyyət vasitəsi olaraq qalır. Məsələn, Azərbaycanda bu dil Azərbaycan dilidir.

İnsanların qarşılıqlı əlaqələrə meyil etməsi xarakterikdir. Tam şəkildə təcrid olunmuş və digər insanlara maraq göstərməyən insan təsəvvür etmək çətindir. Sosiallıq insana xas olan mühüm keyfiyyətlərdəndir.

Cəmiyyətin həyat fəaliyyəti bir-birini şərtləndirən və dialektik vəhdətdə reallaşan səbəb-nəticə və funksional əlaqələr üzərində qurulur.

Səbəb-nəticə əlaqələri birbaşa cəmiyyətin aşağıdakı əsas sferalarının qarşılıqlı təsirlərinin nümunəsində özünü büruzə verir:

- iqtisadi (maddi nemətlərin istehsalı və bölgüsünün təşkili);
- sosial (müxtəlif sosial birliklərin: sinfi, təbəqə, peşə və s. arasında qarşılıqlı təsirlər);
- siyasi (dövlət və idarələrin, siyasi partiyaların, ictimai hərəkatların fəaliyyəti);
- mənəvi (ictimai şüur formalarının reallaşması - dünyagörüşü elmlərinin, incəsənət, din və s.-n inkişafı).

Eyni zamanda qeyd etmək lazımdır ki, hər hansı sferada baş vermiş dəyişiklik zəruri olaraq digər sferalarda da dəyişikliklərə səbəb olur. Belə ki, ölkəmizdə planlı və inzibati-amirlik

iqtisadiyyatının bazar iqtisadiyyatı ilə əvəz edilməsi aşağıdakı sferalarda dəyişikliklərə səbəb oldu:

- sosial (əvvəlki siniflərin dağılması, ilk növbədə kommersant və sahibkarların timsalında yeni siniflərin yaranması);
- siyasi-idarəetmə (hakimiyyətin bölgüsü prinsipi, siyasi plüralizm, çoxpartiyalılıq, alternativ seçkilər);
- mənəvi (söz azadlığı, o cümlədən hökuməti tənqid etmək hüququ, yaradıcılıq azadlığı, dini etiqad azadlığı və s.).

Funksional əlaqələr çərçivələrində cəmiyyətin mürəkkəb, üzvi şəkildə bir-biri ilə qarşılıqlı bağlı olan sosial birliklər, təsisatlar, kollektivlər, qruplar kompleksi kimi təkrar istehsal olunduğu və hər birinin öz rolunu oynadığı funksiyaların qarşılıqlı şərtlənməsində özünü büruzə verir. Bu funksiyalar arasında aşağıdakıları qeyd eymək olar:

- həyat əhəmiyyətli nemətlərin istehsalı və sistemləşdirilməsi, habelə əməyin nəticələrinin sosial ədalət prinsipi əsasında bölgüsü;
- əməyəqədərki, əmək və postəmək həyat fəaliyyəti kimi bütün həyat fəaliyyəti mərhələlərində insanın təkrar istehsalı və sosiallaşdırılması;
- dövlətin ictimai rəyi idarə edən ali top-menecer kimi idarəçilik fəaliyyəti;
- ictimai münasibətlərin aparıcı konstruksiyası kimi siyasi sistemin struktur-funksional təşkili;
- ictimai dəyişikliklər və islahatların ideya-siyasi təminatı, onların siyasi legitimləşdirilməsi;
- əxlaqi-mənəvi və mədəni dəyərlərin istehsalı və yayılması, onların generasiyalararası varisliyinin təmin edilməsi.

Öz məqsəd və prioritetlərini təmin etmək üçün cəmiyyət ictimai münasibətləri və müvafiq strukturları – sosial təsisatları

formalaşdırır.

İctimai münasibətlər sosial qruplar arasında və onların öz daxilində maddi-mənəvi nemətlərin yaradılması və bütövlükdə cəmiyyətin həyat fəaliyyəti prosesində yaranan münasibətlərdir.

Onlar aşağıdakı kimi təsnif edilir:

- sosial birliklər səviyyəsində - sinfi, milli, qrup, ailə;
- qrupların fəaliyyəti səviyyəsində -istehsal, təlim, teatr;
- insan və qrupların qarşılıqlı təsirləri səviyyəsində - şəxsiyyətlərarası.

Yuxarıda qeyd edilən ictimai münasibət növlərinin spesifikliyi ondadır ki, onlarda fərdlər öz-özlüyündə deyil, müəyyən ictimai birləşmələrin nümayəndələri (məsələn, əmək bölgüsü sferasında təşəkkül tapmış sinfi və peşə qruplarının və ya siyasi həyat sferasında təşəkkül tapan qrupların, yəni siyasi partiyaların, birliklərin, blokların) kimi qarşılıqlı təsirlər edirlər. İnsanların fəaliyyət forması kimi mövcud olan ictimai münasibətlər simasızlaşdırılmış, depersonifikasiya edilmiş xarakter daşıyır: onların mahiyyəti konkret şəxsiyyətlərin qarşılıqlı təsirlərindən çox onların icra etdikləri konkret sosial rolların qarşılıqlı təsirlərində özünü büruzə verir. Obyektiv şərtlənən ictimai münasibətlər fərdi sosial qrupla, cəmiyyətlə əlaqələndirir və onun ictimai praktikaya, sosiallığa qatılması vasitəsi kimi çıxış edirlər. Eyni zamanda onlar statik olmayıb hərəkətdədir və cəmiyyət inki°af etdikcə, dəyi°irlər.

Sosial təsisatlar insanlar arasında münasibətlərin nizamlanmasına və tənzimlənməsinə xidmət edən ictimai qurumlardır (idarələr, normalar, mədəniyyət nümunələri, davranış üsulları).

İctimai həyatın sferalarına uyğun olaraq aşağıdakı dörd əsas təsisatlar qrupu bir-birindən fərqləndirilir:

- iqtisadi - əmək bölgüsü, mülkiyyət, bazar, ticarət, əməkhaqqı, bank sistemi, birja, menecment, marketinq və s.;

- siyasi - dövlət, ordu, polis, parlamentarizm, prezidentlik, monarxiya, məhkəmə, partiyalar, vətəndaş cəmiyyəti;
- stratifikasiya və qohumluq - sinif, təbəqə, kasta, etnos, sosial təminat, ailə, nikah, atalıq, analıq, oğulluğa götürmə, qardaşlıq;
- mədəniyyət – məktəb, ali məktəb, orta peşə təhsili, teatrlar, muzeylər, kinoteatrlar, kitabxanalar, məscidlər və s.

Hər bir sosial təsisatın öz fəaliyyət məqsədi, ona nail olmanı təmin edən konkret funksiyaları, bu təsisat üçün səciyyəvi olan sosial status və rolları var. Sosial təsisatlar cəmiyyət üzvlərinə öz tələbatlarını təmin etməyə imkan verir, ictimai münasibətləri stabilləşdirir, cəmiyyət üzvlərinin hərəkətlərinə razılıqlıq elementlərini gətirir.

Sosial təsisat analyışına sosial təşkilat anlayışı yaxındır. Bu, sosial subyektlər (sosial hərəkət aktorları) barəsində və üç mənada işlədilir:

1) cəmiyyətdə müəyyən mövqe tutan və müəyyən funksiyaların icrası üçün nəzərdə tutulan institusional xarakterli birlik. Bu mənada sosial təşkilat məlum statusu olan sosial təsisat kimi çıxış edir və muxtar obyekt (müəssisə, hakimiyyət orqanı, könüllü ittifaq və s.) kimi nəzərdən keçirilir;
2) təşkilatlanma ilə bağlı müəyyən fəaliyyət, o cümlədən funksiyaların bölgüsü, davamlı əlaqələrin qurulması, əlaqələndirmə və s. Təşkilat obyektə məqsədyönlü təsirlə, deməli, təşkilatçı fiqurunun və təşkilatlanan kontingentin olması ilə bağlı olan proses kimi dərk olunur. Bu mənada "təşkilat" anlayışı "idarəetmə" anlayışı ilə üst-üstə düşür, lakin onu tam örtmür.
3) hər hansı obyektin nizamlanma dərəcəsinin xarakteristikası.

Sosial təşkil dedikdə, hissələrin tamda birləşməsinin hər bir obyekt növü üçün spesifik olan üsulu kimi müəyyən struktur, quruluş və əlaqələr tipi başa düşülür. Bu mənada obyektin təşkili onun xassəsi, atributu kimi çıxış edir.

Cəmiyyətin mühüm struktur elementini az-çox oxşar həyat şəraiti və tərzi, kütləvi şüuru, sosial norma, dəyər və maraqlarının oxşarlığı ilə fərqlənən nisbətən davamlı insanlar toplusu təşkil edir.

Müxtəlif tip və səviyyəli birlikləri qeyd etmək olar:

- bütöv sosial orqanizm kimi cəmiyyətin özü;
- üzvlərinin istehsal vasitələrinə münasibətlərindəki fərqlərə əsaslanan sosial birliklər (siniflər);
- ictimai əmək bölgüsü ilə şərtlənən birliklər (sosial-peşə);
- mədəni-tarixi özünəməxsusluq üzərində yaranan birliklər (xalqlar, millətlər, etnik qruplar);
- ərazi-regional və məskunlaşma birlikləri (şəhər, qəsəbə, kənd);
- qohumluq əlaqələri, ömür tsikli mərhələlərinə görə (ailə, yaş-cins, gender);
- məqsədyönlü fəaliyyətin vəhdəti ilə səciyyələnən çoxsaylı birliklər (təşkilatlardan tutmuş kiçik sosial qruplara qədər).

Nəticədə cəmiyyət bir-biri ilə sıx qarşılıqlı əlaqələrdə və qarşılıqlı təsirlərdə olan, davamlı xarakter daşıyan və tarixi prosesdə bir nəsildən digər nəsilə ötürülərək təkrar istehsal olunan çoxsaylı elementlərin mürəkkəb çoxsəviyyəli sistemi kimi çıxış edir. Eyni zamanda bu sistemin ilkin əsasını insanların tələbatlarından irəli gələn sosial hərəkətlər təşkil edir. İnsan tərəfindən istənilən təsir yalnız rasional şəkildə, düşünülmüş olduqda, digər insanların hərəkətləri ilə qarşılıqlı əlaqədə olduqda, onların davranışına təsir göstərdikdə, eyni zamanda başqa insanların davranışını öz üzərində hiss etdikdə,

sosial təsir əlamətlərini əldə edir. İnsanlar bir-birinin davranışına və hərəkətlərinə təsir göstərdikdə, onların cəmiyyət həyatının bütün proseslərinin əsasında duran qarşılıqlı əlaqələri və qarşılıqlı təsirləri yaranır.

Bu kontekstdə sosial əlaqələr konkret şəraitdə və zamanda müəyyən maraq və məqsədlər güdən və onlara nail olmaq üçün müxtəlif vasitələrdən (iqtisadi, sosial, siyasi, ideoloji) istifadə edən fərd və fərdlər qruplarının sosial təşkilin müxtəlif sferalarında və müxtəlif səviyyələrində qarşılıqlı təsirlər sistemindən başqa bir şey deyil. "Qarşılıqlı təsir" kateqoriyası keyfiyyətcə müxtəlif fəaliyyət növlərinin, yəni sosial mövqelərinə (statuslarına) və rollarına (funksiyalarına) görə bir-birindən fərqlənən münasibətlərin daimi daşıyıcıları kimi insanlar və sosial qruplar arasındakı münasibətlərin xarakterini və məzmununu ifadə edir.

Cəmiyyətin özünütəşkil edən sistem kimi dərkində insanın təbiətlə qarşılıqlı təsirləri haqqında məsələ xüsusi əhəmiyyət kəsb edir. Burada təbiətdən ayrılmış insan onu dəyişdirən yaradıcı hissəsi kimi, təbiət isə insana münasibətdə onun təbii yaşayış şəraiti kimi çıxış edir. Onun üçün təbiət həm həyat (qida, su, istilik və s.), həm də istehsal (metal, kömür, elektrik enerjisi və s.) kimi vasitələrin mənbəyidir. Eyni zamanda təbiət yaşayış mühiti kimi cəmiyyətin inkişafına da təsir göstərir. İqlimin, bitki və heyvanlar aləminin coğrafi landşaftın və s. təsiri böyükdür. Bundan başqa, təbiətin sərvətlərini (faydalı qazıntılarını, münbit torpaqlarını, balıq ehtiyatlarını və s.) kəşf etməklə cəmiyyət öz məhsuldar qüvvələrini inkişaf etdirir, maddi nemətlərin istehsalı proseslərini təkmilləşdirir.

İnsanın təbiətə təsirinə gəlincə, onun xarakteri bir çox amillərdən:

- əmək alətləri və vasitələrinin, istehsal texnologiyalarının

inkişaf səviyyəsindən;

- insanın özünün və bütövlükdə cəmiyyətin inkişaf səviyyəsindən asılıdır.

İstehsalatın, elm və cəmiyyətinn müasir inkişaf səviyyəsi sanki insana təbiət üzərində hökmranlıq etməyə imkan verir və onu müxtəlif təbiət kataklizmlərindən qoruyur. Lakin təbiət müqavimət göstərir və ona cəmiyyət tərəfindən düşünülməmiş, istehlakçı münasibətə, təbiəti tükənməz xəzinə kimi baxdığına görə ondan qisas alır. Bu, bəşəriyyət üçün ekoloji böhranla (bir çox bioloji növlərin yox olması, biosferin çirklənməsi və s.), əvvəllər məlum olmayan xəstəliklərin (QİÇS, atipik pnevmoniya və s.) yaranması ilə nəticələndi.

Bu böhranın miqyasının dərk edilməsi ona gətirib çıxardı ki, təbiətin mühafizəsi bu gün dünya miqyaslı problemə çevrilmiş və BMT səviyyəsində ("Ümumdünya Təbiətin Mühafizəsi Xartiyası, 1992-ci il), YUNESKO ("İnsan və biosfer" Proqramı, 1970-ci il) və başqa beynəlxalq təşkilatlar səviyyəsində həll edilir. Bir çox ölkələrdə, təbiətin mühafizəsi dövlətin vəzifəsinə çevrilməklə qanun gücü ilə təmin olunur.

İnsanların qarşılıqlı əlaqələrə meyil etməsi xarakterikdir. Tam şəkildə təcrid olunmuş və digər insanlara maraq göstərməyən insan təsəvvür etmək çətindir. Sosiallıq insana xas olan mühüm keyfiyyətlərdəndir.

Cəmiyyətin bir çox növləri vardır, lakin günümüzdə ən çox tanınan tipologiyalar ənənəvi, sənaye və postindustrial növləri əhatə edir.

Ənənəvi cəmiyyətlər üçün kənd təsərrüfatının yüksək inkişafı xarakterikdir. Təsərrüfatın ən əsas sektoru kənd ailələri tərəfindən xammalın hazırlanmasıdır; cəmiyyətin üzvləri yalnız məişət tələbatlarını ödəməkdə maraqlıdırlar. İqtisadiyyatın təməlini öz tələbatlarının hamısını da olmasa, böyük bir hissəsini ödəməyə qadir olan ailə təsərrüfatı təşkil edir. Texniki

inkişaf çox zəifdir. Qərarların verilməsində əsas metod "yoxlama və xətalar" metodudur.

Ənənəvi cəmiyyətdə sosial münasibətlər və sosial diferensiasiya zəif inkişaf edir. Belə cəmiyyətlər ənənəyə söykənir və bununla da bu cür cəmiyyət keçmişə istiqamətli olur.

Sənaye cəmiyyəti – sənayenin yüksək inkişafı və iqtisadi artımın sürətli tempi ilə xarakterizə olunur. İqtisadi inkişaf əsasən təbiətə qarşı ekstensiv, tələbata meyilli münasibət sayəsində həyata keçir; öz aktual tələbatlarını ödəmək üçün bu cür cəmiyyət öz tabeliyində olan təbii resurslardan maksimum istifadə etməyə çalışır.

İstehsalın əsas sektoru materialların emalı və təkrar emalıdır ki, bunlar işçi kollektivlər tərəfindən zavod və fabriklərdə yerinə yetirilir; bu cür cəmiyyət maksimal dərəcədə mövcud zamana adaptasiya olmağa və sosial tələbatlarını ödəməyə çalışmışdır. Qərarların verilməsinin əsas metodu empirik tədqiqatdır.

Sənaye cəmiyyətinin ən vacib xüsusiyyətlərindən biri modernizə ilə bağlı optimizmdir, o cümlədən tam əminlik var ki, istənilən problemi, həmçinin sosial problemi də elm və texnologiyaya dayanaraq həll etmək olar.

Postindustrial cəmiyyət – hal-hazırda yaranmaqda olan cəmiyyətdir. O, sənaye cəmiyyətindən bir çox xüsusiyyətlərə görə fərqlənir. Əgər sənaye cəmiyyətində sənayenin maksimal inkişafı düşünülürsə, postindustrial cəmiyyətdə birinci dərəcəli rolu bilik, texnologiya və məlumat oynamağa başlayır. Bununla yanaşı, xidmət sahəsi xeyli inkişaf edərək, sənaye ilə müqayisədə ön plana çıxır.

Postindustrial cəmiyyətdə elmin hər şeyə gücü yetdiyinə inam itmişdir. Bu daha çox onunla bağlıdır ki, hazırda insanlıq öz fəaliyyətinin böyük neqativ nəticələri ilə üz-üzə gəlmişdir. Buna görə də ilk plana, geniş mənada, "ekoloji" dəyərlər çıxır;

burada nəinki təbiətə qayğı, eyni zamanda cəmiyyətin sağlam inkişafı üçün lazım olan tarazlıq və harmoniya da nəzərdə tutulur.

## 2.Vətəndaş cəmiyyəti konsepsiyası

Müasir dövrdə vətəndaş cəmiyyəti anlayışı daha geniş əhəmiyyət kəsb etməyə başlayır. Bu anlayış, digər anlayışlarda da olduğu kimi birmənalı deyil. Lakin bu terminin iki əsas mahiyyətini izah etmək olar.

1. Vətəndaş cəmiyyəti konsepsiyası siyasi olmayan, belə desək, "dövlətlərin o tayında" olan bir anlayışdır. Cəmiyyətə bütövlükdə nəzər salsaq, görərik ki, dövlət və siyasi münasibətlər insanlar arasında olan münasibətlərin yalnız bir qismini təşkil edir. Vətəndaş cəmiyyəti dövlətə və siyasi münasibətlərə aid olmayan hər bir şeyi özündə birləşdirir.

Vətəndaş cəmiyyəti özündə ehtiva edir:

a) insanların öz iradəsi və istəyi ilə formalaşan quruluşlar; ailə, ictimai təşkilatlar, dini, yaradıcı, idman və s. birləşmələr.

b) dövlətdənkənar və qeyri-siyasi xüsusiyyətlərə sahib cəmiyyətdaxili münasibətlər (ailə bağları, peşəkar, iqtisadi, dini və s. münasibətlər);

c) insanların azad hərəkət etmələri üçün dövlət və digər qüvvələrin müdaxilə etmədiyi xüsusi mühit.

2.Vətəndaş cəmiyyəti ikinci mənada insanlığın gün-gündən daha çox meyil etdiyi idealdır. İdeal olaraq anlaşılan vətəndaş cəmiyyəti öz üzvlərinə maksimal sosial, iqtisadi və siyasi azadlıqlar bəxş edir; mülkiyyətin çoxsaylı formaları, azad bazar, söz azadlığı və s.

Bir çox alim və siyasi xadimlər hesab edirlər ki, vətəndaş cəmiyyətinin inkişaf dərəcəsi (təsviri baxımdan) çox aşağıdır.

Buna görə də insanlar arasında dövlətdənkənar münasibətlərin sahəsini genişləndirmək üçün səy göstərmək lazımdır ki, onlar öz azadlıqlarını reallaşdıra bilsinlər.

Vətəndaş cəmiyyətinin idealları Avropa fikir tarixində uzun tarixə malikdir. Vətəndaş cəmiyyəti konsepsiyasının təməli T.Hobbs, C.Lokk və Ş.Monteskyönün işlərində öz əksini tapmışdır. Bu mütəfəkkirlərin işlərində təbii hüquq, daha doğrusu, insanın azadlıq, təhlükəsizlik və əmin-amanlığa olan təbii meyli mühüm rol oynayır. Lakin bu mütəfəkkirlərin fikrincə, təbii hüquqlar insanların birliyinə mane olurdu, belə ki, onlardan hər biri öz şəxsi tələbatlarını təmin etməyə can atırdılar. Dövlət ictimai müqavilə, yəni ayrı-ayrı fərdlər arasında bağlanmış sazişdir və nəticədə vətəndaşlar öz hüquqlarının bir hissəsini dövlətə təhvil verirlər.

İngilis iqtisadçısı Adam Smit vətəndaş cəmiyyəti anlayışını əhəmiyyətli dərəcədə artıraraq, şəxsi maraqların qorunmasının zəruriliyi üzərində vurğu qoymuşdur. Smit hesab edirdi ki, dövlət yalnız o zaman sabit ola bilər ki, mülki vətəndaşların maraqlarının təmini üçün xüsusi şərait yaratsın. İqtisadi planda bu o deməkdir ki, dövlət iqtisadi sahəyə nəzarətdən tamamilə imtina etməlidir ki, insanlar ümumi bazarda sərbəst hərəkət edə bilsinlər; dövlətin rolu yalnız xüsusi mülkiyyətin qorunması ilə məhdudlaşmalıdır. Smit bazar iqtisadiyyatı konsepsiyasının banisi olmuşdur ki, bu konsepsiya öz əhəmiyyətini bu gün də saxlayır. Təbii ki, o hal-hazırda tamamilə zənginləşdirilmişdir və dövlətin müdaxiləsi bu qədər arzuolunmaz qəbul edilmir. Lakin rəqabət üzərində qurulmuş iqtisadiyyat ideyası öz effektivliyini bir sıra dövlətlərin iqtisadi təcrübəsində göstərir.

Vətəndaş cəmiyyəti konsepsiyasının əsaslandırılmasında mühüm rollardan birini də alman filosofu Vilhelm Hegel oynamışdır. O, vətəndaş cəmiyyətini mülki şəxslərin, institutların, sosial qrup və siniflərin mürəkkəb vəhdəti kimi təsvir

edirdi ki, bunlar arasında qarşılıqlı əlaqə dövlətdən müstəqil olan vətəndaş hüquqları ilə tənzimlənir. Başqa sözlə desək, vətəndaş cəmiyyəti şəxsi maraqların fəaliyyət sahəsidir (ümumi maraqlara əks olaraq).

Hegelə görə vətəndaş cəmiyyəti ictimai münasibətlərin məntiqi inkişaf mərhələsidir. O, hesab edirdi ki, ictimai münasibətlər ailədən dövlətə keçid şəklində meydana gəlir.

Eyni zamanda Hegel hesab edirdi ki, vətəndaş cəmiyyəti üçün sağlam mənada stabillik xarakterik deyil. Belə ki, vətəndaş cəmiyyəti təbii olaraq inkişaf edir, bu zaman bəzi elementlər daha çox inkişaf edə, digərləri isə inkişafdan qala bilərlər. Buna görə də vətəndaş cəmiyyəti yalnız o zaman mövcud ola bilər ki, dövlətin "himayəsi" altında olsun. Yalnız dövlət vətəndaş cəmiyyətində yaranan ədalətsizliyin qarşısını ala bilər.

XX əsrdə vətəndaş cəmiyyəti ideyası daha aktual olmuşdur. Məhz bu mərhələdə bəşəriyyət istənilən azadlığı boğan daha qəddar totalitar rejimlərlə üz-üzə qaldı. Buraya Hitler Almaniyası və Sovet İttifaqını (ilk öncə Stalinin hakimiyyəti dövrü) misal göstərmək olar. Bu və bunun kimi rejimlər üçün nəinki siyasi sahədə, hətta mənəvi və iqtisadi sahədə belə insan muxtariyyətinin tam əzilməsi xarakterik olmuşdur. Bu səbəbdən də vətəndaş cəmiyyəti konsepsiyasının inkişafı XX əsrdə əlavə hərəkətverici qüvvə aldı: totalitar rejimlərin sərt tənqidinə ehtiyac yarandı.

## 3. Postindustrial cəmiyyət anlayışının ideya vəziyyəti

Müasir cəmiyyət sosiologiyada postindustrial cəmiyyət olaraq bilinir. Bu anlayış amerikan sosioloqu D.Bell tərəfindən 1974-cü ildə irəli sürülmüşdür. O, müasir cəmiyyətin postin-

dustrial inkişaf mərhələsinə keçidini isbatlayan bir sıra vacib məqamları göstərmişdir.

1. Postindustrial cəmiyyətin yaranma prosesində iqtisadi model sistemindən sosioloji modelə keçid baş verir və insanların qarşılıqlı münasibətlərində humanizm, stabilləşmə və sabitləşmə şəklində əks olunur.
2. Bu, özünü bir sıra əlamətlərdə göstərir. Əvvəla, iqtisadi motivasiya öz əhəmiyyətini itirir, belə ki əksər insanları qane edən həyat şəraiti artıq əldə olunmuşdur. İkincisi, insanlar başa düşürlər ki, tək şəxsi sərvət deyil, həm də ümumi sərvətlər, məsələn, ətraf mühitin təmizliyi kimi sərvətlər mövcuddur. Üçüncüsü, zənginliyin ictimai formasının mövcudluğunun dərk edilməsi ona gətirib çıxardı ki, cəmiyyətdə münaqişələr çoxalır və bu münaqişələri həll etmək getdikcə daha da çətinləşir.
3. Yüksək həyat tərzi ona gətirib çıxarır ki, maya qoyuluşu ilə aparılan bölgü ədalətli bölgü ilə əvəz olunur. Nəticədə kapitalizm (sənaye cəmiyyəti) dövründə olduğu kimi fərdin yaşamaq üçün xüsusi qüvvə sərf etməsinə ehtiyac yaranmır.
4. Postindustrial cəmiyyətin inkişafına mane olan cəhətlərdən biri də odur ki, kapitalizm dini dəyərlərin inkişafını qırdı. Bunun nəticəsində belə bir sual yaranır ki, bu dəyərlər mövcud olmadan inkişaf etmək mümkün olacaqmı?

Hal-hazırda postindustrial cəmiyyət anlayışı özündə elə əlamətləri ehtiva edir ki, onlarsız cəmiyyət postindustrial sayıla bilməz.

Bu cəmiyyət növü müəyyən edir ki, bu cəmiyyətdə xidmət sahəsində çalışan insanların sayı ümumi əhalinin 50%-ni keçməkdədir. ABŞ bu dərəcəyə ötən əsrin 60-cı illərində çatmışdır. Postindustrial cəmiyyət üçün kənd təsərrüfatı və sənaye məhsullarının bu cəmiyyətin tələbatından artıq istehsal olunması səciyyəvidir. Məhz təkrar istehsal səbəbindən işçi

qüvvənin böyük bir qismi xidmət sahəsinə keçir.

Bununla yanaşı, postindustrial cəmiyyət üçün böyük elmi tədqiqatlar və biliklər də səciyyəvidir. Qərarların əsas qəbul olunma metodu müxtəlif cinsli modellərin, analitik metodların və s. istifadə olunmasıdır. Əsas tələbat növü xüsusi tədqiqat institutlarında, laboratoriyalarda tədqiqatçı mütəxəssislər tərəfindən əldə edilən biliklərə olan tələbatdır.

Sosial kommunikasiya bir öncəki mərhələlərdə olduğu kimi "insan"-"təbiət" və ya "insan"-"maşın" deyil, əsasən "insan"-"insan" səviyyəsində gedir.

Aparıcı texnologiya əl əməyi və ya mexaniki texnologiya deyil, əqli texnologiyadır. Bu səbəbdən də müasir cəmiyyəti "informasiya cəmiyyəti" adlandırırlar; bu termini yapon tədqiqatçısı İoneyi Masuda tətbiq etmişdir, lakin biliklərin məhsul kimi satışının mümkünlüyünü hələ 1962-ci ildə Fritz Meklap demişdir.

Bu nöqteyi-nəzərdən müasir cəmiyyət üçün iki əsas əlamət xarakterikdir:

1) Hesablama texnikasının mövcudluğu sayəsində insanlar qarşılarına qoyulan hədəfləri daha tez yerinə yetirə bilirlər;

2) Məlumat mübadiləsinin ötürülməsi daha da sürətlənmişdir ki, bu da onun yeni ötürmə vasitələrinin mövcudluğu olmadan mümkünsüzdür.

İnformasiya cəmiyyətində müxtəlif sahələr arasında qarşılıqlı asılılıq artır, yəni əks əlaqələr daha sıx olmaqdadır. Məsələn, energetik sahədə baş verən istənilən dəyişiklik özü ilə birlikdə xammalın emalını da böyük həcmə çatdırır.

Sosiologiyada müasir cəmiyyət tez-tez postmodernist cəmiyyət olaraq xarakterizə edilir. Faktiki olaraq, bu xüsusiyyət aktual prosesə - elmin gücünə inamın tədricən itməsinə dayanır. Postmodernist düşüncədə həm sosial, həm də elmi-texniki

inkişafa qarşı məyusluq hissi hakimdir. Hər halda inkişaf ideyası həmişə rədd olunmur. Hal-hazırda inkişaf reallaşması mümkünsüz görünən imkan kimi nəzərdən keçirilir. İ.Uollerstaynın iddia etdiyi kimi inkişaf anlayışı qaçılmaz hərəkət qüvvəsi kimi (yuxarı və irəli) öz etibarını itirmişdir. İnkişaf prosesi daha çox addımlayan və geriləyən hərəkətlərin bir-birini izləməsi ilə göz önünə gəlir.

Postmodernist cəmiyyət aşağıdakı xüsusiyyətlərə malikdir:

1. O sabit deyil, özündə bir sıra mədəniyyət və altmədəniyyətləri birləşdirir, bu mədəniyyətlər bir-birini sürətlə əvəz edir. Bu əlaməti "polistilistlik" kimi qeyd edirlər.
2. Postmodernist cəmiyyətin hədəfi – informasiyanın tətbiqi və izahıdır (informasiya cəmiyyəti nəzəriyyəsinin əsas əlaməti olaraq informasiyanın işlənməsi və ötürülməsi). Bu, təkcə yeni bilik və informasiyaların əldə olunması ilə kifayətlənmir, eyni zamanda onun əhəmiyyətini araşdırır, belə ki, bu informasiyalar mövcud qaydalara zidd olduqda qəbul edilməyə bilər;
3. O, praqmatik olaraq istiqamətlənmişdir: yalnız bilavasitə praktiki əhəmiyyət kəsb edən məsələlər dəstəklənir;
4. Posmodernist cəmiyyətdə biliklərin əldə olunma və interpretasiya funksiyaları müxtəlif institutlar arasında bölüşdürülmüşdür (bir tərəfdən elmi müəssisələr, digər tərəfdən isə KİV və siyasi partiyalar). Bu dövrdə kütləvi informasiya vasitələri sərbəstdir ki, bunun nəticəsində informasiya və onun interpretasiyası daha mücərrəd keyfiyyətə sahib olur.
5. Postmodernist cəmiyyətdə təhsil, xüsusilə ixtisaslaşmış təhsil həlledici əhəmiyyətə malikdir. Bu, təkcə təhsil alınmasına olan tələbatda özünü büruzə vermir. Burada sosial status, təhsil səviyyəsi və gəlirin həcmi birbaşa əlaqəlidir.

6. Müasir cəmiyyət mif və reallıqları ayırd edə bilmir, yəni qarşısına konkret hədəflər qoymağı (qismən də olsa) bacarmır.
7. Bu cəmiyyət demək olar ki, inkişaf ideyalarından, eləcə də mənəviyyat və ənənələrdən azaddır ki, bu da öz növbəsində mənfi xüsusiyyətlərə də sahibdir.

## 4. "Risk cəmiyyəti" anlayışı

Yüksək texnoloji və texniki inkişaf dövrünə qədəm qoymuş müasir cəmiyyət bir sıra ciddi problemlərlə üzləşmişdir ki, U.Bek bu cəmiyyəti "risk cəmiyyəti" adlandırmışdır. O hesab edir ki, bu cəmiyyət sənayeləşmə dövrünün məhsuludur və bu cəmiyyət tərəfindən yaranmış risk bərabər paylanmasa da heç bir dövlət sərhədi tanımır.

Müasir dünyada sosial risklərin çoxalması, mütəmadi yayılması və qlobal xarakteri *risk cəmiyyətinin* formalaşmasına təkan verir ki, bu cəmiyyəti fəlakət cəmiyyəti kimi səciyyələndirmək olar və bu cəmiyyətin üzvləri yalnız bir hiss ətrafında – qorxu və inamsızlıq ətrafında birləşiblər. Qorxu və inamsızlıq bəşər cəmiyyətinin bazar münasibətlərinə cəlb olunmasından yaranan sosial qeyri-müəyyənliyin nəticəsidir ki, bu münasibətlərin təməlində şəxsi mənfəət və fərdiyyətçilik ideologiyası dayanır.

Getdikcə daha aydın şəkildə risk baxımından inkişaf edən cəmiyyətin formalaşması sosiologiyada risk konsepsiyasının yaranması və inkişafına, o cümlədən risk sosiologiyasının ayrıca elmi istiqamətə və sosioloji biliklərin bir şaxəsinə çevrilməsinə səbəb olmuşdur. Bununla yanaşı, risk problemi riskoloji tədqiqatların və riskoloji konsepsiyanın gənc olmasına baxmayaraq, öz tarixinə malikdir. Risk nəzəriyyəsinin sosiolo-

giyada formalaşmasında Niklas Luman, Entoni Giddens kimi sosioloqların rolu olmuşdur.

Misal olaraq, E.Giddens qeyd edirdi ki, əsas olan gündəlik həyatın riskli olması deyil, "ən vacib olan bu riskin gündəlik həyatda sadə xalq və mütəxəssislər tərəfindən müzakirə olunaraq, görünməyən bir hala çevrilməsidir".

Sosiologiyada sosial risk anlayışı çoxşaxəlilik əldə edir və bu, risk-təhlükəsizlik, risk-qeyri-müəyyənlik kimi idraki əlaqələrin formalaşmasında özünü göstərir. Bu zaman ilk halda risk dedikdə mümkün itkilərdən qaçmaq meyli nəzərdə tutulur ki, bu da müəyyən təhlükəsizlik dərəcəsini təmin edir. İkinci halda risk qeyd etdiyimiz kimi bu və ya digər seçim nəticəsində zərər və itkinin nəzərə alınmayan sonluğudur.

Ümumilikdə risk fenomeninin sosiologiyada üç aspekti müşahidə edilir:

1. Risk təhlükə mənbəyi kimi,
2. Risk müəyyən imkanların mövcudluğu, yəni risk seçim olaraq bilinir.
3. Risk mövcud imkanlardan istifadə edərək, qeyri-müəyyənlik halının aradan qaldırılması vasitəsi kimi.

Riskin subyektləri bütün fərdi və kollektiv icraçılardır. Onlar qərar qəbul edir, müəyyən vəziyyətlərdə bu və ya digər seçimi edirlər. Riskin obyektləri isə digərlərinin qərarlarının təsirinə məruz qalan fərd və ya sosial qruplardır. Lakin riskin subyektləri eyni zamanda həm də riskin obyektləridir, belə ki, edilən seçim və qəbul olunan qərarın təsirini özləri də hiss edirlər. Buradan belə nəticə çıxır ki, risk subyektiv-obyektiv sosial fəaliyyət növlərindən biridir.

Riskin təbiətinin və meydana gəlmə şərtlərinin analizi "risk faktorları" anlayışını nəzərdən keçirməyi labüd edir. Risk amilləri dedikdə riskin yaranmasına səbəb olan hal və hadisələr nəzərdə tutulur ki, bunlar riskin xarakter və əsas əlamətlərini

müəyyən edir. Risk sahəsi isə müəyyən amillərdən asılı olaraq, konkret sərhədlərə sahib olmayan riskin meydana gəldiyi məkandır ki, bu məkan müəyyən sosial-iqtisadi başlanğıclardan, sosial sistemin və ayrıca elementlərinin vəziyyətindən asılı olaraq, genişlənmək imkanına malikdir. Bu da bir qayda olaraq, cəmiyyətin köklü transformasiya dövründə böhranlı inkişaf mərhələsinə uyğun gəlir.

Sosial riskin təbiətinin öyrənilməsində əsas terminlər: qeyri-müəyyənlik, mümkünlük, ziddiyyət və alternativlikdir.

**Qeyri-müəyyənlik** – bütün risklərin təməlidir. Belə ki, riskin özü də qeyri-müəyyənliyin bir əlamətidir. Onun keçilməsi risk subyekti tərəfindən hərəkətlərin yaranmasına səbəb olur. Bununla da, riskli vəziyyətin aradan qaldırılması üçün görülən tədbirlər qeyri-müəyyənlik vəziyyətinin aradan qaldırılmasına da şərait yaradır.

**Mümkünlük** – riskin nəticələri aradan qalxarkən və ya anlaşılmayan olarkən meydana gələn haldır. Yayınmalar müsbət və ya mənfi nəticələr verə bilər ki, bunun da təməlində risk yatır.

**Ziddiyyətlilik –** riskdə onunla müəyyənləşir ki, bir tərəfdən risklə bağlı olan fəaliyyət ictimai əhəmiyyətli nəticələrə səbəb ola bilər, digər tərəfdən isə risk və onunla bağlı olan fəaliyyət bu və ya digər problemlərin həlli üçün cəmiyyət tərəfindən qəbul edilən norma və standartlarla uyğun gəlməyə bilər. Nəticədə risk və riskli fəaliyyət anomik (pozuntulu) xarakter alır və onun nəticəsi risk subyekti üçün müsbət olsa da, cəmiyyət tərəfindən bu cür qəbul edilmir.

## 5. Cəmiyyət və qloballaşma

*Qloballaşma* - son dövrlər tez-tez işlənən bir termindir. Bu terminə müxtəlif mənalar vermək olar, lakin danılmaz

faktdır ki, müasir bəşəriyyət tərəfindən qlobal problemlərin dərk edilməsi ən məşhur və tez-tez işlənən bir anlayışın – "qloballaşmanın" meydana gəlməsinə səbəb olmuşdur. Eyni zamanda insan sivilizasiyasının sonunun gəldiyini və səbəbkarın elə insan sivilizasiyasının özü olduğunu dərk etməyə zəmin yaradır. XX əsrin sonu –XXI əsrin əvvəlləri minlərlə insanın həyatına son qoyan beynəlxalq terrorizm, yeni növ xəstəliklər (QİÇS, quş qripi və s.) və sadalananların daha da kəskinləşməsi kimi problemlərlə əlamətdar olmuşdur. Təbii ki, qloballaşmanın mövcudluğu və inkişaf mərhələləri ilə bağlı müzakirələr bu gün də davam etdirilir. Lakin nəzərə almaq lazımdır ki, qloballaşma obyektiv tarixi prosesdir və insan sivilizasiyasının bütün tarixi inkişafının nəticəsidir. Ötən əsrin sonlarında artıq öz mövcudluğunu elan etmişdir və geriyə dönüşü mümkün deyil.

Qloballaşma məfhumu ilk olaraq, ötən əsrin 60-cı illərində fransız və amerikalı alimlər tərəfindən istifadə olunmuşdur. Bu gün isə bütün dünya dillərində ən məşhur ifadələrdən biridir. Qloballaşma prosesi həm siyasi, həm iqtisadi, həm də mədəni aspektdən nəzərdən keçirilə bilər ki, bu da onun sosiomədəni xarakterindən xəbər verir. Daha ümumi mənada qloballaşma millətlərin, xalqların tarixi yaxınlaşma prosesi kimi müəyyən edilə bilər və onlar arasında mövcud olan ənənəvi sərhədlər getdikcə silinir.

Qloballaşma yeni hadisə deyil. Qloballaşma təsərrüfat əlaqələrinin beynəlxalq xarakter alması və beynəlxalq ünsiyyət formasında XIX əsrin sonu, XX əsrin əvvəllərində aktiv inkişaf edirdi. Doğrudur, beynəlxalq böhran, müharibələr, müstəmləkə imperiyalarının dağılması XX əsrdə qloballaşma impulslarını əhəmiyyətli dərəcədə azaltmışdı.

XX əsrin ortalarından başlayaraq, xüsusilə son onilliklərdə qloballaşma tendensiyası milli və regional özünüdərki

sıxışdıraraq, üstünlük təşkil edir. Bu, özünü daha çox vahid iqtisadi və mədəni çevrələrin yaradılmasında əks etdirir. Belə ki, sənayedən öncəki cəmiyyətin iqtisadi və mədəni geriliyinin kəskin nümayişi həyat fəaliyyətinin universal iqtisadi və mədəni formaları ilə əvəz olunur. Buna görə də qloballaşma bəzən vahid kapitalist sisteminin formalaşması kimi müəyyən edilir ki, bu sistemin sərhədləri daxilində vahid əmtəə qaydaları fəaliyyət göstərir.

Bu günə qədər qloballaşmanın mahiyyətinin müəyyənləşməsi sual olaraq qalır və fikir ayrılıqları bu prosesin izahından başlayır. Bir çox alimlər elmi yaradıcılıqlarını bu sosial hadisənin öyrənilməsinə həsr etmişlər, lakin qloballaşmanın təyinatında vahid məxrəcə gəlmək mümkün olmamışdır. Qloballaşmanı "müasir sosial həyatın mədəni aspektdən tutmuş kriminala, maliyyədən – mənəviyyata qədər bütün aspektlərinə toxunan beynəlxalq əməkdaşlığın genişlənməsi və sürətlənməsi prosesi" kimi yanaşmaq mümkündür.

Siyasi planda qloballaşma müəyyən miqyasa malik millətlərarası birliklərin formalaşması və fəaliyyətində özünü büruzə verir: siyasi və hərbi bloklar (NATO), imperiya təsir dairələri (keçmiş sosialist düşərgəsi), hakim qrupların koalisiyası (böyük səkkizlik), qitə birlikləri (Avropa İttifaqı), beynəlxalq təşkilatlar (BMT). Artıq Avropa Parlamenti və İnterpolun simasında dünyəvi idarəetmənin əlamətləri özünü göstərir.

İqtisadi müstəvidə qloballaşmanı "bəşəri kapitalist iqtisadiyyatı" şəklində ifadə etmək olar. Bu müstəvidə regional və bəşəri iqtisadi sazişlərin rolu güclənir, həmçinin qlobal əmək bölgüsü, transmilli və çoxmilli beynəlxalq şirkətlərin rolunun böyüməsi müşahidə edilir. Bu şirkətlər əksər hallarda orta milli dövlətdən daha çox gəlir əldə edə bilirlər. "Toyota", "McDonalds", "Pepsi-Kola" və ya "General Motors" kimi şir-

kətlər artıq öz milli köklərini itirərək, dünya üzrə fəaliyyət göstərirlər. Maliyyə bazarları dünyada baş verən siyasi və sosial dəyişikliklərə ildırım sürəti ilə reaksiya verir. Dünya kapitalist iqtisadiyyatı dünya iqtisadi sistemi çərçivəsində fəaliyyət göstərir.

# MÖVZU 4

# SOSİOLOJİ TƏDQİQATLARIN METODİKA VƏ TEXNOLOGİYASI

1. **Sosial tədqiqatın növləri, əsas mərhələləri və proqramı**
2. **Sosial informasiyanın toplanması, təsnifatı və işlənməsi üsulları**

Sosiologiyanın təkcə nəzəri-öyrədici deyil, eyni zamanda tətbiqi elm sahəsi olduğunun dərk edilməsi üçün bu mövzunun öyrənilməsi əhəmiyyətlidir. Sosioloq-tədqiqatçılar informasiyanın toplanması, təhlili və emalı metodlarının zəngin ehtiyatlarından istifadə edərək real həyatı hərtərəfli tədqiq edə bilirlər və ictimai istifadəyə yararlı yekun məhsul kimi praktik məsələlərin obyektiv mütəxəssis qiymətləndirməsini irəli sürür, həmçinin hadisələrin gələcək inkişafı üçün müxtəlif variantlı (qısamüddətli və uzunmüddətli) proqnoz və mümkün ssenarilər təklif edirlər.

Mövzunun mənimsənilməsi nəticəsində siz öyrənəcəksiniz:

- sosial tədqiqat nə deməkdir və onun hansı növləri var;
- sosial tədqiqatın proqramı hansı element və ardıcıl fəaliyyətdən yaranır;
- “sosial tədqiqatın çıxarışı” anlayışı nə deməkdir və bu zaman hansı sosial göstəricilər əhəmiyyət daşıyır;
- sosial tədqiqat hansı metodlara dayanır və onlar digər ictimai elmlərin metodlarından nə ilə fərqlənir;
- sosial sorğunun anket və müsahibə formalarının oxşar və fərqli xüsusiyyətləri;

- sosial eksperiment nədən ibarətdir və sosial tədqiqatda əhəmiyyəti nədir;
- sosial informasiyanın təhlili və emalı zamanı hansı metod və texnologiyalardan istifadə olunur;
- elmi hesabat hansı hissələrdən ibarətdir və onun hazırlanması zamanı hansı tələblər irəli sürülür.

## 1. Sosial tədqiqatın növləri, əsas mərhələləri və proqramı

Sosial tədqiqata müraciətin əsas səbəbi ictimai həyatın üzdə olmayan, lakin sosial idarə (siyasi, inzibati, iqtisadi və s.) üçün əhəmiyyətli olan tərəfləri haqqında daha geniş və aktual informasiyaya mailk olma ehtiyacıdır.

*Sosial tədqiqat – konkret sosial hadisə və proseslərin sosial informasiyanın kəmiyyət və keyfiyyət baxımından toplanması, ölçülməsi, ümumiləşdirilməsi və təhlilinə imkan verən metodlar vasitəsilə sosioloji öyrənilməsidir.*

Söhbət vahid məqsədə bağlı olan metodoloji, metodik və təşkilati-texniki prosedurların məntiqi ardıcıllıq sistemindən gedir: idarə orqanlarının sosial və digər ictimai həyat sahələrindəki praktik fəaliyyətində istifadə olunması üçün öyrənilən hadisə (proses) haqqında etibarlı məlumat əldə etmək.

Dörd mərhələdən ibarətdir:

- tədqiqatın hazırlıq mərhələsi hədəfin müəyyən edilməsi, proqram və planın tərtibi, tədqiqatın aparılması üçün müddət və vasitələrin müəyyən edilməsi, sosial informasiyanın təhlil və emal üsullarının seçimindən ibarətdir;
- müxtəlif formalardakı (tədqiqatçıların qeydləri, respondentlərin cavabları, sənədlərdən çıxarışlar və s.) ümumiləşdirilməmiş ilkin sosial informasiyanın toplanması;
- toplanılan məlumatların hazırlanması, daha dəqiq əldə

olunan informasiyanın emalı;

- emal olunmuş informasiyanın təhlili, tədqiqatın yekunlarına görə hesabatın hazırlanması, nəticələrin formalaşdırılması, tövsiyə və təkliflərin tərtibi.

Eyni zamanda müxtəlif mürəkkəbliyə malik problemlərin öyrənilməsi üçün vahid, ümumiləşmiş sosioloji tədqiqat forması mövcud deyil. Müəyyən edilmiş hədəfin və irəli sürülmüş məsələnin mahiyyətindən asılı olaraq əsasən, üç sosial tədqiqat növü vardır: kəşfiyyat, təsviri və təhlili.

*Kəşfiyyat xarakterli tədqiqat* (pilot xarakterli, yoxlama mahiyyətli) daha sadə konkret-sosial təhlildir, belə ki, məzmununa görə məhdud məsələləri həll edə bilir. Bir qayda olaraq, kiçik yoxlama toplusunu əhatə edir, sadələşmiş proqrama və yığcam metodoloji vasilətələrə əsaslanır.

Kəşfiyyat xarakterli tədqiqat irimiqyaslı tədqiqatlar üçün ilkin mərhələ kimi və ya ümumi istiqamət üçün öyrənilən predmet haqqında ilkin məlumatların toplanması vasitəsi kimi istifadə edilə bilər. Obyekt az öyrənilmiş və ya heç öyrənilməmiş problemlərə aiddirsə bu cür metoddan istifadəyə ehtiyac yaranır.

Adətən kəşfiyyat xarakterli tədqiqatda ilkin sosioloji informasiyanın toplanması metodlarından (məs., anket sorğusu və müsahibə) qısa müddətdə reallaşdırılması mümkün olandan istifadə olunur. Eyni zamanda genişmiqyaslı tədqiqatın obyekti və ya predmetinin dəqiqləşməsindən söhbət gedirsə xüsusi ədəbiyyatın məqsədyönlü kontent-təhlili aparıla bilər, həmçinin, öyrənilən problemdə səriştəli olan, yaxud tədqiqat obyektinin xarakterik xüsusiyyətlərini və əlamətlərini yaxşı bilən mütəxəssislər (ekspertlər) arasında sorğu keçirilə bilər.

*Təsviri tədqiqat* sosioloji analizin öyrənilən təzahür, onun struktur elementləri haqqında daha dolğun təsəvvür

yaratmağa imkan verən daha mürəkkəb formasıdır. Bu cür hərtərəfli informasiyanın dərk edilməsi və nəzərə alınması şəraiti daha yaxşı anlamaq, ictimai prosesləri idarə etmək üçün forma, vasitə və metodları daha dərindən əsaslandırmağa kömək edir. Təsviri tədqiqat tam, daha ətraflı hazırlanmış proqram, metodik təsdiq edilmiş alətlər əsasında aparılır. Onun metodoloji və metodik təchizatı öyrənilən problemlə bağlı müəyyən edilmiş zəruri xüsusiyyətlərə uyğun olaraq elementlərin qruplaşdırılması və təsnifatı üçün imkan yaradır. Adətən bu tədqiqat metodu, təhlil obyekti müxtəlif səciyyəvi xüsusiyyətləri ilə seçilən böyük insan birliyi olduqda tətbiq edilir.

*Təhlili (analitik) tədqiqat* sosial analizin ən dərinləşmiş növüdür. Onun hədəfi təkcə öyrənilən təzahürün struktur elementlərinin təsviri deyil, həm də onun əsasında dayanan səbəblərin müəyyən edilməsidir. Bu səbəbdən analitik tədqiqat böyük praktik əhəmiyyətə malikdir. Əgər təsviri tədqiqat zamanı sosial təzahürün xüsusiyyətləri arasında əlaqə meydana çıxırsa, analitik tədqiqat zamanı bu əlaqənin səbəb-nəticə xarakteri daşıyıb daşımaması müəyyən edilir.

Sosial eksperiment analitik tədqiqatın müstəqil növüdür. Sosial eksperiment sosial obyektin inkişafına nəzarət edən və yönəldən faktorların təsiri altında dəyişilməsi üzərində müşahidə aparılması yolu ilə sosial təzahür və proseslərin öyrənilməsi metodudur.

Sosial eksperiment aşağıdakıları nəzərdə tutur:

- tədqiqatçını maraqlandıran obyektin adi fəaliyyət şərtlərini müəyyən dərəcədə dəyişdirməklə eksperimental vəziyyət yaratmaq;
- dəyişikliklərin şəxslərin (sosial qrupların) fəaliyyət və davranışlarına göstərdiyi təsirə nəzarət;

- bu təsirin nəticələrinin təhlili və qiymətləndirilməsi.

Sosial tədqiqatın başlanğıc nöqtəsi müəyyən təzahür və ya prosesin metodik fəndlər və metodoloji yanaşmaların hərtərəfli nəzəri əsaslandırılmasını ehtiva edən proqramdır. Proqram bütün əsas hissələri ilə nəzərə alınmışdır, buna görə ən yüksək səviyyəli sosial tədqiqatın təminatına çevrilmişdir.

Sosial tədqiqat proqramına aşağıdakılar daxildir:

- metodoloji hissə - problemin formalaşdırılması və əsaslandırılması, hədəfin göstərilməsi, tədqiqatın obyekt və predmetinin müəyyən edilməsi, əsas anlayışların məntiqi təhlili, tədqiqatın hipotez və məsələlərinin müəyyən edilməsi;
- metodik hissə - təftiş olunan birliyin müəyyən edilməsi, istifadə olunan metodların və ilkin sosial informasiyanın toplanması xarakteristikası, informasiyanın emalı üçün məntiqi sxemlər.

Sosial problem nədir? Həyatın özü tərəfindən hazırlanmış kütləvi xarakter daşıyan və müxtəlif sosial struktur və institutların maraqlarına toxunan ziddiyyətli vəziyyətdir. Sosial problem bir növ müəyyən tərəflərin, hər hansı bir sosial təzahürün və ya sosial prosesin xüsusiyyətlərində kəmiyyət və keyfiyyət dəyişikliklərini “biləməmək haqqında məlumatıdır” (subyektin nəyisə bilməməsini aşkarlaması və dəqiq təsbit etməsi zamanı problemli vəziyyətdir).

Tədqiqatın problemini müəyyən edən zaman onda problemli vəziyyətlə reallıqdakı ziddiyyətinin mümkün qədər daha dəqiq əksini tapmasına çalışmaq lazımdır. Bununla yanaşı problemin öz daşıyıcısını– birbaşa əlaqədə olduğu insanlar birliyini və onların fəliyyətini əvvəlcədən müəyyən etdiyini nəzərə almaq lazımdır. Bu və ya digər sosial

problemin daşıyıcısı *sosial tədqiqatın* obyektidir. Məsələn, bilik səviyyəsindən danışanda müəyyən qrup insanın bilik səviyyəsindən söhbət gedir: tələbələrin, gənc mütəxəssislərin və s. onların hər biri problem daşıyıcısı kimi çıxış edir, demək ki, tədqiqat obyekti ola bilərlər.

Obyektin dəqiq seçilməsi *tədqiqatın predmetinin* müəyyən edilməsinə səbəb olur. Predmet tədqiq olunan problemi, onda gizlənən ziddiyyətləri daha tam əks edən tərəf və xüsusiyyətləri özündə ehtiva edir. Bu mənada sosial tədqiqatın predmeti sosial problemlə tədqiqat obyektinin qarşılıqlı əlaqəsinin cəmlənmiş ifadəsi kimi qarşıya çıxır.

Sosial tədqiqat proqramının tərkib hissəsi sosial tədqiqatın vahid konsepsiyasının icrası mümkünsüz olan bir sıra metodoloji prosedurların yerinə yetirilməsini nəzərdə tutan *əsas anlayışların məntiqi təhlilidir*.

Bu prosedurların mahiyyəti tədqiqatın predmetinin müəyyənləşdirilməsində iştirak edən əsas anlayışların məntiqi strukturlaşdırılmasıdır. Bu öyrənilən təzahürün element və xüsusiyyətləri arasındakı qarşılıqlı münasibətin aydınlaşdırılması üçün ilk mənbədir.

Belə ki, əhalinin hər hansı bir qrupunun sosial aktivliyini öyrənərkən sosial aktivliyin məntiqi təhlili iqtisadi, maliyyə, siyasi, xeyriyyəçilik, ekoloji, maarifçilik, dini, bədii-yaradıcı, informasiya-kommunikativ, idman aktivliyi kimi müxtəlif növlərini üzə çıxarır. Müxtəlif növ aktivliyi izah edərkən biz tədqiqat predmetinin müxtəlif tərəflərinə pillə-pillə yaxınlaşırıq.

Sosial analiz proqramının daha bir struktur elementi *tədqiqatın hipotezinin formalaşdırılmasıdır*. Bu anlayış altında hər hansı bir təzahür, fakt və proseslərin izahı üçün irəli sürülən və təsdiq və ya inkarı lazım olan elmi ehtimal nəzərdə tutulur. Buradan aydın olur ki, hipotezin (öyrənilən problemin

aşkar və ya qapalı ifadə olunan fərziyyələrinin xarakteri) əvvəlcədən irəli sürülməsi butun tədqiqat prosesinin daxili məntiqini müəyyən edə bilər. İrəli sürülən hipotezlərin tədqiqatçının fikrini buxovlamaması, onun işinin yekun nəticələrinin istiqamətini əvvəlcədən müəyyən etməməsi vacibdir. Bu səbəbdən onları birmənalı şəkildə formalaşdırmaq, yayğın anlayışlardan uzaqlaşmaq tələb olunur.

*Sosial tədqiqatın vəzifələrinə* gəldikdə onlar tədqiqatın hədəf və hipotezlərinə uyğun formalaşdırılır və şərti olaraq əsas və yardımçı kimi təsnifatlandırıla bilər. Tədqiqatın əsas vəzifələri əsas suala cavab axtarmağı ehtiva edir: yəni tədqiq olunan problemin həlli yolları və vasitələri hansılardır. Məsələn, əgər tədqiqatın hədəfi təhsil prosesinin effektivliyinin yoxlanılmasıdırsa, əsas vəzifə kimi bu prosesi qeyri-stabil edən faktların axtarılması seçilə bilər. Əlavə hipotezlərin irəli sürülməsi hər-hansı bir məsələlərin aydınlaşdırılmasını tələb edə bilər. Bu halda əlavə vəzifələr nəzərdə tutulur.

Təsviri və analitik sosial tədqiqatlar bir neçə əsas vəzifə ehtiva edir. Bu vəzifələrin icrası müəyyən sayda əlavə vəzifələrin yerinə yetirilməsini nəzərdə tutur. Bu cür tədqiqatlar kompleks tədqiqat adlanır və bir neçə nisbətən müstəqil "xüsusi" tədqiqatların məcmusu hesab edilir.

Sosial tədqiqat proqramının mühüm tərkib hissəsi *araşdırılan kompleksin müəyyənləşdirilməsidir*. Tədqiqat obyektinə daxil olan bütün insanlar (onlar minlərlə, on, yüz minlərlə ola bilər) arasında sorğu keçirilməsi qeyri-rasionaldır. Bu tədqiqatın və lazım olan informasiyanın əldə olunması müddətini uzadar, irihəcmli maliyyə xərcləri tələb edərdi və tədqiqat özü çox ağır olardı. Bu səbəbdən əksər sosial tədqiqatlar hərtərəfli deyil, seçmə xarakter daşıyır. Ciddi

qaydalar əsasında sosial-demoqrafik göstəricilərini, bəzən isə (tədqiqatın vəzifələri tələb edirsə) öyrənilən obyektin xarakterik strukturunu əks etdirən müəyyən insan sayı seçilir. Sosioloqların dilində bu əməliyyat “seçmə” adlanır. Sosioloji informasiyanın keyfiyyəti və etibarlılığı bu əməliyyatın düzgün yerinə yetirilməsindən çox asılıdır.

Seçmə layihəsində obyektdən insan, sənəd və ya başqa ilkin informasiya mənbələrindən toplunun ayrılması prinsipləri göstərilir. Seçmə sosial obyektlərin keyfiyyət xarakteristikası və əlamətlərinin qarşılıqlı əlaqəsi və qarşılıqlı asılılığını nəzərə almalıdır.

Ümumiyyətlə seçmə toplu dedikdə ümumi toplunun elementlərinin müəyyən sayı nəzərdə tutulur. Seçmə toplunun elementləri təhlil vahidləridir. Bu rolda həm ayrı ayrı insanlar, həm də bütöv qruplar ola bilər.

Seçmə bu cür yerinə yetirilir: birinci mərhələdə hər hansı əmək kollektivi, şirkət, müəssisə, əhali qismi seçilir. Onların içərisində bütün qrupun əlamətlərini özündə cəmləşdirən elementlər seçilir. Seçilmiş elementlər seçmə vahidləri adlanır, onların arasından analiz vahidləri seçilir. Bu üsulu mexaniki seçmə adlandırırlar. Bu seçkidə seçim 10, 20, 50 və b. insandan bir seçilə bilər. Seçilən respondentlər arasındakı məsafəni seçki addımı adlandırırlar.

Eyni zamanda hissəli seçmə üsulu da vardır. Bu üsulda ümumi birlik qeyd edilən əlamətlər üzrə (cins, yaş, təhsil və s.) eyni cür qruplara bölünürlər. Daha sonra hər bir qrupdan respondentlər seçilir. Qruplardan seçilən respondentlərin sayı mövcud olan elementlərin ümumi sayı ilə düz mütənasib olmalıdır.

Bununla yanaşı, sosioloqlar yuva seçimi üsulundan da istifadə edirlər. Tədqiqat vahidi olaraq fərdi respondentlər deyil, bütöv qrup və kollektivlər seçilir. Yuva seçimi üsulu

elmi əsaslı sosioloji informasiya əldə etməyə imkan yaradır, bir halda ki, qruplar cins, yaş, təhsil növü kimi mühüm əlamətlərə görə bir-birinə bənzəyirlər.

Hədəfli seçimdən də istifadə olunur. Bu üsulda əksər hallarda təbii seçim üsulu, əsas kütlə üsulu və kvota üsulu istifadə olunur. Təbii seçmə üsulu teletamaşaçıların, qəzet və jurnal oxucularının adi poçt sorğusudur. Burada poçt vasitəsilə anket doldurub göndərəcək respondentlərin kütləvi strukturunu müəyyənləşdirmək mümkün deyil. Bu cür tədqiqatın nəticələrini yalnız müəyyən birliyə şamil etmək olar.

Kəşfiyyat xarakterli tədqiqat zamanı adətən əsas kütlə üsulundan istifadə olunur. Bu cür hallarda seçim birliyinə daxil olan respondentlərin yalnız 60-70%-i sorğuya çəkilir.

Kvota seçimi üsulu ictimai rəyin öyrənilməsi hallarında tətbiq olunur. Bu üsuldan yalnız o zaman istifadə olunur ki, tədqiqat başlayana qədər ümumi birliyin elementlərinin həlledici əlamətləri ilə bağlı statistik məlumatlar mövcuddur.

Latın dilindən tərcümədə "kvota" "hər kəsə düşən hissə" mənasına gəlir. Buradan da seçkiyə yanaşma tərzi müəyyənləşir: burada sorğu keçirilənlər arasında müxtəlif təhsil və təsnifat səviyyəsinə malik respondentlərin payına düşən hissə müəyyənləşməlidir.

Bu və ya digər həlledici əlamət haqqında məlumatlar kvota qismində çıxış edir, onların sayı isə kvota göstəriciləri hesab olunur.

Bu üsulda respondentlər məqsədli, kvota göstəriciləri nəzərə alınmaqla seçilirlər. Kvota qismində seçilən məlumatların əlamətlərinin sayı adətən dördü keçmir, belə ki, göstəricilərin çoxluğu zamanı respondentlərin seçimi faktiki mümkün deyil.

Sosioloji tədqiqatın keyfiyyətli şəkildə həyata keçirilməsi ilə bağlı olan vacib tədbirləri özündə əks etdirməli olan tədqiqat işi planının tərtibi mühüm əhəmiyyət kəsb edir. Sosial tədqiqatın bacarıqla düzəldilmiş planı onun təşkilatçıları üçün yaxşı nəticədir: o, elmi, təşkilati və maliyyə məsrəflərinin həcmini daha dəqiq müəyyənləşdirməyə yardım edir, tədqiqata davamlıllq və bütün mərhələlərində ardıcıllıq bəxş edir.

Bu cür planın tərtibi müəyyən prinsip və qaydaların ciddi hesabını nəzərdə tutur. Istənilən tədqiqat müxtəlif elmi-tədqiqat və təşkilati-texniki formalara malik bir sıra seriya və mərhələlərdən ibarətdir. Onları bir-birinə iş planında qeyd olunmuş vahid elmi-tədqiqi məntiq birləşdirir. Əksər hallarda onlar 4 bloklu planda qruplaşdırılır.

***Birinci blokda*** proqramın müzakirəsi və təsdiqi qaydası və tədqiqatın metodik alətlərlə təchizi; ilkin informasiyanın toplanması qrupunun təşkili və hazırlanması; təcrübi tədqiqatın həyata keçirilməsi; sahə tədqiqatının aparılması üçün alətlərin çoxaldılması; tədqiqat üçün nəzərdə tutulan smetanın tutulması, maddi və maliyyə xərclərinin hesablanması müəyyənləşir.

***İkinci blok*** planda yer alan sahə tədqiqatının dəqiq yerinə yetirilməsini təmin edən bütün təşkilati və metodik iş növlərini, yəni ilkin sosial informasiyanın kütləvi və qrup şəklində toplanmasını qeydə alır.

***Üçüncü blok*** ilkin informasiyanın hazırlanması ilə əlaqəli əməliyyatların məcmusunu əhatə edir. Öncədən müsa-hibə, anket və sosial informasiyanın toplanması üçün lazım olan digər alət blanklarının doldurulmasnın, açıq və yarımaçıq sualların kodlaşdırılmasının, ilkin məlumatların kompyuterə yığılmasının keyfiyyətinin yoxlanılması həyata keçirilir. İnformasiyanın işlənməsi nəticəsində tədqiqat qrupu cədvəllər

və ya sosioloji məlumatların digər çap olunmuş növlərini əldə edə bilir.

***Dördüncü blok*** tədqiqatın nəticələrinin analizi; əldə olunmuş məlumatların işlənməsi; ilkin və yekun hesabatlar, analitik yazılar və ya sosial statistikanın tematik toplusu ilə əlaqəli mətnlərin hazırlanması; praktiki tövsiyələr və mümkün proqnozlar ilə bağlı olan bütün iş növlərini özündə birləşdirir.

## 2. Sosial informasiyanın toplanması, təsnifatı və işlənməsi üsulları

Sosial informasiyanın toplanması üsulları içərisində birinci yerdə sorğu metodu gəlir. Bu üsulun spesifik xüsusiyyəti ondan ibarətdir ki, onun istifadəsi zamanı sosial məlumatın ilk mənbəyi tədqiq olunan sosial proses və hadisələrin bilavasitə iştirakçısı olan insandır. Sorğunun şifahi və yazılı olması baxımdan iki növü vardır: anketləşdirmə və müsahibə. Onların təməlində ilkin sosial məlumatı meydana gətirən mümkün sual və cavabların məcmusu dayanır. Sorğu metodu qısa müddət ərzində çox sayda insanla sorğu keçirmək və müxtəlif məlumatlar almaq imkanı yaradır. Heç də az dəyərli olmayan keyfiyyətlərindən biri də sosial praktikanın müxtəlif sahələrini geniş şəkildə əhatə etməsidir.

Tətbiqi sosiologiyanın ən geniş yayılmış sorğu növlərindən biri anketləşdirmədir.

*Sosial anket - vahid tədqiqat məqsədli suallar sistemi olub, analizin obyektinin və predmetinin kəmiyyət, keyfiyyət xüsusiyyətlərinin müəyyənləşdirilməsinə yönəlmişdir.*

Anketin öz təyinatını uğurla yerinə yetirməsi üçün onun quruluşunun qayda və prinsiplərini, xüsusilə onu təşkil edən sualların özəlliklərini bilmək və riayət etmək lazımdır. Sosial

anketin müəllifi hər sualı böyük ölçüdə insana ünvanlayır. Buna görə sual fərqli sosial demoqrafik respondent qrupları üçün aydın olmalıdır: cavan, ya qoca, ali və orta təhsilli insanlar, şəhər və kənd əhalisi və s.

Anketlərdə istifadə olunan bütün sualları məzmun, forma və funksiyalarına görə təsnifatlandırmaq olar.

Məzmunlu suallar rəy, arzu və gözləntilərin müəyyənləşməsinə istiqamətlənmişdir. Respondent tərəfindən bildirilən hər hansı rəy fərdi təsəvvürlər üzərində qurulmuş qiymətləndirici fikirlərdir, buna görə də subyektiv xarakter daşıyır.

Suallar qapalı və açıq olur.Qapalı suallar tam cavab variantları qeyd olunan suallardır.Onu oxuyan şəxs öz fikri ilə uyğun gələn variantı seçir.Qapalı suallar alternativ və qeyri-alternativ olurlar. Alternativ suallar respondent tərəfindən yalnız bir cavabın seçilməsini şərtləndirir. Qeyri-alternativ suallar isə bir neçə cavab variantı təklif edir.

Qapalı suallardan fərqli olaraq, açıq suallar heç bir açar vermir və respondentə heç bir cavab təklif etmir.Bu suallar öz fikrini bütünlüklə ifadə etməyə imkan yaradır.Buna görə də açıq suallar vasitəsilə daha çox informasiya əldə etmək mümkündür.

Anket sorğusunun bir sıra xüsusiyyətləri var. Sorğu 30-40 dəqiqədən artıq davam etməməlidir.Məzmunca daha çətin suallar daha asan suallardan sonra gəlməlidir. Birinci sual nə müzakirə xarakterli, nə də şübhələndirici olmalıdır. Çətin sualları anketin mərkəzinə yerləşdirmək daha yaxşı olar ki, respondent mövzuya dərindən aludə olsun. Suallar məntiqin tələblərinə cavab verməlidir.Əvvəlcə hər hansı bir faktın qurulmasından, daha sonra onun qiymətləndirilməsindən söhbət getməlidir.Bu, sosial tədqiqatın mühüm amilidir.

Müasir təcrübədə müsahibə üsulu daha az istifadə

olunur. Bu ilk öncə xüsusi hazırlıq keçmiş daimi müsahibə alanlar şəbəkəsinin zəif inkişafından irəli gəlir.

Müsahibənin fərqli keyfiyyətləri vardır.Anketləşdirmə ilə müsahibə arasında əsas fərq tədqiqatçı ilə sorğulanan arasındakı əlaqə formasıdır.Anketləşdirmədə onlar arasında əlaqə anketlə baş tutur. Müsahibədə isə tədqiqatçı ilə respondent arasında əlaqə müsahibə alan vasitəsilə olur. O, tədqiqatçı tərəfindən nəzərdə tutulmuş suallar verir, ayrı-ayrı hər bir insanla söhbəti təşkil edir və istiqamətləndirir və aldığı cavabları təlimata uyğun olaraq qeydə alır.

Tətbiqi sosiologiyada üç növ müsahibə vardır: formallaşmış, fokuslanmış, sərbəst.

*Formal (standart)* müsahibə - müsahibənin ən geniş yayılmış növüdür.Bu növdə müsahibə tərəfləri arasındakı bütün detallar tam reqlamentləşmiş olur. Bu növdə müsahibə alan təlimata ciddi şəkildə riayət etməlidir. Standart müsahibədə qapalı suallar üstünlük təşkil edir.

*Fokuslanmış* suallar konkret vəziyyət, onun səbəb və nəticələri ilə bağlı rəy və qiymətləndirmələri toplamaq üçün nəzərdə tutulub.

*Sərbəst* müsahibə yalnız o halda mümkün olur ki, tədqiqatçı öz işinə yeni başlasın.Tədqiqatın keçirildiyi ərazidə tədqiqatın konkret məzmununu müəyyən etməyə çalışsın. Sərbəst müsahibə əvvəldən hazırlanmış söhbət planı olmadan yerinə yetirilir. Müsahibənin yalnız mövzusu müəyyən olur.

Elmi məlumatın əldə olunma vasitələrindən biri də müşahidə metodudur.

*Sosial müşahidə mühüm sosial hadisələrin və proseslərin məqsədli, sistemli, bilavasitə izlənməsi və qeydə alınmasıdır. O, müəyyən idraki hədəfə malikdir.*

Müşahidə üsulunun üstünlüyü ondan ibarətdir ki, o, öyrənilən hal və prosesin inkişafı ilə eyni anda həyata

keçirilir. İnsanların konkret şərtlər və real zaman çərçivəsindəki davranışlarını bilavasitə qəbul etmək imkanı yaranır. Yaxşı hazırlanmış müşahidə proseduru vəziyyətin bütün mühüm elementlərini qeydə almağı təmin edir. Bununla da, onun obyektiv öyrənilməsi üçün zəmin yaranır.

Müşahidə metodunun çatışmazlıqları iki qismidir: obyektiv (müşahidəçidən asılı olmayan) və subyektiv (müşahidəçinin şəxsi və peşəkar keyfiyyətləri ilə bağlı olan).

Sosial müşahidənin aşağıdakı növləri vardır:

Qoşulan və qoşulmayan, sahə və laborator, sistematik və pərakəndə.

Qoşulan (iştirak olunan) müşahidə sosioloqun bilavasitə iştirak etdiyi və müşahidə olunanlarla birgə olduğu müşahidə növüdür.

Müşahidə o zaman sahə müşahidəsi adlanır ki, təbii müşahidə şəraitində keçsin. Məsələn, auditoriya, tikinti və s. yerlərdə.Yeni üsulun öyrənilməsi lazım gəldikdə isə laborator müşahidə növü tətbiq olunur.

Sistematik müşahidə müəyyən dövr ərzində mütəmadi yerinə yetirilir. Qeyri-sistematik müşahidə də vardır ki, bu zaman müşahidəçi gözlənilməz vəziyyətlərlə üzləşə bilər.

İlkin məlumat toplanması üsullarından biri də sənədlərin analizi üsuludur. Tətbiqi sosiologiyada sənəd dedikdə müxtəlif çap və əlyazma materialları, bəzi hallarda isə film, fotomaterial və s. də nəzərdə tutulur. Statusuna görə sənədlər rəsmi və qeyri-rəsmi olur.Rəsmi sənədlər ictimai əlaqələri və kollektiv fikri ifadə edən, dövlət və özəl müəssisələr tərəfindən tərtib olunan sənədlərdir.

Qeyri-rəsmi sənədlər isə şəxsi sənədlərdir. Gündəlik, memuar, şəxsi yazışma və s.

Sənədlərin analizi zamanı keyfiyyətli və formal analiz mövcuddur.

Sosial məlumatların toplanmasında çətin üsullardan biri də təcrübədir. Təcrübənin keçirilməsi digər üsullarla əldə olunması mümkün olmayan unikal informasiyaların əldə edilməsinə imkan verir. Bu və ya buna bənzər suallara cavab tapılmasına yalnız müəyyən vəziyyət yarada bilən və qiymətli məlumat qazanmağı bacaran təcrübə kömək edə bilər.

Təcrübənin ümumi məntiqi ondan ibarətdir ki, müəyyən təcrübə qrupunun seçilməsi və adi olmayan təcrübə vəziyyətinə (müəyyən amilin təsiri altında) salınması yolu ilə tədqiqatçını maraqlandıran keyfiyyətlərin həlledici istiqamətini, həcmini və davamlı dəyişkənliyini izləmək mümkün olsun. Bu mənada təcrübə qapalı sistemə çevrilir və onun elementləri tədqiqatçı tərəfindən yazılmış "ssenari" ilə qarşılıqlı əlaqədə olurlar.

Təcrübələr vəziyyətdən asılı olaraq sahə və laborator olur. Sahə təcrübəsində qrup təbii iş şəraitində olur. Bu zaman qrup üzvləri təcrübədə iştirak etdiklərindən məlumatsız da ola bilərlər. Onların məlumatlandırılması təcrübənin gedişatından asılıdır.

Laborator təcrübədə təcrübə qrupu süni şəkildə qurulur. Buna görə də qrup üzvləri öncədən məlumatlı olurlar.

Təcrübənin hazırlanması və keçirilməsi üçün bir sıra şərtlər nəzərə alınmalıdır:

- Təcrübənin hədəfinin müəyyən olunması;
- Təcrübə qrupu olaraq istifadə olunan obyektin seçilməsi;
- Təcrübənin predmetinin seçilməsi;
- Əsas, faktorlu, neytral əlamətlərin seçilməsi;
- Təcrübə şərtlərinin müəyyən olunması və təcrübə vəziyyətinin yaradılması;
- Hipotezlərin qurulması və tapşırıqların müəyyən olunması;

- İndikatorların seçilməsi və təcrübənin keçirməsinə nəzarət;
- Nəticələrin qeydə alınması üsullarının müəyyənləşməsi;
- Təcrübənin effektivliyinin yoxlanılması.

Təcrübənin məntiqi həmişə səbəbin axtarılmasına, keyfiyyətin dəyişilməsinə, tədqiqatçının maraqlandıran ictimai hadisəyə, yaxud prosesə tabedir. Onların tapılması mütləq şərti təcrübə qrupunun bəzi amillərin təsiri ilə dəyişməsindən ibarətdir.

# MÖVZU 5
# CƏMİYYƏTİN SOSİAL STRUKTURU

1. **Cəmiyyətin sosial-sinfi diferensiasiyasının təhlilində iki yanaşma**
2. **Sosial mobillik və marginallıq stratifikasiya dinamikasının göstəriciləri kimi**

Mövzunun müxtəlif sosial proses və dəyişikliklərin, o cümlədən siyasi sferada baş verən proses və dəyişikliklərin ilkin səbəblərinin aydınlaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Cəmiyyətin real sosial-sinfi strukturu və onun dinamikası haqqında biliklər siyasətin dərinliklərini, kökünə varmaq və istənilən siyasi təsir və təşəbbüsləri şərtləndirən, bütün siyasi layihə və proqramların məzmununu müəyyən edən maraqları aşkar etməyə imkan verir.

- cəmiyyətin öyrənilməsində əsas anlayışlardan biri olan sosiallıq nədir;
- insanların birgə həyatının təşkilində və fəaliyyətində onların müxtəlif qrup və kütləvi birliklərə təbəqələşməsinin (diferensiasiyasının) yeri;
- "sosial stratifikasiya" anlayışının məzmunu nədən ibarətdir;
- sosial bərabərsizliyin strukturunu hansı obyektiv və subyektiv amillər şərtəndirir və bu bərabərsizlik qrup və sinif maraqlarını müdafiə etmək imkanlarına necə təsir göstərir;
- sosial strukturun üç stratifikasiya səviyyəli (ali, orta və aşağı) struktur kimi səciyyələndirilməsinin arxasında nə durur; sosial qrup və siniflərdən hansıları bu səviyyələri təşkil edir, Qərb cəmiyyətlərində onların parametrləri (xüsusi çəkisi) necədir;

- "sosial mobillik" anlayışının mənası nədən ibarətdir və sosioloji bilikdə sosial mobilliyin hansı tipləri fərqləndirilir, onların "marginallıq" anlayışı ilə nisbəti;
- ölkəmizdə sosial stratifikasiya prosesləri üçün hansı proses və tendensiyalar səciyyəvidir və onlara məxsus olan bipolyarlığı və gizli sosial gərginliyi azaltmaq üçün nə etmək lazımdır.

## 1. Cəmiyyətin sosial-sinfi diferensiasiyasının təhlilində iki yanaşma

İstənilən cəmiyyət obyektiv şərtlənən sosial-iqtisadi, siyasi, mənəvi əlaqə və münasibətlərdə olan müxtəlif sosial birliklərdən təşkil olunmuş, daxilən parçalanmış bir çoxluq kəsb edir. Onlar hətta sosial reallıq kimi özlərini yalnız bu əlaqə və münasibətlərin çərçivəsində mövcud ola və özlərini büruzə verə bilir. Elə bu da cəmiyyətin tamlığını, onun vahid sosial orqanizm kimi fəaliyyətini şərtləndirir. Sosial kəsimdə cəmiyyət haqqında biliklər olmadan səmərəli dövlət idarəçiliyi, habelə bu və ya digər sosial proses və hərəkətlərin əsasında duran səbəb və motivasiyaları dərk etmək mümkün deyil.

Cəmiyyətin hansı siniflərdən, sosial təbəqələrdən və qruplardan (ilkin maraq daşıyıcılarından) ibarət olduğunu və bu differensiasiyanın əsasında nəyin durduğunu, habelə bu sinif və sosial qrupların bir-birinə qarşı necə nizamlandığını, onların arasında nə kimi məsafənin olduğunu, bir sosial birlikdən digər sosial birliyə keçidin mümkün olub-olmadığını bilmək son dərəcədə vacibdir. Bu sosial iyerarxiyanın nəyin nəticəsi - təbii-tarixi təkamülünümü, yoxsa köhnə strukturun yenisi ilə əvəz olunduğu sosial inqilabınmı məhsulu olduğunu da bilmək lazımdır.

Sosioloji elmdə cəmiyyətin sosial strukturunun təhlilinə iki yanaşma mövcuddur: sinfi yanaşma və stratifikasiya yanaşması.

Sinfi yanaşmaya (əsasən marksizmə xasdır) görə, cəmiyyətin sosial strukturunda mərkəzi yeri siniflər tutur. V.İ.Leninin "Böyük təşəbbüs" adlı əsərində onları tarixi cəhətdən müəyyən ictimai istehsal sistemindəki yerlərinə görə, istehsal vasitələrinə münasibətinə görə (yəni mülkiyyət formalarına görə), əməyin təşkilindəki roluna görə (yəni əməyin xarakteri və məzmununa görə); ictimai sərvətlərdən ona düşən payın miqdarı və bölünmə üsuluna və onlardan birinin müəyyən ictimai təsərrüfat sistemindəki yerinin fərqli olduğuna görə, digərinin əməyini mənimsəyə bildiyinə görə fərqlənən böyük insan qrupları kimi səciyyələndirir.[19]

Əsas sinif yaratma əlaməti olan mülkiyyət formalarından çıxış etməklə, marksizm cəmiyyətdə iki əsas sinfi fərqləndirir:

- Varlı sinfi, yəni istehsal vasitələri üzərində mülkiyyətə sahib olan və iqtisadi olaraq (bu səbəbdən, deməli, siyasi də olaraq) hakim sinif;
- kasıb sinfi, yəni istehsal vasitələri üzərində mülkiyyətdən məhrum olan və varlılar tərəfindən istismar olunan sinif.

Bu iki sinif antaqonist (yəni maraqları barışmaz olan) siniflər kimi bir-biri ilə qarşılıqlı təsirlər edir. Buna görə də onlar permanent qarşıdurma və mübarizə vəziyyətindədirlər. Bu mübarizə və onunla bağlı olan zorakılıq bütün sosial inqilab və kataklizmlərin əsasında durur.

Müasir sənaye yaranmazdan əvvəl əsas istehsal vasitələri əkinçilik və maldarlıqda istifadə olunan torpaq və alətlər idi. Buna görə də sənayeyəqədərki cəmiyyətlərin əsas antipod sinif-

---

[19]Ленин В.И.Полное собрание сочинений. Т.39./В.И.Ленин. – М.: Издательство политической литературы, с.129.

ləri torpaq sahibləri (aristokratiya, kiçik mülklü zadəganlar, quldarlar) və onlarda bilavasitə işləyənlər (kəndli və qullar) idi.

İndustrial və postindustrial cəmiyyətlərdə fabrik, ofislər, sənaye avadanlığı, habelə onların əldə edilməsi üçün kapital xüsusi əhəmiyyət əldə edir. İndi artıq iki əsas sinif istehsal vasitələrinə sahib olanlar (kapitalist və ya sənayeçilər) və öz əməyini satmaqla dolanan fəhlə sinfi və ya (K.Marksın arxaik termini ilə desək) proletariatdır.

İki əsas sinifdən başqa, kapitalizm cəmiyyətində mark-sizm keçid deyilən sinifləri də fərqləndirir. Bu, əvvəlki istehsal sistemlərindən qalan və hələ uzun müddət davam edə bilən (baxmayaraq ki, bu köhnə sistemlər artıq parçalanmışdır) sinif qruplarıdır. Məsələn, müasir Qərbin bəzi cəmiyyətlərində (Fransa, İspaniya və ya İtaliyada) əhalinin böyük hissəsini əvvəlki kimi kəndlilər təşkil edir və onların əməyi feodal dövrlərindən bəri demək olar ki, heç dəyişməmişdir.

Siniflər homogen yox, heterogen sosial birliklərdir. Onlar üçün ali, orta və aşağı təbəqələrə sinifdaxili seqment-ləşmə səciyyəvidir.

Belə ki, indiki sahibkarlar sinfində biznes-elita, orta və kiçik biznes fərqləndirilir. Fəhlə sinfində fəhlə aristokratiyası (yüksək ixtisaslı fəhlələr), ixtisaslaşmış fəhlələr və qara fəhlələr bir-birindən fərqlənir. Bu siniflər arasında münasibətlər çox vaxt münaqişəli xarakter daşıyır. Bu sinifdaxili gərginliyin səbəbləri müxtəlif ola bilir, məsələn, biznesdə çox vaxt söhbət rəqabət zəminində maraqlar münaqişəsindən və dövlətin iri və kiçik biznesə münasibətdə apardığı siyasətdəki fərqlərdən gedir.

Stratifikasiya yanaşması (Qərbin sosioloji elmi üçün səciyyəvidir) çərçivəsində iqtisadi və istehsal münasibətləri sosial diferensiasiyanın başlıca və yeganə ilkin şərti kimi nəzərdən keçirilmir. Cəmiyyətdə hər hansı ortaq əlamətlərinə

(əmlak və ya peşə, təhsil səviyyəsi, hakimiyyətə çıxışın olub-olmaması və bunun həcmi, həyat tərzi və s.) görə birləşən saysız-hesabsız "stratlar" (insan qrupları) mövcuddur. Stratlar iyerarxik pilləkəndə yerləşirlər, yəni nisbətən yüksək və nisbətən aşağı mövqe tuturlar. Nəticədə sosial struktur sosial bərabərsizlik sistemi şəklində göz önünə gəlir. Bu çərçivədə müəyyən təbəqələr və qruplar başqalarından daha çox nemətlər əldə edir.

Normativ-dəyər tənzimləmənin (nüfuzluluq şkalası) nəticəsində sosial pilləkənin yuxarı mərtəbələrinə yalnız statusu titulunun, peşəsinin əhəmiyyətinin kütləvi şüurda kök salmış təsəvvürlərə, habelə cəmiyyətdəki norma və qanunlara uyğun gələnlər qalxa bilirlər. İyerarxiyanın bu növlərinin cəmiyyət üçün mühüm əhəmiyyəti var, çünki onlar sosial əlaqələrin təkrar istehsalını tənzimləməyə, insanların şəxsi ambisiyalarını cəmiyyət üçün əhəmiyyətli olan statusları əldə etməyə yönəltməyə imkan verir.

Qeyd etmək lazımdır ki, cəmiyyətdə stratifikasiya bərabərsizliyi obyektiv xarakter daşıyır. Bu, bir tərəfdən, genetik olaraq şərtlənir. Yəni, təbiətin özü insanları əzəldən fiziki, əqli və s. cəhətdən qeyri-bərabər yaradır, digər tərəfdən insanların təkrar ictimai istehsalda oynadıqları sosial rol və funksiyaların ictimai əhəmiyyəti və dəyəri müxtəlifliyindən yaranır. Bu rolların və fəaliyyət növlərinin müxtəlif cür qiymətləndirilməsi insanlar arasında mükafat və imtiyazların qeyri-bərabər bölgüsünü şərtləndirir: birini "sosial lift" yuxarı qaldırır, başqasını aşağı salır. Özü də bu bərabərsizlik çox vaxt birbaşa mülkiyyətlə bağlı olmayan iqtisadi fərqlərlə şərtlənir. Misal üçün muzdlu əməklə məşğul olan şəxsləri götürsək, onda onların arasında həlledici amillərə, ilk növbədə həmin adamın bu və ya digər işi yerinə yetirmək imkanına təsir göstərən ustalıq və ixtisas dərəcəsi aiddir. Peşəkarlar və idarəçilər

kateqoriyasına aid olan insanlar muzdla işləsələr də, daha çox qazanırlar və onların əmək şəraiti də fəhlələrin əmək şəraitindən daha yaxşıdır. Alimlik dərəcələri, rütbələr, diplomlar, peşə hazırlığı sayəsində əmək bazarında onların vəziyyəti daha yaxşı olur. Beləliklə də fəhlələr arasında təcrübəli və yaxşı hazırlıqlı insanlar, ixtisas dərəcəsi aşagı və ya ixtisas dərəcəsi olmayanlardan daha çox qazanırlar.

Qeyd etmək lazımdır ki, cəmiyyətdə sosial iyerarxiyanın dəstəklənməsinin ilk əvvəl sadə həlli tapılmışdı: qul ailəsində doğulmuş qul olaraq qalmalı, zadəgan ailəsində doğulan – ali sinif nümayəndəsi olmalıdır. Sosial statuslar sistemi (hüquq, ordu, məhkəmə, kilsə) bütövlükdə cəmiyyətin belə təşkili qaydalarına əməl edilməsinə nəzarət edirdi.

Aydındır ki, belə iyerarxik sistemin davamlılığı yalnız:

- silah gücünə (silaha malik olmaq yalnız ali təbəqələrin hüququ olmuşdur);
- insanların zəkasına təsir göstərmək imkanına malik olan din gücünə;
- müvafiq qanun, norma, adətlərin gücünə (dövlət aparatı bunlara əməl edilməsinə nəzarət edir) dəstəklənə bilərdi.

Müasir cəmiyyətə gəlincə, ona iyerarxik sistemin belə sərtliyi xas deyil. Formal olaraq bütün vətəndaşların hüquqları bərabərdir. O cümlədən, onlar sosial məkanda istənilən yeri tutmaq, sosial pilləkənin yuxarı mərtəbələrinə qalxmaq və ya aşağıda yer almaq hüququna malikdirlər. Buna baxmayaraq, kəskin dərəcədə artan sosial mobillik iyerarxik sistemin sərhədlərinin itməsinə gətirib çıxarmadı. Cəmiyyət əvvəlki kimi özünün çoxpilləli sosial pilləkənini dəstəkləyir və mühafizə edir.

Cəmiyyətin bu şaquli kəsiminin profili daimi deyil. K.Marks vaxtilə qeyd etmişdi ki, onun konfiqurasiyası tədricən var-dövlətin az sayda insanların əlində cəmləşməsi və əhalinin əsas kütləsinin xeyli yoxsullaşması hesabına dəyişəcək. Bu

tendensiyanın nəticəsi olaraq sosial iyerarxiyanın yuxarı və aşağı qatları arasında ciddi gərginlik yaranır ki, bu da zəruri olaraq milli gəlirin yenidən bölgüsü uğrunda mübarizəyə çevriləcək.

P.Sorokin də K.Marksın kapitalizmdə kütlələrin mütləq yoxsullaşması barədə tezisini qəbul etməyib belə hesab edirdi ki, sosial piramidanın yuxarı hissəsi yerdə qalan hissə üzərində yüksəlməyə meyillidir. Lakin var-dövlətin və hakimiyyətin artımı sonsuz deyil. Onun fikirlərinə görə, doyma nöqtəsi mövcuddur ki, bundan o tərəfə cəmiyyət gedə bilməz, əks halda onu böyük fəlakət gözləyə bilər. Həmin nöqtəyə yaxınlaşdıqca, cəmiyyətdə neqativ tendensiyanın qarşısını alma prosesləri cərəyan etməyə başlayır: ya vergiqoyma sistemi vasitəsilə var-dövlətin yenidən bölgüsü istiqamətində islahatlar aparılır ya da geniş xalq kütlələrinin qatıldığı dərin inqilabi proseslər başlayır.

Deyilənlər sosial iyerarxiya prinsipinin özünü istisna etmir.

Qeyri-bərabərlik ayrı-ayrı fərdlərin, sosial qrupların, təbəqələrin, siniflərin şaquli sosial iyerarxiyanın müxtəlif pillələrində olduqları və həyat şanslarının və tələbatlarını təmin etmək imkanlarının qeyri-bərabər olduğu diferensiasiya formasıdır. Bu, təkcə sosial həyatın obyektiv varlığı deyil, həm də sosial inkişafın mühüm mənbəyidir.

Gəlirlərdə, mülkiyyətə və hakimiyyətə münasibətdə bərabərləşmə fərdləri hərəkət etmək, özünürealizə, özünütəsdiq üçün daxili stimuldan, cəmiyyəti isə yeganə energetik inkişaf mənbəyindən məhrum edir.

Qeyd etmək lazımdır ki, var-dövlət və kasıbçılığın paylanması baxımından təhlil edilən cəmiyyətin sosial strukturu ya piramidal ya da rombvarı forma ala bilir.

Birinci (piramidal) forma zəif inkişaf etmiş və ya geri qalan cəmiyyətlər üçün səciyyəvidir. Burada fərd və qrupların mövqeləri qütbləşmişdir: bir qütbdə (azlığın) var-dövlət, digər qütbdə isə (çoxluqda) yoxsulluq cəmləşir.

İkinci (rombvarı) inkişaf etmiş ölkələr üçün səciyyəvidir. Fövqəlvarlılar və kasıb azlıq (ali və aşağı siniflər) olduqda, insanların əksəriyyəti orta sinfi təşkil edir. Bu, öz əməyi və istedadı hesabına imkanlı olan, sosial və iqtisadi cəhətdən fəal olan vətəndaşlardır. Belə "meşşanların" sosial daşıyıcıları rolunda çıxış edən fəzilətlərə sözünə əməl etmə, əməksevərlik, qənaətçillik, nizam-intizamlılıq aiddir.

Piramidal sosial strukturda söhbət potensial olaraq qeyri-stabil ölkələrdən gedir. Burada zaman-zaman gərginlik artır və bu, sosial partlayışlara və inqilablara və vətəndaş müharibələrinə səbəb ola bilir.

Rombvarı sosial strukturda cəmiyyətlər immanent olaraq stabildirlər. Onların inkişafı bir qayda olaraq ictimai orqanizmdə hər hansı ciddi pozuntular, aritmiyalar olmadan sakit təkamül xarakterini daşıyır. Bu, heç şübhəsiz, hakim elitanın siyasətindəki səhvlərdən və dünyada pərdəarxası gedən proseslərdən irəli gələn qeyri-stabil situasiyanın yaranmasını istisna etmir.

## 2. Sosial mobillik və marginallıq stratifikasiya dinamikasının göstəriciləri kimi

Cəmiyyətin sosial strukturunu araşdırarkən aşağıdakı suala cavab tapılmalıdır: kim və hansı qruplardan hansı qruplara keçid edir, bu yerdəyişmələr nə dərəcədə intensivdir və ya əksinə, ləngdir. Bu kimi stratlararası yerdəyişmələr (fərdin və ya sosial obyektin bir sosial mövqedən başqa sosial mövqeyə keçidi) "sosial mobillik" anlayışı ilə əhatə olunur.

Sosial mobilliyin iki tipi fərqləndirilir***: şaquli*** və ***üfüqi.***

***Şaquli mobillik*** dedikdə, fərdin sosial mövqeyinin elə şəkildə dəyişməsidir ki, bu çərçivədə status ya yüksəlir, ya da enir. Yerdəyişmələrin istiqamətindən asılı olaraq, bu mobilliyin iki növü vardır: yüksələn və enən, yəni sosial yüksəliş və sosial eniş.

Yüksələn sosial mobillik "sosial karyerizm" formasını alır. Bu, insanın sosial pilləkəndə aşağıdan yuxarıya, aşağı təbəqədən ali təbəqəyə doğru hərəkətində öz ifadəsini tapır. Enən sosial mobillikdə hərəkət əks istiqamətdə olur, yəni yuxarıdan aşağıya və güclənməkdə olan pauperləşmə (qismən və ya tam olaraq yoxsullaşma), bəzən də lümpenləşmə (insan həyatın dibinə düşür, dilənçiyə və ya evsiz-eşiksiz adama çevrilir) ilə müşayiət olunur.

Ayrı-ayrı fərdlərin sosial yerdəyişmələri ilə bağlı olan şaquli mobilliklə yanaşı cəmiyyətin sosial strukturunun və sosial təbəqələrə ayrılmanın əsaslarının özlərinin köklü şəkildə dəyişməsi ilə bağlı olan şaquli qrup mobilliyi də mövcuddur ki, bu da tarixin sərt dönəmlərində (inqilabi çevrilişlər, "qovub çatan modernləşdirmə" çərçivəsində köklü islahatlar və s. nəticəsində) baş verir.

***Üfüqi mobillik*** eyni stratın çərçivəsindən kənara çıxmayan (həm yüksələn, həm də enən) yerdəyişmələrdir. Bu sadə səbəbə görə ki, hər strata onu təşkil edən qrupların çoxqatlı iyerarxiyası kimi göz önünə gəlir. Mobilliyin bu tipi ən çox "peşə karyerizmi" (peşə karyerasında yüksəliş və eniş) formasında özünü büruzə verir. Zavodda şagirddən başlayan insan zamanla ixtisaslaşmış işçiçə çevrilir, sonra briqadirə, bəzən də ustaya qədər böyüyüb çatır, ya da (istisna hallarda) karyera pilləkəni ilə əks istiqamətdə hərəkət edir.

Sosial mobillik iki növ olur: könüllü yerdəyişmə və ya fərdlərin sosial iyerarxiya çərçivəsində dövriyyəsi kimi başa

düşülən sosial mobillik və struktur dəyişikliklərlə diktə edilən mobillik. Urbanizasiya və sənayeləşmə zamanı peşələrin sayı artır və ixtisas dərəcəsinə və peşə hazırlığına tələblər də müvafiq olaraq dəyişir. Sənayeləşmənin nəticəsi olaraq işçi qüvvəsinin nisbi artımı müşahidə olunur, "ağ yaxalıqlar" kateqoriyasında məşğulluq artır, kənd təsərrüfatı işçilərinin mütləq sayı azalır. Sənayeləşdirmənin dərəcəsi faktiki olaraq mobilliyin səviyyəsinə uyğundur, çünki yüksək statuslu peşələrin sayının artmasına və aşağı ranqdan olan peşə kateqoriyalarında məşğulluğun azalmasına gətirib çıxarır.

Bəşər tarixində elə bir ölkə yoxdur ki, burada şaquli mobillik tamamilə sərbəst baş versin və bir təbəqədən digər təbəqəyə keçid müqavimətsiz baş tutsun. P.A.Sorokinin firkincə, əgər belə olsaydı, onda cəmiyyətdə sosial stratlar olmazdı və o, bir mərtəbəni digər mərtəbədən ayıran tavanı-döşəməsi olmayan binanı xatırladardı. Əslində bütün cəmiyyətlər stratifikasiya edilmişdir. Bu, o deməkdir ki, onların daxilində bir növ bəzilərinə yuxarı qalxmağa imkan verən, digərlərini isə alt qatlarda qoyan "ələk" fəaliyyət göstərir.

Sorokinin obrazlı ifadəsinə görə, sosial institutları "sosial liftlər" kimi nəzərdən keçirmək olar, hər stratı xarakterizə edən sosiomədəni qişa isə - özünəməxsus selektiv nəzarəti həyata keçirən filtr rolunu yerinə yetirir. Filtr yuxarıya can atan, cəhd edən fərdi buraxmaya da bilər. Onda aşağılardan qurtulmuş fərd atılmış olmağa məhkum ediləcək. Daha yüksək pilləyə qalxdıqdan sonra, o, sanki stratın özünə aparan qapı arxasında qalmış olur.

Analoji mənzərə aşağıya doğru hərəkət zamanı da yarana bilər. Müxtəlif səbəblərə görə aşağı pilləyə düşən insan onun üçün yeni olan sosiomədəni dünyaya qapıları açmaq iqtidarında olmur. İnsanın sosial məkanda yerdəyişməsi ilə bağlı sanki iki mədəniyyət arasında qalması fenomeni marginallıq adlanır.

Bu anlayış altında fərd və ya sosial qrupun cəmiyyətin sosial strukturunda “sərhəd” vəziyyətində olması, habelə insan sanki sosial qruplar arasında "donub qaldığı", yəni bir sosial qrupla əlaqəni qırıb bir sıra şəraitə görə o biri sosial qrupa daxil ola bilmədiyi natamam sosial yerdəyişmə prosesi başa düşülür. Nəticədə marginal bu cəmiyyətdə mövcud olan sosiomədəni struktur və ənənələrin çərçivələrinə uyğunlaşa bilmir, sanki yol qırağına, sosial həyatdan kənara atılmış, sıxışdırılmış olur.

Sosial əlaqələrin qırılması marginallığın əsas əlamətidir. Klassik variantda əvvəlcə iqtisadi və sosial tellər kəsilir, sonra da mənəvi əlaqələr qırılır.

Marginalın sosial davranışının səciyyəvi cəhəti kimi sosial gözləmələr və sosial tələbatlar səviyyəsinin enməsini göstərmək olar. Marginallaşmanın nəticəsi cəmiyyətin ayrı-ayrı seqmentlərinin primitivləşməsi olur ki, bu da istehsalatda, məişətdə, mənəvi həyatda özünü büruzə verir.

Mobillik kimi, marginallıq da təkcə fərdi yox, qrup formasında da ola bilir. Bu halda o, cəmiyyətin sosial strukturundakı dəyişikliklərin yekunlaşdırıcı məhsulu, iqtisadiyyatda və siyasətdə köhnə qrupları sıxışdırıb çıxaran, onların ictimai durumunun destabilləşdirən yeni funksional qruplarının formalaşması kimi göz önünə gəlir.

Marginallaşmanın bu tipinin intensivliyi "stimullaşdıran" amillərin xarakterindən birbaşa asılıdır. Sosial strukturda dəyişikliklər məhsuldar qüvvələrin inkişafında təbii-tarixi ictimai təkamül və tərəqqi ilə bağlı olması kimi bir şeydir, bu dəyişikliklərin inqilablardan və ya radikal islahatlarlardan, köhnə ictimai quruluşun total şəkildə dağıdılmasına yönəldilmiş transformasiyalardan irəli gəlməsi – tamamilə başqa bir şeydir.

Bu halda marginallaşma çox vaxt sosial statusun kütləvi şəkildə enməsinə, çoxlarıninn "ikinci növ " vətəndaşlara çevril-

məsinə gətirib çıxarır. Sosial mobillik və onunla üzvi surətdə bağlı olan marginallaşma baxımından cəmiyyətin iki tipi bir-birindən fərqləndirilir: açıq və qapalı sosial stratifikasiya sistemləri.

Bir stratdan başqa strata yerdəyişmə rəsmən məhdudlaşdırılmadıqda, bu, açıq cəmiyyət adlandırılır. Qapalı cəmiyyət elə cəmiyyətdir ki, onun strukturunda aşağı stratlardan ali stratlara doğru yerdəyişmələr ya tam qadağandır, ya da xeyli məhdudlaşdırılmışdır.

Birinci halda söhbət sənaye (postsənaye) cəmiyyətlərdən gedir.Burada şəxsiyyət sosial statusa daha çox səyləri və istedadı sayəsində nail olur. Bu cəmiyyətlərdə yüksələn sosial yerdəyişmələr elə bir ciddi çətinliklərə səbəb olmur və müvafiq keyfiyyətləri (o cümlədən şöhrətpərəstlər və qeyri-adi şəxsiyyət olmaq arzusu olanlar) olan insan həmişə "özünü təqdim edə" bilir.

İkinci halda söhbət ənənəvi (sənayeyəqədərki) cəmiyyətlərdən gedir.Burada fərdin sosial statusu əksər hallarda ona aid edilmiş (askriptiv) olur. Yəni o, şəxsi keyfiyyətlərlə və həyat fəallığı ilə deyil, doğuluşa, cinsə, yaşa, irqə və s. görə təyin edilir. Belə cəmiyyətlərdə yüksələn sosial yerdəyişmələr (sosial pilləkənlə yuxarıya doğru hərəkət) ya çətin olur, ya da ümumiyyətlə qeyri-mümkündür. İnsan aşağı stratlardan ali stratlara keçə bilmir.

Tarixi retrospektiv planda qapalı cəmiyyətlərə quldarlıq, kastalar və silklər kimi sosial stratifikasiya tipləri olan cəmiyyətlər aiddir.

Quldarlıq dövründə tarixdə yeganə sosial münasibətlər forması olmuşdur ki, bu zaman insanın heç bir hüquq və azadlıqları olmamış, o özü isə başqa birisinin mülkiyyəti kimi çıxış etmişdir. Quldarlıq kimi qədim olmayan və elə də çox geniş yayılmayan (yalnız Hindistanda və Afrikada) kasta qu-

ruluşu olan cəmiyyətlərdə insanın bu və ya digər sosial qrupa (kastaya) mənsubluğu doğuluşla müəyyən edilir və onun sağlığında öz kastasından başqa kastaya keçmək hüququ yoxdur. Bunun üçün bir daha dünyaya gəlmək lazımdır.

Hindistanda bu gün də 4 əsas kasta mövcuddur: brahmanlar (ruhanilər), kşatrilər (döyüşçülər), vayşilər (tacirlər), şudralar (fəhlə və kəndlilər). Eyni zamanda 5 minə yaxın qeyri-əsas kasta və yarımkasta da mövcuddur. Xüsusi yeri toxunulmazlar tutur. Onlar heç bir kastaya daxil deyil və aşağı mövqeni tuturlar. Lakin sənayeləşmə və urbanizasiyanın getdikcə kastalar tədricən siniflər tərəfindən sıxışdırılır. Hindistan şəhəri gedikdə sinfi şəhərə çevrilir, əhalinin 7/10-nin yaşadığı kənd isə əsasən kasta kəndi olaraq qalır.

Bir neçə stratları daxil edən silk sistemi üçün mövqe və imtiyazların qeyri-bərabərliyində öz ifadəsini tapan iyerarxiya səciyyəvidir. Silk təşkilinə klassik misal olaraq XIV-XV əsrlərin Avropasını göstərmək olar. Bu dövrdə cəmiyyətin strukturu ali silkə (zadəganlar və ruhanilər) və imtiyazsız silkə (sənətkarlar, tacirlər, kəndlilər) bölünürdü. X-XIII əsrlərdə üç əsas silk mövcud idi - ruhanilər, zadəganlar və kəndlilər.

Silklər torpaq mülkiyyətinə əsaslanırdı. Onların hüquq və vəzifələri hüquqi qanunla müəyyən olunur və dini doktrina ilə təsbit edilirdi. Silklərdə üzvlük irsən ötürülürdü. Təbəqələr arasında sosial maneələr kifayət qədər sərt idi. Buna görə də sosial mobillik silklər arasından çox, silk daxilində mövcud idi. Eyni zamanda kastalardan fərqli olaraq silklərarası nikahlara, eynilə fərdi mobilliyə (amma istisna kimi) icazə verilirdi.

Kapitalizmin yaranması və inkişafı ilə "silk" termini "sinif" termini ilə əvəz olundu. Sinfi stratifikasiya kastadan və silkdən ilk növbədə onunla fərqlənir ki,:

- siniflər hüquqi və ya dini normalar əsasında yaradılmamışdır. Onlarda üzvlük irsi mövqe ilə şərtlənmir;

- siniflər maddi resurslara sahiblik və onların üzərində nəzarətdə bərabərsizliklə bağlı olan insan qrupları arasındakı iqtisadi fərqlərdən asılıdır;
- sinfi sistemlər əsasən şəxsiyyətdənkənar əlaqələri həyata keçirir. Sinfi fərqlərin əsası (əmək şəraiti və ödənişi arasında qeyri-bərabərsizlik) bütövlükdə iqtisdiyyata məxsus olan iqtisadi şəraitin nəticəsi kimi bütün peşə qruplarına şamil olunur;
- sosial mobillik başqa stratifikasiya sistemlərində olduğundan xeyli sadədir. Onun üçün formal məhdudiyyətlər yoxdur. Amma mobilliyi insanın start imkanları və iddia səviyyəsi real olaraq ləngidir.

Sosial bərabərsizliklər iyerarxiyası kimi sosial stratifykasiya anlayışı ilə yoxsulluq və varlılıq anlayışları üzvi surətdə bir-biri ilə bağlıdır. Bərabərsizlik haqqında danışarkən əhalinin müxtəlif təbəqələri arasında cəmiyyətin çatışmayan resurslarının (pul, hakimiyyət, təhsil, nüfuz və s.) qeyri-bərabər bölgüsü nəzərdə tutulur. Bərabərsizliyin əsas ölçü kimi likvid dəyərlərin miqdarı çıxış edir. Bu funksiyanı adətən pul yerinə yetirir. Buna görə də yoxsulluq minimal miqdarda likvid dəyərlərə malik olan və sosial nemətlərə məhdud çıxış imkanları olan insanların iqtisadi və sosiomədəni vəziyyətini ifadə edir. Bu zaman söhbət yalnız minimal gəlirdən getmir, həm də xüsusi həyat tərzi və üslubundan, nəsildən-nəslə ötürülən davranış normalarından, psixoloji stereotiplərdən gedir ki, bu da sosioloqlara yoxsulluq haqqında xüsusi submədəniyyət kimi danışmağa imkan verir.

Ənənəvi olaraq sosioloqlar mütləq və nisbi yoxsulluğu bir-birindən fərqləndirirlər. Mütləq yoxsulluq dedikdə, fərdin öz gəlirinə, hətta qida, ev, geyim, istilik və s. baza tələbatlarını təmin etmək iqtidarında olmaması və ya yalnız insanın bioloji varlıq kimi təkrar istehsalı çərçivəsindən kənara çıxmayan mi-

nimal tələbatlarını təmin etmək iqtidarında olması başa düşülür. Mütləq yoxsulluğun sayca meyarı kimi yaşam minimumu ilə ölçülən yoxsulluğun kandarı çıxış edir.

Nisbi yoxsulluq dedikdə, bu cəmiyyətdə qəbul edilmiş bəzi həyat standartlarını dəstəkləməyin mümkünsüzlüyü başa düşülür.

Mütləq yoxsulluqda yaşayan insanları bəzən kasıblara, yəni yalnız minimal fiziki tələbatlarını təmin etməyi bacaran insanlara aid edirlər. Ancaq mütləq yoxsulluqda yaşayanların hamısını kasıb adlandırmaq olmaz. Kasıblar ya qazancla, ya ya təqaüd və maddi yardımlarla yaşayırlar, amma onlar dilənçilik etmirlər.

Yoxsullara müntəzəm dilənçiliklə dolanan insanları aid etmək daha düzgün olar.

"Yoxsul" anlayışı ilə "lümpen" anlayışı üzvi surətdə bir-biri ilə bağlıdır. Adətən lümpen dedikdə, cəmiyyətin ən aşağılarına aid olan, "sosial dibi"ni yaradan insanlar nəzərdə tutulur. Bu, sinfi simasını itirmiş, müxtəlif səbəblərə görə bu cəmiyyətin sosial strukturunun sərhədlərindən kənarda qalmış və, bir qayda olaraq, öz vəziyyətini sərbəst olaraq yaxşıya doğru dəyişdirməyə qadir olmayan elementlərdir (bomjlar, avaralar, evsizlər və b.).

Kasıblıq və yoxsulluqla (bəzən dərin kasıblıq adlandırılan) yanaşı məhrum edilmişlər də qeyd edilir ki, bu zaman da sağlamlıq vəziyyətinə görə maddi və mədəni nemətlərə çıxışın olmaması, çoxuşaqlılıq, alkoqolizm və s.-lə əlaqədar yaranmış yoxsulluq nəzərdə tutulur.

Varlılara maksimal miqdarda pulu olanlar aid edilir. Sərvət insan malik olduğu şeylərə (ev, maşın, yaxta, şəkil kolleksiyası, səhmlər, sığorta şəhadətnamələri və s. ekvivalent olan pul məbləği ilə ifadə edilir. Söhbət dəyərlərin (özü də mütləq likvid dəyərlərin, yəni istənilən dəqiqədə satıla bilən dəyərlərin) məcmusundan gedir. Varlılar ona görə varlı adlanırlar ki,

maksimal miqdarda likvid dəyərlərə malikdirlər (istər neft şirkətləri, istərsə də kommersiya bankları, supermarketlər, nəşriyyatlar, zavodlar, fabriklər, qalalar, adalar, təmtəraqlı mehmanxanalar və ya şəkil kolleksiyaları). Varlıların heç də çoxlu midarda nağd pulu olması vacib deyil.Pullar əsasən çox qiymətli şeylərdə maddiləşdirilmiş olur.

Varlılar və kasıblar arasında aralıq mövqeni orta sinif tutur. Bu sinfin meydana gəlməsi inkişaf etmiş sənaye və postsənaye cəmiyyəti ilə əlaqələndirilsə də, öz mənbələri ilə o, sənaye inqilabının əvvəlində "üçüncü silklə" birgə tədricən cəmiyyətin feodal strukturunu kapitalist strukturuna transformasiya edən "dördüncü silkə" gedib çıxır. Kapitalist cəmiyyətinin sinfi strukturunun bipolyarlığının mütləqləşdirilmısinə baxmayaraq, bu termini hətta K.Marks belə işlədir və bu zaman bərabər ölçüdə öz mülkiyyətindən və öz əməyindən asılı olan çoxsaylı kəndli və sənətkarlar sinfini nəzərdə tuturdu. O, bunlarda kapitalistlərlə fəhlələr arasında özünəməxsus bir buferi görürdü.

“Kütləvi rifah cəmiyyəti" inkişaf etdikcə, orta sinif artıq yalnız xırda mülkiyyətçilər və xırda sahibkarlarla (köhnə orta siniflə) əlaqələndirilmir, həm də "ağ yaxalıqlarla" (yeni orta siniflə), yəni muzdla işləyən, amma əqli əməklə məşğul olan insanlarla: menecerlərlə, qulluqçularla, mühəndis-texniki işçilərlə və b. ilə assosiasiya edilir. Sonra orta sinif səviyyəsinə bir qədər az qazanan ticarət agentləri, orta və ali məktəb müəllimləri, həkimlər, klerklər, bir çox başqa kütləvi peşə nümayəndələri çıxdı.

Eyni zamanda yeni və köhnə orta sinif arasında dəqiq ifadəli sərhədlər yoxdur. Onlar arasında, hətta intensiv diffuziya müşahidə olunur. Belə ki, köhnə orta sinfin (mülkiyyətçilərin) sayı durmadan azalır, əksinə, yeni orta təbəqələrin sayı artır.

Bu gün orta sinfin əksəriyyəti əvvəllər olduğu kimi, şəxsi

mülkiyyətə sahib olan yox, gəlir mənbəyi kimi şəxsi zəhməti, peşə vərdişləri çıxış edən insanlardır.

Alimlər arasında orta sinifin ayırılması meyarları ilə bağlı daim müzakirələr gedir. Əsas obyektiv meyarlar kimi daha çox təhsil və gəlir səviyyəsi, istehlak standartları, maddi və ya intellektual mülkiyyətə sahibolma, yüksək ixtisaslı əməyə qabil olma qeyd edilir.

Bu obyektiv meyarlardan başqa, insanın öz vəziyyətini subyektiv qavraması, yəni onun özünü "sosial orta"nın nümayəndəsi kimi eyniləşdirməsi də böyük rol oynayır. ABŞ-da, məsələn, əhalinin demək olar ki, 85%-i özünü bu sinfə aid edir. Bu sinfə adambaşı ailə üzvünə 2– 2,5 min dollar aylıq gəlir və adambaşına ən azı 40 kv.m ümumi sahə düşən, habelə ailəsində 2–3 maşın olan hər kəs daxildir. Başqa inkişaf etmiş ölkələrdə əhali tərkibində orta sinfin xüsusi çəkisi 65-də–75% arası tərəddüd edir.

Müasir inkişaf etmiş cəmiyyətin əsas sosial qrupu olaraq, orta sinif bir sıra əhəmiyyətli sosial funksiyaları yerinə yetirir. Onlardan təməl kimi sosial stabilizator funksiyasını qeyd etmək olar: kütləviliyinə görə cəmiyyətin sosial strukturunda birinci yerə nail olan orta sinif nümayəndələri onlara bu vəziyyətə çatmağa imkan verən mövcud dövlət quruluşunu dəstəkləməyə meyillidir. Bu gün hamının qəbul etdiyi fakt ondan ibarətdir ki, orta sinif nümayəndəsi nə qədər çox olsa, cəmiyyəti də inqilablar, millətlərarası münaqişələr, sosial kataklizmlər bir o qədər az titrədər. Öz taleyini öz əlləri ilə qurmuş insanlar tərəfindən strukturlaşan, deməli, mövcud status-kvonun qoruyub saxlamasında maraqlı olan orta sinif iki əks sinfi – varlıları və kasıbları aralayır və onlara toqquşmağa imkan vermir. Və, əksinə, orta sinfin yaratdığı bu qat nə qədər nazik olsa, stratifikasiyanın qütb nöqtələri də bir-birinə bir o qədər yaxın olar və onların toqquşmaları da bir o qədər real olar.

Sabitləşdirici funksiyadan başqa, orta sinif başqa sosial proseslərdə də mühüm rol oynayır:

- iqtisadi münasibətlər sahəsində əhalinin orta təbəqələri iqtisadi donor rolunu oynayırlar – yalnız cəmiyyətin gəlirlərinin böyük hissəsinin istehsalçıları kimi deyil, həm də böyük istehlakçılar, investorlar və vergi ödəyiciləri kimi;
- mədəni sferada orta sinif mədəni inteqrator kimi demokratik cəmiyyətə məxsus dəyərləri, normaları, ənənələri və qanunları yayır və qoruyur;
- şaquli mobillik proseslərində bu gün məhz orta sinif həm dövlət aparatını, həm də biznesi məmur və müxtəlif dərəcəli menecer kadrları ilə təmin edir;
- vətəndaş cəmiyyətinin özünütənzimləmə sferasında orta sinif nümayəndələri fəallıq göstərir. Onun bu rolu inzibati-icraçı tənzimləyici funksiyası adlandırılır.

Britaniya tarixçisi A.Toynbinin (1889–1975) iddiasına görə, Qərb cəmiyyəti yalnız çoxsaylı və səriştəli orta sinif yaratmağı bacardıqdan sonra müasir Qərb cəmiyyəti oldu. Müasir Qərb sivilizasiyası orta sinif sivilizasiyasıdır. İqtisadi cəhətdən inkişaf etmiş ölkələrin aktiv əhalisinin çox hissəsini təşkil edən muzdlu işçilər arasında, məhz bu sinif yüksək peşəkarlığı və ixtisaslaşması ilə fərqlənən ən irəli çıxmış hissədir. Onun maraqları (iqtisadi, sosial və siyasi) faktiki olaraq hakim partiyaların və buna iddia edən partiyaların siyasətini müəyyən edirlər.

Sosial qütbləşmə məsələlərində "qovub çatan kasıblıq" anlayışı da mühüm əhəmiyyətə malikdir. Bu hadisənin mahiyyəti nüfuzlu istehlak və tələbatların yüksəlməsi qanunun təsirindədir.

Yaşlı insanlarla müqayisədə gənclər yaxşı geyinməyə, başqalarından "pis görünməməyə" meyillidirlər. Dəbdə olan

cins, bahalı gödəkcə, krassovkalar, mobil telefonlar və imkanlı valideynlərin uşaqlarının malik olduqları bir çox başqa şeylər imkansız uşaqların yönləndikləri davranış nümunələrini formalaşdırır.

İmkanlı siniflərdən olan valideynlər üçün dəbdə olan şeyləri almaq çətin deyilsə, kasıb valideynlərin büdcəsinə bu, gözəçarpan təsir göstərir. Birincilər bunlara ailə büdcəsinin ¼ hissəsini xərcləyirsə, ikincilər – 2/3 hissəsini.

Kasıblar öz sinfinin standartları ilə ayaqlaşsaydılar, bu, belə olmazdı.

Nüfuzlu istehlak bir çoxlarını vəsaitlərindən artıq xərcləməyə vadar edir. Kasıb ailələrdən çıxanlar öz vəziyyətindən və maddi səviyyəsi daha yaxşı yaşamağa imkan verməyən ailəsindən narazı olur. Bu zəmində nəsillərin münaqişəsi yaranır, uşaqlar valideynlərini hamı kimi yaşaya bilmədiklərinə, əxlaq normalarına məhəl qoymamaqla belə "pul etməyi" bacarmadıqlarına görə ittiham edirlər. Nəticədə kasıbların uşaqları qanunsuz gəlir əldə etmək üsullarını tapırlar. Pul onlara zənginlərə "çatmaq", orta və ya ali sinfin standartları üzrə yaşamaq üçün lazımdır. Təəccüblü deyil ki, başqa təbəqələrin nümayəndələri ilə müqayisədə kasıbların əmək karyerası başlanğıcda daha çox qeyri-leqal bizneslə bağlı olur.

Bu mövzunun öyrənilməsi ona görə vacibdir ki, insanın bioloji varlığının fonunda sosial varlıq olması onun həyat fəaliyyətində həlledici rol oynayır.İnsanlar-şəraitin məhsuludur. Dəyişilmiş insanlar dəyişilmişşəraitin məhsuludur. Bu şərait nə qədər insanpərvər mühitdirsə, şəxs bir o qədər insandır. Onun hərəkətləri də daha çox şüurlu varlığın hərəkətlərinə uyğundur.

# MÖVZU 6
# ŞƏXSİYYƏT VƏ CƏMİYYƏT: SOSİALLAŞMA PROBLEMLƏRİ

1. **İnsan-fərd-şəxs sosiologiya elminin anlayışları kimi**
2. **Fərdin sosiallaşması onun ətraf mühitə çoxmərhələli uyğunlaşma prosesi kimi**
3. **Şəxsin cəmiyyətdəki davranışlarının sosial determinasiya mexanizmləri**

## 1.İnsan-fərd-şəxs sosiologiya elminin anlayışları kimi

Şəxsiyyət problemi sosiologiyanın əsas problemlərindən biridir. Şəxsiyyət təbiətin məhsulu olaraq deyil, cəmiyyətin məhsulu olaraq öyrənilir.İnsanı tanımaq cəmiyyəti tanımaq deməkdir. Şəxsin inkişafının istiqamət, şərt, üsul və vasitələrinin öyrənilməsidir. Bir çox sosial sistemlərə bağlı olan insan özlüyündə ayrıca bir sistemdir və mürəkkəb quruluşa malikdir. Cəmiyyət insanı yetişdirdiyi kimi, insan da cəmiyyəti formalaşdırır.

Gündəlik həyatda insan, fərd, şəxs anlayışları sinonim kimi başa düşülür.Əslində bu belə deyil. İnsan anlayışı ümumi, köklü anlayışdır. İnsan canlı təbiətin bir parçası olub, ali sinfə aiddir və təbiət zəncirində şüurlu varlıq- *Homo sapiens* meydana gətirir. İnsan digər bioloji növlər kimi dəyişikliklərə aludədir və onun dəyişməsinə təbii coğrafi və sosial mədəni amillər öz təsirini göstərir. Ona görə də *Homo sapiens* davamlı dəyişkənliklərə məruz qalır ki, bu da ümumi olaraq irq anlayışı ilə ifadə olunur.

İrq (fr. Race - tək vahid) tarixi olaraq formalaşmış məkana bağlı insan qrupudur və bu insanlar ümumi morfoloji və fizioloji nəsil əlamətlərində özünü göstərən vahid yaradılışla

bir-birinə bağlıdırlar.

İnsanın irqlərə (neqroid, avropoid, monqoloid) bölünməsi onunla müəyyənləşir ki, planetin müxtəlif ərazilərinə yayılmış insanlar konkret təbii şəraitə uyğunlaşır və onlarda xüsusi anatomik, fizioloji, bioloji əlamətlər yaranır.

Burada söhbət ikinci dərəcəli xarici görünüşlərdən gedir (dəri rəngi, göz quruluşu, başın forması, boy və s.). Belə ki, insanın fizioloji quruluşunun əsas əlamətləri (skelet, əzələ, beyin quruluşu) bütün irqlərdə eynidir. Hər hansı irqin nümayəndəsi (bu irqə mənsub fərqləndirici xüsusiyyətlərdən asılı olmayaraq) vahid bioloji növün nümayəndəsidir, bu, bioloji növə aid bütün əlamətləri özündə cəmləşdirir, bu da ona insan cəmiyyətinin həyat fəaliyyətinin bütün sahələrində uğurla iştirak etməyə imkan verir. Eyni zamanda digər irq və xalqların həyat tərzi ilə uyğunlaşmağı və onlarla assimilyasiya olmağı mümkün edir.

Fərd anlayışı insanlığın vahid nümunəsi olaraq, insan nəslinin xarakterik xüsusiyyətlərini özündə ehtiva edən konkret insanı ifadə edir.

Sosiologiyada bu anlayış o zaman istifadə olunur ki, sosial toplumun ayrı-ayrı nümayəndələri, müəyyən qismə aidliyi təsvir olunan seçilmiş qismi (empirik analizdə) diqqətə alınır.

***Psixologiyada bu – özünəməxsus psixofiziki keyfiyyətlərə, psixi proses və xüsusiyyətlərin sabitliyinə, bu xüsusiyyətlərin konkret vəziyyətə tətbiqi ilə bağlı aktivlik və elastikliyə malik olan insan nəslinin bir nümayəndəsidir.***

***“Fərd” anlayışı ilə yanaşı, “individuallıq” anlayışı da vardır ki, bu anlayış hər bir insanın unikallığı və təkrarolunmazlığını, insanları bir-birindən fərqləndirən genetik və sonradan əldə olunmuş bioloji və sosial xüsusiyyətləri təyin etmək üçün istifadə olunur.***

Sosial mühitdə bu cür qanunauyğunluq vardır ki, cəmiyyət nə qədər bəsit olarsa, onu təşkil edən fərdlər arasında daha çox oxşarlıq mövcuddur. Əksinə nə qədər çox inkişaf edərsə və demokratik olarsa, onun üzvlərinin öz fərdi keyfiyyətlərini inkişaf etdirməsi üçün daha geniş imkanlar yaranar.

İnsanlar fərd olaraq, müxtəlif dövrlərdə, müxtəlif tarixi, siyasi, iqtisadi şərtlər altında formalaşır.İnsan inkişafının spesifik əlamətləri və fərdi xüsusiyyətlərinin mühit prizmasından əks olunması üçün "şəxsiyyət" anlayışı istifadə olunur. Şəxs adı altında insanın varlığı, onda əks olunan sosial əlamətlər sisteminin reallaşması və ya qısaca desək, insanın sosial özəlliyi nəzərdə tutulur.Bu anlayış insanın və fərdin təbiətüstü sosial varlığının ifadə olunması, yəni sosial başlanğıc üzərində vurğu qoyulması məqsədilə istifadə olunur.

Canlı varlıqların xüsusi növü olaraq insanın şəxsiyyəti üç altquruluşunun inteqral birliyi (təbii bölünməzlik) şəklində meydana çıxır:

***Bioloji***- bu alt quruluşu şərti sayıla bilən təbii reflekslər təşkil edir: təbii anatomik əlamətlər; orqanizmdə baş verən fizioloji proseslər.Məhz bunlar fundamental bioloji tələbatları meydana gətirir ki, bunlar da insanın müəyyən hərəkətlərinə təkan verir.

***Psixoloji***- bu alt quruluş yaddaş, xasiyyət, hisslər, iradə, təxəyyül, müşahidə qabiliyyəti, intellekt kimi elementlərdən yaranır. Psixoloji mənada şəxsiyyət özündə temperament, qabiliyyət, meyil və xarakteri cəmləşdirir.

***Sosial***- altquruluş fərdin davamlı keyfiyyətlərinin kompleksi şəklində ifadə olunur ki, bu keyfiyyətlər də uşaqlıqdan aludə olduğu ictimai mühitin: mədəniyyətin və fərdin tərbiyə aldığı, həyat fəaliyyətində bərabərhüquqlu üzv kimi iştirak etdiyi cəmiyyətin təsiri ilə yaranır.

Şəxsin formalaşmasında ən mühüm rolu onun sosiallığı

oynayır.Bu, o deməkdir ki, ictimai prosesdə iştirak və sosiallaşmaq insan keyfiyyətlərini formalaşdırır.

"Mən" nəzəriyyələrinin yaradıcılarından biri olan amerikan sosial psixoloqu Çarlz Xorton Kuli (1864-1929) hesab edirdi ki, şəxsiyyət ətraflı mühitlə çoxsaylı münasibətlərdən meydana gəlir və bunun nəticəsində insanlar özlərinin üç elementdən ibarət olan "güzgülü Mən" lərini yaradırlar:

1) bizim fikrimizcə, başqaları bizi necə qəbul edir;

2) bizim fikrimizcə, onlar gördüklərinə necə reaksiya verirlər;

3) digər insanların bizə qarşı olan reaksiyalarına biz necə cavab veririk.

Bu cür fikirlə (mən – sosial əlamətəm) Corc Herbert Mid (1863-1931) çıxış etmişdir. Özünün "Mən"i uşaq yaşlarından, uşaq özünü başqaları haqqında düşündüyü kimi düşünən zaman formalaşır. Midə görə kamil insan "Mən"i iki hissədən ibarətdir: "Mən - özüm", "Mən –məni".

Birinci ("Mən-özüm") insan şəxsiyyətinin şüuraltı qismini təşkil edir. Bu, insanın özündə saxladığı və cəmiyyətə təqdim etmədiyi, hətta özündən belə gizli olan qismidir.

İkinci ("Mən-məni") özünü qəbul, refleksiya və fərdin şüurudur, yəni "Mən"in xarici aləmlə əlaqəsidir.

Midin elmi irsini davam etdirən müasir tədqiqatçılardan biri də Kanada əsilli amerikan sosioloqu İrvinq Hofmandır (1922-1982). Onu dramaturji sosiologiyanın banisi hesab edirlər. O, "Mən və maskalar" kitabında qeyd edir ki, insan yüksək mənada vəziyyət və hər dəfə bu vəziyyətdə insanlarla oynadığı sosial oyun nəticəsində müəyyənləşir. İnsanın özünü müşahidə edərkən gördüyü "mən" rolun təqdim olunmuş obrazı, səhnədə meydana gələn dramatik effektdir və hər şey ona etibar olunub olunmasından asılıdır.

Şəxsin inkişafının psixoanalitik nəzəriyyəsinin banisi olan avstriyalı psixiatr və psixoloq Ziqmund Freyd (1856-1939) hesab edirdi ki, fərd hər zaman cəmiyyətlə münaqişədədir. Freydə görə bioloji instinktlər mədəni normalara ziddir, sosiallaşma isə bu instinktləri qadağan edən tabu sistemidir. İnstinktiv tələbatlarını təbii yolla ödəyə bilməyən insan daxili istəkləri ilə onun ictimai realizasiyası arasında kompromis axtarmalı olur.

Freyd şəxsin strukturunda üç əsas keyfiyyəti ön plana çıxarır:

O (İd)-zövqə meyil etdirən enerji mənbəyi,

Mən (Eqo)- reallıq prinsipi əsasında şəxsin davranışlarını tənzimləyən element,

Üst Mən (Super-Eqo) - şəxsin özəl və qiymətləndirici elementi.

Freyd tərəfindən irəli sürülən şəxsiyyət modeli insan davranışlarının mürəkkəb və çoxtərkibli quruluşunu özündə ehtiva edir. O, sərt məntiqi yolla insanın bioloji və sosial başlanğıcını əlaqələndirməyə və şəxsiyyətin energetik, hissi-psixoloji mənbəyinə sosial subyekt kimi diqqət çəkməyə çalışmışdır.

Amerikalı psixoloq və psixoanalitik Erik Erikson (1902-1994) sosiallaşmanı səkkiz mərhələdən ibarət qırılmayan proses kimi qeyd edir və bu mərhələlərin hər birində insan müəyyən həyat çətinliklərinin öhdəsindən gəlməli olur. Məsələn, gənc oglan və qızlar həyatda öz yerlərini tapmalı, harda təhsil almalı və iş tapmalı olduqlarını müəyyənləşdirməlidirlər. Bu işlərdə ilk uğursuzluq sonrakı mərhələlərdə uyğun iş, həyat yoldaşı, dostlar tapmaqda çətinlik törədə bilər.

Şəxsiyyətlə bağlı koqnitiv nəzəriyyələrin tərəfdarları sosiallaşmanı koqnitiv inkişafla, yəni düşünməyi öyrənməklə bağlayırlar. İsveçrə filosofu və psixoloqu Jan Piajenin (1896-

1980) fikrincə, uşaqların koqnitiv inkişafının hər mərhələsi bu mərhələdə insana nələri öyrətməyin mümkün olduğunu müəyyənləşdirən yeni bacarıqları özündə cəmləşdirir. Bu mərhələlər bir-birini müəyyən qayda üzrə əvəzləyir: sensor-mühərrik (doğuşdan 2 yaşa qədər), əməliyyat (2-7 yaşarası), konkret əməliyyatlar mərhələsi (7-11 yaş arası), formal əməliyyatlar mərhələsi (12-15 yaşarası).

Amerikalı psixoloq Lorens Kolbert (1927-1987) özünün şəxsiyyətin inkişafı nəzəriyyəsində altı mərhələdən ibarət mənəvi kamillikdən çıxış edir.

İlkin mərhələlərdə uşaqlar ümumi mənəvi qaydalara əməl edirlər ki, mükafat alsınlar və ya cəzadan qaçsınlar.

Orta mərhələlərdə insanların özü haqqındakı fikirlərini, cəmiyyətin gözləntilərini və ondakı "oyun qaydalarını" öyrənir.

Son mərhələlərdə isə şəxsiyyətin konvensional dəyərlərdən asılı olmayan mənəvi quruluşunun formalaşması baş tutur.

Qeyd edilən bütün sosial nəzəriyyələrdən belə nəticəyə gəlmək olar ki, şəxsiyyət insanların bir biri ilə qarşılıqlı əlaqələri prosesində formalaşır. Fərdin ən mühüm keyfiyyətləri sosial institut və cəmiyyətlərdə həyata keçirdiyi funksiya və rollarla şərtlənir.

XX əsrin əvvəllərində feral insanlar - cəmiyyətdən təcrid olunmuş və heyvanlar tərəfindən bəslənən varlıqlar haqqında tədqiqatlar aparılmışdır. Amerikalı tədqiqatçı K.Devis canavar yuvasından tapılmış qızları araşdıraraq, müəyyən etmişdir ki, cəmiyyətdən təcrid böyüyən uşaqlar normal bioloji keyfiyyətlərə sahib olsalar da, bir sıra xüsusiyyətləri yoxdur: dayana və gəzə bilmirlər; nitq və abstrakt düşüncəyə malik deyildilər: geyim və insan qidasından imtina edirlər - çiy ət, yabanı bitkilər və həşəratlar yeyirlər; yerdə yatır, oddan qorxurdular və s.

Feral insanların mövcudluğu (Mauqli effekti) sübut edir ki, cəmiyyətdən kənarda müəyyən sosial mədəni keyfiyyətləri əldə edə bilməz, yəni şəxsiyyət ola bilməz. Bunu Robinzon effekti də təsdiq edir. Əgər insan özünə bənzəyənlərdən təcrid olunacaqsa, yenidən doğulacaq və yarıheyvan-yarıinsana çevriləcəkdir.

Əşyaların predmet dünyasını, eyni zamanda şəxsiyyətin status mövqeyindən meydana gələn sosial rolların və funksiyaların müxtəlifliyini də özündə ehtiva edərək, təbii formada yaş, ailə vəziyyəti, qulluqda yüksəliş və s. ilə bağlıdır. Uilyam Şekspir bunu öz "Xoşunuza gəldimi?" pyesində qəhrəmanının dili ilə belə ifadə edir: "Bütün dünya teatrdır. Burada kişilər və qadınlar aktyorlardır. Onların girişi və gedişi vardır. Və hər biri heç də bir rol oynamır. Bu pyesdə yeddi hərəkət vardır: körpə, məktəbli, gənc, aşiq, əsgər, hakim və qoca."

Bu sosial rolların və statusların müxtəlifliyi cəmiyyətdə yaşayan hər bir insanın eyni anda müxtəlif sosial quruluşlara (ailə, təhsil qrupu, işçi kollektiv və s.) qoşulmasından irəli gəlir. Burada o, bu və ya digər davranışların (yəni bu və ya digər funksiyaların yerinə yetirilməsi və bu statusdan irəli gələn hüquqların realizə edilməsi) bağlı olduğu müəyyən vəziyyətə malikdir. Qrup və ya kollektiv gözləyir ki, bu statusa malik olmaqla insan bu rolları yerinə yetirəcəkdir.

Bu təməl üzərində formalaşan mədəni şəxsiyyət idealı təbii hala malik olacaqdır - yəni bu qrup və ya kollektivin üzvünün necə olduğunu müəyyən edən qaydalar toplusu meydana gələcəkdir. Bu zaman insan öz səlahiyyətlərini həyata keçirərək, ətrafdakıların müsbət dəyərləndirməsini əldə edə bilər (özünkülər arasında özünkü olmaq).

## 2. Fərdin sosiallaşması onun ətraf mühitə çoxmərhələli uyğunlaşma prosesi kimi

Cəmiyyətin və şəxsin həyatında sosiallaşma prosesi böyük rol oynayır və onun mahiyyəti fərdin cəmiyyətə inteqrasiyasından ibarətdir.Şəxsin öz keyfiyyətlərini reallaşdırması və yaxşı yaşaması bu prosesin uğurundan asılıdır. Cəmiyyət üçün prosesin uğuru hər yetişən gənc nəslin öz sələflərinin yerini layiqincə tutmalarına zəmanətdir.

Şəxsin sosiallaşmasında iki mərhələ fərqlənir: sosial adaptasiya və interiorizasiya.

Sosial adaptasiya- şəxsin sosial normalar, qaydalar, dəyərlər və sosial təcrübə əldə etdiyi sosial rol və münasibətlərə daxil olma prosesidir. Yəni şəxs ətraf mühitə və özünün varlıq şərtlərinə (iqtisadi, sosial, siyasi və s.) uyğunlaşır.

İnteriorizasiya (frans. *İnteriorisation* - xaricdən daxilə keçid, lat. *interior* -daxili) - sosial norma və dəyərlərin insanın daxili aləminə nüfuzetmə prosesidir ki, onun bazasında özünəməxsus şəxsi motivasiya - fəaliyyət qarışıqlı örtük meydana gəlir.

İnsan doğulduğu gündən qocalığına kimi bir çox keyfiyyətləri öyrənməli olduğu üçün sosiallaşma prosesi üç mərhələdən ibarət olur:

- Zəhmətəqədərki dövr - həyatın əmək fəaliyyətinə qədər olan hissəsini əhatə edir və özündə uşaqlıq və təhsil dövrünü ehtiva edir. Bu mərhələdə körpənin bioloji varlıqdan cəmiyyətin üzvünə çevrilməsi prosesi gedir.
- Zəhmət dövrü - insanın yetkinlik və əmək fəaliyyətində iştirakı dövrü kimi xarakterizə olunur. İnsan nəinki sosial təcrübəəldə edir, hətta onu digərləri ilə bölüşür.
- Zəhmətdən sonrakı dövr - təqaüd dövrünə təsadüf edir və sosial təcrübənin yeni nəslən ötürülməsi prosesi ilə əlaqəli olur.

Amerikalı psixoloq və psixoanalitik Erik Erikson social-laşması daha geniş şəkildə təsnifat edərək, səkkiz mərhələyə bölür:

*Körpəlik dövrü: (0-1,5 yaşarası)* bu mərhələdə körpənin həyatında əsas rolu ona qulluq edən, onu qidalandıran anası oynayır. Bunun nəticəsində körpədən dünyaya etibar yaranır.

*Erkən uşaqlıq dövrü: (1,5-4 yaş)* bu mərhələ asılılıqdan azad olma və müstəqilliyin formalaşması ilə bağlıdır. Uşaq gəzməyə, müəyyən davranışlarına nəzarət etməyə başlayır. Cəmiyyət və valideynlər uşağa səliqəli olmağıöyrədirlər.

*Uşaqlıq dövrü (4-6 yaş).* Bu mərhələdə uşaq artıq əmindir ki, o şəxsdir.Belə ki, o qaçır, danışa bilir, dünyagörüşünü genişləndirir.

*İbtidai təhsil dövrü (6-11 yaş).* Bu dövrdə uşaq artıq ailə daxilində inkişafını başa vurur, məktəb onu gələcək fəaliyyəti ilə bağlı biliklərə uyğunlaşdırır.

*Yeniyetməlik dövrü (11-20 yaş).* Bu mərhələdə mərkəzləşmiş şəkildə eqoözəllik formalaşır.Qaynar fizioloji artım, cinsi yetkinlik, öz peşəsini əldə etmək istəyi bu dövrün xüsusiyyətləridir.

*Gənclik dövrü (21-25 yaş).* Bu mərhələdə insan üçün öz həyat yoldaşını tapmaq, digər insanlarla əməkdaşlıq, bütün sosial qruplarla əlaqələrin möhkəmlənməsi aktual olur. Bu dövrdə yaxınlıq, birlik, əməkdaşlıq hissləri formalaşır.Lakin identikliyin tənəzzülü bu yaş dövrünə də keçirsə, insan qapanır, tənhalıq və özünütədric möhkəmlənir.

*Yetkinlik dövrü (25-55/60 yaş).* Özəl keyfiyyətlərin inkişafı davam edir. Digər insanlar, xüsusən uşaqların təsiri hiss olunur: onlar təsdiq edirlər ki, sən onlara lazımsan. Bu mərhələdə şəxs özünü sevimli işinə həsr edir, uşaqlara qayğı göstərir, öz həyatına qane edir.

*Qocalıq dövrü (55/60 yaşdan yuxarı).* Bu dövrdə eqo-

özəlliyin tamamlanması prosesi həyata keçir. İnsan bütün həyatını yenidən düşünür, keçdiyi illərlə bağlı "məni"ni dərk edir. İnsan özünü və həyatını qəbul edir, həyatın məntiqi sonlanmasını qəbul edir, müdriklik və ölüm qarşısında həyata maraqsızlıq nümayiş etdirir.

Sosiallaşma prosesində ilkin və ikinci sosiallaşma anlayışları ayrılır.

İlkin sosiallaşma körpəlikdən başlayır və yetkin şəxsiyyətin formalaşması ilə əlaqəlidir. Sosiallaşmanın nümayəndələri kimi insanın ətrafı çıxış edir (əvvəlcə ailə, sonra yaşıdlar və dostlar, məktəbəqədər uşaq müəssisələri və məktəblər, orta və ali təhsil müəssisələri).

İkinci sosiallaşma ictimai əmək bölgüsü ilə əlaqəli spesifik rol və funksiyaların qəbul edilməsindən ibarətdir. O, insanın sosial yetkinlik dövrünü əhatə edir və ömür boyu davam edir. Onunla desosiallaşma və resosiallaşma əlaqəlidir.

Desosiallaşma şəxsin əvvəllər qəbul etdiyi norma, dəyər və rollardan imtina etməsidir.

Resosiallaşma itirilmiş köhnə qayda və normalar əvəzinə yenilərini əldə etməkdən ibarətdir.

İkinci sosiallaşma prosesində həlledici rol oynayan sosiallaşma institutlarına gəldikdə isə, onlar vasitəçi (formal) mühitə aiddir və müəssisə və institutların, o cümlədən əmək kollektivinin, peşəkar assosiasiyaların, klubların, KİV-lərin və s. təsirini özündə ehtiva edir.

Sosiallaşma nəticəsində şəxsiyyət ictimai münasibətlərə qoşulmaqla mükəlləf olan və qarşılıqlı fəaliyyət, ünsiyyət nəticəsində formalaşan fərdin sistemli keyfiyyəti olaraq ələ alınır.

Bu keyfiyyət aşağıdakılardan meydana gəlir:

a) Şəxsiyyət nə istəyir (yəni oyun həyat tərzi, tələbatları, maraqları, dəyərləri, idealları nələrdir);

b) Şəxsiyyət nə bacarır (yəni onun qabiliyyəti, istedadı nədən ibarətdir);
c) Şəxsiyyət nə etməlidir (yəni o labüdlüyə, cəmiyyətin və ətrafdakıların tələbatlarına necə yanaşır).

Amerika antropoloqu və sosioloqu Ralf Lintona (1893-1953) görə iki şəxsiyyət növü vardır: normativ və və modal.

Normativ növ – insanın yaşadığı cəmiyyətin mədəni dəyərlərinə daha yaxşı uyğun gələn və bu mədəniyyətin idealı olan şəxsiyyətdir.

Modal növ – cəmiyyətdə statistik olaraq dominantlıq edən və cəmiyyətin əksər üzvləri ilə eyni mədəni nümunəni daşıyan şəxsiyyət növüdür.

Bu iki növ arasında fərq çox olduqca cəmiyyətin inkişaf potensialı daha yüksək olur.

Bu iki növlə yanaşı, "marjinal şəxsiyyət" növü də vardır. Bu anlayışı 1920-ci illərin ikinci yarısında amerikalı sosioloq Robert Park (1864-1944) elmi dövriyyəyə buraxmışdır. Bu, elə bir şəxsiyyət növüdür ki, hər hansı bir sosial qrup və toplumla münasibətdə sərhədli mövqeyə malikdir. Marjinal şəxsiyyət mədəniyyətlərin qovşağında yerləşir. Müxtəlif mədəni standartları özündə ehtiva edərək, "mədəni hibrid" halını alır, diskomfort hiss edir və əksər hallarda kənar davranışlar sərgiləyir. Bu növ hər şeydən əvvəl miqrasiya proseslərinin və sərt urbanizasiyanın məhsuludur.

Alman filosofu Teodor Adorno (1903-1969) avtoritar şəxsiyyət növünü fərqləndirmişdir. Bu şəxsiyyətin fərqləndirici xüsusiyyəti sosial qaydaların həddən artıq sərt sistemidir. Bu cür insanlar hakimiyyətə can atır, sosial stereotiplərə üstünlük verir və şəxsi yaxınlığı qəbuledilməz sayırlar.

Sosiallaşma prosesinin və şəxsiyyət növlərinin ictimai həyatın dinamikasından asılı olduğunu qeyd etmək lazımdır.

Bir tərəfdən sosiallaşma sakit təkamül və stabil gündəlik

həyat tərzi və prinsiplər sistemi əsasında gedir. Digər tərəfdən – onların köklü dəyişkənliyi və yeniləri ilə əvəz olunması şəraitində keçir. İkinci halda sosiallaşma mahiyyət etibarilə resosiallaşma xarakteri alır və müxtəlif sosial demoqrafik qruplar arasında fərqli cərəyan edir.

Əgər gənclər arasında məlum sosial-psixoloji keyfiyyətlərdən dolayı həyat ideallarının dəyişməsi çətinlik törətmirsə (gənclər öz güc və qabiliyyətlərinin tətbiq sahəsini tez genişləndirirlər), yaşlı nəsildə bu proses çox çətin gedir. Bu, "ataların" permanent psixoloji böhran vəziyyətini, anomiyanı yaradır və bu "uşaqların" mənəvi dəyərlərə yad olmaları ilə birlikdə cəmiyyət üçün təhlükə yaradır.

## 3. Şəxsin cəmiyyətdəki davranışlarının sosial determinasiya mexanizmləri

Əgər ictimai həyata üstdən nəzər salsaq, qarşımızda qarışqa yuvasını xatırladan bir səhnə açılacaqdır: kimsə harasa tələsir, kimsə əmək sərf edir, digərləri nəyi isə gözləyir, növbədə dayanır və s. Bu cür dinamika insanın təbiət etibarilə hərəkətli olduğunu göstərir. Ona görə fəaliyyət – sosial reallığın mövcudluğu və inkişafı, sosial aktivliyin nümayişi, ətraf mühitin məqsədli öyrənilməsi və dəyişməsi prosesidir. İnsanların müştərək həyat aktivliyi nəticəsində ictimai varlığın obyektiv görünüşü meydana gəlir və bu görünüş nəhayətdə mühüm faktor kimi – insan fəaliyyətinin determinantı kimi çıxış edir.

Bununla bağlı olaraq, şəxsiyyətin sosiologiyasının ən mühüm problemlərindən birinin anlaşılması tələb olunur; cəmiyyət fərdin formalaşması və inkişafına hansı müstəvidə təsir göstərə bilər, mövcud sosial faktorlar şəxsiyyətin həyat fəaliyyətini və davranış modellərini nə dərəcədə şərtləndirir.

İki növ tələbat fərqləndirilir: ilkin (təbii) və ikinci (sosial).

- İlkin tələbatlar təbiət etibarilə fizioloji və bir qayda olaraq anadangəlmə olur. Bunlar nəfəs, qida, su, yuxu və s. kimi tələbatlardır.
- İkinci dərəcəli tələbatlar psixoloji və sosial tələbatlardır. Buraya məxsusluğu, bağlılıq, hörmət, uğur, hakimiyyət və s. kimi tələbatlar daxildir.

İlkin tələbatlar genetik, ikinci tələbatlar isə təcrübə ilə əldə olunur. Bununla yanaşı, onları müşahidə etmək və ölçmək mümkün deyil. Bu və ya digər tələbatları yalnız insanların davranışlarından müəyyən etmək olar.

Maraqlar - şüurlu tələbatlardır.Tələbat və maraqlar hərəkətə təkan verir.

Motivlər - məqsədli fəaliyyətə təkan verən şüurlu tələbatlardır.

Hədəf - tələbatın ödənilmə vasitəsi kimi dərk olunur. İnsan hədəfə çatdıqda bu tələbat təmin olunmuş hesab edilir. Hədəfəçatma zamanı əldə olunan təminat hissi insanın gələcək davranışlarına birbaşa təsir göstərir. Məsələn, əgər siz çətin işə ehtiyac duyursunuzsa, bu sizə müəyyən vəzifədə hədəfə çatmağa təkan verə bilər. Bu vəzifəni əldə etdikdən sonra siz görəcəksiniz ki, bu vəzifə elə də çətin deyildi. Bu, daha az səylə işləməyə və yeni iş axtarmağa sövq edə bilər.

Qane olma dərəcəsi hədəfə çatdıqdan sonra insanın bir sıra davranışlarına sirayət edir. İnsanlar o hərəkətləri təkrar etməyə çalışırlar ki, bu hərəkət zamanı tələbat təmin olunmuşdur və o hərəkətlərdən qaçırlar ki, orda uğursuzluq yaşamışlar. Bu fakt *nəticə qanunu* kimi bilinir.

Stimul – ictimai həyatın fərqli sahələri çərçivəsində hərəkət edən obyektiv faktordur. Motivdən fərqli olaraq, o ətraf

mühitin özəlliklərini əks etdirən elementləri özündə ehtiva edir.

Motiv və stimulların qarşılıqlı əlaqəsi şəxsiyyətin sosial fəaliyyətinin motivasiya mexanizmlərini meydana gətirir ki, buna sosioloji yanaşma aşağıdakı kimidir:

Birincisi, istənilən hərəkət və davranış hərəkət edən subyektin öz hərəkətinə verdiyi məna əsasında meydana gəlir.

İkincisi, sosial hərəkət, davranış mütləq şəkildə tanış olan və yad insanların, ayrı-ayrı şəxslərin və ya müəyyən miqdar insanların indiki, keçmiş və gələcəkdə gözlənilən davranışlarına uyğun müəyyənləşir.

Üçüncüsü, sosial hərəkətin, insan davranışlarının özəlliyi onun müəyyən rəmzilik daşımasındadır, yəni dil, dəyərlər, hakimiyyət, pul kimi simvolik mexanizmlərin mövcudluğuna bağlıdır.

Dördüncüsü, şəxsin sosial davranışı ümumi qayda və dəyərlərdən asılıdır.

Beşincisi, fərdlərin sosial davranışları üçün bilinən irrasionallıq və ətraf mühit şərtlərindən müstəqil olmaq və eyni zamanda "vəziyyətin subyektiv" müəyyənləşmələrindən asılı olmaq xarakterikdir.

T.Parsonsun sosial davranış nəzəriyyəsinə əsasən sosial davranışın motivi – individual məqsəddir və o, ətrafdakıların mümkün reaksiyasını nəzərə alaraq, sosial münasibətlər, əlaqələr, gözləntilər prizmasından izah edilir. İcraçının davranış variantlarını seçim prosesində meydana gələn əsas istiqamətlər sisteminin tamamını T.Parsons bu cür ümumiləşdirir:

- sırf şəxsi maraqlara yönəlmiş istiqamət və ya öz davranışlarında kollektivin tələbatını nəzərə almağın zəruriliyi;
- sürətlə yaranmış tələbatların təmin olunmasına can atmaq və ya perspektivli və mühüm hədəflərdən ötrü onlardan vaz keçmək;

- digər fərdin sosial xüsusiyyətlərinə və ya yalnız ona məxsus keyfiyyətlərə (cins, yaş, xarici görünüş) istiqamətlənmək;
- fərdin öz davranışını ümumi qaydalara və ya mövcud vəziyyətin spesifik məqamlarını nəzərə almağa təhkim etməsi.

Fərdin şüurundakı motivlər arasında münaqişələr zamanı onun davranışlarındakı alternativ seçimlərə təsir göstərən amil dəyərlər sistemi və mövcud mədəniyyətin prioritetləridir (sosiallaşdıran amil).

Dəyərlər bizi mənəvi kriteriyalarla təmin edir; yaxşılıq nədir, pislik nədir, səni nəyə görə əfv edə və ya cəzalandıra bilərlər, nəyə təşviq edə bilərlər. Vahid mənəvi dəyərlər sistemi cəmiyyəti birləşdirir, taleyin qarşılaşdırdığı istənilən insanla sabit əlaqə təmin edir (evdə, işdə, istirahətdə və s.).

Davranışın ümumi, strateji istiqamətlənməsini təmin edən dəyərlərdən başqa, sosial normalar da vardır ki, konkret şəkildə insanların nə edib, nə etməyəcəklərini müəyyən edir. Başqa sözlə desək, sosial normalar – davranışın özünəməxsus qayda və standartlarıdır.

Norma dəyərlə sıx bağlıdır, ondan qaynaqlanır və onunla əsaslanır. Normada bu və ya digər mədəni dəyər konkret arzuolunan davranış nümunəsi kimi əks olunur. Norma fəaliyyət göstərdiyi mədəniyyətin özəlliyini və özünəməxsusluğunu ifadə edir. Kimin üçünsə çoxarvadlılıq normadır, kimin üçünsə bu, çox ciddi qadağa altındadır.

Sosial normaları mənəvi və hüquqi qisimlərə bölmək olar. Hüquqi normalar yazılı olub, hər şeydən öncə qanun şəklində təqdim olunur və dövlət hakimiyyəti tərəfindən nəzarətdədir. Onlara riayət olunmaması xüsusi institutlar tərəfindən tətbiq olunan dəqiq sanksiyalara səbəb olur. Mənəvi normalar isə şifahidir, kökündə adət-ənənə fenomeni durur və ictimai fikrə, mənəvi məsuliyyətə, borc və ya vicdan hissinə əsaslanır.

Normaları qadağan edən və təşviq edən, norma-qaydalar və norma-gözləntilərə bölmək olar. Bunlardan ilk ikisi yalnız sosial qəbul olunan davranışların çərçivəsini cızır. Onların pozulması cəmiyyət və ya sosial qrup tərəfindən etirazla qarşılanır, lakin hər hansı ciddi cəzalara səbəb olmur. Növbəti iki qism əksinə mümkün davranış sərhədlərini müəyyənləşdirir, qəbul olunmayan, buna görə də qadağan edilmiş fəaliyyət növlərini ayırır və fərqləndirir. Bu cür hüquqi status daşıyan və qanunlarla sabit olan norma-qaydaların pozulması hətta həbs olunma və azadlıqdan məhrum edilmə kimi ən sərt cəzalara səbəb olur.

Sosial tədqiqatlar göstərir ki, şəxsiyyətin uğursuzluqlardan, cəzalardan qaçmağına meyli formalaşdıran normalar həmin şəxsiyyətdə uğura meyillilik formalaşdıran normalardan daha təsirli şəkildə lazımi (norma üçün) istiqamətə yönəldir.

Pulun (və bazarın) sayəsində bu cəmiyyətin istənilən üzvünün verdiyi səmərə digər insan tərəfindən qiymətləndirilə bilir. Pulun köməkliyi ilə (təbii ki etibarlı fəaliyyət göstərərsə) bizim hər birimiz çox rahat bir şəkildə ölkənin istənilən yerində birbaşa əlaqəyə, mal mübadiləsinə girmədən istənilən maliyyə prosesinə qoşula bilərik.

Hakimiyyət (qanun) hər bir cəmiyyət üzvünü cəmiyyətdəki öhdəlikləri baxımından digər insanlar qarşısında bərabər edir, hər bir fərdin və bütövlükdə cəmiyyətin həyat şərtlərini qoruyur.

Məhz dəyərlər, normalar, pul, hakimiyyət “xarici rəmzlər” kimi çıxış edir və davranış şəklini, mövcud mədəniyyət sahəsinə aid olan bütün insanların hərəkətlərini istiqamətləndirir.

Qeyd edilməlidir ki, cəmiyyətdəki münasibətləri tənzimləmək məqsədilə meydana gələn dəyərlər sistemi, öz prioritetini təsdiqləyir və əksər hallarda sosial determinasiyanın digər sosial mexanizmlərini özünə tabe edir.

Sosial mühit tərəfindən şəxsiyyətin davranışlarını şərtləndirən mühüm mexanizmlərə rol nəzəriyyələri kontekstindən ələ alınan mexanizmlər aiddir. Bu mexanizmlər arasında fərqləndirir:

1) Seçim mexanizmi. Bu və ya digər funksiyaların həyata keçməsi üçün şəxsiyyət müəyyən keyfiyyətlərə, hazırlıq səviyyəsinə, biopsixiki xüsusiyyətlərə malik olmalıdır. Sosial mühit bu və ya digər statusun yerinə yetirilməsi üçün müəyyən keyfiyyətlərə malik insanları seçir. Məsələn, aktyorluq üçün yüksək emosionallıq lazımdır, zabit üçünsə şərəf hissi, iradə, intizam vacibdir;

2) Uyğun görmə mexanizmi. Sosial mühit sosial rolun yerinə yetirilməsi nümunəsi vasitəsilə funksional və sosio-mədəni şəkildə şəxsiyyət müəyyən davranış qaydaları şamil edir ki, bu və ya digər vəziyyətdə o cür davransın. Bu mexanizm orduda xüsusilə sərtdir. Burada rol seçimi də, şəxsin davranışlarına nəzarət imkanları da genişdir. Qeyd edilən uyğun mexanizmlərə müvafiq olduqda, şəxsiyyət öz hədəfinə çatmaq üçün yüksək effektivlik əldə edir və mükafat, təsdiq alacağına zəmanət qazanır;

3) Nəzarət mexanizmi. Cəmiyyət və ya sosial qrup insanları nəinki bu və ya digər rolların icrası üçün seçir və müvafiq davranış qaydalarını təyin edir, eyni zamanda müəyyən sosial mədəni və rol normalarının yerinə yetirilməsinə nəzarət edir. Sosial nəzarətin sərtliyi davranış componentlərinin əhəmiyyət dərəcəsindən və rolun formalaşma səviyyəsindən asılıdır. Misal olaraq, dostluq formallaşmamış sosial rollar vasitəsilə reallaşır. Burada cəzalar yalnız əlaqələrin kəsilməsindən başqa demək olar ki, şərti əhəmiyyət daşıyır;

4) Sanksiyalar. Kənar şəxslərin təsir, təşviqat (pozitiv sanksiyalar) və cəza (neqativ sanksiyalar) məqsədilə insanın davranışına reaksiyaları sosial nəzarətin vacib element-

lərindəndir. Sanksiyaların mütəmadi funksiyalarının özəlliyi ondan ibarətdir ki, onlar həyata keçirilmiş davranışlara tətbiq olunurlar. Lakin sanksiyaların tətbiqinin gözlənilməsi insan davranışlarının tənzimlənməsinin mühüm elementlərindən hesab olunur.

Təcrübi nəticələr sübut edir ki, neqativ sanksiyaların (cəzaların) tətbiqi arzuolunmaz sosial davranışları yalnız müvəqqəti olaraq dayandırır və insanın sosial aktivliyini qaçılmaz şəkildə azaldır.

Zorakılığın sosial nəzarətin üstün metodu kimi humanist formada inkarı da təcrübi olaraq təsdiqini tapmışdır.

Sübut edilmişdir ki;

a) sosial tənzimləmə nöqteyi-nəzərindən sanksiyaların mənəvi olaraq tətbiqi yalnız o halda effektiv olur ki, fərd işlədiyi kollektivə, qrupa dəyər verir;

b) fərdlərin arzu etdikləri davranışların təşviqi arzuolunmaz davranışların aradan qaldırılmasından daha effektivdir.

Müasir sosiologiyada Deviant davranış (lat. deviatio ləğv etmək, kənar qalmaq) dedikdə insan və sosial qrupların rəsmi qaydalardan və sosial normalardan kənar hərəkət və davranışlarıdır. Mahiyyət etibarilə bu, sosial bir seçimdir.

Sosial qaydalar fərdlərin tələbatlarına uyğun gəlmədikdə onlar bu qaydalardan kənara çıxmağı bəzən lazım bilirlər və bununla da ya qaydaları pozan şəxs, ya da cinayətkar olurlar.

Destruktiv (dağıdıcı) deviasiyanın qarşısının alınması üçün tələb olunur:

- sosial pillədə irəliləmə və uğura aparan yolların legitim imkanlarının genişləndirilməsinə təkan vermək.
- hər kəsi qanun qarşısında bərabər etmək.

## MÖVZU 7
## AİLƏ SOSİAL İNSTİTUTDUR

1. **Ailə və nikah institutu, onların tarixi formaları və təsnifatı**
2. **Ailənin əsas funksiyaları və ənənəvi, müasir ailələrdə gender bölgüsü**
3. **Ailə-nikah münasibətlərinin inkişafında rol dəyişmələri və tendensiyalar**

Mövzunun öyrənilməsi ailə və nikah institutunun cəmiyyətin həyatında oynadığı rolun başa düşülməsi, ailə və doğumun planlaşdırılmasına mənfi təsir göstərən bütün faktorların (həm şəxsi, həm də ətraf-mühit) aydınlaşdırılması və sistemləşdirilməsi üçün prinsipial əhəmiyyət daşıyır.

### 1. Ailə və nikah institutu, onların tarixi formaları və təsnifatı

Ailə-nikah münasibətləri təkcə sosiologiyanın deyil, digər elm sahələrinin də tədqiqat obyektidir. Etnoqrafiya onları xalqların məişət sahələrindən biri kimi nəzərdən keçirir. İqtisadiyyat ailəni iqtisadi-məişət baxımından tədqiq edir – ailə istehsalı və istehlakını, büdcə və əmək bölgüsünü təhlil edir. Psixologiya ailə-nikah münasibətlərində yaranan hisslər, əhval-ruhiyyə, vərdişlər üzərində dayanır. Hüquqşünaslıq ailə qanunvericiliyini öyrənir. Pedaqogika uşaqların tərbiyə qanunluqlarını və vasitələrini araşdırır.

Sosiologiya isə cəmiyyətin yeniləşiməsində müxtəlif funksiyaları yerinə yetirən sosial institut kimi ailənin öyrənilməsinə diqqət ayırır, digər sosial strukturlarla və sosial həyat sahələri ilə ailənin əlaqəsini təhlil edir, ailə-nikah münasi-

bətlərini, onların inkişafının tendensiya və perspektivlərini tədqiq edir.

***Ailə** - nikah, yaxud qan qohumluğuna əsaslanan məişət və qarşılıqlı məsuliyyətlə bir-birinə bağlı insanların birliyidir.*

Istənilən cəmiyyətin sosial strukturunda vacib komponent olan ailə ictimai həyatın inkişafında mühüm rol oynayır. Uşaqların dünyaya gəlməsi, ilkin sosiallaşması və tərbiyəsi ailədə baş verir, ailə mütəşəkkil məişət özəyidir və zəruri istehlak vahididir.

Sosial institut kimi ailə çox qədim zamanlarda cəmiyyətin formalaşması ilə eyni vaxtda yaranmışdır. Qadın və kişi, böyük və kiçik nəsillər arasında münasibətlər ilkin tarixi inkişaf mərhələsində xüsusi və nəsli adətlərlə tənzimlənirdi. Sonrakı mərhələdə bu münasibətlərin tənzimlənməsi əxlaqi, dini, hüquqi xakarter aldı. Nikah kimi hüquqla tənzimlənən institut yarandı.

***Nikah** – qadın və kişi arasındakı münasibətlərin sosial formasıdır, bununla cəmiyyət onların ailə və cinsi həyatlarını tənzimləyir və təsdiqləyir, ər-arvad və valideynlik hüquq və öhdəliklərini müəyyən edir.*

Nikah ailənin təməlini təşkil edir, lakin onu tam əhatə etmir. Belə ki, ailə bir qayda olaraq təkcə ər-arvadı birləşdirmir, onların uşaqlarını, qohumlarını bəzən isə sadəcə yaxın insanları əhatə edir. Ailədə əsas münasibətləri ər və arvadın münasibəti, ata (ana) və oğul (qız), qardaş və bacılar, qaynana və gəlin, qaynata və kürəkən münasibətləri təşkil edir.

İctimai münasibət kimi nikahın digər sosial tiplərdən əsas fərqləndirici xüsusiyyəti təbii-bioloji element – cinsi münasibətləri ehtiva etməsidir. Heyvanlarda seksual partnyora ehtiyac tam instinktiv xarakter daşıyırsa insanlarda bu, dərk edilmiş hərəkət kimi təzahür edir. Bu o deməkdir ki, bu

ehtiyacın təkcə ifadə forması deyil, həm də onun mahiyyəti sosial səbəblərlə müəyyən edilir.

Nikahın sosial məzmunu xarakterinə görə müxtəlifdir: bura həm iqtisadi həm də psixoloji tərəflər daxildir. İlk dövrlərdə ər-arvad arasında iqtisadi münasibətlər əmək bölgüsünün nəticəsi idi, uşaqların və yaşlı qohumların təmini üçün qarşılıqlı kömək xarakteri daşıyırdı. Sinfi cəmiyyət yarandıqdan sonra bu münasibətlər institutlaşmanın maraqlarına və mülkiyyətin artırılmasına tabe oldu.

Nikahın psixoloji tərəfi sevgi, etibar və fərdi mövcudluğun ortaqlığından ibarətdir. Psixoloji münasibətlərin müxtəlif formalı və müxtəlif tərəfli olmasına baxmayaraq nikahda insanların əxlaqi düşüncəsi ilə tənzimlənir.

K.Marks, M.Veber, V.Pareto kimi klassiklərin ailə institutunun təhlilinə xüsusi maraq göstərməmələri diqqət çəkəndir. E.Durkheim onu çox az sosial strukturun bir parçası kimi nəzərdən keçirir. Lakin o, ailəni geniş qohum çevrəsindən daha kiçik qrupa ayıran “kontraksiya” (sıxılma) qanununu formalaşdırmışdır. Amma sonrakı tədqiqatlar göstərdi ki, bu qanun ailə tarixinin bəzi mərhələlərində özünü göstərir, ümumi xarakter daşımır.

Bütün bunlarla yanaşı XIX əsrin ikinci yarısından etibarən ailənin nəzəri problemləri bu və ya digər şəkildə ailə sosiologiyasının inkişafına öz töhfəsini verən məşhur antropoloq və sosioloqların nəzərində idi.

Lyuis Morqan (1818-1881) Amerika hüquqşünası və etnoloqu, hindu-irokezlərin məişətini “daxili nəzarət” başqa sözlə aralarında olmaqla öyrənmişdir. Morqan tərəfindən yaradılmış ibtidai tarix haqqındakı təlim patriarxal nəzəriyyəni inkar edir. Bu nəzəriyyənin əsasında bütün mövcudluğu boyu monoqam (təknikahlılıq) və ya partiarxal ailə dayanırdı. Əslində “ailə ideyası” öz təkamül yolunda ardıcıl mərhələlər

keçir ki, monoqamiya bu mərhələlərin ən sonuncusudur.

Fridrix Engels (1820-1895) – "Ailənin, şəxsi mülkiyyətin və dövlətin yaranması" əsərinin müəllifi ailənin tarixi yolunu fasiləsiz olaraq seksual əlaqə hüququna malik şəxslərin (hər iki cins) azalması kimi nəzərdən keçirir. Əvvəl birbaşa, sonra daha uzaq qohumların ardıcıl kənarlaşdırılması nəticəsində istənilən növ toplu nikah imkansız olur. Bu şəkildə tədricən əsrlər ərzində cüt nikahlar formalaşır. Onun xarakterik cəhətləri: qadınların qaçırılması və satın alınması, ittifaqdan rahat çıxıb yenisinə daxil ola bilmək.

Engels tərəfindən seçilən digər ailə tipi monoqam ailədir. Onun əsasında təbii deyil, iqtisadi zəmin dayanır. Nikah bağları daha möhkəmliyi ilə fərqlənir, tərəflərdən hər hansı birinin istəyi ilə qırıla bilməz. Ömürlük vahid nikahlılıq kişi və qadının istəyinə əsasən yaradılmırdı. Monoqam nikahın əsas məqsədi ailədə kişinin hökmranlığı və onun var-dövlətinin varisi olacaq övladların dünyaya gəlməsidir. Bir cinsin digəri üzərində dominant olduğu bu nikahın əsas yoldaşları qadağan olunmuş, ciddi cəzalanan və düzəldilməz sədaqətsizlik və fahişəlikdir.

Ailənin perspektivləri haqqında mühakimə yürüdən Engels qadının monoqamiyası şəklində birtərəflilik növbəti sosial çevrilişlə "düzələcək", bu çevriliş nəsildən nəsilə ötürülən var-dövləti ictimai mülkiyyətə çevirərək varis qayğısını minimuma endirəcək. Muzdlu əmək və fahişəlik aradan qalxacaq, monoqamiya kişi üçün də gerçək olacaq.

Maksim Kovalevski (1851-1816) – Rusiya sosioloqu və etnoqrafı genetik sosiologiya prinsiplərinə, ailə və nəslin inkişafında başlanğıc təliminə əsaslanır. İlkin mənbə kimi geridə qalmış tayfaların məişətini etnoqrafik təsvirdən istifadə edir, bunun isbatını müasir xalqlarda qalan "izlərdə" görür.

Frederik Le Ple (1806-1882) – fransız sosioloqu, üç əsas – patriarxal, qeyri-sabit, sabit (köklü) ailə tipi müəyyən-

ləşdirməsi ilə məşhurlaşmışdır. Təsnifatın əsasında mülkiyyətin gənc nəslə ötürülməsi prinsipi dayanır. Le Ple partiarxal ailəni başqırdlarda, ruslarda və cənub slavyanlarında müşahidə edir. Onlarda mülkiyyət bölünmürdü. Patriarxal fəaliyyətin xarakterik xüsusiyyətləri adət-ənənədən törəyir: böyüklərin nüfuzu, ekstensiv əmək, fərdi təşəbbüslərin olmaması, birlik maraqlarının şəxsi maraqlardan (hətta şəxsi həyatda) üstün tutulması.

Qeyri-sabit ailə quruluşu Qərbi Avropada, xüsusiən Fransada yayılmışdır. Burada hər bir oğul atadan qalan varidatın bərabər şəkildə varisi olur, bu da Le Plenin fikrincə sosial qeyri-stabilliyə, şəxsi təşəbbüsün, dəyişikliyə meylin olmamasına səbəb olur, dövlətin fərd üzərində üstünlüyünə gətirib çıxarır. Köklü ailə ingilislər, skandinavlar və amerikalılar üçün xarakterikdir. Miras atanın işini davam etdirən oğula keçir. Bu da sosioloqun fikrincə inkişaf etmiş təşəbbüsə, sahibkarlığa, ailə mülkiyyətinə bağlılığa, əməyə sevgiyə, mötədilliyə və qənaətçiliyə səbəb olur. Beləliklə hər üç ailə formasına müəyyən təsərrüfat tipləri müvafiq olur.

Bronislav Malinovski (1884-1942) – polyak mənşəli ingilis antropoloqu və sosioloqudur. Yeni Qvineya, Avstraliya və Melaneziyanin primitiv xalqları üzərində davamlı “daxili nəzarət”in nəticələrindən alınan məlumatlara əsaslanaraq bəşəriyyətin tarixində promiskuitetin (cinslər arasında heç nə ilə tənzimlənməyən münasibət) və istəlilən forma qrup nikahının mövcudluğunu inkar edir. Patriarxal ailəni mədəniyyətin beşiyi və sadə cəmiyyətin təməl vahidi hesab edir. Malinovskinin fikrincə, ailə heyvanlardan götürülmüş yeganə sosial qrupdur. “Keçid” prosesində bu özək öz təbiətinə və tərkibinə görə əsaslı şəkildə dəyişir, yalnız “valideynlər və uşaqlar” forması – analıq əlaqəsi və atanın övlada münasibətinin dəyişilməzliyi sabit qalır.

Pirim Sorokin (1889-1968) – böyük zaman kəsiyində ailənin təkamülünü nəzərdən keçirirərək belə bir nəticəyə gəlir ki, "ailə və nikah forması fasiləsiz dəyişmişdir, hal-hazırda da dəyişməyə davam edir". P.Sorokin geniş seksual azadlığın əxlaqla məhdudiyyətlərinin tədricən toplanmasını ailənin təkamülü hesab edir. Bu sahədə nəzarətin güclənməsini və nikahın transformasiyasını bəşəriyyətin kobud münasibətlərdən "daha kamil və daha əxlaqi" münasibətlərə hərəkəti kimi qiymətləndirir. Ailənin çoxnikahlılıqdan təknikahlılığa təkamülü hələ də keçmişin qalıqlarından təmizlənməyib. Votyak və çeremislər haqqında etnoqrafik məlumatlara müraciət edən P.Sorokin qızlarda ekrən cinsi münasibətləri, çoxarvadlılıgı qeydə almışdır. Ən maraqlı qalıq: ata adı ana xətti ilə verilir, valideynlərin bir qızı varsa kürəkəni evlərinə gətirir və ona öz soyadlarını verirlər. "Müasir ailənin böhranı" əsərində Sorokin ər-arvad birliyinin zəifləməsini isbat edən bir sıra empirik dəlillər göstərir. O cümlədən:

- boşanmaların sürətlə artması;
- nikah bağlamalarının sayının artması;
- cinsi meylin nikahdankənar uşaqlarının sayının artmasına, abort və fahişəliyin artmasına səbəb olan nikahdankənar təmini;
- nikahda uşaqların sayının azalması;
- patriarxal ailənin ayrılmasına səbəb olan faktor kimi qadınların azadlığı;
- dini əsaslarla bağlanan nikah keçmiş əsrlərdən fərqli olaraq əsrin əvvəlində hadisələrin vəziyyətini kökündən dəyişmişdir və nikah daha çox kübar instituta çevrilir.

Bununla yanaşı Sorokin hesab edirdi ki, ailə böhranı onun tam tənəzzülü demək deyil, xüsusi olaraq vurğulayır ki,

“ailə ər-arvad ittifaqı və valideynlərlə uşaqların ittifaqı kimi qalacaq, lakin onun formaları dəyişəcək”[20].

Bundan əlavə, ailə problemləri üzrə müasir mütəxəssislər (ABŞ-da U.Qud, Almaniyada R.Keniq, İngiltərədə R.Fletçer, Fransada L.Russel, Rusiyada M.Matskovski, A.Antonov) üçün monoqamiyanın böhranlı vəziyyəti, ailə həyatının qiymətdən düşməsi, şəxsin uşağa tələbatının azalması narahatlıq doğurur. Onlar bu böhranı birbaşa olaraq qlobal sosial dəyişikliklərlə əlaqələndirirlər.

Eyni zamanda elmi ədəbiyyatda daha tez-tez XX əsrin ortalarında üzə çıxmış nikah, seksual və reproduktiv sahələrdə baş verən təzahürlərin birmənalı şəkildə yalnız normadan kənarlaşma kimi şərhin mümkünsüzlüyü məsələsi qaldırılır. Onlar daha çox ailə institutunun özündə ciddi və dəyişməz təkamül dəyişikliklərinin əlamətləridir. Bu əlamətlər doğumun azalmasında, az uşaqlılıqda və şüurlu uşaqsızlıqda özünü göstərir (inkişaf etmiş sənaye ölkələri, ö cümlədən Azərbaycan üçün də xarakterikdir).

Bu təzahürlərə gənclərin nigahaqədər seksual davranışlarının kütləvi yayılması daxildir, bu da öz səbəblərinə görə nə reproduktiv, nə də nikah maraqları ilə bağlı deyil. Bu tendensiyanın nəticələrindən biri nikahdan kənar, əksərən bir uşağın olmasıdır. Bəzi hallarda məsələ nikahla qurtarır, digər hallarda isə “ana ailəsi” ilə nəticələnir.

*Sosial planda ailə müasir elmin ilkin qrup anlayışı ilə əlaqələndirdiyi, həmçinin müəyyən lokallaşma, struktur və spesifik sosial funksiya kimi bütün əlamətlərə malikdir.*

Ailənin lokallaşdırılması o deməkdir ki, o təkcə qohumluq münasibətləri deyil, qohumların birgə yaşayışını nəzərdə tutur, başqa sözlə ümumi məişət elementlərinin olmasıdır. Ailə

[20] http://artlad.ru/magazine/all/310/311/335/340.

üzvlərinin bir-birinə iqtisadi yardımı və dəstəyi, onlar arasında əmək bölgüsü müəyyən ərazi daxilində, ailə təsərüfatı çərçivəsində həyata keçirilir. Birgə yaşayış birgə istehlak ilə bağlıdır, bəzi ailə formalarında isə birgə istehsal ilə əlaqəlidir. Demək ailənin lokallaşdırılması təkcə regional deyil, həm də iqtisadi aspekt kəsb edir.

Ailə şəxslərarası və qruplararası münasibətlərin qapalı sistemini ifadə edir, həm də daha böyük sosial sistemin elementidir. "Ailə-cəmiyyət" qarşılıqlı münasibəti həm bir bütün, həm də onun ayrı-ayrı hissələri səviyyəsində baş verir.

Sistem kimi ailə stabildir. Ailə bağlarının möhkəmliyi və davamlılığı kənar təzyiqlərlə də təmin oluna bilər. Bu təzyiqlər dedikdə mövcud cəmiyyətdə hakim olan sosial normalar nəzərdə tutulur. Bu halda ailə sosial təşkilat (institut) kimi nəzərdə tutulur. Lakin ailə sistemi əxlaqi dəyərlər, hisslər, iqtisadi maraqlardan ibarət daxili "birlik qüvvəsinə" əsaslanaraq stabil ola bilər. Bu halda ailə dar psixoloji qrup kimi deyil, terminin sosial mənasında nəzərdən keçirilir.

***Ailə quruluşu*** *(sosiologiyada) – qohum strukturunu, mənəvi və əxlaqi münasibətlər sistemini ehtiva edən, ailənin üzvləri arasında münasibətlər birliyidir.*

Ailə müxtəlif tipoloji vahidlərlə xarakterizə olunan sosial sistemdir. Ailənin strukturu ilə onun həyat tərzi və qaydaları, adət və ənənələri, həmçinin başqa ailələr və bütün cəmiyyətlə qarşılıqlı münasibəti ilə sıx bağlıdır.

Ailə strukturunun müxtəlif aspektlərdən öyrənilməsi onun təsnifatı üçün birinci dərəcəli əhəmiyyətə malikdir. Aşağıdakıları qeyd edirlər:

- ər-arvad birliklərinin tərkibi və xarakterinə görə (stabillik, istisnalılıq və s.) "ailə" obyekti cüt, monoqam və poliqam siniflərinə bölünür;

- nikah birliklərinin sayına görə - sadə və mürəkkəb formalara bölünür;
- nəsillərin sayına görə - bir, iki və üçnəsilli ailələr;
- uşaqların sayına görə - uşaqsız ailələr, bir, iki, üç və çoxuşaqlı ailələr.

Başqa təsnifat qaydası elementlər arasında qarşılıqlı münasibətə əsaslanır. Məsələn, ailə üzvlərinin qarşılıqlı münasibətinə görə ailələr avtoritar və eqalitar ailələrə bölünür. Birincidə ya ər,ya da arvad liderdir, ikincidə isə bərabərhüquqluluq vardır.

Sadə ailə formaları arasında monoqam nikah, yalnız bir ər-arvad ittifaqı, bir (ər, arvad), iki (valideynlər və uşaqlar) nəsildən ibarət, mülkiyyətin (şəxsi, fərdi, ümumi) xarakterinə görə və ailədaxili münasibətlərə əsaslanan kiçik avtoritar və ya eqalitar ailə tipləri müəyyən edilmişdir ki, bu adətən nuklear ailə adlanır. Sadə formalara yalnız bir valideyn və övladdan (boşanma yaxud dul qalma nəticəsində bir valideyin, nikahdan kənar övlad olması), valideynsiz qalmış bacı və qardaşlardan ibarət natamam kiçik ailələr də daxildir.

Mürəkkəb formalı ailələrə müxtəlif tipli poliqam və monoqam ailələr daxildir. Poliqam ailələr arasında iki tip vardır. Birinci tip polinik nikahla xarakterizə olunur: ailədə bir kişi eyni vaxtda iki və daha artıq qadınla evlidir. Ikinci tip ailə poliandrik nikaha əsaslanır: bir qadının bir neçə əri vardır. Ailədaxili münasibətlər böyük şaxələnmə ilə fərqlənir.

Sosiologiyada ailənin bir sıra mərhələlərdən ibarət həyat silsiləsi də tədqiq olunur:

- həyat yoldaşının seçilməsi;
- ailənin formalaşması – ilk nikaha daxil olma;
- övladın doğumunun başlanğıcı – ilk uşağın dünyaya gəlməsi;

- övlad doğumunun sonu – sonuncu uşağın dünyaya gəlməsi;
- “boş yuva” – sonuncu övladın ailədən getməsi;
- ailə mövcudluğunun sona çatması – həyat yoldaşlarından birinin ölümü və ya boşanma.

## 2. Ailənin əsas funksiyaları və ənənəvi, müasir ailələrdə gender bölgüsü

Ailənin əsas funksiyaları həm cəmiyyətin, həm də fərdin tələbatları ilə sıx bağlıdır.

Ailənin əsas funksiyası **reproduktivlikdir.** Sevgidə iki şəxs iştirak edir. Nəticədə üçüncü həyat meydana gəlir. Bu üçüncü həyat cəmiyyətin ailəyə marağını təşil edir. Bu şəkildə cəmiyyət bioloji və mənəvi təzələnir, insanın övlada tələbatı ödənir. Bu təzələnməni genişləndirmək üçün cəmiyyət ailəyə qarşı paternalist sosial siyasət yürütməlidir: gənc ailələrə hərtərəfli yardım göstərmək, maddi və mənəvi cəhətdən uşaq doğumunu stimullaşdırmaq, ictimai xidmət, səhiyyə, ana və uşağın qorunması və s. sahələri inkişaf etdirmək.

Eyni zamanda əhalinin yenilənməsi üçün ailəyə ehtiyacın olmadığı fikri də mövcuddur. Əgər əhalinin yenilənməsini yalnız uşaq doğumu ilə bağlasaq, bu fikrə etiraz etmək çətindir. Lakin yenilənməni daha geniş mənada cəmiyyətin təkcə fiziki deyil, həm də mənəvi cəhətdən canlanması, uşaqların təkcə doğumu deyil, həm də müvafiq tərbiyəsi kimi başa düşsək ailə zərurətə çevrilir.

İkinci funksiya ***ailə tərbiyəsidir***. Cəmiyyət nöqteyi-nəzərindən bu gənc nəslin sosiallaşması, cəmiyyətdən mədəni ayrılmamasıdır, şəxsi cəhətdən isə valideynlərin uşaqlarla təması tələbatının ödənməsi, uşaqlarda özünü təsdiqdir. Bu funksiya formalaşan şəxsiyyətə bütün təsir formalarını ehtiva edir: ünsiyyət, birgə əmək, ətrafdakıların şəxsi nümunəsi, real dav-

ranışların qiymətləndirilməsi, həvəsləndirmə və cəzalandırma. Uşagın inkişafı ailənin həyat fəaliyyətilə üzvi surətdə bağlıdır. Ailə ünsiyyəti nə qədər müxtəlif və dolğundursa uşaq da bir o qədər inkişaf edir və ailənin digər üzvlərinə tərbiyəvi təsir göstərir. Böyüyən uşağın bir sıra real təzahürləri birbaşa görməsi böyüklərin qavrayışını yeniləyir, formalaşan dəyər və fikirlərə başqa gözlə baxmağa məcbur edir.

Ailə tərbiyəsinin effktivliyi əsasən ailənin xarakteristikasından – onun tərkibindən (tam, natamam), əxlaqi-psixoloji mühitindən, valideynlərin şəxsi nümunəsindən, onların ümumi və pedaqoji mühitindən, uşaqlarla keçirilən vaxtdan və ünsiyyətdən asılıdır. Bu təkcə vətəndaş və vəzifə borcunun yerinə yetirilməsi kimi qəbul edilə bilməz, istənilən başqa insanlardan çox uşağın taleyinə maraq hissi valideynə xasdır.

***Təsərrüfat-məişət funksiyası*** cəmiyyət üzvlərinin fiziki sağlamlığının qorunmasından, uşaqlar və qocalara qulluqdan, fərdi səviyyədə isə bir ailə üzvlərinin digər ailə üzvlərindən məişət-təsərrüfat xidmətlərinin alınmasından ibarətdir.

***İqtisadi funksiya*** cəmiyyətin həddi-büluğa çatmamış və əmək qabiliyyəti olmayan üzvlərinin iqtisadi dəstəklənməsi, fərdi yanaşmada isə ailənin bir üzvünün digərindən maddi vəsait əldə etməsi ilə ifadə olunur.

***İlkin sosial nəzarət funksiyası*** müxtəlif həyat sahələrində ailə üzvlərinin davranışlarının əxlaqi tənzimlənməsidir. Həmçinin, ər-arvad arasında, valideynlərlə övladlar arasında, böyük və kiçik nəsillər arasında qarşılıqlı məsuliyyət və vəzifələrdir.

***Mənəvi ünsiyyət funksiyası*** ailə üzvlərinin şəxsiyyətinin inkişafından, onların qarşılıqlı olaraq mənəvi zənginləşməsindən, nikahın dostluq əsaslarının möhkəmləndirilməsindən ibarətdir.

***Sosial-status funksiyası*** ailə üzvlərinə müəyyən sosial

statusun verilməsini, sosial strukturun yenilənməsini, sosial inkişafa tələbatın ödənilməsini təmin edir.

***İstirahət funksiyası*** səmərəli istirahətin təşkilini və ona sosial nəzarəti ifadə edir, fərdlər üçün isə bərabər istirahət tələbatını, istirahət maraqlarının qarşılıqlı zənginləşməsini təmin edir.

***Emosional-terapevtik funksiya*** fərdlərin emosional stabilliyi və onların psixoloji terapiyası ilə müəyyən olunur; fərdlər üçün psixoloji müdafiə, ailədə emosional dəstək, şəxsi xoşbəxtlik və sevgi tələbatlarının ödənilməsi deməkdir.

***Seksual funksiya*** ictimai səviyyədə seksual nəzarətdir, fərdi səviyyədə isə seksual tələbatların təminidir.

Ailədə qarşılıqlı münasibətlər ənənəvi və müasir ailələrdə kəskin şəkildə fərqlənən normaların, dəyərlərin və qaydaların məcmusuna əsaslanır. Bu fərqliliklər ayrı-ayrı sahələrdə aşağıdakılardan ibarətdir:

1) ənənəvi cəmiyyətdə imkanlı ailələrdə ərli qadın işləməməlidir, imkansız ailələrdə isə yalnız iqtisadi ehtiyaca görə işləyə bilir. Müasir ailələrdə isə qadın və kişiyə işləmək, professional karyera və ictimai fəaliyyətdə bərabər hüquqlar verilir;
2) ənənəvi ailənin norması çoxuşaqlılıqdır, müasir ailələrdə isə uşaqların sayı ər-arvadın anlayışından, planlaşdırılan həyat tərzindən asılıdır;
3) ənənəvi ailələrdə uşaqları ciddi intizamda tərbiyə edirlər, tərbiyənin xarakterini ata müəyyənləşdirir, ana məşğul olur. Müasir ailələrdə isə uşaqların marağı nəzərə alınmaqla tərbiyə olunur, ciddi intizama deyil, şəxsi nümunə və inandırmaya əsaslanır. Hesab olunur ki, tərbiyə ilə həm ata həm də ana bərabər dərəcədə məşğul olmalıdır;
4) ənənəvi ailələrdə təsərrüfatı qadın idarə etməlidir, imkanlı ailələrdə kişi ümumiyyətlə ev işlərindən azaddır, imkansız

ailələrdə isə yalnız ağır fiziki işi yerinə yetirir. Müasir ailələrdə ər və arvadın bilik, bacarıq və işdə məşğulluq səviyyəsindən asılı olaraq razılaşma əsasında vəzifələrin dəyişkən bölgüsü olur;

5) ənənəvi ailələrdə təminatçı ər olmalıdır, qadın isə ona verilən pulları idarə etməlidir. Müasir ailələrdə isə ailənin maddi rifahını həm kişi, həm də qadın professional və əlavə gəlirlə ödəyir;
6) ənənəvi ailələrdə qonaqlarla ünsiyyət, hobbi, əyləncə ya ər-arvadın hər ikisi tərəfindən reallaşır, ya da kişi müəyyən qədər sərbəstliyə malikdir. Muasir ailələrdə ər və arvad asudə vaxtın keçirilməsi üçün bərabər hüquqa malikdir və bəzi hallarda istirahət bir birindən ayrı keçirilir;
7) ənənəvi ailələrdə ər-arvad arasındakı ünsiyyət əsasən ailə problemlərinə - evə, təsərrüfata, uşaqlara həsr olunur. Müasir ailələrdə ünsiyyət yoldaşlıq xarakteri daşıyır, ailə problemlərindən başqa bütün həyat sahələrini əhatə edir;
8) ənənəvi ailələrdə geniş qohum əhatəsi ilə ünsiyyət vacib sayılır, yoldaşlıq münasibətləri qonşularla olur, şəxsi dostlar yalnız kişilərdə ola bilər. Müasir ailədə dostluq əlaqələri və münasibətləri maraqlara əsaslanır, qohumluq əlaqələri və qonşularla ünsiyyət vacib deyil;
9) ənənəvi ailələrdə kişi ailə başçısıdır, bütün məsələlərlə bağlı qərarı o verir; müasir ailələrdə ər-arvad birgə müzakirələrdən sonra qərar qəbul edir, sahələr üzrə liderlik bölgüsü ola bilər;
10) ənənəvi ailələrdə qadına nəzarət güclüdür, kişiyə isə bu az dərəcədə şamil olunur; müasir ailədə qadın və kişinin davranışlarında normadan uzaqlaşmaya (kobudluq, sər-xoşluq) bərabər səviyyədə nəzarət olunur;
11) ənənəvi ailələrdə istilik, şəfqət, emosional dəstək yalnız qadından gözlənilir; müasirdə ər-arvad emosional dəstəyi

qadın və kişinin xarakteri nəzərə alınmaqla bir-birindən gözləyir;

12) ənənəvi ailələrdə seksual münasibətlər əksər hallarda uşaqların doğulması üçün vacib şərt hesab olunur, qadınlara nikaha qədər münasibətlərə icazə verilmir, kişilərə isə irad tutulmur. İmkanlı ailələrdə yalnız kişilər üçün nikahdankənar əlaqələrə icazə verilir. Müasir ailələrdə seksual münasibətlərin reproduktiv funksiyalardan getdikcə uzaqlaşması, qadınların seksual aktivliyi və cinsi həyata tələbatlarının artması, sevgiyə əsaslanan nikahaqədərki cinsi münasibətlərin mümkünlülüyü müşahidə olunur. Nikahda olan qadın və kişinin nikahdankənar seksual əlaqələri bərabər şəkildə qınanır.

## 3.Ailə-nikah münasibətlərinin inkişafında rol dəyişmələri və tendensiyalar

Bu gün xüsusi ədəbiyyatda və bir sıra ölkələrin ictimai fikirində bir-birinə tamamilə zidd iki nəzər nöqtəsi mövcuddur. Birinci XX əsrdə baş verən qlobal sosial dəyişiklikləri nikaha sədaqət, ailənin emosional fonu ilə birbaşa əlaqələndirir, ənənələrin böhranını isə boşanmaların sayının artmasında, natamam ailələrdə, nikahdankənar uşaqlarda, abortların sayının çoxalmasında, ailə zorakılığında, qan qohumları arasında cinsi əlaqədə görür.

Digər birbaşa mövqenin tərəfdarları isə əksinə bütün sosial problemlərin səbəbini müasir ailə qəddarlığında nəzərdən keçirir. Məsələn, nuklear (yalnız bir nəsil olan) ailədə yaşayış stress, psixi xəstəliklər, konfliktlər, hətta ictimai qaydalara qarşı etiraz hiddətlərinə gətirib çıxarır.

Hər iki nəzər nöqtəsinin dar çərçivədə olması şübhəsizdir. Bəşəriyyət tarixindən göründüyü kimi, əlbəttə ailə cəmiyyətdən

asılıdır, qlobal sosial dəyişikliklər ailə-nikah sahəsində dəyişikliklərə gətirib çıxarır. Eyni zamanda ailənin təkamülü ona məxsus qanunauyğunluqlar nəticəsində baş verir. Bundan əlavə, istənilən əhəmiyyətli sosial hərəkat kimi ailə institutunun transformasiyası da problemlərin birini həll edir, digərlərini yaradır. Ailədə ciddi rol dəyişikləri ilə müşayiət olunur.

Qadının ailə, təsərrüfatı idarə etməsi, uşaqların tərbiyəsi ilə məşğul olması, kişinin sahib olması, əksər hallarda mülkiyyətin yeganə sahibi olması və ailənin maddi müstəqilliyini təmin etməsi ənənələri keçmişə gedir. Müasir dövrdə isə qadınların əksəriyyəti istehsal fəaliyyəti ilə məşğuldur. Onlar ailənin maddi təminatında və ailə qərarlarında iştirak edir. Bu qadın şəxsiyyətinin inkişafına, təkan versə də uşaqların sayının azalmasına və boşanmaların artmasına səbəb olur.

Ailə institut kimi yox olmur, həm yaxın, həm də uzaq gələcəkdə fəaliyyət göstərəcək. O daim özünün əsas funksiyalarını, reproduktiv, tərbiyəvi və sevgi-emosional funksiyalarını yerinə yetirəcək. Sadəcə bu dəyərlərin iyerarxiyası və onların reallaşmasının bəzi kəmiyyət və keyfiyyət xüsusiyyətləri dəyişəcək.

Ailənin mövcud olması zəruriliyi tezislərini aşağıdakı dəlillər isbat edir:

- ilk növbədə aydındır ki, cəmiyyətin uşaqların doğulması və tərbiyəsinə tələbatı keçici deyil. Bununla yanaşı uşaqda əsasən ata ilə ünsiyyətdə formalaşan şəxsi keyfiyyətlərin inkişaf etdirilməsi üçün qadın təkcə ər-arvad münasibətləri üçün deyil, həm də uşağa görə kişi ilə birliyi mümkün qədər uzun müddətdə saxlamağa çalışır. Bununla əlaqədar olaraq kütləvi şəkildə nikahdankənar uşaqların və natamam ailələrə meylin kəskin artmasını gözləmək çətindir;
- ikincisi, şəxslərarası münaqişə və boşanmaların sayının artmasına baxmayaraq insanların davamlı və

intizamlı münasibətlərə tələbatı da artır;

- üçüncüsü, ailə-nikah münasibətlərində norma və dəyərlər çox cüzi kökündən dəyişə bilər. Bu münasibətlərin forma və məzmunu dəyişərsə, məsələn, vəzifələrin "qadın" və "kişi" vəzifələrinə kəskin bölünməsi kimi. Əksər ailələr üçün ailədaxili münasibətlərin demokratikləşməsi daha səciyyəvi olur, bu halda mühüm ailə məsələlərinin həlli birgə (həm kişi, həm də qadının iştirakı ilə) həyata keçir. Bu cür ailələrin sayı gənc nəsillərdə daha çox artır, qadının üstünlük təşkil etdiyi ailələr daha çox orta yaşlarda müşahidə olunur.

Təbiidir ki, təhsil və mədəniyyət səviyyəsinin yüksəlməsi ilə demokratik ailələrin payı artır. Ailədə qarşılıqlı münasibətlərin dəyişməsinə qadının təhsil səviyyəsi və sosial-professional vəziyyəti xüsusi təsir göstərir.

Ailə münasibətlərinin demokratikləşdirilməsi ər-arvad arasında ailə vəzifələrinin bölüşdürülməsi ilə də baş verir. Tədqiqatların göstəricilərinə görə təxminən ailələrin ¼-də vəzifələr bərabər bölünmüşdür, yarısında ər arvadına kömək edir, digər yarısında isə ərin köməyi yoxdur. Daha gənc və daha təhsilli ailələrdə ərlər daha çox arvadlarına kömək edir, bu da onların vəzifə bölgüsünə müasir baxışlarından irəli gəlir.

Bir sıra alimlər hesab edir ki, ailə-nikah münasibətlərinin stabilliyinə bəzi nikahaqədərki faktorlar təsir göstərir:

1) Nikaha daxil olanların yaşı - tədqiqatlar erkən nikahların (21 yaşa qədər) möhkəmliyinin azaldığını göstərir. Bununla bərabər qadının nikaha daxil olması və ondan razı qalması ilə ciddi əlaqə müəyyən edilmişdir. Görünür ki, gənc qadınlar romantik ailə təsəvvürləri ilə reallıq arasındakı fərqi daha ağır keçirir;

2) Milliyyət - bizim ölkədə qarışıq millətli nikahların sayı çoxalsa da birmillətli nikahlar daha stabil olur;
3) Təhsil - ər və arvadın bərabər təhsil səviyyəsində olması daha uğurlu ailə göstəricisidir, arvadın təhsil səviyyəsinin ərdən daha yüksək olması qeyri-stabilliyə səbəb olur. Aydındır ki, ali təhsilli qadınlar həm əxlaqi-psixoloji, həm də intellektual münasibətlərə daha tələbkar olurlar;
4) Şəhər və kənd mənşəli olması - kişinin əsli kənddən, qadının əsli şəhərdən olduqda daha qeyri-stabil nikahlar olur;
5) İqtisadi təminat - bu faktorun təsiri qadın və kişinin “maddi rifah” anlayışına hansı məna verdiyi və onların dəyərlər iyerarxiyasında hansı yerə malik olması ilə müəyyənləşir. Bir qayda olaraq rihafın özü deyil, ər və arvadın, həmçinin onların qohumlarının baxışları arasındakı fərqlər təsir göstərir.
6) Valideynlərlə yaşayış - gənc ailələr qadının valideynləri ilə yaşadıqda daha stabil olur, nəinki kişinin valideynləri ilə;
7) Valideyn ailəsi - natamam və ya konfliktli ailələrdə böyüyən gənclər əksər hallarda birgəyaşayışa hazır olmurlar. Həm də ailəsində tək övlad olan uşaqlara da çətin olur;
8) Nikahın bağlanması zamanı valideynlərin rəyinin rolu - ümumiyyətlə övladların nikah bağlaması üçün valideynlərinin rəyinin rolu azalmışdır. Lakin uğursuz ailələrdə ər-arvadın valideynləri övladların nikahlarına daha narazı yanaşırlar, nəinki uğurlu ailələrdə;
9) Nikaha qədər tanışlığın müddəti - burada vəziyyət belədir: uğurlu ailələr arasında nikaha qədər 6 aydan çox tanışlığı olmayanlar cəmi 13%, uğursuz ailələr isə 39% təşkil edir. Lakin uzunmüddətli nikahaqədərki tanışlığı olan ailələr də möhkəmliyi ilə seçilmir, bu da ailənin yaranması zamanı qarşılıqlı münasibətlərdə emosionallığın azalması ilə

əlaqədardır;

10) Seksual təcrübənin olması - tədqiqatlar göstərir ki, 80 % kişilər seksual münasibətlərdə olublar, bu faktor nikahın möhkəmliyinə ciddi təsir göstərmir. Nikahaqədərki hamiləlik yüksək risk faktorudur. Bu cür nikahlar çox vaxt qeyri-münasib tərəfdarla bağlanır, uşaq dünyaya gəldikdən sonra yaranan ailə öhdəliklərinin təzyiqi nəticəsində yaranan psixoloji məmnuniyyətsizlik də öz təsirini göstərir;
11) Nikaha daxil olma səbəbləri - Nikahın stabilliyi və ailə həyatının davamlılığı üçün ailənin özünə meyil əhəmiyyətlidir. Emosional və fiziki cəlbedicilik kimi sevgi vacib, lakin sonrakı münasibətlərin uğurlu olması üçün kifayət qədər əsas deyil.

Yuxarıda sadalananlarla yanaşı sosioloji ədəbiyyatda ailə həyatı prosesində formalaşan, ailənin stabilliyinə həm müsbət, həm də mənfi təsir göstərən faktorlar aşagıdakılardan ibarətdir.

Müsbət təsir göstərir:

- ər və arvadın reproduktiv məqsədinin üst-üstə düşməsi;
- ailədə başçının olması;
- əsas ailə qərarlarının birgə qəbulu;
- istirahətin birgə keçirilməsi;
- uşaqlara və yaşlılara qulluq üçün məişət-təsərüfat öhdəliklərinin bərabər bölgüsü;
- maddi və mənəvi dəyərlərə baxışların üst-üstə düşməsi və s.

Mənfi təsir göstərir:

- ər və arvadın reproduktiv məqsədinin uyğun gəlməməsi;
- ər və arvadın hər ikisinin, yaxud birinin spirtli içkilərdən çox istifadə etməsi;
- arvadın peşə fəaliyyətinə baxışların fərqli olması;
- ər-arvaddan birinin digərinin dostuna (rəfiqəsinə) qarşı neqativ münasibət;

- kişinin ev işlərinə, yaxud səmərəli istirahətə ayırmadığı asudə vaxtının çox olması;
- ünsiyyət, maraq və həvəsin məhdudluğu;
- mənəvi ünsiyyətdə fikir ayrılığının olması;
- valideynlər tərəfindən və valideynə göstərilən köməyə fərqli münasibət;
- ər və arvadın seksual münasibətlərdə məmnuniyyətsizliyi.

Ailə-nikah münasibətlərinin uğurlu olması üçün vacib faktorlardan biri onların məqsədyönlü tənzimlənməsidir, bu da öz başlanğıcını hələ ibtidai insan cəmiyyətindən götürür, adət-ənənə, qanunlar vasitəsilə reallaşır, müasir dövrdə isə dövlət sosial siyasəti, cəmiyyətin ailə və nikah sahəsindəki maraqları ilə nizama salınır.

Ailə-nikah münasibətlərinin sosial tənzimlənməsi qanuni, iqtisadi və təşviqi xarakterli qaydalar sisteminin tətbiqi vasitəsilə cəmiyyətin ailəyə elmi əsaslandırılmış məqsədli kompleks təsirini nəzərdə tutur.

Bu qaydalar real olmalı, ölkənin iqtisadi vəziyyətini, xüsusən demoqrafik şəraitini nəzərə almalıdır. Eyni zamanda ailə stabilliyinə istənilən yolla, məsələn, inzibatçılıqla nail olmaq düzgün deyil. Ailə siyasətinin ümumi məqsədini ailə fəaliyyətinin elə nailiyyəti kimi formalaşdırmaq olar ki, cəmiyyətin və ayrılıqda fərdin ailə sayəsində reallaşan tələbatları həmahəng olsun.

Sosial ailə siyasətinin bügünkü məqsədləri aşağıdakılardır:

- ailənin stabilləşməsi, boşanmaların sayının azalması;
- ailənin nikah strukturunun təkmilləşdirilməsi;
- kütləvi təfəkkürdə orta uşaq saylı (iki-üç uşaq) ailəyə meyli möhkəmləndirmə, atalıq və analığın nüfuzunu artırma;
- gələcək nəslin əqli və fiziki inkişafını təmin etmək;

- ailənin tərbiyə potensialının yüksəldilməsi;
- ailə münasibətlərinin keyfiyyətinin yaxşılaşdırılması;
- boşanmış və boşananların sosial və psixoloji uyğunlaşması stress hallarının aradan qaldırılmasına, keçmiş ər-arvad və onların uşaqları üçün boşanmanın arzu edilməyən nəticələrinin azaldılmasına, boşananlarda təkrar nikaha meylin formalaşdırılmasına yönəlməlidir.

Ailənin elmi-nəzəri və tətbiqi tədqiqatları ayrı-ayrı ailələrin həyatının nizama salınmasına deyil, bütün cəmiyyətdə ailə-nikah münasibətlərinin vəziyyəti və inkişafının asılı olduğu faktorların öyrənilməsinə, həmçinin müəyyən sosial proseslərin stimullaşdırılması üçün praktik yolların işlənib hazırlanmasına yönəlmişdir. Bu, cəmiyyətdə qadın və kişi arasındakı bərabərliyə nail olmaq, iqtisadi və siyasi vəziyyətin yaxşılaşdırılması, məişət, istirahət formalarının təkmilləşdirilməsi, ailə-nikah münasibətlərini tənzimləyən qanunvericilik ilə bağlı ola bilər.

# MÖVZU 8
# MƏDƏNİYYƏTİN SOSİOLOGİYASI

1. **Mədəniyyətin sistem kimi sosioloji anlamı və onun əsas funksiyaları**
2. **Kütləvi mədəniyyət və şou-biznes istehlak cəmiyyətinin məhsulları kimi**

## 1.Mədəniyyətin sistem kimi sosioloji anlamı və onun əsas funksiyaları

Nəzərə almaq lazımdır ki, "mədəniyyət" anlayışı (latınca *cultura* – becərmə, tərbiyə, təhsil) insan biliyinin ən müxtəlif mənalarda istifadə edilən çoxölçülü anlayışlarından biridir. Əvvəlcə bu anlayış öz mənşəyini latınca *colere*-dən (becərmək, torpağı becərmək, əkinçiliklə məşğul olmaq) götürən ilkin mənasına tamamilə uyğun şərh edilirdi. Sonralar o, ümumiləşdirilmiş mənanı aldı və insan tərəfindən yaradılmış hər şey bütün mədəniyyət adlandırılmağa başlandı. Belə yanaşmada mədəniyyət insan tərəfindən birincinin üzərində yaradılmış "ikinci təbiət", insan tərəfindən yaradılmış dünya bütün kimi şərh olunur. Mədəniyyət maddi və mənəvi istehsalın nəticələrini özünə daxil edir.

İndiki mənada "mədəniyyət" sözü Avropada yalnız XVII əsrdən, yəni Maarifçilik dövründən etibarən işlədilməyə başladı və "bütün əsas təzahürlərində sosial həyatın təkrar istehsalı və dəyişikliklərinin şərti kimi çıxış edən insan fəaliyyəti, davranışı və ünsiyyətinin tarixən inkişaf edən fövqəlbioloji proqramlar sistemi" kimi şərh olunur.

Bilik və bacarıqlar, norma və ideallar, fəaliyyət və davranış nümunələri, ideya və hipotezlər, sosial hədəflər və dəyərlər, dini inaNclar və s. formasında təmsil edilən bu pro-

qramlar tarixən yığılıb toplanan sosial təcrübəni yaradırlar. Bu təcrübə mədəniyyət vasitəsilə yalnız nəinki qorunub saxlanılır, həm də nəsildən nəslə translyasiya edilir (ötürülür).

Bütün bu proqramlar cəmiyyətin həyatında təxminən hüceyrə və orqanizmdə irsi informasiyanın (DNT, RNT) oynadığı rolu oynayır. Bu proqramların sayəsində sosial həyat formalarının müxtəlifliyini və cəmiyyətin müəyyən tipi üçün səciyyəvi olan fəaliyyət növlərinin, ona məxsus predmet mühitinin (ikinci təbiətin), onun sosial əlaqələrinin və şəxsiyyət tiplərinin, bir sözlə, tarixi inkişafın bu və ya digər mərhələsində sosial həyatın real toxumasını təşkil edən hər şeyin təkrar istehsalı təmin olunur.

Bu mənada mədəniyyət cəmiyyətin "becərilmiş" yaşayış mühiti, "becərilmiş" şəxsiyyətlər və "nizama salınmış" insan kollektivləri dünyası kimi göz önünə gəlir. Onlara münasibətdə mədəniyyət onların kollektiv mövcudluğunun və qarşılıqlı təsirlərinin "oyun qaydaları" toplusu (uyğunlaşdırılmış prosedurlar və sosial cəhətdən münasib olan üsul və texnologiyalar sistemi) kimi, insan fəaliyyətinin müxtəlif formalarında reallaşan qrup və fərdi maraq və tələbatların (həm maddi, həm də idraki, rəmzi, qiymətləndirmə və s.) təmin olunması, həmçinin onların hamı üçün ortaq olan dəyər və inkişaf məqsədləri ətrafında cəmləşdirilməsi mexanizmi kimi çıxış edir.

Eyni zamanda insanın bioloji xassələrindən və tələbatlarından fərqli olaraq, mədəniyyət normaları genetik olaraq irsən keçməyib yalnız öyrətmə metodu ilə mənimsənilir. Buna görə də cəmiyyətdə mədəniyyətin səviyyəsi haqqında məsələ son nəticədə bu cür "öyrətmənin" səmərəliliyi (yəni şəxsiyyətin sosiallaşması və inkulturasiyası mexanizmləri) probleminə gedib çıxır.

Mədəniyyətin əsas parametrlərini xarakterizə edərkən, onu da nəzərə almaq lazımdır ki, bəşəriyyət, vahid bioloji növ

olmaqla heç vaxt vahid kollektiv, sosial qrup olmamışdır. Müxtəlif insan populyasiyaları Yer üzündə gözəçarpan dərəcədə fərqlənən təbii və tarixi şəraitdə muxtar birliklər kimi yaşayırlar. Bu şəraitə uyğunlaşmaq zərurəti insanların birgə həyat fəaliyyətinin müxtəlif spesifik üsul və formalarının təşəkkül tapmasına, tədricən belə formaların bir birliyi (xalqı) digər birlikdən (xalqdan), bir milli mədəniyyəti digər milli mədəniyyətdən fərqləndirən bütöv mədəni sistemli kompleks-lərinin formalaşmasına gətirib çıxardı.

Olduqca mürəkkəb sistem olan mədəniyyət cəmiyyət üçün bir sıra həyat əhəmiyyətli sosial funksiyaları yerinə yetirir.

***İdraki*** funksiya - ondan ibarətdir ki, mədəniyyətin bir çox nailiyyətləri bizi əhatə edən dünyanın gələcəkdə dərkinin və praktikada bu bilikdən istifadənin yeni üsulları kimi çıxış edir (təbiətin kortəbii qüvvələrinin cilovlanması, sosial münasibətlərin optimallaşdırılması və s.). Bu cəhətdən mədə-niyyətin imkanları onun ictimai şüurun bütün formalarının sintezini həyata keçirməsindən, bununla insanın sərəncamına bütöv şəkildə dərk edilmiş və mənimsənilmiş dünya mən-zərəsini nə dərəcədə təqdim edə bilməsindən asılıdır.

Eyni zamanda əks-əlaqə qaydasında mədəniyyətin özü, onun səviyyəsi və vəziyyəti insanın təbiəti və özünü "insanlaşdırmasında" qazandığı uğurları haqqında doğru mühakimə yürütməyə imkan verən indikator kimi xidmət göstərir.

***Təhsil-tərbiyə*** funksiyası- fərd insan, cəmiyyətin üzvü, şəxsiyyət kimi sosiallaşdıqca, yəni bilikləri, dili, simvolları, dəyərləri, normaları, öz sosial qrupunun və bütövlükdə bəşə-riyyətin adət və ənənələrini mənimsədikcə formalaşır. Şəxsiy-yətin mədəniyyət səviyyəsi onun sosiallaşma dərəcəsi ilə yəni mədəni irsi mənimsəməsi, habelə fərdi qabiliyyətlərinin inkişaf dərəcəsi, təyin edilir. Şəxsiyyətin mədəniyyəti adətən müxtəlif yaradıcılıq qabiliyyətləri, erudisiyası, sənət əsərləri haqqında

məlumatlılığı, ana dili və xarici dillərdə sərbəst danışması, səliqəlilik, nəzakətlilik, özünənəzarət, yüksək mənəviliklə və s. ölçülür. Bütün bunlar təhsil və tərbiyə prosesində əldə olunur.

İnformasiya funksiyası sosial təcrübənin toplanması və ötürülməsi ilə bağlıdır. Söhbət informasiyanın bir nəsildən o biri nəslə, bir ölkə daxilində bir nəslin ömür hüdudlarında, bir xalqdan başqa xalqa ötürülməsindən gedir. Mədəniyyətdən başqa, cəmiyyətin "sosial irsi" ötürmək üçün başqa mexanizmi yoxdur.

Mədəniyyətin özü isə bu funksiyanın reallaşdırılması üçün mürəkkəb və sosial təcrübədə kəmiyyət və keyfiyyət dəyişiklikləri baş verdikcə daha da mürəkkəbləşən işarə sistemini təşkil etməlidir. Belə işarələrə söz və anlayışlar, riyazi simvollar, elmin düsturları, musiqi və rəsm dili, istehsal alətləri və istehlak predmetləri aiddir. Özünün informasiya funksiyasında mədəniyyət bəşəriyyətin "yaddaş"ı kimi çıxış edir.

***Kommunikasiya*** funksiyası insanlara bir-biri ilə ünsiyyətə daxil olmağa imkan verir. Kommunikasiya və informasiya funksiyaları genetik olaraq bir-biri ilə bağlıdırlar: biz yalnız mədəniyyət bizim sərəncamımıza verdiyi işarə sistemləri sayəsində, hər şeydən əvvəl, təbii və süni dillər sayəsində öz aralarında ünsiyyətə daxil ola bilərlər. Kütləvi kommunikasiyaların qurulması və dəstəklənməsi üçün cəmiyyətin texniki mədəniyyəti böyük əhəmiyyətə malikdir.Texniki rabitə vasitələri sayəsində dolayı ünsiyyət getdikcə böyük əhəmiyyət əldə edir. Peyk rabitəsinin tətbiqi isə onu, sözün əsl mənasında, planetmiqyaslı edir.

Normativ və tənzimləyici funksiya ayrı-ayrı fərdlərin və bütöv sosial qrupların davranışı ilə bağlıdır. Sosiallaşma prosesinin gedişində dəyərlər, ideallar, norma və davranış nümunələri şəxsiyyətin özünüdərkinin bir hissəsinə çevrilir. Onlar

onun davranışını formalaşdırır və tənzimləyirlər. Demək olar ki, mədəniyyət bütovlükdə insanın hərəkət edə bildiyi və hərəkət etməli olduğu çərçivələri müəyyən edir. Mədəniyyət insanın ailədə, məktəbdə, istehsalatda, məişətdə və s. yerlərdə davranışını tənzimləyir. Eyni zamanda mədəniyyətin tələbləri ilə insanların fərdi xüsusiyyətləri, meyilləri, tələbatları arasında kifayət qədər əhəmiyyətli ziddiyyətlər yaranır.

Təsadüfi deyil ki, Z.Freyd mədəniyyətin "senzurası" ilə həyata keçirilən pressinqdə nevroz xəstəliklərinin əsas səbəbini görürdü. Mədəniyyətin tərkibində göstəriş və qadağalar sistemi var. Onların pozulması cəmiyyət tərəfindən təyin edilmiş və ictimai rəy gücünə və müxtəlif məcburetmə formaları ilə dəstəklənən müəyyən sanksiyaları hərəkətə gətirir.

***Mədəniyyətin inteqrasiya və dezinteqrasiya*** funksiyaları. Bu funksiyalara öz tədqiqatlarında xüsusi diqqət yetirən E.Durkheymin nəzəriyyəsinə əsasən, mədəniyyətin mənimsənilməsi insanlarda, yəni bu və ya digər cəmiyyətin üzvlərində bir millətə, xalqa, dinə, qrupa və s. mənsubluq hissini yaradır. Beləliklə də, mədəniyyət insanları birləşdirir, inteqrasiya edir, cəmiyyətin bütövlüyünü təmin edir. Amma bəzilərini hər hansı dəyər və normalar (dil, milli mənsubiyyət, dini inanc, bütlərə sitayiş və s.) əsasında birləşdirərək, o, onları başqalarına qarşı qoyur, daha geniş birlikləri ayırır. Bu daha geniş birliklər daxilində mədəni münaqişələr meydana gələ bilər. Beləliklə, mədəniyyət bəzən dezinteqrasiya funksiyasını da yerinə yetirir.

Tarixin sərt adlandırılan dönəmlərində mədəniyyətin oynadığı roldan ayrıca demək lazımdır. Cəmiyyət üçün qeyri-ənənəvi sosial və siyasi həyat forması doğurmağa, yeni və perspektivli siyasi quruluş elementlərini sintezləşdirməyə qadir olan mədəniyyət eyni zamanda köhnənin təkrar istehsalı və konservasiyasının əsas amili rolunda da çıxış edə bilir. İnqilab

və ya hərbi çevriliş hakim rejimin xarakterini dəyişsə də belə, bəzən insanların yan qaçmağa çalışdıqları bir şey dəyişdirilmiş şəkildə də olsa, reanimasiya oluna bilir. Lakin bu dəyişkənlik əksər hallarda yalnız formaya toxunur, halbuki məzmun isə əvvəlki kimi (ənənəvi) qalır.

Sosiologiyanı mədəniyyətdə maraqlandıran bəşəriyyətin bütün maddi və mənəvi nailiyyətləri deyil, yalnız insanların bir-biri və bizi əhatə edən dünya ilə ünsiyyət üsullarını xarakterizə edən və bir çox element və atributun inteqral bütövlüyünü təşkil edən nailiyyətləridir. Onların arasında ən mühümü dildir.

Dil insan təcrübəsinin akkumulyasiyası, saxlanması və ötürülməsinin obyektiv formasıdır. Onu mənaları şərti olan, amma müəyyən struktura malik olan səs və simvolların köməyi ilə həyata keçirilən kommunikasiyalar sistemi kimi xarakterizə etmək olar.

Dil bu mənada sosial hadisədir ki, o, mədəniyyətin ötürülməsinin hamı üçün əlçatan olan əsas vasitəsi kimi çıxış edir. Onun digər əhəmiyyətli sosial xüsusiyyəti ondadır ki, əgər ana dilinin əsas söz ehtiyatı, nitq qaydaları 8-10 yaşda mənimsənilmişdirsə, onda bu dildə danışmağı unutmaq praktiki olaraq mümkün deyil, hərçənd insanın təcrübəsinin bir çox başqa aspektləri tamamilə unudulmuş ola bilir.

Mədəniyyətin mühüm elementlərindən biri də dəyər-normativ sistemdir. Dəyərlər mücərrəd ideallardır. Onlar sosial subyektin öz tələbatlarını dərk etməsi və onları onu əhatə edən dünyanın predmetləri ilə əlaqələndirilməsi nəticəsində formalaşdırırlar. Sosial subyektin dəyərlər sisteminə xeyir və şər, xoşbəxtlik, həyatın məqsədi və mənası haqqında təsəvvürlər daxil ola bilər. Bu, həyatın özü, sağlamlıq, şəxsi təhlükəsizlik, rifah, ailə, təhsil, ixtisas dərəcəsi, hüquq və nizam və s. haqqında təsəvvürlərdir. Dəyərlər sosial gerçəklikdə insanı yönəldir və onun fəaliyyətini həvəsləndirir.

İnsanın dünyaya dəyərlər əsasında münasibəti sosial norma şəklində müstəqil mövcudluq edir. Sosial normalar fərdlərin fəaliyyət və münasibətlərinə verilən və tarixən ictimai varlıqla şərtlənən tələblərdir. Söhbət insanların gözlənildiyi kimi, yerinə yetirəcəkləri müəyyən prinsip və ya davranış qaydalarından gedir. Dəyərlərdən fərqli olaraq, sosial normalarda əmr məqamı, müəyyən tərzdə hərəkət etmək tələbi daha çoxdur. Sosial normaların fəaliyyət və ictimai münasibətlərə təsirinin əhəmiyyətli xüsusiyyətlərindən biri ondan ibarətdir ki, onların icrası və göstərişlər ictimaidən (əxlaqidən) başlayaraq dövlət (hüquq normaları) məcburetməsinə qədər müxtəlif məcburetmə formaları ilə təmin olunur.

İctimai münasibətləri formalaşdıran mədəniyyət elementlərinə mərasimlər, adətlər, ənənələr şəklində davranış nümunələri aiddir.

Mərasim özündə müəyyən kollektiv hisslərə səbəb olan bu və ya digər sosial ideyaları, təsəvvürləri, norma və dəyərləri təcəssüm edən simvolik, stereotip kollektiv hərəkətlərinin məcmusudur. Mərasimdə təkcə bu və ya digər normaların, dəyərlərin və ideallarını rasional mənimsənilməsi baş vermir. Kollektiv hərəkətin iştirakçıları tərəfindən onlar həm də birgə yaşanır.

Adət – insanların fəaliyyət və münasibətlərinin keçmişdən götürülmüş sosial tənzimləmə formasıdır. Adət keçmişdən gəlmiş təlimatlara, göstərişlərə əməl etməkdən ibarətdir. Adət rolunda bayramlar, istehsalat vərdişləri və s. kimi müxtəlif mərasimlər çıxış edə bilər. Adət yazılmamış davranış qaydalarıdır.

Ənənələr – tarixən yaranmış və nəsildən-nəslə ötürülən ideyalar, baxışlar, zövqlər, adətlər, nizamlar, davranış qaydalarıdır. Ənənələr bütün sosial sistemlərdə mövcud olur və onların həyat fəaliyyətinin mühüm şərtidir. Ənənələrə etinasızlıq cəmiyyət və mədəniyyətin inkişafında ardıcıllığın pozulmasına

gətirib çıxarır, amma onlara kor-koranə sitayiş etmə ictimai həyatda konservatizm və durğunluğa səbəb olur. Sosial mədəniyyətin bu elementləri sayəsində cəmiyyət cəmiyyət kimi qalır və inkişaf edir.

Hər bir konkret cəmiyyət (sivilizasiya, dövlət, xəlqilik və s.) əsrlərlə özünün həyatı boyunca fərdi müşayiət edən və nəsildən-nəslə ötürülən nəhəng supermədəniyyətini yaradır. Baza dəyərləri və normaları əhalinin əksəriyyəti tərəfindən bölüşdürülən bu ümumi (və ya hakim) mədəniyyətlə yanaşı, onda həmişə müxtəlif sosial qatlar və qruplar (iqtisadi, peşə, demoqrafik, etnik, dini və b.) arasında sosial maraq və dəyərlərin, ideya-siyasi baxışların və inancların, əxlaqlı-etik normaların və ənənələrin heterogenliyi (müxtəlif cinslilik) ilə xarakterizə edilən özəl mədəniyyətlər də mövcud olur.

Mədəniyyətin həm regional, həm də milli səviyyədə bu müxtəlif cinsliliyini ifadə etmək üçün elmi dövriyyəyə çoxdanır ki, "submədəniyyət" anlayışı daxil edilmişdir. Bu anlayış yalnız ümumi mədəniyyətlə özəl mədəniyyət arasında fərqlər (məsələn, kənd sakinlərinin mədəniyyəti ilə şəhər sakinlərinin mədəniyyəti arasında, gənclər mədəniyyəti ilə yaşlı nəsillərin mədəniyyəti arasında, elitar mədəniyyətlə kütləvi mədəniyyət arasında) prinsipial xarakter daşımadıqda və “özəl” mədəniyyət ümumi mədəniyyətlə az-çox genetik (mental) qohumluq əlaqəsində olduqda, işlədilir.

Bu fərqlər prinsipial olduqda və "özəl" mədəniyyətlər ümumi mədəniyyətdən əhəmiyyətli şəkildə fərqləndikdə və onun çərçivələrində hadisələrin təşəkkül tapmış nizamı dəyişdirməyə yönəldikdə, söhbət "kontrmədəniyyət" anlayışından, yəni dəyərləri ən müxtəlif sosial gərginliklərə və münaqişələrə səbəbi ola bilən mədəniyyətdən gedir.

Deyilənlər tam olaraq mədəniyyəti yuxarıda qeyd edilmiş seqmentlərə intensiv olaraq dağılan Azərbaycana da aiddir. Bu,

ölkənin yeni sivilizasiya tipinə keçidi və milyonlarla azərbaycanlıların da yeni dəyərlərin, yeni psixoloji əhval-ruhiyyənin və dünyagörüşünün formalaşması ilə bağlıdır. Digər tərəfdən, bu, "dəmir pərdə" götürülməsi və geniş kütlələrin dünyanın mədəni dəyərləri ilə tanış olmaq, habelə qloballaşma çərçivəsində gözəçarpan dərəcədə fəallaşmış milli mədəniyyətlərin beynəlmiləlləşməsi və qarşılıqlı zənginləşməsi proseslərində iştirak etmək imkanı ilə bağlıdır.

Bizim ölkəmizdə yalnız ona məxsus olan adət, dəyərlər, həyatın üslubu, dünyagörüşü stereotipləri və mifləri ilə, öz jarqon dili, dəb, musiqi, əxlaqi iqlimi ilə birgə gənclər submədəniyyəti ayrıca inkişaf edir. Bu, bir tərəfdən, gənclərdə həyat enerjisinin artıqlığı, təxəyyülün zənginliyi, digər tərəfdən isə bir çox cavanlarda iqtisadi və sosial müstəqilliyin yoxlugu ilə izah olunur.

Bu, submədəniyyətin heç də bütün növləri deyil, azəri ruhu və azəri varlığının məhsulu deyil. Bir çox şeylər Qərbdən alınmış, onun gənclər submədəniyyətlərindən götürülmüşdür, hərçənd onları azərbaycanlaşdırmaq, yerli sosial təcrübə və milli ənənələr süzgəcindən keçirmək cəhdləri də gözə çarpır.

Öz dəyərləri və normalarına görə ümumi mədəniyyətin əsas aspektlərinə zidd olan submədəniyyət elementləri də rast gəlinir. Amma onları yalnız şərti olaraq kontrmədəniyyətlər kimi nəzərdən keçirmək olar (bu və ya digər “kontrmədəni” element istənilən submədəniyyətdə mövcuddur).

Submədəniyyətlərin yaranması mənəvi həyat və davranışın ayırılmasına, ya peşə tipinə, ya xüsusi sosial şəraitə ya da inkişafın yeni tələblərinə daha adekvat cavab verən davranış və fəaliyyət formalarının işlənməsinə olan ictimai tələbatı ifadə edə bilər.

"Ümumi mədəniyyət", "submədəniyyət" və "kontrmədəniyyət" anlayışları ilə yanaşı, "milli mədəniyyət" termini də

geniş yayılmışdır. Bu termin bu və ya digər ölkədə, dövlətdə insan cəmiyyətini xarakterizə edən simvolların, inancların, dəyərlərin, norma və davranış nümunələrinin təyini üçün tətbiq edilir. Yer üzündəki ölkələrin əksəriyyətində bir neçə müxtəlif milli mədəniyyət var. Bir qayda olaraq, bu ölkələrdə əhalinin əksəriyyətinin submədəniyyəti ilə milli azlıqların submədəniyyətlərini bir-birindən fərqləndirmək mümkündür.

Çox vaxt mədəni azlıqlar öz orijinallığını, öz dəyərlərini qoruyub saxlamaq və əhalinin əksəriyyətinin bütün qalan mədəniyyətlərə təsir edib onları boğan mədəniyyətin üstünlük təşkil etdiyi mühitdə sağ qalmaq üçün xüsusi səylər göstərirlər.

Ölkələr və xalqlar arasında fərqlərlə bağlı mədəni ənənələrin müxtəlifliklərinə baxmayaraq, onlarda bəzi ümumi cəhətlər də olur. Bütün və ya demək olar ki, bütün cəmiyyətlərə məxsus olanlara mədəni universalilər deyilir. Mürəkkəb qrammatikası olan dilin olmadığı mədəniyyətlər yoxdur. Bütün mədəniyyətlərdə nikah institutu, uşaqlara qayğı ilə bağlı olan dəyər və normalar mövcuddur.

Dini mərasimlər və mülkiyyət hüquqları, sənətlər, rəqslər, bəzəklər, oyunlar, hədiyyə etmək adətləri, zarafatlar, gigiyena qaydaları və s. universalilərdir. Amma yenə də göründüyü kimi çox deyil, çünki hər bir kateqoriyada bir çox variant var.

Mədəni universaliyalar niyə mövcuddur?

Bəzi antropoloqlar hesab edirlər ki, onlar bioloji və ya baza amilləri əsasında formalaşırlar. Bütün mədəniyyətlər müəyyən bioloji, sosial və psixoloji tələbatların təmin olunmasına imkan yaratmalıdırlar, amma bir halda ki, onlar insanlarda oxşardır, buradan da mədəni universalilər yaranır.

Sosioloqlar isə hesab edirlər ki, bioloji, psixi və ya sosial baza tələbatlarının təmin olunmasına onlara heç bir aidiyyəti olmayan mədəni dəyərlər və normalar təsir göstərir. Belə ki, məsələn, dəvətli nahar yalnız aclığın təmin olunması deyil, həm

də ambisiyaların təmin olunması, firavanlığın nümayişi, dostlarla görüş və s.-dir.

Hər bir mədəniyyətdə başqa mədəniyyətlərin nümayəndələrinə qəribə görünən özünəməxsus unikal davranış modelləri qəbul edilmişdir. Çox vaxt insanlar başqa mədəniyyətləri öz şəxsi prizması vasitəsilə qiymətləndirməyə meyilli olur. Amma demək olar ki, istənilən adət edilmiş hərəkət kontekstdən qoparılsa və bu, xalqın spesifik həyat tərzinin elementi kimi nəzərdən keçirilməsə, qəribə görünəcək. Etnosentrizm insanın başqa mədəniyyəti öz şəxsi prizması vasitəsilə qiymətləndirməsidir. Bu, çox geniş yayılmış bir hadisədir. Etnosentrizmin parlaq təzahürü kimi müstəmləkələr dövründə fəth edilmiş xalqlara öz inanclarını, öz dinini yaymaq cəhdlərindən tutmuş "amerikan həyat tərzi"ni bütün dünya birliyinə yeritmək cəhdlərinədək istənilən missioner fəaliyyəti göstərmək olar.

Hərəkətləri və inancları anlamaq yalnız hissəsi olduqları mədəni tam çərçivəsində anlamaq olar. Hər bir mədəniyyəti onun öz məna və dəyərlərinə əsaslanaraq öyrənmək lazımdır. Etnosentrizmə qarşı duran belə nöqteyi-nəzər istənilən mədəniyyətin mütləq orijinallığını bəyan edən mədəni relyativizm adlanır. Bu fikrə görə, istənilən mədəniyyəti yalnız öz kontekstində və yalnız bütöv götürüldükdə, dərk etmək mümkündür.

“Heç bir dəyəri, heç bir adəti bütövdən qoparmaqla dərk etmək mümkün deyil” kimi gəldiyimiz nəticə, şübhəsiz, doğru nəticədir. Ancaq bu mədəniyyəti başqaları ilə əlaqələndirmədən, mədəni prosesə ümumbəşəri prosesi kimi, dünya sivilizasiyasının inkişafı kimi bütovlükdə baxmadan, mədəniyyətin yalnız orijinallığını nəzərə çarpdırmaq cəhdi düzgün deyil.

## 2.Kütləvi mədəniyyət və şou-biznes istehlak cəmiyyətinin məhsulları kimi

Mədəniyyətə tarixi retrospektiv baxış onun elmin və biliyin ötürülməsi texnologiyasının inkişafı ilə üzvi əlaqədə olduğunu müəyyən etməyə imkan verir. Bu sahələrdə baş vermiş keyfiyyət dəyişiklikləri mədəni dəyərlərin istehsalı və yayımlanması üçün həmişə yeni imkanlar açmışdır. Bu mənada aşağıdakılar böyük rol oynamışdır:

- bir çox mədəniyyət əsərlərini qoruyub saxlamağa və onlarla mübadilə etməyə imkan vermiş yazının meydana çıxması;
- mədəni məhsulun yayılması həcmini kəskin dərəcədə artırmış mətbəəçiliyin ixtirası;
- elmin və texnikanın müasir nailiyyətləri (kompyuter, mobil telefonlar, İnternet, rəqəmsal televiziya, video - və səsyazma, holoqrafiya, memarlıqda yeni materiallar və s.) mədəniyyətin yayılması proseslərinə, sözün əsl mənasında planetar transmilli xarakter verdi.

Elektron kütləvi informasiya vasitələri yaranmazdan əvvəl Avropa cəmiyyətlərinin əksəriyyətində, o cümlədən Azərbaycanda da mədəniyyətin iki əsas formaları formalaşmışdı: yüksək və xalq.

Yüksək mədəniyyət (incəsənət, klassik musiqi və ədəbiyyat) elita tərəfindən yaradılıb mənimsənilirdi. Xalq mədəniyyəti (nağıllar, folklor, mahnı və miflər) kasıblara məxsus idi.Bu mədəniyyətlərin hər birinin məhsulları müəyyən publika üçün idi və bu ənənə nadir hallarda pozulurdu.

Kütləvi informasiya vasitələrinin (radio, kütləvi çap nəşrləri, televiziya, maqnitofon və s.) meydana gəlməsi ilə yüksək mədəniyyətlə xalq mədəniyyəti arasında sərhəd yox olmağa başladı. Regional, dini və ya sinfi submədəniyyətlərlə

bağlı olmayan mədəniyyət meydana gəlməyə başladı. Mədəniyyət məhsulları standartlaşdırılıb geniş publika arasında yayıldıqda, o, kütləvi mədəniyyət əlamətlərini əldə edir, popsaya, yəni hamı üçün sənətə çevrilir.

Bu gün popsa dedikdə, vulqar ictimai zövqü oxşayan və insanın gündəlik tələbatlarının ödənilməsinə yönələn təkcə musiqi yox, ədəbiyyat, kino, teatr və başqa sənət növləri də başa düşülür.

Hamı üçün əlçatan və səthi olan bu mədəniyyət şəxsiyyətin yaradıcı özünürealizə imkanlarını kəskin dərəcədə azaldır, insanı öz üzərində işləmək, mənəvi və estetik olaraq inkişaf etmək zərurətindən azad edir.

Kütləvi mədəniyyətin geniş yayılmasının ən mühüm amillərindən (determinantlarından) biri elmi-texniki inqilab oldu. Kütləvi mədəniyyət ideyasının özü 1920-ci illərdə XX əsrdə sinfi mübarizənin yox olacağı və tarixi prosesdə başlıca rolu "kütlə"nin oynayacağını bəyan edən kütləvi cəmiyyət doktrinası çərçivəsində yarandı.

İlk dəfə kütlə (habelə kütlə psixologiyası və mədəniyyəti) fenomeninin ətraflı təhlilini verənlərdən biri X.Orteqa-i-Qasset olmuşdur. "Kütlələrin üsyanı adlı əsərində o yazırdı: "Kütlələri birdən-birə görmək mümkün olmuşdur. Onlar "cəmiyyət"in sevdiyi yerlərdə yerləşdilər. Onlar əvvələr də mövcud idi, lakin gözə çarpmırdılar, çünki sosial səhnənin arxa planında idilər. İndi onlar ön səhnəyə, rampanın özünə, qəhrəmanların olduğu yerə çıxdılar, qəhrəmanlar yox oldu, xor qaldı"[21] .

Amerika sosioloqu D.Bell kütləni sinif və ya nisbətən yekcins olan başqa insanlar qrupunun əksi olan diferensialaşmamış çoxluq kimi xarakterizə edir. Belə olduqda, kütlənin nə sosial təşkili, nə adətləri, nə də müəyyən olunmuş

19 http://thelib.ru/books/ortegaigasset_hose/vosstanie_mass-read.html.

rəhbəri olmur. Belə kütlələr təkcə muxtar deyil, həm də rahatdırlar. Kütlə adamı stereotip təfəkkürü, uyğunlaşa bilmə qabiliyyəti, mühakimələrinin qeyri-sərbəstliyi ilə səciyyələnən simasızlaşdırılmış subyekt kimi göz önünə gəlir. Bu, "sürüekzaltasiyası"na (şad, oyanıqlı durum), məsuliyyətsizliyə, intellektin və fərdiliyin (öz simasının) itirilməsinə gətirib çıxarır.

Fransa sosioloqu və kriminoloqu Qabriel Tardın **(1843–1904)** nəzəriyyəsi maraq doğurur. Onun fikirlərinə görə, cəmiyyət baş verənləri dərk etməyən kütləyə (topluya), az-çox dərk edən publikaya və ali mədəni dəyərlərə çıxışı olan elitaya ayrılır. Kütləvi cəmiyyət o cəmiyyətdir ki, burada insan sosial maşının tələbatlarına uyğunlaşdırılmış və onun simasız elementinə çevrilmiş olur.

Kütləvi mədəniyyətin mahiyyəti ondan ibarətdir ki, o istehlak məqsədləri üçün yaradılır. Onun əsas funksiyası əyləncə-kompensator fuksiyasıdır. Bu, daxili inkişaf mənbəyindən məhrum edilmiş və sosial sifariş əsasında işləyən mədəniyyətdir. O həcminə görə, yəni əhatə etdiyi auditoriyasına və zamana görə, yəni daim, günbəgün istehsal edildiyinə görə kütləvidir. Kütləvi mədəniyyətdə mədəniyyətin bir tərəfi, yəni adaptiv tərəfi hipertrofiya etmiş ifadə alır, özü də yüngülləşdirilmiş, səthi variantda. Nəticədə kütləvi mədəniyyət biznesin xüsusi bir növünə çevrilir. Eyni zamanda o, insan tərəfindən istehlak edilməkdən çox, insanı istehlak edir, onun üçün mədəniyyətin başqa qatlarını əvəz edir.

Eyni zamanda ayrıca götürülmüş şəxsiyyətin mədəniyyəti öz tamlığını itirməyə başlayır və mozaik olur. Sadə insanın "dünya mənzərəsi"nin yaradılmasında daha çox onun internetdə oxuduğu, kino və ya televiziyada gördüyü, yolda işə gələrkən vərəqlədiyi qəzetlərdən götürdüyü və ya həmkarları və qonşularının söhbətlərindən eşitdikləri rol oynamağa başlayır.

Qeyd etmək lazımdır ki, kütləvi mədəniyyət yekcins hadisə deyil. O, müxtəlif səviyyələrdə olmaqla daxili diferensiallaşmış struktura malikdir. Müasir mədəniyyətşünaslıqda bir qayda olaraq kütləvi mədəniyyətin aşağıdakı üç əsas səviyyəsi qeyd edilir:

- kiç-mədəniyyət (aşağı səviyyəli, hətta vulqar mədəniyyət);
- mid-mədəniyyət (orta səviyyəli mədəniyyət);
- art-mədəniyyət (tərkibində bəzən, hətta yüksək bədii məzmunun və estetik ifadənin olduğu mas-mədəniyyət).

Kütləvi mədəniyyətin ən çox təcəssüm etdiyi hadisə kiçmədəniyyətdir. O, kütləvi urbanizasiya dövründə şəhərə köçüb gəlmiş və adət etdiyi mühitindən məhrum olmuş kənd sakininin tələblərinə cavab olaraq meydana gəlmişdir. Kiçin vəzifəsi xoşbəxtlik illüziyasını yaratmaqdır.

Kiç sözünün özü alman felləri – *kitschen (*«xaltura etmək, bəsit əsərlər yaratmaq” və *verkitschen* (“ucuz satmaq, dəyər-dəyməzə satmaq”) sözlərindən əmələ gəlmişdir. Kiçin birinci təzahürləri yalnız tətbiqi sənətdə geniş yayılmışdısa, o, inkişaf etdikcə, kiç bütün sənət növlərində, o cümlədən kino və televiziyada da özünü büruzə verməyə başladı.

Mədəniyyatşünaslıq sahəsində mütəxəssislər qeyd edirlər ki, hər bir ölkədə kiçin spesifik milli cəhətlərini müəyyən etmək mümkündür - alman kiçinin şirin bayağılığı, fransız kiçinin açıq-saçıq ədəbsizliyi, italyan kiçinin ekstatik sentimentallığı, amerikan kiçinin yastı bəsitliyi.

Qeyd etmək lazımdır ki, kiç-mədəniyyətə məxsus olan əsərlər çox vaxt əsl əsərlər kimi görünür, lakin bu, belə deyil. Onlara aşağıdakılar xarakterik səciyyəvidir:

- problemin sadələşdirilmiş şəkildə verilməsi;
- həyatı darıxdırıcı və yeknəsəq keçən adi adamlara yönümlülük;

- stereotip surətlərə, ideyalara, süjetlərə dayaq.

Kiç yeknəsəqdir: o, suallar qaldırmır, onda yalnız cavablar, qabaqcadan hazırlanmış möhür vardır. O, insanı axtarışa təhrik etmir, onda mürəkkəb psixoloji diskomfort yaratmır. Bu, bir növ mədəniyyətin "fast-fududur", yəni tez bir zamanda çəkilmiş teleşou (tok-şou, realiti və s.), sonu olmayan seriallar, sabun operaları, qorxunc filmlər, bulvar ədəbiyyatıdır (detektivlər, qadın romanları, fantastika, trillerlər). Bütün bu "əsərlər"in məzmununa və məqsədlərinə görə əsl mədəniyyətə aidiyyəti yoxdur, çünki insanı maarifləndirmək yox, əyləndirmək məqsədini güdür, insanın ali yox, aşağı tələbatlarını ("çörək və tamaşa") ödəyir.

Kiçin geniş yayılması o deməkdir ki, pul mədəniyyət üzərində qələbə qazanmış, mədəniyyət kommersiyalaşmışdır, incəsənətə mənəvi qida kimi yox, əyləncə kimi baxılır. Sanki Makdonaldsda olduğu kimi, insanlar bu mədəniyyət "fast-fuduna" (zərərli qida) pul ödəyir, onun məhsullarını mənimsəyir, lakin tezliklə aşkar edirlər ki, bu, onları təmin etmir. Ürəklərə işıq saçmır, təkcə vaxt yox, mədəniyyət itirilmiş olur.

Etiraf etmək lazımdır ki, kütləvi mədəniyyət elementi olan kiç elementar dəyərlərdən uzaqlaşma, eyni zamanda incəsənətdə primitivləşmə tendensiyalarının ən aqressiv formalarından biridir. Lakin maraqlıdır ki, kiçin geniş yayılması sosioloqları belə bir fikrə gətirib çıxarmışdır ki, əhalinin maddi və mənəvi səviyyəsi araısnda əks-asılılıq müşahidə edilə bilər: həyat səviyyəsinin yüksəlməsi insanların mənəvi tələbatlarının azalması ilə müşayiət olunur ki, bu da Qərbin istehlak cəmiyyətlərində daha qabarıq şəkildə özünü büruzə verir.

Qeyd etmək lazımdır ki, kütləvi mədəniyyət monist olmayıb müxtəlif sosial qrupların spesifik xassələrini nəzərə almaqla modifikasiyaya uğrayır. Onun təsir üsulları da dəyişir: o, təkcə seçkili, texniki cəhətdən mükəmməl olmayıb, həm də

özünün əsas aləti kimi status istehlakı mexanizmindən də istifadə edir. Belə ki, bu və ya digər əşyaların alışı texniki göstəricilərindən, funksionallığından çox, nüfuzluluqdan irəli gəlir.

Ümumilikdə kütləvi mədəniyyət və şou-biznes azərbaycanlıların, xüsusən də gənc azərbaycanlıların dünyaduyumuna böyük təsir göstərir.

Onların tirajlaşdırdığı dəyərlər, stereotiplər və davranış modelləri hamılıqla qəbul edilmiş stereotip və davranış modelləri xarakterini alır, televiziya, kino və şou-biznes "ulduzlar"ı isə özünəməxsus əxlaqi və davranış "mayakı" na çevrilirlər. Amma əsas odur ki, insanların zəkaları uğrunda mübarizədə kütləvi mədəniyyət öz "gündəliyini" formalaşdırmaqla (pop-ulduzların boşanması ətrafında qalmaqal azərbaycanlıların əksəriyyəti tərəfindən ilin sosial sferada milli layihələrlə müqayisə edilə biləcək hadisəsi kimi qavranılır) siyasətdə ciddi rəqabət yaratmağa başlayır.

Beləliklə, kütləvi mədəniyyətin təqdim etdiyi normalar və dəyərlər, cəmiyyətin qəbul etdiyi mədəni əsaslardan fərqlənir.

# ƏDƏBİYYAT

## I. Azərbaycan dilində

1. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibəti ilə Azərbaycan xalqına müraciəti. Bakı: Bakı Universiteti nəşriyyatı, 2001, 134 s.
2. Aristotel. Ritorika (Tərcümə edənlər Q.Abbasova, B.Cəfərova). Bakı: Turan Nəşrlər evi, 2008, 264 s.
3. Əfəndiyev M. Sosiologiya. Bakı: Bakı Universiteti Nəşriyyatı, 2009, 520 s.
4. Əfəndiyev Məcid, Şirinov Azər. Sosiologiyanın nəzəri problemləri. Bakı: Bakı Universiteti Nəşriyyatı, 2001, 514 s.
5. Əliyev R.İ. Şəxsiyyət və onun formalaşmasının etno-psixoloji əsasları. Bakı: Nurlan, 2006, 196 s.
6. Əmrahlı L.Ş. Şəxsiyyət və cəmiyyət. Bakı: MBM, 2007, 200s.
7. Əzimov K.A., Həsənov R.M. Sosiologiya. Ali məktəblər üçün dərs vəsaiti. Bakı: Adiloğlu Nəşriyyatı, 2003, 314 s.
8. Fəlsəfə ensikolopedik lüğəti. Bakı: Azərbaycan ensiklopediyası Nəşriyat-Poliqrafiya Birliyi, 1997, 520 s.
9. Qərbi Avropada və ABŞ-da sosiologiya tarixi. Ali məktəblər üçün dərslik. Bakı: Turan Nəşrlər evi, 2010, 612 s.
10. Qolenkova Z.T., Akuliç M.M., Kuznetsov V.N. Ümumi sosiologiya. Dərs vəsaiti (Tərcümə edən prof. İ.Rüstəmov). Bakı: 2014, 495 s.
11. Quliyev R.M. Sosiologiya: nəzəriyyə və tədqiqat metodologiyası. Bakı: Siyasət Nəşriyyatı, 1995, 424 s.
12. Prezident İlham Əliyevin Qlobal Bakı Forumunun açılışında nitqi// «Azərbaycan» qəzeti, 17 mart, 2017-ci il.
13. Plotinski Yuri. Sosial proseslərin modelləri. Dərslik. (Tərcümə edən B.Y.Cəfərova). Bakı: «Azəri» nəşriyyatı, 2016, 172 s.

14. Sosiologiya. Dərslik. Bakı: İqtisad Universiteti Nəşriyyatı, 2006, 243 s.
15. Sosiologiya (Dərslik). Bakı: «MBM» mətbəəsi, 2008, 296 s.
16. Şirinov A. Qərb sosiologiyası. Bakı: Elm Nəşriyyatı, 2009, 244 s.
17. Tatarova Q.Q. Sosiologiyada məlumatların təhlili metodologiyası (Giriş). Ali məktəblər üçün dərslik (Tərcümə edən B.Cəfərova). Bakı: Turan Nəşrlər evi, 2010, 324 s.

**II. Türk dilində**

18. Nurettin Şazi Köşemihal. Sosyoloji tarihi. 7. Basım. Istanbul: Remzi Kitabevi, 2002, 337 s.

**III. Rus dilində**

19. Большой толковый социологический словарь. Том 1. М.: Издательство «Вече», 2001, 544 с.
20. Большой толковый социологический словарь. Том 2. М.: Издательство «Вече», 2001, 528 с.
21. Волков О.Г., Добреньков В.И., Нечипуренко В.Н., Попов А.В. Социология: учебник/ Под. ред. проф. О.Г.Волкова. 3-е изд. М.: Гардарики, 2005, 512 с.
22. Волков О.Г., Гулиев М.А. Нечипуренко В.Н., Самыгин С.И. Социология: история и современность. Изд. 2-е, Ростов н/Д: Феникс, 2007, 668 с.
23. Гасанов Р.М. Формирование гражданского общества в условиях трансформации. Баку: «Китаб алями» няшрииййаты, 2003, 272 с.
24. Добреньков В.И., Кравченко А.И. Методы социологического исследования: Учебник. М.: ИНФРА. М., 2014, 768 с.
25. Капитонов Э.А. Социология XX века. Ростов-на-Дону: Издательство «Феникс», 1996, 512 с.
26. Кравченко А.И. Социология: Учебник для вузов. М.: Издательская корпорация «Логос», Екатеринбург: Деловая книга, 2000, 382 с.

27. Общая социология: Учебное пособие / Под общ. ред. проф. А.Г.Эфендиева. М.: ИНФРА-М., 2002, 654 с.
28. Российская социологическая энциклопедия. М.: Издательская группа НОРМА-ИНФРА. М., 1998, 666 с.
29. Рысь О.И., Степанов В.Е. Социология: Учебник. 2-е изд. М.: Издателсько-торговая корпорация «Дашков и К°», 2005, 518 с.
30. Современная западная социология. Словарь. М.: Политиздат, 1990, 432 с.
31. Социология на пороге XX века: Основные направления исследований / Под ред. С.И.Григорьева (Россия), Ж.Коэнен-Хуттера (Швейцария). 3-е изд., доп.и перераб. М.: РУСАКИ, 1999,360 с.
32. Социология. М.: Издательство «Мысль», 1990, 448 с.
33. Социология. Основы общей теории: Учебник для вузов /Отв.ред.акад. Г.В.Осипов, Л.Н.Москвичев. М.: Издательство НОРМА, 2002, 912 с.
34. Тощенко Ж.Т. Социология: Общий курс. 2-е изд., доп.и перераб. М.: Орайт-М., 2001, 527 с.
35. Фролов С.С. Социология: Учебник. 3-е изд., доп. М.: Гардарики, 2000, 344 с.
36. Ядов В.А. Социологическое исследование: методология, программа, методы. Издание второе, перераб. и дополь. М.: Наука, 1987, 248 с.
37. Ядов В.А. Стратегия социологического исследования. Описание, объяснение, понимание социальной реальности. Учебное пособие. 3-е изд., испр. М.: Отега-Л., 2007, 568 с.

## M Ü N D Ə R İ C A T

| | | | |
|---|---|---|---|
| **GİRİŞ** | ............................................................... | | ***3*** |
| **MÖVZU** | **1.** | **SOSİOLOGİYA SOSİAL-HUMANİTAR BİLİK SİSTEMİNDƏ NƏZƏRİ-TƏTBİQİ ELM KİMİ.......** | ***7*** |
| | 1. | Sosiologiyanın predmet sahəsi............. | ***7*** |
| | 2. | Sosiologiya elminin quruluşu, funksiyaları və üsulları......................... | ***16*** |
| **MÖVZU** | **2.** | **SOSİOLOGİYANIN BİR ELM OLARAQ FORMALAŞMASI VƏ TARİXİ TƏKAMÜLÜ......................** | ***24*** |
| | 1. | Sosiologiyanın təşəkkülü çox mühüm mənəvi-intellektual hadisə kimi........... | ***24*** |
| | 2 | Antik və Yeni dövrlərdə sosial biliklər: yaranma təşəbbüsləri ........................... | ***27*** |
| | 3. | Sosiologiyanın elm olaraq institutlaşması....................................... | ***31*** |
| | 4. | Qərb sosiologiyasının əsas istiqamətləri ......................................... | ***54*** |
| **MÖVZU** | **3.** | **CƏMİYYƏT DİNAMIK SOSİAL SİSTEM KİMİ..................................** | ***69*** |
| | 1. | Sosiologiyada cəmiyyət anlayışı.......... | ***69*** |
| | 2. | Vətəndaş cəmiyyəti konsepsiyası…...... | ***79*** |
| | 3. | Postindustrial cəmiyyət anlayışının ideya vəziyyəti...................................... | ***82*** |
| | 4. | “Risk cəmiyyəti” anlayışı..................... | ***85*** |

| | | | |
|---|---|---|---|
| | 5. | Cəmiyyət və qloballaşma...................... | ***87*** |
| **MÖVZU** | **4.** | **SOSİOLOJİ TƏDQİQATLARIN METODİKA VƏ TEXNOLOGİ-YASI...................................................** | ***90*** |
| | 1. | Sosial tədqiqatın növləri, əsas mərhələləri və proqramı....................... | ***91*** |
| | 2. | Sosial informasiyanın toplanması, təsnifatı və işlənməsi üsulları............... | ***99*** |
| **MÖVZU** | **5.** | **CƏMİYYƏTİN SOSİAL STRUKTURU...................................** | ***104*** |
| | 1. | Cəmiyyətin sosial-sinfi diferensiasi-yasının təhlilində iki yanaşma.............. | ***105*** |
| | 2. | Sosial mobillik və marginallıq stratifi-kasiya dinamikasının göstəriciləri kimi………………………………… | ***111*** |
| **MÖVZU** | **6.** | **ŞƏXSİYYƏT VƏ CƏMİYYƏT: SOSİALLAŞMA PROBLEMLƏRİ....** | ***122*** |
| | 1. | İnsan-fərd-şəxs sosiologiya elminin anlayışları kimi.................................. | ***122*** |
| | 2. | Fərdin sosiallaşması onun ətraf mühitə çoxmərhələli uyğunlaşma prosesi kimi...................................................... | ***128*** |
| | 3. | Şəxsin cəmiyyətdəki davranışlarının sosial determinasiya mexanizmləri....... | ***132*** |
| **MÖVZU** | **7.** | **AİLƏ SOSİAL İNSTİTUTDUR .......** | ***139*** |
| | 1. | Ailə və nikah institutu, onların tarixi | |

| | | | |
|---|---|---|---|
| | | formaları və təsnifatı............................ | ***139*** |
| | 2. | Ailənin əsas funksiyaları və ənənəvi, müasir ailələrdə gender bölgüsü........... | ***147*** |
| | 3. | Ailə-nikah münasibətlərinin inkişafında rol dəyişmələri və tendensiyalar............. | ***151*** |
| **MÖVZU** | **8.** | **MƏDƏNİYYƏTİN SOSİOLOGİYASI.** | ***158*** |
| | 1. | Mədəniyyətin sistem kimi sosioloji anlamı və onun əsas funksiyaları.......... | ***158*** |
| | 2. | Kütləvi mədəniyyət və şou-biznes istehlak cəmiyyətinin məhsulları kimi.. | ***168*** |

**ƏDƏBİYYAT..............................................................** ***174***

| | |
|---|---|
| **Nəşriyyatın müdiri** | ***Kamil Hüseynov*** |
| **Baş redaktor** | ***İsmət Səfərov*** |
| **Redaktor** | ***İsabə Hüseynova*** |
| **Korrektor** | ***Südabə Manafova*** |
| **Kompyuter operatoru** | ***Təranə Baxşəliyeva*** |
| **Dizayner** | ***Vüqar İbrahimov*** |


**Mustafayeva H.T.**
**Sosiologiya**

-----------------------

*Dərs vəsaiti*

***Çapa imzalanıb 17. 09. 2018. Kağız formatı 60x84 1/16.***
***Həcmi 11,4 ç.v. Sifariş 191. Sayı 50.***

---------------------------------------------------------------------------

***" İqtisad Universiteti " Nəşriyyatı.***
***AZ 1001, Bakı, İstiqlaliyyət küçəsi, 6***